# İSLAM TARİXİ



Ayətullah Cəfər Sübhani

# İSLAM TARİXİ

Ayətullah Cəfər Sübhani

Tbilisi 2018

# İslam tarixi

**Müəllif:**

**Ayətullah Cəfər Sübhani**

**Tərcümə:**

**“Əlhuda” nəşriyyatı**

**Redaktoru:**

**Elvin Bayramov**

**Kompüter tərtibatçısı:**

**Elmar Məmmədov**

***Hörmətli oxucu!***

***XXII fəsildən ibarət kitabda Həzrət Məhəmməd (s) Peyğəmbərin dünyaya gəlişindən vəfatınadək mühüm tarixi məqamlar yer almışdır.***

***Bütöv Gürcüstan Müsəlmanları İdarəsi***

***İran İslam Respublikasının Gürcüstandakı Səfirliyinin Mədəniyyət Mərkəzi***

## ÖN SÖZ

Təbiət Allahın yaradılış kitabıdır. Onun haqqında hər nə qədər tədqiqat aparılsa, bir o qədər gizli sirləri aşkar olar və çoxlu həqiqətlər aydınlaşar. Vəhy və ilahi mənbələrə bağlı olan insanlar isə təbiətin ikinci üzüdürlər və onların haqqındakı ardıcıl mübahisələr və araşdırmalar yeni cəhətlərin aşkara çıxarılması ilə nəticələnir. İlahi insanlar nəhayətsiz xüsusiyyətə malik olduqlarından onların həyat tərzlərinin araşdırılması heç bir məhdudiyyətə gətirib çıxarmaz.

Dünyanın böyük və dahi alimləri tərəfindən islam tarixi və əzəmətli Peyğəmbərin həyatı haqqında çoxlu kitablar yazılmışdır. Tarix elmində də o həzrət haqqında kifayət qədər məlumat vardır. Bu əsərləri bir yerə toplasalar böyük bir kitabxana təşkil edər. Bu kitabları öz üslublarına görə iki hissəyə bölmək olar.

- Baş verən hadisələrin hekayə və ya nağıl formasında yazıçı tərəfindən çatdırılması. Bu zaman yazıçı hadisəyə münasibətini o qədər də açıqlamır. Bu üslubda hadisələr və macəralar sadəcə olaraq qeyd edilir.

- Hadisələrin sübut və əlamətlərlə təhlil olunması. Bu üslubda yazıçı tarixi öyüd-nəsihət verən müəllim kimi qiymətləndirir. Beləliklə, tarixi yaradanlar haqqında bir sıra fikir və rəylər irəli sürülür.

Əvvəlki dövrlərdə yazıçılar birinci üslubu seçir və beləliklə, tarixin əsaslarından kənara çıxmırdılar. Halbuki müasir yazıçılar ikinci üslubu seçərək. tarixi təhlil etməyə daha çox meyl göstərirlər. Burada onu da qeyd etmək lazımdır ki, yazıçı hadisələri bir-biriylə müqayisə edib, onların başlanğıcını və axırını nəzərə aldıqda və mükəmməl dəlillərə əsaslanıb, tarixi təhlil etdiyi təqdirdə faydalı ola bilər. Ancaq bir qrup şəxslər tarixi təhlil etmək bəhanəsi ilə öz şəxsi fikirlərini sənədsiz-sübutsuz irəli sürür və onları tarixin bir hissəsi kimi qiymətləndirirlər. Halbuki bu tamamilə yolverilməzdir. İslam həqiqətlərini, xüsusilə Peyğəmbərin həyatını araşdıran şərqşünasların çoxu da bu yolla getmiş və öz düşüncələrini heç bir sənəd-sübut olmadan tarixə daxil etmişlər.

Bundan əlavə, onlar şərqdəki elm mərkəzlərindən və zəngin kitabxanalardan uzaq olduqlarına görə heç vaxt bağışlanmayacaq bir sıra səhvlərə yol vermişlər. İslam tarixi üzrə mütəxəssis olanlar, heç şübhəsiz ki, onların belə qərəzli fikir və mülahizələrini sadə insanlara açıqlaya biləcəklər.

Avropa ölkələrində Şərq dünyası ilə bağlı məlumatların toplanılması və onların çatdırılması üçün müxtəlif elmi mərkəzlər və institutlar fəaliyyət göstərir. Buna görə də Qərbdə olduğu kimi, Şərqdə də bu cür mərkəzlərin açılmasına və onların fəaliyyət göstərməsinə böyük ehtiyac vardır. Bu mərkəzlər Avropadakı həmin mərkəzlərdə çalışan şərqşünasların əsl simasını açıb göstərməlidirlər. Çünki onlar daha çox insanlarda islama xələl gətirən fikirlərin formalaşmasına cəhd göstərirlər. Ona görə də müsəlman qardaşlarımız belə “şərqşünaslar”ın sözlərinə aldanmamalıdırlar. Başa düşməlidirlər ki, belələrinin yazdığı bütün əsərlərin mayasında qərəzkarlıq var və onlar öz əməllərindən heç bir vaxt çəkinməyəcəklər.

Bu kitabın hazırlanması zamanı hər iki üslubdan istifadə etmişik. Yəni bütün tarixi hadisələri olduğu kimi çatdırmaqla onları təhrif etməmiş və hər bir tarixi mənbəni təhlil etməkdən çəkinməmişik. Xatırladaq ki, bu kitabın ərsəyə gətirilməsində çoxlu kitab və mənbədən istifadə etmişik. Ancaq oxucunu yormamaq üçün mənbələrin bəzisinə işarə etmişik.

Kitabda islam Peyğəmbərinin həyatı barədə də qısaca məlumat verilmişdir. Axırda isə həzrətin vəfatından sonra baş verən bəzi hadisələrdən söz açılmışdır. Allah-Təaladan diləyimiz budur ki, islam tarixinin işlənib-hazırlanmasında bizə öz yardımını əsirgəməsin.

**Cəfər Sübhani,**

*Qum Elm Mərkəzi*

*15.03.1362*

## BİRİNCİ FƏSİL

### PEYĞƏMBƏRLİK DÖVRÜNDƏ ƏRƏBİSTAN YARIMADASININ MƏDƏNİ, İQTİSADİ, SİYASİ VƏ DİNİ VƏZİYYƏTİ

Ərəbistan yarımadası Asiyanın cənub-qərbində yerləşir. Bu yarımada cənubdan Ədən körfəzi, Babülməndəb boğazı, Hind okeanı və Yəmən dənizi ilə, qərb tərəfdən Qırmızı dəniz, şərq tərəfdən Oman dənizi və Fars körfəzi, şimaldan Aralıq dənizi, Fələstin, Ölü dəniz, Suriya və İraqla hüdudlanır.

Üç milyon kvadrat kilometrdən artıq sahəsi olan bu yarımada coğrafı baxımdan 3 əsas hissəyə bölünür.

#### MƏRKƏZ HİSSƏ

Bu, yarımadanın böyük hissəsini əhatə edir və Ərəbistan səhrası adlanır. Bu qumsallıq və susuz məntəqədə yalnız qış fəslində yağıntı olur və yağıntıdan sonra əmələ gələn Çəmənliklərdən köçərilərin mal-qarası faydalanır. Məntəqənin Əhqaf, Sahida və Dəhna adlı yerlərində isə xurma ağacları gözə dəyir.

#### ŞİMAL HİSSƏ

Bu hissəyə Hicaz deyilir ki, Nəcd və Təhamə məntəqələrinin arasında yerləşir. Elə buna görə Hicaz adlanır. «Hicaz»-ərəb dilində fasilə deməkdir. Hicaz Fələstindən Qırmızı dənizə və Əylədən Yəmənə kimi uzanan məntəqələri əhatə edir. Dağlar və səhralardan ibarət olub, susuz və qeyri-münbit bir məntəqədir. Hicazın qədim şəhərləri özündə Kəbəni, islam Peyğəmbərinin doğma vətəni olan Məkkəni və islamın yayılmasının başlanğıc yeri olan indiki Mədinəni, habelə Taifi əhatə edir. Yənbu və Cəddə də Hicazın şəhərlərindəndir.

#### CƏNUBİ HİSSƏ

Bu hissə Yəmən adlanır. İqlimi və məhsuldarlığı baxımından Ərəbistan səhrası ilə müqayisə ediləsi deyildir. Yunan tarixçisi Herodotun (era-

mızdan beş əsr əvvəl) dediyi kimi, «Bu məntəqənin sakinləri lap qədim zamanlardan yüksək mədəniyyətə malik olmuşlar. Dünya səyahətinə çıxan romalı Starbonun miladdan bir il əvvəl gördüyü qədim Mərib şəhəri tarixçilərin vəsf etdikləri şəhərdir. Məşhur Mərib səddi (9 km) hələ də dillərdə əzbərdir və yəmənlilərin inkişaf etmiş texnika və sənətkarlığının məhsuludur».[1]

Yəmənin Səna, Ədən və Nəcran şəhərləri haqqında tarixdə çoxlu vəsflər olmuşdur. Yəmənin müxtəlif hissələrində aparılan qazıntılar nəticəsində məntəqədə əsrarəngiz sənət əsərlərinin tapılması da tarixdə qeyd olunanları təsdiq edir. Təbiətdən daha çox yararlanan Yəmənin ərazisi qədim zamanlardan ərəbistanın başqa məntəqələrinə nisbətən daha çox abadlaşmış və inkişaf etmişdir. Buna görə yunanlar ora «Xoşbəxt Ərəbistan» deyirmişlər.[2] Bu ərazi Hind okeanı ilə Qırmızı dənizin sahilində yerləşdiyi üçün Şərq və Qərb arasındakı ticarət əlaqələrindən ötrü əlverişli yer sayılırdı. Bu baxımdan həmin torpaqlar bütün tarix boyu dünya istilaçılarının, xüsusilə İran və Roma istilaçılarının diqqətini özünə cəlb etmişdir.

Bir sözlə, üç milyon kvadrat kilometr əraziyə malik bu yarımada cənub hissədən başqa, demək olar ki, səhralıqdan ibarətdir. Bura öz qızmar və yandırıcı havası ilə (dağlıq yerlərdən başqa) insan yaşayışı üçün münasib yer deyildir. Quraqlıq məntəqəni fəth etməyin o qədər əhəmiyyəti yox idi və Misir, Babil, İran, habelə Roma kimi böyük dövlətlərin diqqətini özünə cəlb edə bilməzdi. Elə buna görə də böyük dövlətlərin hücum və təcavüzündən kənarda qalmışdı.

---

[1] Herodot tarixi, “İslam və cahiliyyət”, səh.234.
[2] “İki əsr sükut”.

## «DİODRÖS»

Məşhur Roma tarixçiləri yazırlar ki, böyük yunan sərkərdəsi Dmitriyus Ərəbistanı almaq məqsədi ilə Petraya daxil olduqda ərəblər ona deyiblər: «Ey böyük əmir, bizimlə nə üçün döyüşürsən? Biz ən adi yaşayış vəsaitindən və başqa şəhərlərin malik olduqları nemətlərdən məhrum bir yerdə çınqıllıqda yaşayırıq. Biz elə ona görə burada qalmışıq ki, başqalarının əsarəti altında olmayaq; Qiymətdə az olan bu hədiyyələri bizdən qəbul et və buradan qayıt. Əgər bu mühasirəni davam etdirmək istəyirsənsə, açıq-aşkar bildiririk ki, bizə qalib gəlsən də sənin üçün bu qələbənin heç bir faydası olmayacaq. Bizim torpağımız nə münbit torpaqdır, nə də bu yerin havası xoşdur».

Dmitriyus bu sözləri eşitdikdə quraqlıq səhranı almaqdan vaz keçdi.[3]

Həmin təbii və coğrafı amillər bu ərazinin tarix boyu dünya fatehlərinin hücumlarından amanda qalmasına gətirib çıxardı və başqa ölkələri fəth etmək fikrində olanlar bu məntəqəni almaqdan (havasının qeyri-münasib, torpağının qeyri- münbit olduğuna görə) vaz keçdilər. Buna görə hələ qədim dövrlərdən orada mədəniyyət çiçəklənməmişdi və əhali ibtidai səviyyədə yaşayırdı. Yəməndən Omana qədər uzanan cənubi dağlıq məntəqələri və ticarət yolunda yerləşən Məkkə, Yəsrib, Dumətülcəndəl kimi kiçik şəhərlərdən başqa bu geniş ərazinin qalan yerlərini qumsallıq və çöllük təşkil edirdi. Əgər haradasa bir bulaq qaynayıb çıxsaydı, köçəri ərəblər hər tərəfdən ora axışardılar.

Əlbəttə, çöllərdə yaşayan ərəblərin əsas məşğuliyyəti qarətçilik idi və onların arasında zorakılıq və qılınc hökm sürürdü. Onlar qarət etdikləri hər hansı şəhəri isə viran edərdilər. Məşhur tarixçi İbn Xəldunun yazdığına görə, binanın özülündən daşları belə çıxarırdılar ki, ondan ocaq düzəltsinlər. Yaxud çadır qurmaq üçün evin dirəklərini çıxarırdılar.[4]

---

[3] İslam və ərəb mədəniyyəti.
[4] «Müqəddimeyi ibn Xəldun», I-ci cild. səh.286.

## ƏHALİNİN ƏHVAL-RUHİYYƏSİ

Əhval-ruhiyyə baxımından islamdan əvvəlki ərəblər demək olar ki, tamahkar və dünya malına çox həris idilər. Onlar hər şeyə maddi və müvəqqəti mənfəətinə görə qiymət verir, həmişə özlərini başqalarından üstün, şərafətli bilirdilər. Azadlığı son dərəcə çox istəyirdilər və ona görə də onların azadlıqlarını məhdudlaşdıran hər şeyə nifrət edirdilər.

İbn Xəldun onların haqqında yazır: «Bu tayfa təbiətən vəhşi və qarətçi idi, vəhşilik sanki onların zatındaydı. Özləri də bu kimi işlərdən ləzzət alırdılar. Çünki bu yolla hakimlərə boyun əyməkdən və qanunlara tabe olmaqdan xilas ola bilirdilər. Dövlətçilik siyasətinə qarşı üsyan qaldırırdılar. Aydındır ki, onların bu kimi hərəkətləri mədəniyyət və inkişafla ziddiyyət təşkil edirdi.»

Sonra yazır: «Onlar zatən qarətçi idilər. Başqasının əlində bir şey gördükdə onu soyub talayırdılar. Onlar çörəklərini qılınc gücü ilə əldə edirdilər. Başqalarının malını oğurlamaqda əllərindən gələni əsirgəmirdilər. Gözləri hər hansı sərvətə, yaxud məişət avadanlığına düşdükdə, onu qarət edirdilər.»

Bəli, qarətçilik, müharibə və qətl həmin xalqın ikinci dərəcəli adətlərindən idi. Deyirlər, ərəblərdən biri Peyğəmbərin dilindən cənnətin səfasını eşitdikdə soruşdu: «Cənnətdə müharibə də olacaq, ya yox?» Peyğəmbər «Xeyr, olmayacaq» -dedikdə, dedi: «Bəs bunun nə mənası var?!»

Ərəb tarixində 1700 müharibədən söz gedir. Bu müharibələrin bəzisi hətta yüz ilədək davam etmişdir. Yəni neçə nəsil bir-biri ilə döyüşdə olublar. Bəzən kiçik bir məsələ də uzunmüddətli döyüşlərə və qanlı müharibələrə səbəb olurdu.[5]

Cahiliyyət dövründəki ərəblərin əqidəsi bu idi ki, qanı-qan yuyar. Əfsanəyə bənzəyən «Şənfərə» hekayəsi ərəblərin o vaxtkı səviyyəsini

---

[5] Ərəb tarixi, I-ci cild.

göstərə bilər. «O, Bəni-səlman qəbiləsi tərəfindən təhqirə məruz qaldıqda; intiqam almaq üçün onlardan yüz nəfər öldürmək qərarına gəlir. Uzun müddət keçəndən sonra onlardan 99-nu öldürür. Nəhayət, bir quyunun başında özü də oğrular tərəfindən öldürülür. Amma onun kəllə sümüyü neçə ildən sonra öz işini görür. Bəni-səlman qəbiləsindən bir nəfər oradan keçəndə, külək onun kəllə sümüyünü qaldırıb şiddətlə yolçunun ayağına çırpır. Yolçu ağrının şiddətindən can verib ölür».

Quran bu tayfanın barəsində belə buyurur:

«Ey ərəb xalqı, siz islamdan əvvəl uçurum qarşısında idiniz, lakin Peyğəmbər sizi qurtardı».

## CAHİLİYYƏT DÖVRÜ ƏRƏBLƏRİNİN ƏXLAQİ SƏCİYYƏSİ

Hər halda cəhalət, düzgün yaşayış tərzinin olmaması, yoxsulluq, vəhşilik, tənbəllik və digər mənfi əxlaqi keyfiyyətlər kimi müxtəlif amillər Ərəbistan mühitini qaranlığa çulğalamış və o xalqın içərisində yaramaz işlərin adət və qanuni hal almasına imkan yaratmışdı.

Qarətçilik, qumarbazlıq, sələmçilik və insanları əsarət altına almaq cahiliyyət dövrünün adət halı almış işlərindən idi. Onların digər pis ənənələrindən biri də sərxoşluq idi. Şairləri də öz şerlərində çox vaxt şərabı, sərxoşluğu tərifləyirdilər. Meyxanaların qapıları bütün gün ərzində sərxoşlar üçün açıq idi və onların üstünə hətta bayraq da sancılmışdı. Şərabçılıq o qədər genişlənmişdi ki, xalq arasında ticarət dedikdə şərabçılıq başa düşülürdü.

Ərəblərin nəzərində «əxlaq» sözü tamamilə başqa cür izah olunurdu. Misal üçün, şücaət və qeyrəti alqışlayırdılar, lakin şücaətli şəxs onların nəzərində daha çox qan tökən, döyüşdə daha çox adam öldürən şəxsə deyilirdi. Yaxud qızını diri-diri qəbrə qoyan şəxs ən qeyrətli şəxs hesab edilirdi. Onların fikrincə hər bir şəxs öz qəbiləsindən olanı istənilən məsələdə himayə etməlidir –istər haqlı olsun, istərsə haqsız. Azadlıqsevərlik və şücaətlilik intiqam almaqda və qarətçilikdə təzahür olunurdu. Onlar həyatda üç şeyə – qadına, şəraba və döyüşə könül vermişdilər.

## ƏRƏBİSTAN YARIMADASINDA BÜTPƏRƏSTLİK

Bütpərəstlik ərəblərin dini idi və onların ayrı-ayrı tayfalarına müxtəlif şəkillərdə nüfuz etmişdi. Kəbə həqiqətdə cahil ərəblərin bütxanası idi. Orada hər qəbilənin öz bütü var idi. Bu evdə müxtəlif şəkillərdə 360 büt var idi və hətta xaçpərəstlər də divarlarda həzrət Məryəmin, mələklərin və İbrahimin şəklini çəkmişdilər. Qüreyşin Allahın qızları hesab etdiyi Lat, Üzza və Mənat adlı bütlərə daha çox pərəstiş edirdilər. Lat tanrıların anası hesab edilirdi və məbədi Taif yaxınlığında, ağ daş şəklində idi. Mənat tale, ölüm tanrısı idi və məbədi Məkkə ilə Mədinə arasındaydı.

Əbu Süfyan Ühüd döyüşündə Lat və Üzzanı gətirib onlardan yardım diləyirdi. Bəni Üməyyədən olan Əbu Həyhə Səid ibn Al ölüm yatağında ağlayırdı. Onun görüşünə gələn Əbucəhl «Nə üçün ağlayırsan, ölümdən qorxursan? Halbuki ondan qaçmaq olmaz!» – deyə soruşdu. O dedi: «Yox, ondan qorxuram ki, məndən sonra camaat Üzzaya sənə görə pərəstiş etmirlər ki, sən öləndən sonra ondan əl çəksinlər».[6]

Bunlardan əlavə ərəblər başqa tanrılara da ehtiram edirdilər. Kəbənin içində Qüreyşin Hübəl adlı bir bütü də vardı. Burada nəinki hər qəbilənin özünəməxsus bütü var idi, üstəlik hər bir ailə öz bütünə də pərəstiş edirdi. Ulduzlardan tutmuş Ay və Günəşədək, habelə daş, ağac və torpaqdan hazırlanan heykəllər müxtəlif qəbilələr tərəfindən pərəstiş olunurdu. Kəbədə və başqa məbədlərdə olan bütlər Qüreyş qəbiləsinin, habelə digər ərəblərin diqqətini özünə cəlb etmişdi. Onlar üçün hətta qurbanlar kəsilir və təvaf mərasimi (Kəbə ətrafında dolanma) yerinə yetirilirdi. Hər bir qəbilə ildə bir şəxsi xüsusi təntənə ilə seçib tanrılar və bütlər qarşısında qurban kəsir və onu qurbangahın yaxınlığında dəfn edirdi.

Bunlar göstərir ki, Ərəbistan yarımadasında hər yer xalqın evindən Xaliqin evinə qədər bütlərlə dolu idi. Bu kimi müxtəlif yalançı bütlərə

---

[6] Əl-əsnam

pərəstiş etmək isə ziddiyyətlərə, döyüşlərə, ixtilaflara, qırğınlara və nəhayət, mənəvi və maddi ziyanlara gətirib çıxarırdı.

Möminlərin əmiri Həzrət Əli (ə) xütbələrinin birində islamdan əvvəlki ərəblərin haqqında buyur-muşdur: «Allah Məhəmmədi (s) insanları qorxutmaq üçün Peyğəmbərliyə təyin etdi. O zaman siz ərəblər ən pis dində idiniz və ən pis yerlərdə yaşayırdınız, iti daşların və zəhərli ilanların arasında yatırdınız, çirkab su içib, dadsız xörəklər yeyirdiniz, bir-birinizin qanını tökür və qohumluq tellərini qırırdınız. Sizin içinizdə bütpərəstlik hakim idi və günahlar bütün varlığınızı bürümüşdü». (Nəhcül-bəlağə, 26-cı xütbə).

Taha Hüseyn deyir: «cahil ərəblər o qədər ağılsız idilər ki, cisimlərin əlaqələrini dərk edə bilmirdilər və məhz həmin səbəbə görə xurafat çox geniş yayılmışdı. Məsələn, başağrısını kəsmək üçün xəstənin boynundan ölü sümüyü asırdılar. Cinin şərindən xilas olmaq üçün isə özlərini başdan-ayağa nəcis edirdilər. Şücaətli olsunlar deyə, yırtıcı heyvanların ətini yeyirdilər»[7]

## İSLAMIN ZÜHURU ƏRƏFƏSİNDƏ ƏRƏBİSTANIN İCTİMAİ VƏZİYYƏTİ

Bəşərin ictimai yaşayışa doğru atdığı ilk addım insanların qəbilə formasında yaşaması ilə başlanır. Qəbilə bir neçə ailədən ibarət olub, başçının nəzarəti altında idarə olunur. Beləliklə, qəbilə ictimai həyatın ən ibtidai formasını təşkil edir. O vaxtlar ərəblər də belə yaşayırdı: qəbilələr yığışıb kiçik bir cəmiyyət təşkil edir və qəbilə başçısının əmrinə tabe olurdular. Onları bir-birinə qohumluq və qəbilə telləri bağlayırdı. Bu qəbilələr hər cəhətdən fərqli idi və adət-ənənələri də müxtəlif idi. Digər tərəfdən, təcavüzə məruz qalan hər qəbilə təcavüzkar qəbilənin bütün üzvlərini qırmaqda özünü haqlı bilirdi. Onların əqidələrinə əsasən, qanı yalnız qanla yumaq mümkündür. Ərəblər islamı qəbul etməklə qəbilə

---

[7] «Nəhcül-bəlağə»

sistemindən xilas olub dünyəvi idarəetmə sisteminə keçdilər. İslam Peyğəmbəri pərakəndə şəkildə olan ərəb qəbilələrindən bir cəmiyyət təşkil edə bildi. Şübhəsiz ki, tarix boyu bir-biri ilə döyüşdə, ixtilafda olan, bir-birinə təcavüz etməyə adət edən, bir-birinin qanını tökən qəbilələrdən qısa müddət ərzində vahid cəmiyyət qurmaq çox böyük və inanılmaz işdir. Çünki bu kimi böyük və əsaslı dəyişikliklər adi işlərin nəticəsində baş verə bilməzdi.

Tomas Karlayl yazır: «Allah ərəbləri islamın vasitəsi ilə zülmətdən işıqlığa çıxardı. Heç bir hərəkəti olmayan, sönük bir xalqdan millət yarandı və yuxudan oyanışa, alçaqlıqdan yüksəkliyə və zəiflikdən güclülüyə sövq etdirildi. Qısa bir vaxtda onun nuru dünyanın dörd tərəfinə saçdı. İslamın zühurundan yüz il keçməmişdi ki, müsəlmanların bir ayağı Hindistanda, bir ayağı isə İspaniyada idi».[8]

Məşhur Qərb tarixçisi Renan yazır: «Ərəblərin birdənbirə tərəqqi etməsinə səbəb olan bu heyrətləndirici prosesə (islam) qədər Ərəbistan dünya mədəniyyətinin tərkib hissəsi sayılırdı və burada məzhəb və elmdən heç bir xəbər yox idi». [9]

Bəli, cahiliyyət dövründə ərəblərin ayrı-ayrı qəbilələri nə bir mədəniyyətə, nə də qayda-qanunlara malik idilər. Onlar mədəniyyət və tərəqqiyə səbəb ola biləcək hər hansı ictimai imtiyazlardan da məhrum idilər. Buna əsasən, o xalqın belə sürətlə böyük zirvələrə yüksəlməsi və kiçik qəbilə həya- tından geniş dünyaya daxil olması gözlənilməz idi. Bütün dünya xalqlarının hər biri bir binaya bənzəyir. Bu binanın yağış, külək və tufan qarşısında dayanıb tab gətirə bilməsi üçün düzgün üslub əsasında və möhkəın materiallarla tikilməsi tələb olunur. Millətin də inkişaf edib yaşaması üçün onun möhkəm təməllərə, yəni kamil adət-ənənə və yüksək insani əxlaqa ehtiyacı vardır. Bəs görəsən, cahil ərəblərdə baş verən bu heyrətləndirici dəyişikliklər nədən irəli gəlmişdir?

---

[8] İslamla mübarizə aparmaqda müstəmləkəçilərin hiylələri, səh.38.
[9] İslam və ərəb mədəniyyəti, səh.87.

Dünənə kimi bütün güclərini nifaq və ixtilafa sərf edən və bütün ictimai sistemlərdən məhrum olanlar necə oldu ki, belə sürətlə birləşib elə bir qüdrətli dövlət yaratdılar. Hətta o dövrün böyük xalqları belə ərəblərin qarşısında diz çöküb onların adət-ənənələrini qəbul etdilər. Doğrudan da əgər ərəblər bu inkişaf və tərəqqiyə çatmalı idilərsə, bəs nə üçün mədəniyyətə, inkişafa sahib olan və illər boyu öz qoynunda sərkərdələr tərbiyə edən Yəmən ərəbləri bu inkişaf və tərəqqiyə nail olmadılar? Niyə Şamla həmsərhəd olan və inkişaf etmiş Roma hökumətinin tabeçiliyində olan Qəssan ərəbləri bu səviyyəyə yüksəlmədilər? Nə üçün dünənə kimi Böyük İran dövlətinin nəzarəti altında olan Hiyrə bu səviyyəyə çatmadı? Onlar bu tərəqqiyə nail olsaydılar, heç də təəccüb doğurmazdı. Təəccüb doğuran budur ki, Hicaz ərəbləri heç bir tarixə malik olmamalarına baxmayaraq böyük islam mədəniyyətinin varisi oldular!

## HİYRƏ VƏ QƏSSAN DÖVLƏTLƏRİ

Ərəbistanın xoş ab-havalı məntəqələri islamdan bir əsr əvvəl ümumi halda üç böyük dövlətin -İran, Roma və Həbəşistanın təsiri altında idi. Belə ki, şərq və şimal-şərqi İrana, şimal-qərbi Romaya, mərkəzi və cənub hissələri isə Həbəşistana tabe idi. Bu mədəni dövlətlərlə qonşu olmaq və onların aralarında baş verən daimi rəqabət və döyüşlər nəticəsində Ərəbistan sərhədlərində yarımmüstəqil və yarımmədəni dövlətlər meydana çıxdı. Ancaq onların hər biri özünün qonşu olduğu qüdrətli dövlətə tabe idi. Hiyrə, Qəssan və Kəndə bu kimi dövlətlərdən olub İran, Roma və Həbəşistanın tabeçiliyində idilər.

## HİYRƏ

Tarixi sənədlərdən məlum olur ki, miladdan sonra üçüncü əsrin əvvəllərində bəzi ərəb qəbilələri əşkanilərin hökmdarlığının son dövründə Fərat çayı yaxınlığındakı məntəqəyə köçüb İraqın bir hissəsini ələ keçirdilər. Bu köçəri ərəblər tədricən qalalar tikib kəndlər və şəhərlər salırdılar. Onların ən mühümü Hiyrə idi (indiki Kufə şəhərinin yaxın-

lığında, səhralıq bir yerdə yerləşmişdi). Bu şəhər əvvəlcə ərəblərin məskunlaşdığı bir qala olmuş və sonralar şəhərə çevrilmişdi. İqlim münasibliyi, Fərat çayının qollarının çoxluğu və təbii şəraitin əlverişli olması bu yerin abadlaşmasına səbəb oldu. İranla qonşu olduğuna görə şəhər mədəniyyətdən də faydalandı. Tədricən Hiyrə yaxınlığında Xüvərnəq kimi saraylar tikdilər və bu da o şəhərə xüsusi bir gözəllik bəxş etdi. Bu bölgənin ərəbləri yazıb-oxumaqla da tanış oldular. Bəlkə elə Ərəbistanın başqa yerlərində də yazıb-oxumağı onlardan öyrənmişdilər.[10]

Hiyrə əmirləri Bəniləxm ərəblərindən idilər və Sasanilər padşahları tərəfindən himayə olunurdular. Burada başlıca məqsəd o idi ki, onlar İranla vəhşi ərəblər arasında bir maneə rolu oynasınlar və beləcə qarətçi ərəblərin İran sərhədlərinə təcavüzünün qarşısı alınsın. Həmin əmirlərin adları tarixdə də qeyd olunmuşdur. Həmzə İsfahani onların adlarını, neçə il ömür sürdüklərini, həmçinin onların müasiri olan Sasanilər padşahlarının adlarını qeydə almışdır.

Bəniləxm sülaləsinin səltənəti Hiyrə məntəqəsində nisbətən inkişaf etmiş ən böyük ərəb dövləti idi. Bu sülalənin son padşahı Nöman ibn Mənzərdir ki, onun Xosrov Pərvizin hökmü ilə öldürülməsi hekayəsi məşhurdur.[11]

## QƏSSAN

Beşinci əsrin sonu – altıncı əsrin əvvəllərində bir qrup Yəmən mühaciri Ərəbistanın şimal-qərb hissəsində, ucqar bir yerdə düşərgə saldılar və Roma imperiyasının qonşuluğunda Qəssan dövlətinin əsasını qoydular. Bu dövlət Romanın himayəsi altında idi və onun əmirləri də imperiya tərəfindən təyin edilirdi.

---

[10] «Fütuhül-bildan»
[11] Əl-əxbarüt-Tüv-val. Dinəvəri

Qəssan dövləti müəyyən qədər mədəniyyətə malik idi və onun mərkəzi bir tərəfdən Dəməşqə, bir tərəfdən isə Bəsrəyə yaxın olduğu üçün Roma mədəniyyətinin təsiri altına düşmüşdü. Qəssanilərlə Hiyrə əmirləri və iranlılar arasında ixtilaf olduğuna görə onlar romalılarla dost idilər. Bu bölgədə 9-10 əmir bir-birinin ardınca hökmranlıq edirdi.

## HİCAZDA MÖVCUD OLAN DİNLƏR

Hicazda bütpərəstlik geniş yayılmışdı. Azlıq təşkil edən yəhudilər isə Yəsrib və Xeybərdə yaşayırdılar. Eyni zamanda 23 Nəcran şəhərinin sakinləri (Yəmən və Hicazın sərhəd şəhəri) xristian ayininə əməl edirdilər. Şimal hissələr Roma ilə qonşu olduğuna görə burada xristianlıq yayılmışdı. Hicazın başqa məntəqələrində isə bütpərəstlik müxtəlif formalarda və əqidə üsulları ilə icra olunurdu. Amma azlıq təşkil edən Həniflər adlı dəstə Tovhid ayininə riayət edib özlərini İbrahim (əleyhissalam)-ın ümməti hesab edirdilər. Onlar bütpərəst ərəblərlə müqayisədə çox az idilər.

Həzrət İbrahim və Həzrət İsmail zamanından allahpərəstlik ayini bir sıra məzhəbi və əxlaqi adət-ənənələrlə birlikdə Hicaza daxil oldu. Təntənəli həcc mərasimi həmin adətlərdən biri idi. Sonralar Məkkənin rəisi, Xüzaə qəbiləsindən olan Əmr adlı bir şəxs tərəfindən bütpərəstlik Məkkəyə gətirildi. O, Şam səfərində Əmaliqə qəbiləsinin gözəl heykəllərə pərəstiş etdiyini gördükdə onların bu adətindən xoşu gəldi və Hübəl adlı gözəl bir bütü Məkkəyə gətirib camaatı ona pərəstiş etməyə çağırdı. [12]

Ərəblərin məşhur bütləri bunlar idi: Hübəl, İsaf, Nailə, Lat, Üzza, Mənat, Ümyanis, Səd, Zülxələsə və Mənaf. Bu bütlərdən əlavə, digər məşhur bütlərə də pərəstiş olunurdu ki, bunlar da bir qəbilə, yaxud bir ailəyə məxsus idi.

---

[12] Əmaliqə islamdan əvvəl yaşayan bir dəstə ərəb idi ki, tədricən aradan gediblər.

## HİCAZDA ELM

Hicaz xalqı «ümmi» adlanırdı; Ümmi dərs oxumayan, anadan doğulduğu kimi qalan şəxsə deyilir. Ərəblərin elmə nə dərəcədə qiymət verməsini bilmək istəyirsinizsə, onu qeyd etmək kifayətdir ki, islam zühur edən vaxt Qüreyş qəbiləsindən yalnız on yeddi nəfər yazıb-oxuya bilirdi. Mədinədə isə Ovs və Xəzrəc qəbilələri içərisində yalnız on bir nəfər bu qabiliyyətə malik di.[13]

Bu bölgənin əhalisi barədə qısa və yığcam məlumata diqqət yetirməklə islam təlimlərinin bütün sahələrdə, xüsusilə etiqad, əxlaq, iqtisadiyyat və mədəniyyət sahələrindəki təsiri tam aydınlaşır. Mədəniyyətləri qiymətləndirməklə biz onların hansının üstün olması barədə fərziyələrimizi açıqlaya bilərik. [14]

---

[13] «Fütuhül-bildan»

[14] Ərəblərin etiqad və mədəniyyətləri ilə daha artıq tanış olmaq üçün bax: 1-Büluğül-ərəb fi mərifəti-əhvalil-ərəb. 2-Əl-müfəssəlü fi tarixi-ərəb qəbləl-islam, 20 cilddə.

## İKİNCİ FƏSİL

### PEYĞƏMBƏRİN (S) ATA VƏ BABALARI

İslam Peyğəmbəri Həzrət İbrahim (ə) və Həzrət İsmailin övladlarındandır. Tarix kitablarında onun babalarının adı Həzrət İbrahimə qeyd olunmuşdur. Biz burada ona yaxın babalarının adlarını çəkirik.

İslam Peyğəmbərinin babalarının adları belədir: Əbdüllah (atası), Əbdülmüttəlib (babası), Haşim (Cəddə babası) və Əbdümənaf (babasının babası). Sonra on altı vasitə ilə məşhur cəddi Ədnana çatır. Tarixçilər arasında onun Ədnana qədər olan cədlərinin sayında fikir birliyi vardır, amma Ədnandan Həzrət İsmailə qədər babalarının adında ixtilaf hökm sürür. İslam hədisçiləri İbn Abbasdan nəql edirlər ki, Həzrət Rəsul buyurub: «Mənim babalarımı sayanda Ədnana çatdıqda dayanın, ondan yuxarı getməyin».[15]

Burada o həzrətin yaxın babalarının həyatı barədə qısa məlumat verməyi özümüzə borc hesab edirik:

### 1. ƏBDÜMƏNAF

O, Həzrət Rəsulun üçüncü babasıdır, adı Müğeyrə, ləqəbi Qəmərülbətha idi. Camaat arasında xüsusi hörməti vardı. Onun həyatdakı şüarı pəhrizkarlıq, camaatla xoşrəftar olmağa çağırmaq və qohumluq əlaqələrini qoruyub saxlamaq idi. Onun Əbdüddar adlı bir qardaşı vardı. Kəbənin bütün işləri onun əlində idi. Əbdümənaf heç vaxt onunla rəqabətə girməzdi. Onların ölümündən sonra Kəbənin işləri bu iki qardaşın uşaqları arasında bölüşdürüldü. Yəni, Kəbəni idarə etmək, onun açarını saxlamaq və Darünnədvənin başçılığı Əbdüddarın uşaqlarına, həcc günlərində Allah Evi ziyarətçilərinə su vermək, onlara xidmət etmək

[15] «Tarixe Kamil ibn Əsir», 2-ci cild, səh 21

işi isə Əbdümənafın uşaqlarına yetişdi. Bu bölgü islam zühur edənədək davam edirdi.

## 2. HAŞİM

Haşim islam Peyğəmbərinin ikinci babasıdır. Onun adı Əmr, ləqəbi isə Əla idi. Haşim Əbdüşəms ilə qardaş idi. Bundan əlavə, onun Müttəlib və Nulil adlı iki qardaşı vardı. Haşimlə Əbdüşəms arasında daim ixtilaf və çəkişmə olardı. Bu ixtilaf nəsilbənəsil onların övladlarına da sirayət edirdi. Bəni–Haşim qəbiləsi Haşimin, Bəni–Üməyyə qəbiləsi isə Əbdüşəmsin nəslidir ki, hamı bu iki sülalənin ixtilaflarından xəbərdardır.

Həzrət Haşimin gözəl xüsusiyyətlərindən biri bu idi ki, zilhəccə ayının əvvəlində hilalı (ayı) gördükdə, səhər tezdən Kəbəyə gələr və onun divarına dayanıb belə bir xütbə oxuyardı: «Ey Qüreyş qəbiləsi! Siz ərəblərin möhtərəm və ən yüksək qəbiləsisiniz. Allah sizə Öz evinin kənarında yer vermişdir və bu fəziləti İsmail övladları arasında sizin üçün seçmişdir.

Ey camaat! Allah evi ziyarətçiləri bu ayda qəribə bir təntənə ilə sizə tərəf gələcəklər. Onlar Allah qonaqlarıdır, onlara qulluq etmək sizin öhdənizdədir. Onların içində uzaq yerlərdən buraya gələn yoxsullar çoxdur. Bu Evin, sahibinə and olsun, əgər imkanım olsaydı, hamısını qəbul edərdim və sizdən yardım istəməzdim. Amma indi halal yol ilə qazandığımı bu yolda xərcləyirəm, lakin sizin hamınızı Allaha and verirəm ki, Allah evi ziyarətçilərinə haram və zülümlə əldə etdiyiniz malla qulluq etməyəsiniz. Yaxud halal malı ehsan edərkən riyaya və məcburiyyətə düçar olmayasınız. Nəfsi təmiz olmayanlar isə malını ehsan etməkdən çəkinsin».

Haşimin digər önəmli işlərindən biri də qıtlıq illərində Məkkə əhalisinin vəziyyətini yaxşılaşdırmaq üçün öz malını bağışlaması idi. O, Məkkə əhalisinin ticarət qabiliyyətini yaxşılaşdırmaq üçün Qəssan əmiri ilə müqavilə bağladı ki, hər iki tərəf ticarət əmtəələrini qarşılıqlı şəkildə mübadilə etsinlər. Bu müqavilə bir sıra çətinlikləri aradan qaldırdı.

Məkkə və onun ətrafında bir sıra bazarlar yarandı. Bundan əlavə, Qüreyşin yayda Şama və qışda Yəmənə səfərə çıxmasına zəmin yaratdı.

Haşim Şama etdiyi səfərlərinin birində Məkkəyə qayıdarkən Yəsribdə Əmr Xəzrəcinin qızı Səlma ilə evləndi və onu özü ilə Məkkəyə gətirdi. Səlma hamilə olarkən isə onu Yəsribə göndərdi ki, atası evində doğsun. Allah ona Şəybə adlı oğul verdi və o sonralar Əbdülmüttəlib adı ilə məşhur oldu.

## 3. ƏBDÜLMÜTTƏLİB

Mühitin insan şəxsiyyətinə təsir etməsinə və əksəriyyətin mühitə uyğunlaşmasına baxmayaraq, Əbdülmüttəlib müstəsna bir şəxs idi ki, bu amilin qarşısında dayana bildi və mühitə uyğunlaşmadı. O, elə bir cəmiyyətdə yaşayırdı ki, burada bütpərəstlik, sərxoşluq, sələmçilik və s. pis işlərə qurşanmaq ən adi işlərdən sayılırdı. Amma o, ömür boyu dilinə şərab vurmadı. Günahsız bir şəxsi öldürmədi, pis işlərə qurşanmadı və həmişə əhd-peymanına vəfalı qaldı.

Əslində çöhrəsində peyğəmbərlik nuru olan bir şəxsiyyətdən bundan başqa bir şey gözləmək olmazdı. Onun hikmətli sözlərindən biri bu idi ki, «Zalım şəxs bu dünyada öz əməlinin cəzasına çatacaq və əgər bu dünyada çatmasa, axirətdə çatacaqdır».[16]

### AMMÜL-FİL

Fillərin Məkkəyə hücum etdikləri ilə «Ammül-fil» deyirlər. «Amm» ərəb dilində «il» deməkdir və fil dedikdə Yəmən ordusunun Kəbəni dağıtmaq üçün hazırladığı döyüş filləri nəzərdə tutulur. Hadisə belə olmuşdu: Yəmən hakimi Zinuvas səfərlərinin birində Yəsribdən keçirdi. O vaxt Yəsribin dini cəhətdən vəziyyəti yaxşı idi. Orada bir neçə yəhudi qəbiləsi də yaşayırdı. Yəhudi təbliğatçıları fürsəti əldən verməyib onu öz dinlərinə

---

[16] Sireyi Hələbi

dəvət etdilər. Zinuvas da qəbul etdi və bu dinin təbliğində böyük səylər göstərərək müxalifləri cəzalandırdı. O zaman Nəcran şəhərinin əhalisinin hamısı xristian idi və yəhudi dinini qəbul etməkdən boyun qaçırdılar. O, Nəcran üsyançılarını darmadağın etmək üçün oraya qoşun yeritdi. Ordu sərkərdəsi Nəcranın bir hissəsini özü üçün ordugah seçdi, orada böyük bir xəndək qazdırdı və içində od yandırıb «müxalifləri odda yandıracağam»,– deyə hədələdi. Lakin Nəcran əhalisi xristian dinindən dönmədi və odda yanmağı üstün tutdular. Nəhayət, onlar odda yanıb kül oldular.[17] Bu vaxt Həzrət Məsihin dinində olan və öz ayinini təbliğ etmək üçün çoxlu səy göstərən Roma imperatoru həmin əhvalatdan xəbərdar oldu. Nəcranlı Dus adlı bir şəxs Zinuvasın zülmündən Romaya qaçaraq bu ölkənin padşahından xahiş etdi ki, Zinuvası cəzalandırsın və günahsız Nəcran əhalisinin intiqamını alsın. Roma imperatoru üzr istəyib dedi: «Yəmən bizdən uzaqdır, lakin Həbəşistan padşahına bunun əvəzini çıxması üçün bir məktub yazaram».

O, məktubu yazıb nəcranlı şəxsə verdi. Məktubda xahiş edilirdi ki, Həbəşistan padşahı nəcranlıların intiqamını o zülmkardan alsın. Məktub Həbəşistan padşahına çatdıqda o, Əryat adlı bir nəfərin başçılığı ilə 70 min nəfərlik ordu təşkil edib Yəmənə göndərdi. Həbəşistan ordusu dəniz yolu ilə gəlib Yəmənin sahilində düşərgə saldı.

Zinuvas öz tərəfdarları ilə birgə onların qəfil hücumlarına tab gətirə bilməyib məğlub oldu. Yəmən isə Həbəşistan ordusunun əlinə keçdi və Əryat Həbəşistan padşahı tərəfindən Yəmənə hakim təyin edildi.

Əryatın bu döyüşdə qələbə çalması onda başgicəllənməsinə səbəb oldu və nəticədə o, şəhvətpərəstliyə qurşandı. Bu zaman Həbəşistan padşahının diqqətini cəlb etmək üçün böyük bir kilsə tikdirdi və padşaha yazdı ki, bu kilsə ərəblərin təvaf yeri olacaq və onlar əsas ziyarətgah olan Kəbəni unudacaqlar. Lakin bunun əksinə olaraq Kəbə öz qüdrət və

---

[17] «Tarixe Kamil ibn Əsir». L-ci cild, səh. 253.

mövqeyini qoruyub saxladı və Yəməndə tikilən məbəd razılıqla qarşılanmadı. Ancaq Əryatı əvəz edən Həbəşistan hakimi Əbrəhə bu mənəvi məğlubiyyətə görə Kəbəni məhv etmək qərarına gəlir. O, ordunun önündə hərəkət edən döyüş filləri ilə təchiz olunmuş böyük bir ordu ilə Məkkəyə doğru yola düşür. Yol boyu ərəb qəbilələri tərəfindən yaradılan hər bir maneəni aradan qaldırır. Nəhayət, Məkkə yaxınlığında Miğməs adlı yerdə düşərgə salıb oranı öz ordusu üçün mərkəz seçərək təcavüz və qarətə başlayır. Təhamə məntəqəsinə aid dəvələri və qoyunları qarət edir. O cümlədən Məkkənin rəisi Əbdülmüttəlibin iki yüz dəvəsi qarət olunur. Sonra Hənatə adlı sərkərdəni Məkkəyə göndərir ki, oranın başçısı ilə danışıqlar aparıb onları Əbrəhənin qərarı ilə tanış etsin. Hənatə Məkkəyə daxil olanda onu Əbdülmüttəlibin evinə aparırlar. Hənatə Əbrəhənin sözünü Əbdülmüttəlibə çatdırır və deyir ki, ordunun məqsədi Kəbəni dağıtmaqdır. Əgər buna maneə olmasanız ordunun hücumundan canınız qurtarar. Əbdülmüttəlib deyir: «Kəbə Allahın evidir, onu İbrahimxəlil təmir və abad etmişdir. Allah bu camaatın məsləhəti nə olsa, onu da yerinə yetirəcəkdir»

Əbrəhənin göndərdiyi şəxs Əbdülmüttəlibin məntiq və xoş rəftarından razı qalır və ondan xahiş edir ki, Əbrəhənin ordugahına gəlsin. Əbdülmüttəlib Əbrəhənin məclisinə daxil olur. Onun vüqar, böyüklük və əzəməti qarşısında aciz olan Əbrəhə taxtdan enir və Əbdülmüttəlibin əlindən yapışıb öz yanında oturdur. Beləcə danışıqlar başlanır. Əbdülmüttəlib deyir: «Təhamənin dəvələrini və mənim iki yüz dəvəmi sənin əsgərlərin aparıblar, deyin ki, onları qaytarsınlar».

Əbrəhə Əbdülmüttəlibə deyir: «Sənin nurlu üzün məni heyrətləndirdi, lakin kiçik şey istəməyin mənim nəzərimdə səni kiçiltdi. Çünki mən Kəbəni dağıtmaq istəyirəm - sizin izzət və əzəmət nişanəsi olan Kəbəni! Yaxşı olardı ki, məndən başqa bir şey istəyəydin. Məndən istəyəydin ki, öz fikrimdən dönüm və sizin həyatınızı təhlükəyə salmayım».

Qüreyşin başçısı vüqarla dedi: «Mən dəvələrin sahibiyəm. Kəbənin də öz sahibi vardır, O, hökmən sənin hər hansı təcavüzünün qarşısını alacaq».

Öz qüdrəti ilə qürrələnən Əbrəhə başını bulayıb məğrur görkəm aldı və kobud səslə «Heç bir qüvvə məni öz qərarımdan döndərə bilməz» deyib Təhamə dəvələrinin sahiblərinə qaytarılmasını əmr etdi.

Əbdülmüttəlib Məkkəyə qayıtdı və Qüreyş qəbiləsinin başçıları ilə danışdı. Məkkə əhalisinə əmr etdi ki, təhlükədən xilas olmaq üçün ev heyvanlarını götürüb dağlara, dərələrə pənah aparsınlar. Böyüklü-kiçikli hamı Məkkəni tərk etdi. Əbdülmüttəlib də onlarla birlikdə dağlara çəkildi. Amma gecəyarısı Qüreyşdən olan bir neçə nəfərlə birlikdə dağdan enib Kəbəyə gəldi və yanıqlı səslə Allaha yalvardı: «Pərvərdigara! Səndən başqa ümid və pənahımız yoxdur. İlahi! Məkkə sənin hərəmindir, oranı hər hansı təcavüzdən qoru! İlahi! Bu evin düşmənləri Sənin düşmənindir - bəndə də təcavüzkarı evə təcavüz etməsindən saxlayar. İlahi! Onların Sənin Evinə təcavüz etmələrinin qarşısını al! İlahi! Onların xaç və tədbirləri Sənin tədbirinə qələbə çalmasın».

Əbdülmüttəlib bu sözləri deyib Kəbənin qapısının zəncirini buraxdı və dağa qayıtdı ki, nə baş verəcəyini yaxından müşahidə etsin.

## QUŞLARIN FİL ORDUSUNU MƏHV ETMƏSİ

Sübh çağı Əbrəhə və onun məğrur əsgərləri Məkkəyə tərəf hərəkət etdilər. Həmin vaxt dəniz tərəfindən dimdiklərində və ayaqlarında xırda daşlar tutmuş bir dəstə quş peyda oldu. Quşların kölgəsi Əbrəhənin ordusunun düşərgə saldığı yeri qaranlıqlaşdırdı və onlar ordunun üstünə daş yağdırmağa başladılar. Əsgərlərin başları əzildi, ətləri töküldü. O daşlardan biri də Əbrəhənin başına dəydi. Onun canına qorxu düşdü və bildi ki, Allahın qəzəbi tutmuşdur. Sonra ordusuna göz gəzdirdi və onları dağınıq halda gördü. Çarəsizlikdən bir hissəsi yaralı, bir hissəsi vahiməyə düşmüş əsgərlərinə əmr etdi ki, Yəmənə qayıtsınlar. Amma artıq bu tədbirin faydası yox idi. Onların çoxu yolda can verdi. Əbrəhə Yəmənin

mərkəzi Sənaya qayıtdıqdan sonra onun da bədəninin əti töküldü və qəribə vəziyyətdə can verdi.

Bu xəbər Kəbənin düşmənlərinin ürəyinə qorxu saldı, ərəblərin içində Kəbənin və Qüreyş qəbiləsinin nüfuzunu artırdı. Bu hadisə o qədər təkanverici oldu ki, ərəblər onu tarixin başlanğıcı kimi qəbul edib baş verən hadisələri «bu hadisədən əvvəl və ya sonra baş vermişdir»,– deyə qeyd etməyə başladılar.

Qurani-Məcid bu hadisəyə işarə edib buyurur: «Məgər görmədin ki, sənin Pərvərdigarın fil ordusu ilə neylədi? Onların hiylələrini boşa çıxarmadı? Bir dəstə Əbabil quşlarını göndərdi ki, bişmiş palçıqdan olan daşları onların başlarına töküb bədənlərini doğranmış yarpaq halına salsınlar».

## PEYĞƏMBƏRİN (S) ATASI

Peyğəmbərin atası Əbdüllah Əbdülmüttəlibin on oğlundan biri idi. O, çox mömin və təmiz bir adam idi. Vüqar və mətinlik baxımından Əbdülmüttəlibin yanında böyük hörmətə malik idi. 24 yaşında olarkən atası onu Vəhəb ibn Əbdümənafın qızı əsil-nəcabətli, iffətli və son dərəcə pak olan Amənə ilə evləndirdi.

Bu ailədən elə bir uşaq dünyaya gəldi ki, bəşər tarixinin inkişaf prosesi məhz onun tərəfindən dəyişdirildi və insaniyyət, kamillik, mərifət yoluna üstünlük verildi və peyğəmbərlik onunla başa çatdı.

## ƏBDÜLLAHIN YƏSRİBDƏ VƏFATI

Əbdüllah Amənə ilə evləndikdən sonra bir karvanla Məkkədən Şama yollandı. Bu səfər Amənənin hamiləlik dövrünə təsadüf etmişdi. Karvan neçə aydan sonra Məkkəyə qayıtdı, amma Əbdüllah onların içində deyildi. Məlum oldu ki, karvan qayıdan baş Əbdüllah Yəsribdə xəstələnərək orada qalmalı olub. Əbdülmüttəlib dərhal böyük oğlu Harisi Yəsribə göndərir ki, Əbdüllahı gətirsin. Haris Yəsribə çatanda xəbər tutur ki, Əbdüllah elə həmin xəstəlikdən qohumlarının yanında vəfat etmişdir.

Əbdüllahdan ancaq dəvə, bir neçə baş qoyun və Ümmü Əymən adlı kəniz qalmışdı. Kəniz sonralar Peyğəmbəri saxlayırdı. (Əbdüllahın qəbri bir neçə il bundan əvvələ kimi Məscidün-nəbinin yaxınlığında yerləşirdi. Lakin bir-iki il bundan əvvəl islam əsərləri və abidələrini məhv etməkdə əlindən gələni əsirgəməyən Səudiyyə rejimi onun qəbrini xiyabana qatmışdır).

## ÜÇÜNCÜ FƏSİL

### HƏZRƏTİN DOĞUM TARİXİ VƏ GƏNCLİK İLLƏRİ

Tarix sübut edir ki, peyğəmbərlərin anadan olmaları fövqəladə hadisələrlə bağlı olmuşdur. Məsələn, həzrət Musa elə bir zamanda anadan olub ki, o dövrün hökmdarı bir dəstəni Bəni-İsrailin oğlan uşaqlarını öldürməyə göndərmişdi. Çünki o, Bəni-İsraildən olan bir şəxs tərəfindən öldürüləcəyini eşitmişdi. Buna görə Fironun məmurları xeyli oğlan uşağını öldürdülər, lakin Allahın iradəsi (istəyi) ilə Musa dünyaya gəldi və hər hansı təhlükədən kənarda qalaraq düşməni Fironun yanında böyüdü. «Allah Musanın anasına ilham verdi ki, uşağını sandığa qoyub Nil çayının dalğalı suyuna tapşırsın. Suyun dalğası Musanın olduğu sandığı Fironun qəsri yerləşən sahilə çatdıracaq, Mənim və onun (Musanın) düşməni uşağı himayə edib böyüdəcəkdir. Biz uşağını yenidən sənə qaytaracağıq».

(«Taha» surəsi, 41-43-cü ayə)

Həzrət Məryəmin hamilə olması və həzrət Məsihin doğulması da adi qanunlara uyğun gəlməyən bir sıra hadisələrlə bağlıdır. Həzrət Məryəm heç bir kişi ilə evlənmədən hamilə oldu. Məryəm uşağı xəlvət bir yerdə dünyaya gətirdi. Allah ona əmr etdi ki, quru xurma ağacını tərpətsin və ondan təzə xurma tökülsün. Sonra isə uşağı qəbiləsinə gətirsin. Uşağı evlərinə gətirəndə etirazlar başlandı. O xahiş etdi ki, sualları uşağın özündən soruşsunlar. Uşaq dedi: «Mən Allahın bəndəsiyəm O, mənə kitab hədiyyə etmişdir və mən peyğəmbərlərdənəm. Allahım mənə namaz qılıb, zəkat verməyi əmr etmişdir».

(«Məryəm» surəsi, 18-32-ci ayə)

Buna görə Peyğəmbərimizin anadan olmasının bir sıra fövqəladə hadisələrlə bağlı olmasından danışılanda heç də təəccüb etməməliyik. Məsələn, o Həzrət anadan olanda Kəsra sarayının eyvanı uçub töküldü, fars atəşgədəsi söndü, Məkkə bütləri üzü üstə düşdü; onun vücudundan asimana bir nur yüksəldi və böyük bir fəzanı işıqlandırdı. Ənuruşirəvan və

məbədlər qorxulu yuxular gördülər. O Həzrət anadan olan kimi «Allah əkbər, əlhəmdülillahi kəsirən və sübhanəllahi bükrətən və əsila» dedi.

İndi belə bir sual qarşıya çıxır, görəsən, bu hadisələrin baş verməsində əsas məqsəd nə idi? Qısa şəkildə demək olar ki, bu kimi hadisələr yalnız islam Peyğəmbərinə məxsus deyil, digər peyğəmbərlər də anadan olanda belə hadisələr baş vermişdir. Yəhudi və məsihi ümmətlərinin tarixi də öz peyğəmbərlərinin haqqında bu kimi hadisələrdən söz açmışdır.

Bundan əlavə, bu kimi hadisələr xalqları öz əsarəti altına almaq istəyən zülmkar padşahları da düşünüb daşınmağa məcbur edir. Onlar öz-özlərindən soruşurlar: görəsən nə üçün qoca bir arvadın palçıqdan olan evinin divarı uçmadı, amma Kəsra sarayının eyvanı uçub dağıldı. Nə üçün fars atəşgədəsi lazımı vəsait olmağına baxmayaraq söndü? Nə üçün Kəbənin ətrafında olan bütlər üzü üstə töküldü? Halbuki başqa şeylər öz yerində idi. Bu hadisələrin səbəbi barədə düşünsəydilər, başa düşərdilər ki, bunlar bütpərəstlik dövrünün keçib getməsindən müjdə verir. Deməli, tezliklə şər qüvvələr məhv olacaqdır.

Əslində baş verən hadisələrin elə baş verdiyi günlərdə ibrət və nəsihət amili olmasına vacib deyildi. Əksinə, bir ildə bir hadisənin baş verməsi uzun illər sonra da ondan nəticə çıxarılması üçün kifayətdir. O Həzrətin anadan olduğu gecədə baş verən hadisələr də bu tip hadisələrdəndir. Ona görə ki, bu hadisələrdə əsas məqsəd bütpərəstlik, zülm və ədalətsizlikdən əziyyət çəkən xalqın qəlbində qığılcım yaratmaq və onları hərəkətə gətirmək idi.

Peyğəmbərlik əsrində və ondan sonra dünyaya gələn insanlar bütpərəstlik, zülm və ədalətsizliyə qarşı çıxan bir şəxsin çağırışını eşitdikdə onun keçmiş həyatını araşdıraraq görürlər ki, bu şəxsin anadan olduğu gecədə tamamilə eyni tipli hadisələr baş veribdir. Təbiidir ki, bu iki hadisənin zaman baxımından eyniliyi həmin şəxsin sözlərinin həqiqət olduğunu sübut edir. İbrahim, Musa, İsa və Həzrət Məhəmməd (s) kimi peyğəmbərlərin anadan olduqları vaxtda baş verən həmin hadisələr onların peyğəmbərlik dövründəki möcüzələrdən heç də geri qalmır. Bu

hadisələr ilahi mərhəmətdən qaynaqlanaraq xalqı istiqamətləndirmək üçün baş vermişdir.

## PEYĞƏMBƏRİN (S) DOĞUM TARİXİ

O Həzrət ammül-fil (570-ci miladi) ilində anadan olmuşdur. Hədis söyləyənlər və tarixçilərin əksəriyyəti onun rəbiül-əvvəl ayında anadan olduğunu qeyd edirlər. Onun doğum gününün mübahisəli olmasına baxmayaraq bəziləri ayın 17-si, bəziləri isə 12-sini qəbul edirlər. Amma onun ailəsi, övladları birinci fikri qəbul edirlər. Uşağın yeddinci günü adqoyma mərasimində Əbdülmüttəlib bir neçə nəfəri qonaq çağırıb onun adını Məhəmməd qoydu. Əbdülmüttəlibin uşağa bu adı qoymasının səbəbini soruşduqda dedi: «İstəyirəm dünyada bəyənilmiş şəxs olsun». (Bu ad ərəblərdə az qoyulan adlardan idi). Əlbəttə, Həzrət Rəsulun başqa peyğəmbərlər kimi Əhməd, Taha, Yasin kimi müxtəlif adları da vardır.

Məhəmməd bir müddət ana südü əmdi. Sonra məsləhət gördülər ki, səhra ab-havasında böyüyüb, azad mühitdə kamil inkişaf etmək və Məkkə şəhərini bürüyən vəba xəstəliyindən qorunmaq üçün dayəyə tapşırılsın. O da Məhəmmədi Məkkədən kənarda saxlasın. Bu iftixar Bəni-Səd qəbiləsindən olan Həlimə Sədiyyə adlı bir qadına nəsib oldu. Dayə beş il müddətində onu öz qəbiləsində saxladı. Hərdənbir onu Məkkəyə gətirir, bir neçə gün Əbdülmüttəlibin və anası Amənənin yanında saxlayandan sonra, yenidən səhraya qaytarardı. O, uşağı saxladığı dövrdə baş verən qəribə hadisələrdən bəhs edir ki, burada onlardan birini qeyd edirik:

«Bir gün Əbdülmüttəlibin uşağı istədi ki, mənim uşaqlarımla birlikdə səhraya getsin və gecə evə qayıtsın. Mən ona zərər toxunmasın deyə, qəbiləmizdə olduğu kimi, boynuna bir Yəmən gözmuncuğu asdım. Uşaq məndən soruşdu ki, bu göy daş nədir? Dedim ki, bu, səni qoruyan və saxlayandır. Uşaq narahat olub qəzəblə onu boynundan açıb atdı və uca

səslə dedi: «Anacan, yavaş! Mənim başqa saxlayanım və qoruyanım var. Mənimlə bir kəs vardır ki, O, məni saxlayır».

## MƏHƏMMƏD (S) MƏKKƏYƏ QAYIDIR

Həzrət Məhəmmədin süd anası onu dörd il saxlayandan sonra Məkkəyə qaytarıb babası Əbdülmüttəlibə və anası Amənəyə verdi. Uşaq atası Əbdüllahın ölümündən təəssüflənən babası və anasına təsəlli verirdi. O Həzrət altı yaşına çatanda anası Əbdülmüttəlibdən icazə alaraq ərinin məzarını ziyarət etmək üçün onu Yəsribə apardı. Onlar Yəsribdə bir ay qaldılar. Əbdüllahın vəfat etdiyi yeri ziyarət etdilər və bir aydan sonra Məkkəyə qayıtdılar. Yolda Həzrətin anası Əbva adlı bir yerdə xəstələnib vəfat etdi və elə orada da dəfn edildi. Bu hadisə Məhəmmədə çox təsir etdi və onun müsibətini ikiqat artırdı. Lakin onu Əbdülmüttəlib və digər qohumlarının yanında daha əziz etdi. Ona görə ki, o, Əbdüllahdan yadigar qalan yeganə uşaq idi. Bundan sonra onu babası Əbdülmüttəlib saxladı. Quran bu dövrü belə xatırlayır:

«Məgər (Rəbbin) səni yetim gördükdə, sənə pənah vermədi?» (Züha" surəsi, 6–cı ayə)

Peyğəmbər səkkiz yaşına çatanda Əbdülmüttəlib vəfat etdi və onun xahişinə əsasən o həzrəti Əbutalib saxladı. Əbutalib Əbdüllahın qardaşı və Əbdülmüttəlibdən sonra Bəni-Haşimin yeganə böyük şəxsiyyəti idi. O, səxavət və comərdlikdə məşhur idi.

## TACİRLƏRİN ŞAM SƏFƏRİ

Qüreyş tacirləri adət üzrə ildə bir dəfə Şama səfərə çıxardılar. Əbutalib də onlarla birlikdə səfərə çıxmaq istədi və əvvəlcə qərara aldı ki, qardaşıoğlunu Məkkədə saxlayıb bir neçə nəfərə tapşırsın. Amma yola çıxarkən fikrini dəyişib qərara aldı ki, 12 yaşlı uşağı da özü ilə Şama aparsın.

Karvan Busraya çatanda bir hadisə baş verdi. Əbutalib həmin hadisədən sonra səfərini yarımçıq saxlayıb Məkkəyə qayıtdı. Səbəbi də

bu idi ki, Busrada yaşayan Büheyra adlı bir rahib Qüreyş karvanını yemək üçün öz süfrəsinə dəvət etmişdi. Yeməkdən sonra onlara xitabən dedi: «Bu uşaq (Həzrət Məhəmmədə işarə edərək) kimindir?» dedilər: «Əbutalibin qardaşıoğludur». O, üzünü Əbutalibə çevirib dedi: «Bu uşağın gələcəyi parlaqdır. Bu elə Tövrat və İncilin vədə verdiyi peyğəmbərdir. Dini kitablarda İsadan sonrakı peyğəmbərin xüsusiyyətlərinə dair oxuduğum əlamətlər bu uşaqda vardır. O, əbədi bir dinə malikdir. Onu düşmənlərin gözündən gizlət, əgər yəhudilər görsələr, onu öldürərlər. Yaxşısı budur ki, elə buradan Məkkəyə qayıdın».

Buna görə də Əbutalib səfərini yarımçıq qoyub dərhal Məkkəyə qayıtdı.[18]

Bəzi tarixçilərin yazdıqlarına əsasən, Qüreyş karvanının son mənzili elə həmin rahiblə görüşdükləri yer idi. Əbutalib ticarət işlərini tez yerbəyer edib qardaşı oğlu ilə birlikdə Məkkəyə qayıtdı. O zamandan bir daha səfərə çıxmadı və qardaşıoğlunu qorumağı hər şeydən üstün bildi.

Qeyd etmək lazımdır ki, Həzrət Məhəmməd rahib yaşayan məntəqədə bir neçə saat, yaxud bir neçə gündən çox qalmamışdı. Bu Həzrətin rahibdən nəyisə öyrənməsi, yaxud bir sıra həqiqət və mərifətlər əldə etməsi üçün çox azdır. Heç bir tarixçi iddia etməyib ki, Peyğəmbər bu bir neçə saatlıq, yaxud bir neçə günlük görüşdə rahibdən çox şeylər öyrənmişdir. Əgər bir şey yazmışlarsa, bu da rahibin müşahidə etdiyi alicənablıq, yaxud soruşduğu suallardır. Bunların da bir hissəsinə Əbutalib, bir hissəsinə isə qardaşıoğlu cavab verdi.[19]

---

[18] «Tarixe Kamil», «Sireyi ibn Hişam».

[19] Məqrizinin yazdığına gorə, bu səfər fil hadisəsindən 13 il sonra, rəbiül-əvvəlin 10-da olmuşdur.

## DÖRDÜNCÜ FƏSİL

### GƏNCLİK DÖVRÜNÜN HADİSƏLƏRİ

Peyğəmbərin gənclik dövründə bir neçə mühüm hadisə baş vermişdir ki, onları qısa şəkildə qeyd edirik.

### COMƏRDLƏRİN ƏHD-PEYMANI

Məkkə torpağında nə bir məhkəmə vardı, nə də fəryada çatan. Orada kimin haqlı olduğunu zorakılıq və qüdrət müəyyən edirdi. Belə bir şəraitdə ərəb qəbilələrindən olan şəxs azacıq mal və əmtəə ilə Məkkəyə daxil oldu. As ibn Vail həmin şəxsdən əmtəələri satın aldı, lakin pulunu vermədi. Qərib kişi Qüreyş qəbiləsindən nə qədər yardım istədisə də, ona səs verən olmadı. Çarəsiz qalıb Kəbənin qarşısında dayandı, şer oxumaqla məsciddə olanların diqqətini özünə cəlb etdi. Onun öz şerində Peyğəmbərin babalarından biri olan Fəhrinin adını çəkməsi bəzilərinə təsir etdi. Bir dəstə comərd gənc Əbdüllah ibn Cədarı adlı şəxsin evinə toplaşıb, əhd-peyman bağladılar ki, Məkkədə kiminsə haqqının tapdalanmasına imkan verməsinlər. Həzrət Rəsul bu əhd-peymanda iştirak edənlərdən biri idi və peyğəmbərlik dövründə bununla fəxr edər və deyərdi: «Mən Əbdüllah ibn Cədanın evində elə bir əhd–peymanda iştirak etmişəmki, indi də ona sadiqəm. Əgər bir şəxs məni o əhd-peymana çağırsa, müsbət cavab verərəm». Bir rəvayətə görə Həzrət Rəsul bu əhd-peymanda iştirak edəndə 20 yaşı vardı.[20]

### PEYĞƏMBƏRİN ŞAM SƏFƏRİ

Əbutalib bu fikirdə idi ki, öz qardaşıoğluna münasib bir peşə tapsın. O zaman da Xüvəylidin qızı Xədicə ləyaqətli tacir bir qadın idi. Bəzi adamları isə öz ticarət işlərinə cəlb edirdi. Əbutalib ona təklif etdi ki, Xədicənin

---

[20] Təbəqati-kübra

ticarət işinə rəhbərlik etsin. O, əmisinin təklifini qəbul etdi, lakin Xədicə ilə birbaşa danışmaqdan çəkinirdi. Təsadüfən Peyğəmbərin gözəl əxlaqlı və doğruçu olduğunu bilən Xədicə onun yanına bir nəfər göndərib təklif etdi ki, Meysərə adlı qulu ilə birlikdə Şama ticarətə getsin.

Peyğəmbər zilhəccənin on altısında (Fil hadisəsindən 25 il sonra) Xədicənin ticarət işlərinin başçısı kimi Qüreyş karvanı ilə birlikdə Məkkədən çıxdı. Xədicə ona hörmət etsin deyə, yorğa bir dəvəni ixtiyarında qoydu və öz quluna əmr etdi ki, hər bir halda Məhəmmədin hörmətini nəzərə alsın.

Bu səfər başa çatdı. Xədicəyə münasib qazanc hasil oldu. Meysərə səfərdə Həzrətdən gördüyü xeyirxahlığı Xədicəyə söylədi. Hətta dedi ki, Busrada xristian rahib Peyğəmbəri gördükdə onun peyğəmbərliyindən xəbər verdi. Həmin xəbərlər Xədicənin Məhəmmədə evlənmək təklifini etməsinə səbəb oldu.

## MƏHƏMMƏDİN (S) XƏDİCƏ İLƏ EVLƏNMƏSİ

Peyğəmbərlər ilahi ruh və yüksək mənəviyyata malik olmaqla bərabər, təbiət və daxili istəklər baxımından başqa insanlardan heç də fərqli deyillər. Buna görə onlar başqaları kimi yaşayır və öz istəklərini təmin edirlər. Dar düşüncəli insanların onlara başqa insanlar kimi acmaq, susamaq və işləməklərinə görə irad tutmaları peyğəmbərlərin yaradılışından xəbərsiz olmalarından irəli gəlir. Onlar ruhiyyə, mənəviyyat, Allaha pərəstiş və s. kimi insani dəyərlər baxımından son dərəcə yüksəkdə olduqları kimi, maddi və mənəvi üstünlüklərə malikdirlər. Buna görə də Xədicə Peyğəmbərə evlənmək təklifini edib «Əmioğlu, mən aramızda olan qohumluğa və sənin əzəmət, böyüklük, pəhrizkarlıq və doğruçuluğuna görə səninlə evlənmək qərarına gəlmişəm» -dedikdə Məhəmməd (s) də onun istəyinə müsbət cavab verdi. Amma bu iş barədə əmiləri ilə məsləhətləşməyi lazım bildi. O, əmisi Əbutalib ilə məsələni müzakirə etdi. O da razılığını bildirdi. Əqd oxunma mərasimində xütbəni Əbutalib özü oxuyub qardaşı oğlunu belə təqdim etdi:

«Qardaşım oğlu Məhəmməd Qüreyşin hər bir üzvü ilə müqayisə edilsə, kamal baxımından hamıdan üstün gələr. Mal-dövlət baxımından əli boş olmasına baxmayaraq bunun heç bir eybi yoxdur. Axı sərvət daimi deyildir, lakin insanın əsil-nəsəbi qalacaqdır».

Xədicənin əmisi Vərəqət ibn Nofəl Əbutalibin sözlərini təsdiq edib dedi: «Qüreyşdən heç kəs onun üstünlüyünü inkar etmir. Biz tam səmimiyyətlə istərdik ki, sizin şərafət telinizdən yapışaq». Sonra nikah əqdi oxundu və dörd yüz dinar başlıq kəbin kəsildi (başqa rəvayətə görə 20 dəvə).

Xədicə 40 yaşında ikən Peyğəmbərlə ailə qurdu. Həzrət Rəsulun İbrahimdən başqa bütün övladları ondandır. Cahiliyyət dövründə ona Tahirə deyərdilər. O, Həzrət Rəsula iman gətirən ilk qadın olub. 25 il Həzrətlə birgə ömür sürdü və 65 yaşında vəfat etdi. Həzrət Rəsulun bu qadından iki oğlu və dörd qızı oldu. Oğlanları bunlardır:

**1. Qasim.** O, Həzrət Rəsulun ilk övladıdır və besətdən əvvəl Məkkədə anadan olmuşdur. Həmin uşağa görə Həzrət Rəsula Əbül Qasim (Qasimin atası) deyilir.

**2. Əbdüllah.** O, Həzrətin besətindən sonra Məkkədə anadan olmuş və elə orada da vəfat etmişdir. Onun ölümündən sonra As ibn Vail Həzrət Rəsula «əbtər» (sonsuz) deyərək tənə vurdu. «Kövsər» surəsi onun sözünü rədd etmək üçün nazil oldu.

Həzrətin Xədicədən olan qızları:

**1. Zeynəb.** O, Qasimdən sonra anadan olmuşdur. Besətdən əvvəl xalası oğlu Əbül As ilə evləndi və Bədr döyüşündən sonra Mədinəyə köçdü.

**2. Rüqəyya.** Zeynəbdən sonra, besətdən əvvəl Məkkədə anadan olmuşdu və Əbu Ləhəbin oğlu Ənbəh ilə ailə qurmaq istəyirdi. Amma toydan əvvəl ondan ayrıldı, sonra Osman ibn Əffana ərə getdi və hicrətin ikinci ilində Bədr döyüşündən sonra vəfat etdi.

**3. Ümmü Gülsüm.** O da Əbu Ləhəbin oğlanlarının birinə ərə getmək istəyirdi, amma toydan əvvəl ondan ayrılıb hicrətin doqquzuncu ilində dünyadan getdi.

**4. Fatimə (s.ə).** O, Həzrət Rəsulun son qızıdır. Şiə alimlərinin fikirlərinə əsasən besətin 5–ci ilində anadan olmuşdu və Həzrət Rəsulun vəfatından bir az sonra vəfat etdi.

## PEYĞƏMBƏRİN (S) OĞULLUĞU

Zeyd ibn Haris Peyğəmbərin oğulluğudur. Ərəb yolkəsənləri onu Şam sərhədlərindən oğurlayıb Məkkə bazarında satmışdılar. Nəhayət, o, Xədicənin mülkiyyətinə keçmiş və o da onu Peyğəmbərə bağışlamışdır. Peyğəmbər onunla elə rəftar edirdi ki, hətta Haris Məkkəyə gəlib oğlunu Peyğəmbərin yanında görəndə, Həzrət, Zeydi Məkkədə qalmaq, yaxud atası ilə getməkdə sərbəst buraxmışdı. O isə Peyğəmbərin yanında qalmağı üstün tutmuşdu. Beləliklə, Zeyd Peyğəmbərin yanında qaldı və «Mutə» döyüşündə islam ordusunun sərkərdələrindən biri kimi şəhid oldu.

## HƏCƏRÜL-ƏSVƏDİN QOYULMASI

Məkkə dağlarından güclü sel gəlib şəhərə ağır xəsarət yetirdi. Kəbəyə də xeyli ziyan dəydi. Qüreyş qəbiləsi qərara gəldi ki, Kəbəni abad etsinlər. Lakin onu uçuraraq yenidən qurmaq məsələsində tərəddüd edirdilər. Əbrəhənin taleyi onları çox bərk narahat edirdi. Nəhayət, Vəlid ibn Müğeyrə təşəbbüs göstərdi və bir neçə nəfərlə Kəbəni uçurdu. Təsadüfən o günlər Cəddənin yaxınlığında Misirdən gələn romalı bir kişinin gəmisi tufan nəticəsində dağılmış və taxtaları sahildə qalmışdı. Qüreyş qəbiləsi bu hadisədən xəbərdar oldu. Gəminin taxtalarını alıb Kəbənin tikintisində istifadə etmək üçün bir neçə nəfəri oraya göndərdilər.

Kəbənin divarları insan boyu qədər ucaldıldı, lakin Həcərül-Əsvədin öz yerinə qoyulması məsələsində qəbilə başçıları arasında ixtilaf yarandı. Hər kəs istəyirdi ki, Həcərül-Əsvədi özü qaldırsın. İş çox həssas yerə çatmışdı, az qalırdı ki, Məscidül-Həramda qanlı döyüş başlansın. Bu əsnada Məxzum qəbiləsindən olan qoca bir kişi başçılarını bir yerə yığıb

dedi: «Hamınız Babüs-Səlamdan daxil olan ilk şəxsi hakimliyə qəbul edin və onun bu barədəki fikrini əsas götürün». Bir az sonra Əmini-Qüreyş həmin qapıdan daxil oldu. Hamılıqla dedilər ki, bu Məhəmmədi-Əmindir. O nə hökm etsə, ona da razıyıq. Həzrət Rəsul əmr etdi ki, bir parça gətirib daşı onun arasına qoysunlar. Sonra dörd nəfərdən ibarət qəbilə başçılarından xahiş etdi ki, hər biri parçanın bir tərəfindən yapışıb Kəbə divarının dibinə gətirsinlər. Daşı gətirəndən sonra mübarək əli ilə onu öz yerinə qoydu və beləliklə də yersiz qan tökülməsinin qarşısını aldı.

## PEYĞƏMBƏR (S) ƏLİNİ ÖZ EVİNƏ APARDI

Qıtlıq illərinin birində Həzrət Rəsul əmisi Əbutalibə yardım etmək qərarına gəlir. Bu məqsədlə digər əmisi Abbasla məsləhətləşir və belə qərara gəlirlər ki, hər biri Əbutalibin uşaqlarından birini öz evinə aparsın. Həzrət Rəsul Əlini, Abbas isə Cəfəri öz evinə aparır.

Məşhur tarixçi Əbül-Fərəc İsfahani yazır: «Abbas Talibi, Həmzə Cəfəri və Həzrət Rəsul Əlini öz evlərinə apardılar. O zaman Həzrət Rəsul dedi: «O kəsi seçdim ki, Allah onu mənim üçün seçib».[21]

Burada əsas məram Əbutalibə yardım etmək olsaydı da, son məqsəd bu idi ki, Əli (ə) Peyğəmbərin (s) yanında boya-başa çatıb tərbiyə alsın və onun gözəl əxlaqını əxz etsin.

Həzrət Əmir «Nəhcül-bəlağə»də bu barədə deyir: «Sizin hamınız Allahın Rəsulu ilə yaxın olmağımdan, habelə onun yanında olan xüsusi mövqeyimdən agahsınız. O məni öz qucağında böyütdü, uşaq olanda məni sinəsinə sıxar və yataq yerimi öz yanında salardı. Mən də Həzrətin xoş ətrini iylər, hər gün əxlaqından bir şey öyrənərdim»[22]

---

[21] «Sireyi ibn Hişam», Əl Kamil.
[22] «Nəhcül–bəlağə», l90–cı xütbə.

## PEYĞƏMBƏRİN (S) BESƏTDƏN ƏVVƏLKİ DİNİ

Həzrət Peyğəmbər anadan olduğu vaxtdan son gününə qədər Allahdan başqasına əsla pərəstiş etmədi. Həmçinin onu saxlayanlar Əbdülmüttəlib və Əbutalib də Allahpərəst və təkallahçı idilər. Qeyd etdiyimiz kimi, fil ordusu hücum edəndə Əbdülmüttəlib Kəbənin həlqəsindən yapışıb öz Allahı ilə münacata başladı və dedi: «İlahi, səndən başqasına ümidimiz yoxdur…»

Eləcə də Əbutalib qıtlıq və quraqlıq illərində qardaşı oğlunu müqəddəs ocağa aparıb Allahı onun (Peyğəmbərin) adına and verər və yağış istəyərdi. Onun bu barədə bir neçə şeri var ki, tarix kitablarında yazılmışdır. Hətta Peyğəmbər Busra rahibi Büheyra ilə söhbət edəndə ərəblərin məşhur bütlərinə qarşı öz nifrətini bildirdi. Rahib ona «Səni Lat və Üzzaya and verirəm, soruşduğum sualların cavabını ver» – deyəndə Həzrət Rəsul acıqlanıb dedi: «Məni heç vaxt Lat və Üzzaya and vermə. Mənim gözümdə onlara pərəstiş etməkdən pis şey yoxdur».

Sonra rahib dedi: «Səni and verirəm Allaha, soruşduğum şeylərdən məni agah et».

Həzrət Rəsul buyurdu: «İstədiyin şeyi soruş».[23]

Bunların hamısı sübut edir ki, Həzrət Rəsul (s) və Əbdülmüttəlibin övladlarının hamısı Allahpərəst və təkallahçı olmuşlar. O Həzrətin təkallahçı olmasına dair ən mühüm sübut Hira mağarasında bir guşəyə çəkilib Allaha ibadət etməsidir. Peyğəmbərin həyatından yazanların hamısı qeyd etmişlər ki, Həzrət Rəsul ildə bir neçə ay Hira mağarasında Allaha ibadət edərmiş. Möminlərin əmiri Həzrət Əli bu barədə belə deyir:

«Peyğəmbər hər il Hirada qalardı. Mən onu görərdim, amma məndən başqa onu heç kim görməzdi».[24]

---

23 «Tarixül–xəmis».
24 «Nəhcül-bəlağə», 234-cü xütbə.

Hətta Həzrət peyğəmbərliyə başlayandan sonra da mağarada ibadətlə məşğul olurdu.

Həzrət Əli (ə) Peyğəmbərin (s) həyatından belə xəbər verir: «Peyğəmbər süddən kəsilən gündən Allah onun tərbiyəsi üçün böyük bir mələk nazil etdi. O mələk gecə-gündüz yaxşı əxlaqı və alicənablığı ona öyrədirdi».[25]

Əlbəttə, belə bir evdə tərbiyə görən və süddən kəsilən vaxtdan etibarən böyük bir mələyin tərbiyəsi altında olan şəxs heç şübhəsiz ki, təkallahçı olmalı və həmin yoldan bir an belə dönməməlidir.

Amma əsas məsələ budur ki, görəsən Həzrət besətdən əvvəl hansı səmavi ayinə əməl edirdi: İbrahimin ayinində idi, yoxsa Həzrət Məsihin şəriətində, yaxud öz şəriətində? Burada fikirlər müxtəlif olduğundan onların barəsində danışmırıq.

---

[25] «Nəhcül–bəlağə», Qasiə xütbəsi.

## BEŞİNCİ FƏSİL

### BESƏTDƏN GİZLİ DƏVƏTLƏRƏDƏK

Allah-Təala hər bir varlığı müəyyən məqsəd üçün yaratmış və onu həmin məqsədə doğru aparan vasitələrlə təchiz etmişdir. Bir gül, bitki, kiçik və ya böyük bir canlının yaradılışı barədə düşünmək kifayət edər. Qurani-Məcid bu kimi yönəldilmədən belə söz açır:

«O Allah ki, hər bir varlığı yaratdı, onu təkamül və məqsədə doğru yönəltdi».

Buna görə də gülün toxumu, ağacın çərdəyi, heyvanın balası özündən asılı olmayaraq həmin məqsədə doğru hərəkət edir. Bu yaradılışın yönəltməsidir ki, hiss, təcrübə, Quran və vəhy onu təsdiq edir. Bundan əlavə, insan üçün başqa bir yönəltmə də var ki, ona «təşrii» yönəltmə deyilir. Bu yönəltmədən məqsəd həyat, danışıq və davranışları ilahi məqamla bağlı olan seçilmiş şəxslər tərəfindən insanın istiqamətləndirilməsidir.

Peyğəmbərlərdə belə bir ləyaqət və qabiliyyət var ki, ilahi göstərişləri birbaşa Allah-Təaladan alsınlar, bizdən gizli olan həqiqətləri o məqamdan xəbər vasitəsi ilə öyrənsinlər. Bu xəbərlərə dini terminlə vəhy deyilir. Başqa sözlə desək, onlar elə bir sirli qüvvəyə malikdirlər ki, Allahın sözünü eşidə bilir, ruhları şairlərin dərk edə bilmədikləri həqiqətlərdən agah olurlar. Onlar vəhyi aldıqdan sonra onu xalqa çatdırıb cəmiyyəti insani təkamül yoluna yönəltməyə çalışırlar.

Varlığın mənşəyi ilə əlaqədə olan bu insanlar bir sıra imtiyazlara və xüsusiyyətlərə malikdirlər ki, bu, səmavi kitablarda (kəlam elmində) bəyan olmuşdur.

Qeyd etmək lazımdır ki, peyğəmbərin dedikləri, xalqı dəvət etdikləri şey ilahi məqamdan aldıqları göstərişlərdir. Yəni onların vücudlarında qoyulan uzaqgörən «sistemlər» və «sirli qəbuledicilər» ilahi göstərişləri azaldıb-çoxaltmadan alır və camaata çatdırırlar. Buradan məlum olur ki,

peyğəmbərlər mütəfəkkirlər və fitri istedada malik insanlardan fərqlənirlər. Ola bilsin ki, hər iki qrup yüksək maarifə və həqiqətlərə çatmış olsunlar, lakin peyğəmbərlərin dedikləri-ilahi məqamdan aldıqları Allah sözüdür, halbuki mütəfəkkirlərin və fitri istedada malik insanların dediyi söz onların beyninin, elmi araşdırmalarının və düşüncənin məhsuludur. Xülasə, peyğəmbərlər düşüncə, ağıl və zəka qüvvəsindən əlavə, «vəhy» adlı başqa bir qüvvəyə də malikdirlər. Bu qüvvə onları birbaşa həqiqətlərlə əlaqələndirir və onda zərrə qədər belə səhv yoxdur.

## PEYĞƏMBƏR (S) HİRA DAĞINDA

Hira dağı Məkkənin şimalında yerləşir. Onun içərisində bir mağara var ki, arasından keçəndən sonra oraya çatmaq olur. Onun ucalığı insan boyu qədərdir. Mağaranın bir hissəsini günəş işıqlandırır, digər hissələri isə həmişə qaranlıqdır. Həzrət Rəsul hər il rəcəb və ramazan aylarında evindən çıxıb mağaraya gedir və Allaha ibadət etməklə məşğul olurdu. Təbiidir ki, bu ibadət və pərəstişlərdə məqsəd özünü tərbiyə etmək və insanları cəhalətdən, xurafatdan xilas etməkdən ibarət olan ağır məsuliyyəti qəbul etməyə hazırlıq görmək idi.

Peyğəmbər 40 yaşında ibadətdə, yaradılış aləminin dərk olunmasına qərq olan halda vəhy mələyi ona nazil oldu. Onun əlində bir lövhə var idi və təkid edirdi ki, «oxu!» O Həzrət vəhy mələyinə cavab verib dedi: «Mən oxuya bilmirəm». Vəhy mələyi bir daha təkidlə oxumasını əmr etdi. O da həmin cavabı təkrar etdi. Üçüncü dəfə vəhy mələyi təkrar etdikdə birdən-birə oxumağa mane olan pərdələr kənara çəkildi və lövhəni oxumaq üçün özündə qabiliyyət gördü. Gördü ki, yazılıb:

«Oxu, aləmi yaradan Pərvərdigarının adı ilə. O, insanı laxta qandan yaratdı. Oxu, bir halda ki, sənin Pərvərdigarın əzizdir. Bir Pərvərdigar ki, qələm vasitəsi ilə təlim verdi, insana bilmədiyini öyrətdi».

Peyğəmbərin qəlbi vəhy nuru ilə işıqlandı. Vəhy mələyindən öyrəndikləri ruhunun səhifəsində həkk oldu. Mələk ona xitabən: «Sən Allahın Rəsulu, mən də Cəbrailəm» – dedi.

Tarixi mənbələrdə yazılıb ki, bu anlar iztirab və həyəcan Peyğəmbərin bədənini bürümüşdü; öhdəsinə qoyulan vəzifənin ağırlığından irəli gələn iztirab! O, bu sözləri eşitdikdən sonra Xədicənin evinə gedib macəranı söylədi. Sonra yorğun olduğunu bildirdi və «mənim üstümü basır» – dedi. (Sonra Həzrət yorğunluğunu almaq üçün bir az istirahət etdi).

Xədicə hörmətli ərindən eşitdiklərini ərəb bilicilərindən sayılan, habelə Tövrat və İncildən məlumatı olan əmioğlusu Vərqət ibn Nofələ söylədi. Vərqət Xədicəyə dedi ki, Məhəmməd doğru danışandır, bu onun peyğəmbərliyinin başlanğıcıdır. Musaya nazil olan mələk ona da nazil olmuşdur.[26]

Burada bir neçə məsələni xatırlamalıyıq:

Nə üçün Həzrət Rəsul, ona vəhy nazil olan vaxta qədər ümmi (savadsız) olub yazıb-oxumağı bacarmırdı? Quran özü bu sualın cavabını belə vermişdir ki, əgər Həzrət Rəsul besətdən əvvəl yazıb-oxumağı bacarsaydı, hökmən ondan bəhrələnə və belə olan surətdə peyğəmbərliyə seçilən vaxt ittihamlara məruz qalardı. «Onun Quran adlandırdığı şeylər öz zəka və düşüncəsinin məhsuludur və qabaqkı peyğəmbərin kitablarını oxumaqla bu məcmuəni hazırlayaraq bizim ixtiyarımızda qoymuşdur» – deyərdilər. Allah qərəzçilərin bəhanələrinin qarşısını almaq üçün Həzrət Rəsulun o vaxta qədər yazıb-oxumağa meyl etməsinin qarşısını almışdır. Bir ayədə bu həqiqətə işarə edilir: «Sən bundan əvvəl heç bir kitabı oxumurdun, heç bir şeyi yazmırdın. Əgər belə olmasaydı, batilə meyl edən şəxslər sənin peyğəmbərliyində şübhə edərdilər». («Ənkəbut», 48-ci ayə)

Əlbəttə, besətdən əvvəl nəinki yazıb-oxumaq qüdrəti, üstəlik şer qoşmaq qüvvəsi də ona verilməmişdi ki, Quranın onun şeriyyət qüvvəsindən irəli gəldiyini təsəvvür edərlər. «Biz ona şer öyrətmədik və onun məqamı da ona yaraşmaz». («Yasin», 69-cu ayə)

---

[26] «Sireyi ibn Hişam», 1-ci cild; «Səhihi Buxari», 1-ci cild.

Əlbəttə, Allah ali bir məqsəd üçün besətdən əvvəl yazıb-oxumaq və ya şer demək qüdrətini ona verməmiş və elmi termində olduğu kimi, daha mühüm olan məsələni nisbətən mühüm olandan üstün tutmuşdur.

Vəhy nazil olan vaxtda Peyğəmbərin cisminə göstərilən təzyiq Cəbrail tərəfindən olan ruhi dəyişikliyin nəticəsi idi. Peyğəmbər ona vəhy nazil olan vaxt Allah-Təala ilə əlaqədə olur. Vəhyə dözmək heç də asan iş deyil və təbiidir ki, Peyğəmbərin bədənində bir sıra əks-təsir qoyacaqdı. Rəvayətlərdə bu əks-təsirə təzyiq deyilir.

İslam Peyğəmbərinin mövlud günü barədə iki fıkir olduğu kimi, peyğəmbərliyə başladığı gün barədə də rəylər müxtəlifdir. O Həzrətin övladları besət gününü rəcəbin 27-si hesab edirlər, amma bəziləri besətin orucluq ayında, bəziləri isə rəbi ayının onunda baş verdiyini qeyd edirlər.

Düzdür, Quran ramazan ayını vəhy ayı kimi təqdim edib deyir:

«Biz onu Qədr gecəsində nazil etdik». (Bildiyimiz kimi, Qədr gecəsi ramazan ayındadır).

Başqa ayədə deyir:

«Ramazan ayı elə bir aydır ki, Quran o ayda nazil olubdur».

Əlbəttə, Quranın ramazan ayında nazil olması, besətin rəcəb ayının 27-də olmasına mane ola bilməz. Ona görə ki, Quranın ramazan ayında nazil olmasını sübut edən o iki ayədə məqsəd Quranın bütün ayələrinin nazil olmasıdır. Lakin besətdə nazil olan ayə bütövlükdə beş ayədir. Quranın bütün ayələrinin bir ayda, beş ayəsinin başqa bir ayda nazil olması heç də ziddiyyətli məsələ deyildir.

## MACƏRANIN ARDI

Həzrət Rəsul dincəldikdən sonra Cəbrail bir daha nazil oldu və ona xitabən dedi:

«Ey palaza bürünmüş, qalx və insanları ilahi əzabdan qorxut və Allahına təkbir de» («Müddəssir», 1-3-cü ayə).

Bu ayə ilə Peyğəmbərə bildirilir ki, bəzilərini gizli olaraq öz ayininə dəvət etsin. Bu zaman «Əssabiqun» (iman gətirməkdə qabaqcıl olanlar) sözü ortaya çıxır. Qadınlar arasında həzrət Xədicə ona ilk iman gətirən qadındır. Müqəddəslərin həyatından yazanların hamısı bunu təsdiq edir.

Ayişə deyir: «Mən Xədicənin yaşadığı dövranı görə bilmədiyimdən həmişə təəssüflənirdim və Peyğəmbərin rəhmətə getmiş bu arvadına olan məhəbbətindən təəccüblənirdim. O, həmişə arvadını yad edərdi. Əgər qoyun kəssəydi, onun bir hissəsini Xədicənin dostlarına göndərərdi. Həzrətdən bu qədər məhəbbətin səbəbini soruşduqda dedi: «O elə bir vaxt mənə iman gətirdi ki, hamı küfr və şübhə içində idi. Sərvətini ən çətin vaxtlarımda mənim ixtiyarımda qoydu və Allah ondan mənə elə övladlar bağışladı ki, onları digər arvadlarımdan verməyib» («Biharül-ənvar», 16-cı cild, səh.8).

## KİŞİLƏRDƏN İMAN GƏTİRƏN İLK ŞƏXS

Tarix və hədislərə əsasən, Əli (ə) kişilər içində Həzrət Rəsula iman gətirən ilk şəxsdir və səbəbi də aydındır. Əvvəllər qeyd etdiyimiz kimi, Peyğəmbər besətdən əvvəl Həzrət Əlini öz evinə apardı və elə ilk gündən başlayaraq ondakı istedad və qabiliyyəti çiçəkləndirməyə çalışdı. Belə bir tərbiyə görmüş şəxs təbiidir ki, başqalarından tez iman gətirəcəkdir. Bundan əlavə, Həzrət Əli də özünü Həzrət Rəsula iman gətirən ilk şəxs kimi təqdim edir:

«Peyğəmbər Hira dağında olan günlərdə mən onu görürdüm və məndən başqa heç kəs onu görmürdü. Belə bir gündə Həzrət Rəsul və Xədicənin yaşadığı evdən başqa heç bir evdə islamın nuru saçmırdı. Mən o evin üçüncü adamı idim ki, vəhy işığını görür və peyğəmbərliyin xoş ətrini iyləyirdim. (Həzrət sonra əlavə edir;) İlahi! Sən bilirsən ki, mən Həzrət Rəsulun dəvətinə müsbət cavab verən ilk şəxsəm və məndən əvvəl (Peyğəmbərdən başqa) heç kəs namaz qılan olmamışdır» («Nəhcül-bəlağə», l90-cı xütbə).

İbn Hişam islam Peyğəmbərinin həyat tarixinin mötəbər mənbələrindən biri sayılan əsərində Əlini Peyğəmbərə iman gətirən ilk şəxs kimi təqdim edir və deyir: «Əli on yaşında ikən ona iman gətirdi». Sonra Əlinin Məkkə dağlarında Həzrət Rəsul (s) ilə birlikdə namaz qılmasını söyləmişdir. [27]

Bundan əlavə, sünni alimləri də bu barədə çoxlu rəvayətlər nəql etmiş və Əlinin Peyğəmbərə iman gətirən ilk şəxs olduğunu təsdiq etmişlər. Bu rəvayətləri Seyyid Haşim Bəhreyninin «Ğayətül-məram» və Əllamə Əbdülhüseyn Əmini Təbrizinin «Əl-ğədir» kitablarında oxuya bilərsiniz.

## PEYĞƏMBƏRƏ DƏSTƏMAZ VƏ NAMAZ ÖYRƏDİLMƏSİ

Besətin ikinci günü vəhy mələyi nazil olaraq dəstəmaz və namazı Allahın Rəsuluna öyrətdi. Həzrət Rəsula vacib olan ilk namaz günorta namazı idi. Cəbrail dəstəmaz alıb namaz qıldı və namazın vaxtlarını təyin etdi. O Həzrət də bu qayda ilə dəstəmaz alıb namaz qıldı. Sonra Xədicə və Əli (ə) həmin qayda ilə dəstəmaz alıb namaz qıldılar. O günlər Həzrət Peyğəmbər namazları iki rükət qılırdı, sonralar Allahın əmri ilə günorta, axşam və xiftən namazlarına iki rükət də artırıldı. [28]

## İLAHİ VƏHYLƏR NAZİL OLUR

İlahinin istəyinə əsasən Quranın ayələri tədricən və tələbata, ehtiyaca uyğun nazil olmuşdur. Bu baxımdan Quran ayələrinin hamısı 23 il ərzində nazil olmuşdur. Quranın bəzi ayələrində də həmin məsələyə işarə edilir: «Biz Quranı tədricən göndərdik ki, onu tələsmədən xalqa oxuyasan» («İsra»,106-cı ayə).

Başqa bir ayədə deyilir: (Düşmənlər deyirlər:) «Quran nə üçün bir yerdə nazil olmadı?» (Onların cavabında de:) «Ona görə ki, sənin qəlbini vəhy

---

[27] («Sireyi ibn Hişam», 1-ci cild, səh. 240).
[28] («Sireyi ibn Hişam»).

mənbəyi ilə olan ardıcıl əlaqələrlə daha da möhkəmləndirmiş olaq» («Fürqan», 32-ci ayə).

Buna əsasən demək lazımdır ki, «Ələq» və «Müddəssir» surələri nazil olduqdan sonra başqa ayələr dərhal nazil olmayıbdır. Bəzən müvəqqəti olaraq məsləhət görülürdü ki, vəhy nazil olmasın. Beləliklə, əgər tarixdə «Ələq» və «Müddəssir» surələri nazil olduqdan sonra vəhyin bir müddət nazil olmaması məsələsi ilə rastlaşsaq təəccüblənməməliyik. Ona görə ki, həmin müddətdə vəhyin nazil olmasına ehtiyac duyulmurdu. Tarixdə vəhyin çatdırılması adlı bir məsələ vardır ki, onun təfsiri dediyimiz kimidir. Yəni bu vaxtlar Peyğəmbərin digər Peyğəmbərlik dövrləri kimi idi və ilahi vəhy peyğəmbərliyin bütün dövründə tədricən nazil olmuşdur.

## ALTINCI FƏSİL

### QOHUMLARIN İSLAMA DƏVƏT OLUNMASI VƏ QÜREYŞİN MÜNASİBƏTİ

Həzrət Peyğəmbər üç il gizli şəkildə təbliğat apardı. Bu müddət ərzində ümumi camaatı deyil, müəyyən şəxslər və fərdləri yetişdirməyə diqqət yetirdi. Zaman belə tələb edirdi ki, o öz dəvətini aşkar etməsin və gizli yolla bir dəstəni öz ayininə dəvət etsin. Bu gizli dəvətin nəticəsində bir dəstəni tovhid məktəbinə cəlb edə bildi. Tarixdə bu dövrdə onun ayinini qəbul edən şəxslərin adı aşağıdakı ardıcıllıqla qeyd olunmuşdur:

Həzrət Xədicə, Əliyyibni Əbitalib, Zeyd ibn Harisə, Zübeyr ibn Əvam, Əbdürrəhman ibn Ovf, Səd ibn Əbivəqqas, Təlhət ibn Əbdullah, Əbu Übeydət ibn Cərrah, Əbusəlmə, Ərqəm ibn Əbil-ərqəm, Qüdamət ibn Məzun, Əbdullah ibn Məzun, Übeydət ibil-Haris, Səd ibn Zeyd, Xəbbab ibn Ərət, Əbubəkr ibn Əbiquhafə, Osman ibn Əffan və s. («Sireyi ibn Hişam»).

Qüreyş başçıları bu üç il ərzində sərməst və sərxoşluğa məşğul idilər. Həzrət Rəsulun dəvətindən az-çox xəbərdar olmalarına baxmayaraq, özləri heç bir əks-əməl göstərmirdilər.

Həzrət Rəsul bu üç il ərzində öz köməkçiləri ilə birlikdə Məkkənin dərələrinə gedib Qureyşin gözündən uzaq yerdə  namaz qılarkən bəziləri buna etiraz edib onları danladılar. Nəticədə Həzrət Rəsulun tərəfdarları ilə müxaliflərin arasında toqquşma baş verdi. Allahsızlardan biri Səd Vəqqas tərəfindən yaralandı. Buna görə Həzrət Rəsul Ərqəmin evini ibadət mərkəzi seçdi və orada təbliğata başladı. Əmmar Yasir və Süheyb ibn Sənan o evdə Həzrət Rəsula iman gətirən şəxslərdəndir.

Üç ildən sonra Həzrət Peyğəmbərə əmr olundu ki, qohumlarını tovhid ayininə dəvət etsin. Qohumları başqa şəxslərdən əvvəl dəvət etmək düzgün işdir. Ona görə ki, daxili islah etmək islahatın təməlidir. Bundan əlavə, əgər qohumları dəvət etmək işi həll olunsa, qeyrilərini dəvət etmək asan olar. Nəticədə qohumların imanı düşmənlərin hücumları

qarşısında müdafiə rolunu oynaya bilər. Bunun da faydası ən azı bu ola bilər ki, hətta qohumları onun dininə qəlbən iman gətirməsələr belə (imanları qohumluq əlaqəsinə görə olsa) onu müdafiə edər və düşmənlərdən qoruyarlar. Halbuki onun qohumlarından bəziləri dəvətin elə ilk günlərindən Həzrət Rəsula iman gətirmişdilər. Buna görə Allah Öz peyğəmbərinə əmr edir ki, yaxın qohumlarını dəvət etsin:

«Öz qohumlarını tovhid ayininə çağır».

## QOHUMLAR NECƏ DƏVƏT OLUNDU

Tarixçilər və təfsirçilərin əksəriyyəti yuxarıda qeyd olunan ayənin təfsirində bu macəranı nəql etmişlər:

Peyğəmbər (s) Allah tərəfindən öz qohumlarını dəvət etməyə dair göstəriş aldıqda Əliyə (ə) yanında süd olan yemək hazırlamasını əmr etdi. Sonra Bəni-Haşimin başçılarından 45 nəfəri dəvət etdi. Bu qonaqlıqda məqsəd hamını öz ayini ilə tanış etmək idi. Çağırılanlardan biri olan Əbuləhəb əsassız və yüngül sözlərlə məclisi pozdu və buna görə Peyğəmbər dəvətini başqa günə keçirdi. Sonrakı gün Əbuləhəbdən başqa yenə hamısını çağırdı. Yeməkdən sonra onlara xitabən dedi: «Hər hansı bir dəstənin yolgöstərəni öz adamlarına heç vaxt yalan deməz. Tək olan Allaha and olsun, mən Onun tərəfindən göndərilmişəm. Ey mənim qohumlarım! Siz yatan insanlar kimi öləcək, onlar kimi də ayılıb-diriləcəksiniz və hər bir şəxs öz əməlinə görə mükafat alacaq, yaxud cəzalanacaq. Əməli düz insanlar üçün cənnət, pis əməl sahibləri üçün cəhənnəm var. Heç kəs öz adamlarına mənim sizə gətirdiyimi verməyibdir. Mən sizin üçün hər iki dünya xeyrini gətirmişəm. Allahım mənə əmr etmişdir ki, sizin hamınızı Ona tərəf çağıram. Sizlərdən hər kəs bu dəvəti qəbul edib məni himayə etsə və mənim tərəfdarım olsa, o, mənim qardaşım və canişinimdir». Həzrətin sözləri buraya çatdıqda Əli (ə) məclisin sükutunu pozdu və Peyğəmbəri himayə edəcəyini bildirdi. Peyğəmbər ona əmr etdi ki, otursun. Bu məclisdə Peyğəmbər sözünü üç dəfə təkrar etdi. Hər dəfə də Əli (ə) qalxıb öz tərəfdarlığını bildirdi. Bu

anda Peyğəmbər onun haqqında belə dedi: «Əli mənim qardaşım, canişinim və sizin aranızdakı xəlifəmdir Onun sözünü eşidin və əmrinə tabe olun».[29] Hədis terminində «Bədüd-dəvət», «Yövmüddar» və «Yövmül-inzar» adlanan bu hədis tez-tez təkrarlanan hədislərdəndir. Təfsirçilərin və tarixçilərin hamısı bunu qeyd etmişlər.

Bu bizə çox mühüm bir məsələni xatırladır və göstərir ki, «Peyğəmbərlik» və «İmamət» məsələsi bir-biri ilə sıx bağlıdır. Çünki gördüyümüz kimi, Həzrət Peyğəmbər peyğəmbərliyini elan edərkən özündən sonrakı canişini və xəlifəni də tanıtdırır.

## ÜMUMİ ÇAĞIRIŞ

Artıq ümumi dəvətin vaxtı da gəlib çatmışdı. Gizli və xüsusi çağırışların, həmçinin qohumların dəvətindən sonra ümumxalq dəvətinə ehtiyac duyulurdu. Allah ona belə əmr edir:

«Sənə tapşırılan məsələni aşkar et və allahsızlardan uzaq ol. Biz sənə istehza edən düşmənlərin şərindən səni qoruyacağıq». («Hicr», 94-95-ci ayə)

Peyğəmbər dəvətini müxtəlif şəkildə aşkar etdi ki, indi biz onlardan bəzilərini qeyd edirik:

- Peyğəmbərin besətindən üç il keçəndən sonra allahsızlar onun çağırışından xəbərdar oldular və bildilər ki, o, bütpərəstliyi pisləyir və kafirlərin pis aqibətlərindən xəbər verir. Bir gün Həzrət ayağa qalxıb dedi: «Mən Allah tərəfindən göndərilmişəm. Mən sizi Allaha ibadət etməyə və bütlərə pərəstiş etməkdən əl çəkməyə dəvət edirəm: Elə bütlər ki, nə faydaları var, nə də ziyanları: nə ruzi verirlər, nə dirildirlər, nə də öldürürlər»[30]

[29] («Tarixe Təbəri», 2-ci cild, səh.62; «Tarixe Kamil», 2-ci cild, səh.40; «Müsnəde Əhməd», I-ci cild, səh.111).
[30] «Tarixe Yəqub»

- Həzrət Peyğəmbər əynində qırmızı arxalıq «Ükaz» bazarında ayağa qalxıb dedi: «Ay camaat, «la ilahə illallah» deyin ki, səadətə çatasınız». Bu vaxt Əbuləhəb onun ardınca qaçıb dedi: «Camaat, bu mənim qardaşoğlumdur, ondan uzaq olun!»[31]
- Bir gün Peyğəmbər «Səfa» bazarında hündür bir daşın üstünə çıxıb «Ya səbahən»[32] sözünü uca səslə dedi. Onun səsi bazar və məsciddə başı işə, söhbətə qarışan böyük bir dəstənin diqqətini cəlb etdi. Sonra onlara xitabən dedi: «Əgər mən sizə desəm ki, düşmənləriniz bu dağın arxasında pusquda durub, sizə hücum etmək istəyirlər, mənim sözümü qəbul etməzsinizmi?» Hamı bir ağızdan «qəbul edərik» dedi. Ona görə ki, ömür boyu ondan yalan söz eşitməmişdilər. Sonra buyurdu: «Mən sizə deyirəm ki, özünüzü axirət əzabından xilas edin. Mən Allahın hüzurunda sizin üçün bir iş görə bilmərəm. Mən sizi dərdli əzabdan qorxuduram. Mən düşməni uzaqdan görüb dərhal öz xalqını təhlükədən qurtarmaq üçün onlara tərəf tələsən və onları «Ya səbahən» nidası ilə təhlükədən xəbərdar edən bir keşikçi kimiyəm».

## QÜREYŞİN ƏKS-ƏMƏLİ

Şübhə yoxdur ki, müəyyən bir əqidə əsasında tərbiyə olunan şəxslər istər-istəməz öz əqidələrinə hörmət bəsləyir və islahatçıların dəvətləri qarşısında dayanırlar. Bu, bütün cəmiyyətlərdə olan təəssüb əhval-ruhiyyəsidir. Cahiliyyət dövrünün ərəbləri də qızmar səhralarda tərbiyə olunduqlarına və dünya təfəkkür tərzi ilə əlaqədə olmadıqlarına görə bu əhval-ruhiyyəyə malik idilər. Buna görə də bütpərəst ərəblər Peyğəmbərin dəvəti qarşısında dayanıb müxtəlif yollarla onun dəvətinə maneə törədirdilər.

---

[31] «Tarixe Yəqub»
[32] Ərəblər bu sözü böyük bir hadisə baş verəndə camaatın diqqətini cəlb etmək üçün deyərdilər.

## QÜREYŞ BAŞÇILARI ƏBUTALİBİN YANINA GƏLİR

Qüreyş başçıları əvvəlcə elə bir iş görmək istədilər ki, Əbutalib qardaşı oğlunu himayə etməkdən çəkinsin. Onlar bu məqsədlə bir neçə dəfə Əbutalibin yanına getdilər ki, tarixdə hamısı qeyd olunmuşdur və biz onların bəzisini qeyd edirik:

- İslamın yayılmasından qorxuya düşən Qüreyş başçıları Məkkənin rəisi olan Əbutalibin yanına gəlib belə dedilər: «Sənin qardaşın oğlu bizim tanıdıqlarımıza nalayiq sözlər deyir və bizim ayinimizə istehza edir. Əqidələrimizə gülür, ata-babalarımızı yoldan azmış hesab edir. Ona de ki, öz dəvətindən əl çəksin, ya da sən onu himayə etməkdən çəkin».

Əbutalib onlarla yumşaq danışdı və onlar macəranı izləməkdən əl çəkdilər.

- Bir müddətdən sonra islamın genişlənməsi Qüreyşi daha artıq vahiməyə saldı. Bir daha Əbutalibin yanına getdilər və dedilər: «Əbutalib! Sən yaşda, ləyaqətdə və məqamda bizdən üstünsən, biz sənə demişdik ki, öz qardaşın oğlunu dəvətindən çəkindirəsən, amma heç bir iş görmədin, biz daha dözə bilmərik ki, bir şəxs ata-babalarımızın yolunu pisləsin, əqidələrimizi yüngül saysın, tanrılarımıza nalayiq sözlər desin. Ya gərək o bu işindən əl çəksin, ya da onunla mübarizəyə qalxacağıq. Belə olan halda iki tərəfdən biri məhv olacaq».

Əbutalib qardaşıoğlu ilə danışdı və vəziyyəti onunla müzakirə etdi. Peyğəmbər öz məqsədi və məramı yolunda müqavimət və mətinliyini göstərən tarixi sözünü belə bəyan etdi: «Əmican! And olsun Allaha, əgər məni öz dəvətimdən saxlamaq üçün Günəşi sağ əlimə, Ayı sol əlimə versələr (bütün aləmi versələr) heç vaxt bu işdən əl çəkməyəcəyəm. Təki ya Allah mənim ayinimi qalib etsin, ya da bu yolda ölüm».

Bu vaxt Peyğəmbərin gözləri yaşardı, ağladı və qalxıb Əbutalibin yanından getmək istədi. Əmisi onu səslədi və dedi: «Qardaşoğlum, yaxın

gəl!» Peyğəmbər irəlilədi. Əbutalib dedi: «Get, öz dəvətini aşkar et, istədiyini de, mən heç vaxt səni tək qoymayacağam».

- Qüreyş başçıları islamın günbəgün genişlənib yayılınası və nəticədə çoxallahlılıq sisteminin məhv olub aradan gedəcəyindən qorxuya düşmüşdülər. Onlar üçüncü dəfə Əbutalibin yanına gəlib dedilər: «Sən Məhəmmədi oğulluğa götürmüsən və ona görə də onu himayə edirsən. Onu himayə etməkdən əl çəkib Vəlid ibn Müğeyrənin oğlunu oğulluğa götürə bilərsənmi? Vəlidin oğlu şair, natiq, gözəl və ağıllıdır».

Keçmiş görüşlərdə yumşaq danışan Əbutalib onların ağlasığmaz təkliflərindən qəzəblənib uca səslə dedi: «Bu nə sözdür?! Mən öz oğlumu və ciyərimin parçasını sizin ixtiyarınızda qoyum ki, onu öldürəsiniz və Vəlidin oğlunu öz yanımda saxlayım?! And olsun Allaha, bu iş qeyri mümkündür»[33]

Onların Əbutaliblə apardıqları danışıqlar və ağlasığmaz təklifləri göstərir ki, Peyğəmbərin dəvətinin mahiyyətindən, habelə Əbutalibin qardaşıoğluna olan məhəbbətindən və ayininə qəlbən iman gətirməsindən xəbərsiz imişlər. Ona görə də bu görüşlərin heç biri Peyğəmbərin ruhiyyəsinə, Əbutalibin o Həzrətə qarşı olan məhəbbətinə və bu yoldakı müqavimətinə təsir göstərmədi.

[33] Qüreyş başçılarının Əbutaliblə görüşlərini İbn Hişam öz kitabında (1-ci cild, səh.264-267) qeyd etmişdir.

## YEDDİNCİ FƏSİL

# İSLAM PEYĞƏMBƏRİNƏ (S) MAL-DÖVLƏT TƏKLİF EDİLMƏSİ, HƏDƏLƏNMƏSİ VƏ HƏBƏŞİSTANA MÜHACİRƏT

Qüreyşlilərin birinci əks-əməli ilə tanış olduq. İndi isə onların digər əks-əməlləri ilə tanış olaq.

## PEYĞƏMBƏRƏ (S) MAL-DÖVLƏT TƏKLİFİ

Qüreyş başçıları Əbutaliblə danışıqlardan sonra məyus oldular və bildilər ki, o, nəyin bahasına olursa-olsun qardaşıoğlunu himayə etməkdən əl çəkməyəcəkdir. Belə qərara gəldilər ki, Peyğəmbərin özü ilə danışsınlar və ona sərvət, mal-dövlət və mənsəb verməklə dəvətindən çəkindirsinlər. Bu məqsədlə gün batandan sonra bir dəstə Kəbənin kənarında oturub Peyğəmbərin dalınca bir adam göndərdilər ki, onu çağırsın. Həzrət Rəsul onların məclisinə gəldi və yanlarında oturdu. Məclisin sahibi ona xitabən dedi: «Heç kəs sənin etdiyini etməyib. Sən bizim atalarımız haqqında pis sözlər demisən, onların ayinlərinə istehza edibsən, bizim tanrılarımıza xoşagəlməz sözlər deyibsən, əqidələrimizi yüngül sayıbsan və birliyimizi pozmusan. Bu dəvətdən sənin məqsədin nədir? Əgər məqsədin mal-dövlət toplamaqdırsa, biz sənə o qədər mal-dövlət verərik ki, bizim içimizdə ən sərvətli şəxs sən olarsan; əgər başçı olmaq üçün qiyam edibsənsə, biz səni özümüzə başçı seçərik; əgər hökmran olmaq istəyirsənsə, biz səni özümüzə hökmran edərik; və əgər ruhi xəstəliyə tutulubsansa, biz sənin müalicən üçün ən yaxşı həkim gətirərik». Həzrət Rəsul onların təkliflərinə belə cavab verdi:

«Mən nə sərvət, nə başçılıq, nə də hökmranlıq üçün göndərilmişəm. Allah məni peyğəmbər seçib sizə tərəf göndərmiş və mənə kitab da nazil etmişdir. Məni qorxudan və müjdə verən qərar vermişdir. Mənim öhdəmdə olan peyğəmbərliyi sizə çatdırdım. Məndən qəbul etsəniz, hər iki dünyada səadətə çatacaqsınız. Yox əgər onu qəbul etməsəniz, mən öz

yolumdan dönməyəcəyəm, təki Allah sizinlə mənim aramda mühakimə etsin».

## PEYĞƏMBƏRƏ (S) İŞGƏNCƏ VERİLMƏSİ

Qüreyş başçılarının üçüncü əks-əməli işgəncə vermək idi. Onlardan birini burada qeyd edirik: Həzrət Rəsulun inadkar düşmənlərinin bir dəstəsi (adları tarixdə qeyd olunmuşdur) öz qulam və uşaqlarını öyrədirdilər ki, Peyğəmbərə əziyyət versinlər. Hətta günlərin birində onlardan biri dəvəni öldürüb qulamına əmr etdi ki, onun qarın-qurşağını, bağırsaqlarını Peyğəmbər səcdə halında olan vaxtda onun çiyninə atsın. Həzrət Rəsul bu cür hörmətsizliyin qarşısında bir söz demədi, bu hadisəni təkcə əmisi Əbutalibə dedi. Əbutalib öz qulamı ilə birlikdə qılınc əlində onlara tərəf gəlib Həzrət Rəsulun düşmənlərinə dedi: «And olsun, birinizin səsi çıxsa, öldürərəm!» Sonra qulamına tapşırdı ki, qarın-qurşağı götürüb onların hamısının çiyinlərinə sürtsün.

## QÜREYŞ BAŞÇILARI PEYĞƏMBƏRİ ÖLDÜRMƏK QƏRARINA GƏLİRLƏR

Müxtəlif işgəncələr Peyğəmbəri iradəsindən döndərə bilmədi. O zaman Əbucəhl başda olmaqla bir dəstə allahsız Həzrəti öldürmək qərarına gəldi. Tarixdə yazılıb ki, Əbucəhl qısa bir çıxışdan sonra Həzrət Rəsulu öldürmək üçün öz fikrini elan etdi. Qüreyşdən bir dəstə də onu Bəni-Haşim tayfasının qarşısında himayə edəcəklərini bildirdi. Peyğəmbər o günün sabahı Beytül-Müqəddəsə tərəf namaz qılırdı. Həzrət səcdəyə gedəndə Əbucəhl əlinə böyük bir daş götürdü və fürsəti qənimət sayıb Həzrəti öldürmək üçün ona tərəf gəldi. Amma qorxu canını elə bürüdü ki, rəngi qaçmış halda öz tərəfdarlarına sarı qayıtdı. Hamı qabağa qaçıb «nə oldu» deyə soruşdular. O, qorxu və iztirabdan doğan zəif bir səslə dedi:

«Qarşımda elə bir mənzərə göründü ki, ömrümdə belə bir şey görməmişdim. Ona görə öz fikrimdən döndüm».[34]

Əbucəhli bu işdən saxlayan dəhşətli mənzərə elə qeybdən gələn yardımlardır ki, Allah Həzrət Rəsula onun vədəsini vermişdir («Hicr» surəsi, 95–ci ayə).

## HƏZRƏT RƏSULUN (S) KÖMƏKÇİLƏRİNƏ İŞGƏNCƏ VERİLMƏSİ

Qüreyş başçılarının Həzrət Rəsulun qarşısında göstərdikləri beşinci əks-əməl o Həzrətin köməkçilərinə işgəncə vermək idi. Tarixin səhifələri bunu özündə əks etdirmişdir. İşgəncəyə məruz qalanlardan bəzilərinin adlarını qeyd edirik:

Yasir, Süməyyə, Əmmar, Bilal, Xəbbab ibn Ərət, Sühəyb ibn Sinan Rumi və s.

İşgəncələr adətən həbs etmək, döymək, ac və susuz saxlamaq, qızmar daşların üstündə yatırtmaq, sinələrinə ağır daş qoymaq və s. kimi formalarda olurdu. Amma Əmmarın atası Yasir və anası Süməyyəyə verilən işgəncə daha acınacaqlı idi. Əmmarın valideynləri Ərqəmin evində iman gətirənlərdəndirlər. Allahsızlar bu üç nəfərin iman gətirməsindən xəbərdar olduqda onları hər gün günün qızmar çağında evdən çıxardıb qızmar günəş altında qalmağa məcbur edirdilər. Bu işgəncəni o qədər təkrar etdilər ki, nəhayət, Yasir o isti havada, yarımcan olan Süməyyə isə Əbucəhlin onun qəlbinə sancdığı süngüdən can verdi. Əmmar öz canını qorumaq üçün zahirən islamdan döndü, amma qəlbən öz imanını qoruyub saxladı. O, Həzrət Peyğəmbərin yanına gəlib hadisəni danışdıqda Həzrət onun işini alqışlayıb dedi: «Heç qorxma! Düşmənlərin şərindən qurtarmaq üçün öz imanını gizlət».

---

[34] «Sireyi ibn Hişam»

Əmmarın gördüyü işin təsdiqində bu ayə nazil oldu: «Küfrə təzahür etməyə məcbur olan və gizlində etiqadlı olan şəxsdən başqa». («Nəhl», 106-cı ayə).

Qeyd etdiklərimiz Qüreyşin imanlı insanlara qarşı rəva gördüyü işgəncələrdən nümunələr idi. Onlar elə insanlar idi ki, heç bir qiymətə islamı başqa şeylə dəyişmir, işgəncə və əzaba düçar olmalarına baxmayaraq, islamı aşkar edib təbliğ etməkdən çəkinmirdilər. Bir gün Həzrət Rəsulun köməkçiləri bir yerə yığışıb belə qərara gəldilər ki, onlardan biri uca səslə məscidin sükutunu pozub Qurandan bir neçə ayə oxusun. Püşk atdılar, Əbdüllah ibn Məsuda düşdü. O, Qüreyş başçılarının oturduqları yerin yaxınlığına gəlib könüloxşayan, məlahətli və gözəl səsi ilə «Ərrəhman» surəsindən bir neçə ayə oxudu. Bu ayələr onları vəhşət və qorxuya saldı. Hamısı ayağa qalxıb Əbdüllah ibn Məsudu o qədər döydülər ki, başından qan axdı, üz-gözü qanlı halda yoldaşlarının yanına qayıtdı. Amma Allah kəlamını Qüreyş başçılarının qulağına çatdırdığından çox xoşhal idi. Hətta belə qərara gəlmişdi ki, bu işi yenə də təkrar etsin, lakin yoldaşları qoymadı.

Tarix məqsəd və ideyaları yolunda fədakarlıq edən şəxsləri çox görmüşdür. Lakin Həzrət Rəsulun düşmənlərinin, o cümlədən Əbu Süfyanın etiraf etdiyi kimi, tarix Peyğəmbərin tərəfdarları kimi fədakar və canfəşan şəxslər görməyibdir.

## HƏBƏŞİSTANA MÜHACİRƏT

Həzrət Peyğəmbər və Bəni-Haşim tayfasından bəziləri Əbutalibin himayəsi sayəsində düşmənin təhlükəsindən müəyyən qədər amanda idilər. Amma bəzi müsəlmanların vəziyyəti çox çətin və üzücü idi. Ona görə Peyğəmbər məsləhət gördü ki, onlar Həbəşistana mühacirət etsinlər. Həzrət buyurdu: «Həbəşistanda bir hökmdar var ki, orada heç kəsə zülm olunmur. Siz vəziyyət yaxşılaşana qədər orada qala bilərsiniz».

Buna görə bir dəstə müsəlman bəziləri atlı, bəziləri isə piyada Osman ibn Məzunun başçılığı altında Məkkədən Cəddəyə gəlib dəniz yolu ilə

Həbəşistana getmək istədilər. O zaman arvad-uşaqla birlikdə dəniz səfərinə çıxmaq çox çətin idi. Amma bu çətinliyə dözmək onların imanlarının möhkəmliyini göstərir. Müsəlmanlar Cəddəyə yetişdikdə təsadüfən iki ticarət gəmisi Həbəşistana doğru yola düşməkdə idi. Müsəlmanlar adambaşı yarım dinar verib gəmiyə mindilər. Gəmi hərəkətə başladı. Düşmənlər xəbərdar olduqda bir dəstəni Cəddəyə göndərdilər ki, onların səfərlərinin qarşısını alsınlar. Lakin onlar oraya çatanda artıq gəmilər yola düşmüşdü. Onlar müxtəlif qəbilələrdən olan şəxslər idilər və bu, islamda baş verən ilk hicrət idi.

Bu dəstə besətin beşinci ilinin rəcəb ayında hicrət etmişdi və on kişi (başqa bir rəvayətə görə isə on bir kişi) və dörd qadından ibarət idi. Onlar şəban və ramazan aylarını orada qaldılar. Qüreyşin müsəlmanlara əziyyət verməkdən əl çəkməsi barədə xəbər onlara çatdıqda, yəni şəvval ayında Məkkəyə qayıtdılar. Amma vəziyyətin tam əksinə olduğunu görüb yenidən Həbəşistana qayıtdılar.

## HƏBƏŞİSTANA İKİNCİ MÜHACİRƏT

Müsəlmanların ikinci mühacirəti Cəfər ibn Əbutalibin başçılığı ilə oldu. Onun rəhbərlik etdiyi dəstə Məkkədə yaşayan müxtəlif qəbilələrdən idi. Bunların adları, mənsub olduqları qəbilə və sayları tarixdə qeyd olunmuşdur. Böyük islam tarixçisi İbn Hişam onların bütün xüsusiyyətlərini bəyan etmişdir. O yazır: «Bu dəstə 83 kişi və 18 qadından ibarət idi ki, dinlərini qorumaq üçün Həbəşistana getdilər».

Əlbəttə, uşaqların, habelə Həbəşistanda dünyaya gələn körpələrin sayı bu siyahıda göstərilməmişdir.

## MÜHACİRLƏRİ QAYTARMAQ SƏYLƏRİ

Həbəşistan mühacirlər üçün unudulmaz bir diyar oldu. Ona görə ki, müsəlmanlar orada adil bir hökmdar və azad mühitlə qarşılaşdılar. Bu cəhətdən dini vəzifələrini yerinə yetirməkdə heç bir maneə ilə üzləş-

mədilər. Mühacirlərdən biri olan Əbdüllah ibn Hərəs öz şerlərində bu ölkəni çox gözəl vəsf etmişdir. Onun üç beytinin məzmunu belədir:

«Allah bəndələrinin hamısı Məkkədə zəncirə çəkilmişlər. Amma biz Allah diyarını Məkkədən geniş gördük; bura bizi alçaqlıqdan qurtardı. Ey qeyrətli şəxslər, alçaqlığa boyun əyməyin!» («Sireyi ibn Hişam» 1-ci cild, səh.353)

Həbəşistanda müsəlmanların azadlıq xəbəri Qüreyş başçılarını daha çox qorxuya saldı. Onlar müsəlmanların Həbəşistan padşahının sarayına yol tapıb Nəcaşiyə nüfuz etmələrindən və onun qəlbini islama tərəf döndərərək möhkəm bir mövqeyə malik ağır qoşunla Qüreyşə hücum etmələrindən qorxurdular. Ona görə qərara gəldilər ki, iki məharətli siyasətçini Əbdüllah ibn Əbirəbiəni və Əmr ibn Ası Həbəşistan padşahının yanına göndərsinlər. Onlar padşahın ətrafındakıların diqqətini özlərinə cəlb etmək üçün bir qədər hədiyyə də tədarük gördülər. Qüreyş başçıları onlara göstəriş verdilər ki, əvvəlcə padşahın ətrafındakı keşişlərin hədiyyələrini çatdırıb nəzərlərini öz tələblərinə cəlb etsinlər. Sonra isə Nəcaşinin yanına gedib hədiyyələri versinlər və sözlərini desinlər. Mühacir müsəlmanlardan biri olan Ümmü Sələmə deyir: «Bu iki şəxs əvvəlcə keşişlərin hədiyyələrini verib dedilər: «Bizim qəbiləmizdən səfeh və dinlərindən dönmüş bir dəstə gənc sizin ölkənizə gəlib və sizin dininizi də qəbul etməyiblər. Onlar yeni bir din gətirmişlər ki, nə siz o dini rəsmi şəkildə tanıyırsınız, nə də biz. Onların qəbilələrinin böyükləri bizi bu ölkənin başçısının yanına göndərmişlər ki, onları Məkkəyə qaytaraq. Bizim istəyimiz budur ki, fikrimizi Nəcaşiyə dedikdə, siz də onu təsdiq edin ki, qaçaqların qayıtmasına razılıq versin. Sizdən xahiş edirik ki, onlarla danışmayasınız. Ona görə ki, qohumları onları daha yaxşı tanıyır və zəif cəhətlərindən xəbərdardırlar».

Hədiyyələri qəbul etməklə Qüreyş nümayəndələrinin istəklərinə razı olan sarayın ruhani vəzirləri söz verdilər ki, padşahın nəzərini cəlb etsinlər. Qüreyş nümayəndələri xüsusi hədiyyələrlə Həbəşistan hökmdarının hüzuruna da gedib hədiyyələri ona verdilər. O da

hədiyyələri qəbul etdi. Sonra onlar padşaha xitabən dedilər: «Bizim ölkəmizdən bir neçə ağılsız cavan sizə pənah gətirmişdir, öz dinlərini tərk etmiş, sizin dininizi də qəbul etməmişlər. Yəni bir din gətirmişlər ki, biz və siz onu rəsmi şəkildə tanımırıq. Bu qaçqınların böyükləri bizi sizin hüzurunuza göndərmişlər ki, onların Məkkəyə qayıtmalarına zəmin yaradaq. Ona görə ki, onların böyükləri bunları yaxşı tanıyır və eyblərindən daha çox agahdırlar».

Burada vəzirlər də onların sözünü təsdiq edib dedilər ki, düzdür, hər qəbilənin başçısı o qəbilə üzvlərini daha yaxşı tanıyar. Gərək həmin dəstə bu iki nəfərə tapşırılsın ki, onları öz ölkələrinə qaytarsınlar.

Nəcaşi tam ayıqlıqla başa düşdü ki, burada bir hiylə qurulmuşdur. Odur ki, bütün vəzirlərin həmin iki nəfərin sözlərini təsdiq etməsindən şübhələndi. Ona görə də qəzəblənib dedi: «And olsun Allaha! Heç vaxt mənim ölkəmə pənah gətirənləri bu iki nəfərə təhvil vermərəm. Əsla düz iş deyil ki, mənə pənah gətirən, mənim ölkəmə sığınan və məni başqalarından üstün sayan bir dəstəni onların düşmənlərinin ixtiyarında qoyum. Amma bu dəstə ilə danışandan və onların bu iki şəxs haqqındakı fikirlərini soruşduqdan sonra onları bu iki şəxsin dediyi kimi görsəm, təbiidir ki, təhvil verib öz ölkələrinə qaytaracağam. Əgər əksinə olsa bu iki şəxsin onlara əziyyət verməsinin qarşısını alacaq və onları bu ölkədə əzizləyəcəyəm».

Sonra Nəcaşi bu dəstənin dalınca bir məmur göndərdi ki, onların nümayəndələri ilə danışsın. Nəcaşinin ətrafındakılar əvvəlcə müsəlmanların nümayəndəsi Cəfər ibn Əbutaliblə danışdılar və ondan soruşanda ki, Nəcaşinin suallarının cavabında nə deyəcəksən, cavab verdi ki, həqiqəti söyləyəcəyəm, Peyğəmbərin bizə əmr etdiyini deyəcəyəm. Bu halda müsəlmanların nümayəndəsinə daxil olmaq üçün icazə verildi. O, Nəcaşinin hüzuruna gəldi. Məsihi alimləri İncil əllərində onun ətrafında oturub kitabları açmışdılar. Nəcaşi Cəfərdən soruşdu: «Öz qəbilənizin dinindən dönməyinizə səbəb olan bu yeni din necə dindir?»

Cəfər ibn Əbutalib sözlərini belə başladı: «Ey padşah! Biz bir dəstə cahil və nadan insanlar idik. Bütlərə pərəstiş edər, ölü heyvan əti yeyər, pis işlər görər, qohumluq əlaqələrini qırardıq. Güclülər zəiflərin haqqını tapdalayardı. Biz belə bir cəhalətdə ikən, Allah bizim öz içimizdən əsil-nəsəbindən, doğruçuluğundan, etibarlılığından və alicənablığından xəbərdar olduğumuz bir şəxsi peyğəmbərliyə seçdi. O, bizi tək olan Allaha pərəstiş etməyə çağırdı və daşdan, palçıqdan düzəldilmiş bütlərə pərəstiş etməkdən çəkindirdi. O, bizə göstəriş verdi ki, doğruçu, etibarlı olaq, qohumluq əlaqələrini qoruyub saxlayaq və qonşu hüququna riayət etməyə adət edək. Bizi qan tökməkdən, pis iş görməkdən, zorakılıqdan, yetim malını yeməkdən və iffətli, pak qadınları bədnam etməkdən çəkindirdi. O göstəriş verdi ki, tək bir Allaha pərəstiş edək və Ona heç bir şərik qoşmayaq; namaz qılaq, zəkat verək, oruc tutaq… (Sonra İslam təlimlərindən bir neçəsini sadalayıb əlavə etdi:) Biz Allahın Rəsulunu təsdiq etdik, ona iman gətirib tabeliyində olduq, haram etdiklərini haram bildik və qadağan etdikləri işlərə yaxın düşmədik. Bu halda bizim qəbiləmizin başçıları bizə işgəncə verdilər ki, biz Allaha pərəstiş etməkdən çəkinib yenidən bütlərə pərəstiş edək və yenidən pis işlərə qayıdaq. Elə ki, onların işgəncələri bizim üçün dözülməz oldu və bizə öz dinimizdə qalmağa icazə vermədilər, sizin ölkənizə pənah gətirdik və ümidvarıq ki, bu ölkədə bizə zülm olunmasın».

Ayıq hökmdar sözün doğruluğunu daha ətraflı bilmək üçün müsəlmanların nümayəndəsindən istədi ki, Peyğəmbərin onlara gətirdiyi Qurandan bizə ayə oxusun. Cəfər ibn Əbutalib fürsəti qənimət sayıb məclisə uyğun olaraq «Məryəm» surəsinin əvvəllərindən bir az oxudu. (Bu surədə Zəkəriyya, Yəhya və Həzrət Məryəmin paklığından söz getmiş, Həzrət Məsih gözəl təriflənmişdir).

Nəcaşi bu ayələri eşitdikdə ağladı. Təkcə o yox, hətta məsihi ruhaniləri də ağladılar və göz yaşları əllərindəki İncillərin üzərinə axdı. Sonra Nəcaşi müsəlmanların nümayəndələrinin sözünü təsdiq edib dedi: «Sizin peyğəmbərinizin və Həzrət Məsihin gətirdiyi eyni mənbədəndir.» Sonra

Qüreyş nümayəndələrinə dedi: «Qayıdın, bilin ki, heç vaxt bunları sizə təhvil verməərəm!»

## ƏMR ASIN HİYLƏSİ

Qüreyş nümayəndələri rüsvayçılıqla məğlub olub Həbəşistan padşahının hüzurundan çıxdıqdan sonra da öz məqsədlərinə çatmaq üçün yeni bir plan fikrində idilər. Əmr As yoldaşına dedi: «Mən sabah başqa bir tədbirlə padşahın hüzuruna gedəcəyəm.»

Ertəsi gün hər ikisi Nəcaşinin yanına getdilər. Əmr As ona dedi: «Bunlar Həzrət Məsih haqqında elə sözlər deyirlər ki, sizin fikirlərinizə heç də müvafiq deyildir».

Nəcaşi onların dalınca adam göndərdi və müsəlmanların nümayəndəsini çağırdı. Cəfər ibn Əbutalib məclisə daxil olub islamın Həzrət Məsih barəsindəki nəzərini belə bəyan elədi: «O, Allahın bəndəsi, Peyğəmbəri, Allahın ruhu və Onun kəlməsi idi ki, onu iffətli bir qız olan Məryəmə ilqa etdi».

Nəcaşi müsəlmanların nümayəndəsinin dediyindən xoşhal olub yerdən kiçik bir çubuq götürdü və dedi: «And olsun Allaha, Həzrət Məsih bu ağac qədər (yəni zərrə qədər) də sənin dediyindən artıq deyil». Sonra üzünü Cəfərə tutub dedi: «Siz bu ölkədə azadsınız və mənim mülkümdə əmin-amanlıqdasınız. (Bu cümləni üç dəfə təkrar edib sonra əlavə etdi:) Hər kəs sizə əziyyət versə, cəzalanacaqdır. Mənə hətta bir dağ qədər qızıl versələr də belə, sizlərdən birini narahat etməyə razı olmaram».

Sonra padşah Qüreyşin hədiyyələrini geri qaytarıb dedi: «Durun gedin, hədiyyələri öz sahiblərinə çatdırın. Mənim «hədiyyə» adı ilə verilən rüşvətə ehtiyacım yoxdur. And olsun Allaha, hökmdar olduğum gündən bir kəsdən rüşvət almamışam».[35]

---

[35] «Sireyi ibn Hişam»; 1-ci cild, səh.335; «Tarixe Kamil», 2-ci cild, səh.53. «Tarixe Təbəri», 2-ci cild, səh.73.

## SƏKKİZİNCİ FƏSİL

### QÜREYŞİN DİGƏR TƏDBİRLƏRİ

Qüreyşin elçiləri tam məğlubiyyətlə Məkkəyə qayıtdılar və bu onların nigarançılığını daha da artırdı. Ona görə ki, bir tərəfdən mühacir müsəlmanların həmin ölkədə tam azad halda yaşamaları xəbərini eşidirdilər, digər tərəfdən isə xəbər gəlirdi ki, islam dini qəbilələrin arasında yayılır və günbəgün müsəlmanların sayı artır. Hətta görürdülər ki, Peyğəmbərin qatı düşmənlərinin bəzisi də islamı qəbul edirlər. Bu kimi hadisələr onların nigarançılıqlarına səbəb olurdu. Bu dəfə onlar başqa bir hiyləyə əl atmaq istədilər. Bu hiylə isə heç bir dünya islahatçısının amanda qala bilmədiyi töhmətlərdən idi. Amma buna diqqət yetirmək lazımdır ki, bir nəfərin şəxsiyyətini düşmənin ona qarşı işlətdiyi nalayiq sözlərdən və vurduğu töhmətlərdən tanımaq olar. Ona görə ki, düşmən həmişə hər hansı bir şəxsiyyəti cəmiyyətin qəbul etdiyi (hətta ən aşağı səviyyədə də olsa) şeylərlə ittiham edir. Ona görə ki, əks təqdirdə ittiham nəinki təsirsiz olar, üstəlik əks-nəticə verər. Bu baxımdan hər hansı bir təhlilçi müəyyən bir şəxsə deyilən ittihamlardan onun cəmiyyətdə nə səviyyədə olduğunu öyrənə bilər. Biz tarixə nəzər saldıqda görürük ki, Qüreyş başçıları o qədər düşmənçilikləri ilə belə heç vaxt Həzrəti namusa və mala təcavüz etməkdə ittiham etməmişlər və əsla bu fikirdə olmayıblar. Ona görə ki, Peyğəmbərin etibarlı olduğunu və cəmiyyətin onu etibarlı bir şəxs kimi tanıdığını, həmçinin etibarlılıqla namusa və mala təcavüzün uyğun gəlmədiyini bilirdilər. Bu halda necə deyə bilərdilər ki o, təcavüzkardır. Halbuki onun qırx illik həyatı düzlüyündən, paklığından xəbər verir. Buna görə Həzrəti bu kimi sözlərlə ittiham edə bilmədilər. Nəhayət, onu yalançı, sehrkar, cadugər və dəli kimi sifətlərlə günahlandırdılar. Hər şeydən artıq onun sehrkar, Quranın isə sehr kitabı olduğuna təkid edir və belə dəlil gətirirdilər: O, cadugərdir ki, cadu ilə iki dostun, ər-arvadın arasına ayrılıq salır. Bu kişi Quranın

vasitəsi ilə qəbilələrin və ailələrin arasında ixtilaf salır və onların birliyini pozur. Əgər bu söz doğru olsa, onda deməliyik ki, bütün dünya islahatçıları sehrkar və cadugər imişlər! Ona görə ki, heç bir islahat müqavimət və ayrılıq olmadan mümkün deyil. İbn Hişam yazır: «Həcc mövsümü yaxınlaşanda Allah Evi ziyarətçiləri Hicazdan gəlib Kəbənin ətrafına toplaşırdılar. Bu zaman Peyğəmbərin düşmənləri Vəlid ibn Müğeyrənin yanına gəlib dedilər: «Həcc mövsümü yaxınlaşıbdır. Allah Evi ziyarətçiləri Məhəmməd haqqında bizdən bəzi şeylər soruşacaqlar. Yaxşı olar ki, hamımız bir söz deyək. Bu barədə sizin nəzəriniz nədir? Bizdən də Məhəmməd haqqında soruşanda sizin nəzərinizi deyək».

Vəlid üzünü onlara çevirib dedi: «Deyin görüm sizin fikriniz nədir?»

Onlar dedilər: «Biz deyirik ki, o, kahindir».

Vəlid dedi: «Əsla belə deyildir! O, nə kahinlər kimi zümzümə edir, nə də onlar kimi qafiyəli sözlər danışır».

Dedilər: «Deyərik ki, dəlidir»

Vəlid: «O, dəli deyil, dəlilikdən heç bir əsər-əlamət yoxdur.»

Dedilər: «Şairdir və onun Quranı şer kitabıdır».

Dedi: «Onun Quranı şer də deyildir».

Dedilər: «Deyərik sehrkar və cadugərdir».

Vəlid dedi: «Biz sehrkar və cadugər görmüşük, onun işlərinin sehr və caduya dəxli yoxdur».

Nəhayət, fikirləşib dedi: Çarəmiz yoxdur, gərək onu sehrkar və cadugər kimi tanıtdıraq. Çünki öz dili və Quranı vasitəsilə bizim aramızda ayrılıq salmışdır».

## QURANLA QARŞILAŞMAQ

Qüreyş başçıları daha bir plan hazırladılar. Həzrət Rəsulun inadkar düşmənlərindən olan Həzr ibn Haris ibn Kəldəni məcbur etdilər ki, Məkkədə təşkil olunan məclislərdə iştirak edib İran padşahlarından Rüstəm və İsfəndiyar barədə eşitdikləri nağılları söyləməklə məclisləri qızışdırsın. Onlar elə təsəvvür edirdilər ki, Quranın cazibədarlığı keçmiş

qəbilələr haqqında söz açmaqdır. Buna görə də Həzrət Rəsul hər vaxt keçmiş qəbilələr barədə ayələr oxuyandan sonra Həzr onun yerində oturub İran padşahlarından bəhs edən nağıllar söyləyirdi. Amma onların bu hiyləsi təsirsiz idi və bundan heç də bəhrələnə bilmədilər.

## QURANI DİNLƏMƏYİ YASAQ ETMƏK

Qüreyş başçılarının Peyğəmbərin əleyhinə təbliğat aparması və onu sehrbazlıqda ittihamlaması nəzərə çarpacaq nəticə vermədi. Ona görə başqa bir hiylə hazırladılar və belə bir qanun çıxartdılar ki, heç kəsin Quranı dinləməyə haqqı yoxdur. Bu iş üçün hətta Məkkənin müxtəlif yerlərində casuslar qoydular ki, oraya gələn ziyarətçilərin Quranı dinləmələrinin qarşısını alsınlar. Quran bu barədə deyir: «Kafirlər dedilər ki, bu Qurana qulaq asmayın və ondan ayə oxunduqda hay-küy salın, bəlkə düşmənə qalib gəldiniz». («Füssilət», 26-cı ayə)

Qüreyş başçıları görürdü ki, Allah Evi ziyarətçiləri, xüsusilə düşüncəli şəxslər Qurandan bir neçə ayə dinləməklə ruhən dəyişilirlər; onun sözünün cazibədarlığını elə hiss etmişdilər ki, artıq yəqin bilirdilər ki, kiçik bir əlaqə onları islama yönəldə bilər. Buna görə islamın nüfuz edib yayılmasının qarşısını almaq üçün bu hiyləyə əl atdılar. Bu barədə tarixdə bir sıra hadisələr yazılmışdır ki, bəzisini qeyd edirik.

Tüfeyl ibn Əmr Dusiz. O, böyük şair, söz ustadı, ağıllı və zəkalı bir şəxs idi. Məkkəyə daxil olduqda Qüreyşdən bir dəstə bu şəxsin Peyğəmbərlə əlaqə yaratmasından qorxurdular. Ona görə də dərhal onun yanına gedib Peyğəmbər barədə nalayiq sözlər danışıb dedilər ki, bu şəxsin gətirdiyi din bizim birliyimizi pozub. Onun sehr və cadudan başqa bir şey olmayan Quranı ata ilə oğul, qardaşla qardaş və ərlə arvad arasında ayrılıq salmışdır. Qorxuruq ki, bizim qəbiləmizə dəyən xəsarət sizin də qəbilənizə dəysin. Əsla onunla danışma və ya ondan bir şey eşitmə!

Tüfeyl deyir: «And olsun Allaha, Qüreyş başçılarının təbliğatı Peyğəmbərdən bir şey eşitməyimə və onunla danışmağıma imkan vermədi».

Hətta Kəbəni dolanmaq məqsədi ilə Məscidül-Hərama daxil oldum, qulağıma pambıq tıxadım ki, onun sözlərini eşitməyim. Amma özümdən asılı olmayaraq gözüm Həzrət Rəsula sataşdı. O, Kəbənin kənarında namaz qılmağa məşğul idi. Özümdən ixtiyarsız olaraq onun yaxınlığında durdum, elə bil Allah mənim çox gözəl və cazibədar cümlələri eşitməyimi istəmişdi. Öz-özümə dedim: «Vay olsun mənə! Mən özüm ağıllı bir adamam, şair və söz ustasıyam, yaxşı olar ki, onun sözlərini eşidim. Faydalı olsa, qəbul edim, yox əgər faydalı olmasa, rədd edim». Buna görə bir az dayandım. Peyğəmbər öz evinə tərəf getdi, mən də onun ardınca getdim. O, evə daxil olarkən mən də daxil olub yanında əyləşdim. Sonra başıma gələnləri ona deyib əlavə etdim ki, mən onların təbliğatlarının təsiri altında qalmışdım və sənin sözlərini eşitməmək üçün qulaqlarıma pambıq tıxamışdım. Amma Allah istəmişdi ki, mən sənin sözlərini eşidəm, onları gözəl və faydalı biləm. İndi xahiş edirəm ki, öz dininin həqiqətini mənə başa salasan. Həzrət Qurandan bir neçə ayə oxumaqla ayinini mənə izah etdi».

Tüfeyl Dusi deyir: «And olsun Allaha, o gözəllikdə söz, o möhkəmlikdə ayin eşitməmişdim. Mən kəlmeyi şəhadəti dedim və öz qəbiləmdə nüfuzlu şəxs olduğumu, qayıdandan sonra onları islama dəvət edəcəyimi Peyğəmbərə bildirdim və ondan istədim ki, Allahdan mənim üçün yardım diləsin».

Nəhayət, o öz qəbiləsinə tərəf qayıtdı və təbliğatla məşğul oldu. Xeybər müharibəsində Həzrət Rəsul fəsad yuvalarını dağıdandan sonra o, səksən ailə ilə birlikdə Həzrət Rəsulun hüzuruna gəldi. Peyğəmbər onun çəkdiyi zəhmətlərinə görə Xeybər müharibəsində əldə edilən qənimətlərdən bir hissəsini ona bağışladı.

Əlbəttə, bu, təkcə Tüfeyl Dusi deyildi ki, Qüreyş başçıları onun Peyğəmbərlə əlaqə yaratmasına əngəl törədirdilər.

Əşa cahiliyyət dövründə ərəb xalqının böyük şairlərindən biri idi. İslamın səsi onun qulağına çatmışdı və onun təlimlərindən az-çox xəbərdar idi. Bu halda uzun bir qəsidə qoşub islamın bəzi təlimlərini

onda yerləşdirdi. O, şerləri qoşduqdan sonra Məkkəyə yollandı və Həzrət Rəsulun hüzuruna gəlib öz qəsidəsini təqdim etməklə islamı qəbul etmək istədi. Məkkəyə daxil olduqda Qüreyş başçıları ətrafına yığışıb onun məqsədindən xəbərdar oldular. O da məqsədini açıq-aydın bəyan etdi. Şeytançılıqlar başlandı, müxtəlif hiyləgərliklərlə bu kişinin Həzrət Rəsul ilə görüşməsinə mane oldular. O, öz vətəninə qayıdıb sonrakı il Həzrətin hüzuruna getmək qərarına gəldi. Amma əcəl möhlət vermədi və həmin yerdə vəfat etdi.

Nəcran və Həbəşistan xristianlarından 20 nəfər Peyğəmbərin dəvətindən məlumat əldə etmək üçün Məkkəyə daxil oldular. Onlar Həzrət Rəsulu məsciddə görüb yanında oturdular və söhbətə başladılar. Söhbət qurtardıqdan sonra Peyğəmbər Qurandan bir neçə ayə oxudu. Bu ayələr onların əhval-ruhiyyələrində elə dərin təsir buraxdı ki, özlərindən asılı olmayaraq gözlərindən yaş axmağa başladı. Sonra Peyğəmbərə iman gətirib başa düşdülər ki, İncildə vədəsi verilən peyğəmbər barəsində qeyd olunanların hamısı o Həzrətdə vardır. Həzrət Rəsulun hüzurundan durub getmək istədikləri vaxt Əbucəhl onların yolunu kəsib dedi: «Nə ağılsız camaatsınız! Həbəş xalqı sizi bu din barəsində tədqiqat aparmaq üçün göndərmişdir, amma siz öz dininizi dərhal buraxıb onu təsdiq etməyə başladınız”.

Onlar Əbucəhlin cavabında dedilər: «Bizim sizinlə əsla bəhsimiz yoxdur. Biz öz dinimizdəyik, siz də öz dininizdə. Amma bilin ki, biz özümüz üçün səadət bildiyimiz şeydən heç vaxt əl çəkmərik”. («Qisəs surəsi», 52-ci ayə).

## İQTİSADİ MÜHARİBƏ

İslamın qəbilələr arasında yayılması və Əbutalibin Həzrət Rəsulu himayə etməsi qüreyşlilərin başqa bir tədbir töküb müsəlmanları daha da sıxışdırmasına səbəb oldu. Belə qərara gəldilər ki, Bəni-Haşim qəbiləsinin əleyhinə bir müqavilə imzalasınlar və başqalarına da qol çəkdirsinlər. Çünki onlar artıq islamın genişlənməsinin qarşısını almaqda aciz idilər.

Müqavilənin xülasəsi belə idi: «Heç kəsin Bəni-Haşim qəbiləsi ilə alver etməyə, qız verib, qız almağa haqqı yoxdur. Bütün işlərdə Məhəmmədin müxaliflərinə tərəf çıxmaq lazımdır».

Bu müqavilәni Mənsur ibn Əkrəmə yazdı və səksən nəfər ona qol çəkdi. Hamılıqla söz verdilər ki, müqavilənin maddələrini əməldə həyata keçirsinlər. Sonra onu Kəbənin içərisindən asdılar. Qüreyşin adlı-sanlı şəxsiyyətlərindən təkcə Mütim ibn Ədi ona qol çəkmədi. Bəzi tarixçilərin fikrincə, bu müqaviləyə besətin yeddinci ilində, məhərrəm ayının birinə keçən gecə qol çəkildi.[36]

Bu müqavilənin xəbəri Əbutalibə çatdıqda bir neçə beyt şer söylədi və Peyğəmbərə olan imanını və onların hiylələri qarşısında müqavimət göstərəcəyini bildirdi.[37]

Bu müqavilə ona səbəb oldu ki, Əbutalib öz yaxın qohumlarını dəvət edib onlardan Peyğəmbərə yardım etməyi öhdələrinə götürməyi və hamılıqca Məkkədən kənara çıxıb Məkkə dağları arasında yerləşən (və sonralar Əbutalib dərəsi adlanan) bir dərədə yerləşmələrini, həmçinin orada kiçik evlər tikməyi və kölgəliklər düzəltməyi xahiş etdi. Əbutalibin göstərişi ilə onlar hər il orada yaşamalı və camaatın hər hansı təcavüzdən amanda qaldığı haram aylarda (rəcəb, zilqədə, zilhiccə və məhərrəm) oradan çıxıb başqa yerə gedə bilərdilər.

Əbutalib o Həzrəti qorumaq üçün dərənin kənarındakı uca yerlərdə qoruqçular qoydu ki, onları ehtimal üzrə baş verəcək hər hansı bir hadisədən agah etsinlər. Bəzi tarixçilər yazırlar ki, Əbutalib Bəni-Haşim qəbiləsinin orada olduğu müddətdə hər gecə Həzrət Rəsula deyərdi ki, müəyyən bir yerdə yatsın ki, onu izləyən şəxs Peyğəmbəri həmin yerdə görsün. Camaat yatandan sonra isə öz oğlanları, qardaşları, yaxud da

---

[36] «Təbəqati-ibn Səd», 1-ci cild, səh.209.

[37] O şerlərdən yalnız bir beytini burada qeyd edirik: «Məgər bilmirsiniz ki, Məhəmmədin Musa kimi bir peyğəmbər olmasına etiqadımız var? Halbuki əvvəlkilərin kitabında onun peyğəmbərliyi yazılmışdır»

əmioğlanlarından birini onun yerində yatırdar, Həzrət Rəsula isə deyərdi ki, başqa bir yataqda yatsın. Əbutalib gecələr o Həzrətdən nigaran qalır, qorxurdu ki, əgər düşmən onun yatağını tapsa, gecə hücum edib öldürə bilər. Ona görə də gecədən bir qədər keçəndən sonra onu ayıldıb öz oğlunu onun yerində yatırdardı. Bir gecə Əli (ə) dedi: «Ata can, iş belə getsə, axırda məni öldürəcəklər». Əbutalib onu fədakarlığa dəvət etdi. Əli (ə) da bir neçə beyt şer qoşmaqla öz fədakarlığını bildirdi.[38]

Bu mühasirə üç il davam etdi. Bəni-Haşim qəbiləsi bu müddət ərzində çox çətinliklərlə qarşılaşdı. Ona görə ki, Qüreyş başçıları oraya ərzaq məhsullarını aparmağa maneə yaratmışdılar. Haram aylar istisna olmaqla digər günlər dərədən çıxmaq mümkün deyildi. Əbucəhl Bəni-Haşim qəbiləsinə bir şey çatdıran şəxsin qarşısını alırdı. Bəzən aclıq elə şiddətli olurdu ki, Bəni-Haşim uşaqlarının nalə səsi dərədən kənarda eşidilirdi. Ancaq Peyğəmbərin hələ islamı qəbul etməyən kürəkəni Əbül As buğda və xurma ilə yüklənmiş dəvələri dərənin yaxınlığına gətirər, onları dərənin içərisinə sürər, özü isə qayıdardı.[39] Bəzən də Həkim ibn Hizam buğda yüklənmiş dəvələri dərəyə sürərdi. Bu yolla da onlara ərzaq yetişərdi. (Həzrət Rəsulun arvadı Xədicə, Həkim ibn Hizamın bibisi idi).

## QEYBDƏN GƏLƏN YARDIMLAR

Qüreyş başçılarının müqavilənin maddələrini həyata keçirməkdə göstərdikləri ciddi cəhd müsəlmanların fədakarlıq və dözümlərini azalda bilmədi. Nəhayət, Bəni-Haşimin körpələrinin naləsi və müsəlmanların dözülməz vəziyyətləri sənədi qol çəkənlərin bəzilərinin öz sözlərini geri götürüb bu məsələni həll etmələrinə səbəb oldu. Bir gün Hişam ibn Ömər Züheyr ibn Üməyyənin yanına gedib dedi: «Görəsən qohumlarının ac-yalavac qaldıqları bir halda sənin yaxşı yeməklər və geyimlərdən istifadə etməyin yaxşı bir işdir? And olsun Allaha, əgər sən Əbucəhlin

---

[38] «Nəhcül-bəlağənin şərhi, (İbn Əbil Hədid, l4-cü cild, səh.64).
[39] «Əlamül-vəra», səh.60-6l.

qohumlarının barəsində belə qərara gəlsəydin və onu bu işə dəvət etsəydin, o, təslim olmaz və qəbul etməzdi».

Züheyr dedi: «Mən təklikdə Qüreyş başçılarının qərarını poza bilmərəm, lakin mənimlə bir yoldaş olsa, müqaviləni pozaram».

Hişam öz hazırlığını bildirib dedi ki, başqa bir nəfər də olmalıdır, sonra qalxıb Mütim ibn Ədinin yanına getdi və dedi: «Heç sən də razı olmazsan ki, Əbdülmənafın övladları Bəni-Haşim, Bəni-Müttəlib bu vəziyyətdə qalsınlar.

Mütim dedi: «Neyləyim, mənim əlimdən heç nə gəlmir».

O cavabında dedi: «Səninlə iki nəfər yoldaşdır: biri mən, biri də Züheyr».

Mütim dedi: «Başqaları da bizimlə əməkdaşlıq etməlidirlər».

Ona görə Hişam bu məsələni Mütimə dediyi kimi, Əbilbuxtəra və Zəməyə də dedi və onları əməkdaşlığa dəvət etdi. Hamılıqca belə qərara gəldilər ki, sübh tezdən məscidə gəlsinlər. Qüreyşin iclası Züheyr və onun sirdaşlarının iştirakı ilə başlandı. O, sükutu pozub dedi: «Ey məkkəlilər, biz ən yaxşı yeməklərdən və geyimlərdən istifadə edirik, amma Haşimin övladlarını ölüm təhlükəsi gözləyir; onlara nə bir şey satılır, nə də onlardan bir şey alınır. And olsun Allaha, qohumluq əlaqələrini qıran bu müqavilə hökmən pozulmalıdır!»

Əbucəhl dedi: «Bu müqaviləni pozmaq olmaz!»

Zəmə cavabında dedi: «Biz ilk gündən onu yazmaq istəmirdik.»

Əbilbuxtəra Zəmənin sözünü təsdiq edib dedi: «Biz o yazını qəbul etmirik və onu rəsmi olaraq tanımırıq».

Mütim dedi: «Hər ikisi düz deyir, mən bu müqavilədən Allaha pənah aparıram!»

Əbucəhl bildi ki, artıq iş-işdən keçibdir. Bu halda Mütim ayağa qalxıb yaranmış fürsətdən istifadə etdi və müqavilənin qoyulduğu yerə gedib onu cırmaq istədi. Birdən gördü ki, güvə «bismik əllahumə» yazılan yer istisna olmaqla müqavilə yazılan kağızın hamısını yemişdir. Bir neçə nəfər

Bəni-Haşim qəbiləsinə xəbər vermək üçün dərəyə getdi. Bu hadisə onuncu ilin rəcəb ayında baş vermişdi.

Bəziləri belə yazırlar: Peyğəmbər, Əbutalib və Xədicə bütün sərvətlərini əldən verdilər. Peyğəmbərə vəhy nazil oldu və xəbər verdi ki, güvə Qüreyş başçılarının qol çəkdiyi müqavilənin «bismik əllahumə» sözündən başqa hər tərəfini yemişdir. Həzrət Rəsul Əbutalibi bu xəbərdən agah etdi. Hər ikisi bir dəstə adamla gəlib Kəbənin ətrafında oturdular. Bu əsnada qüreyşlilər onu dövrəyə alıb dedilər: Hələ bizimlə qohumluğunu yad edib bizə yaxın olmağının və qardaşoğlunu himayə etməkdən əl çəkməyinin vaxtı gəlib çatmayıbmı?

Əbutalib üzünü onlara tutub dedi: Müqaviləni bura gətirin!

Gətirdilər, sonra Əbutalib dedi: – Bu sizin o vaxt yazdığınız müqavilədirmi?

Dedilər: – Bəli.

Əbutalib soruşdu: – Ona bir kəs əl vurmuşdurmu?

Dedilər: – Yox!

Dedi: – Mənim qardaşım oğlu Pərvərdigarı tərəfindən bir xəbər almışdır. Əgər onun sözü düz olsa, öz işinizdən əl çəkəcəksinizmi?

Dedilər: – Bəli!

Əbutalib dedi: – Əgər onun sözü yalan olsa, mən də onu sizə təhvil verəcəyəm ki, öldürəsiniz.

Qüreyş başçıları Əbutaliblə razılaşıb dedilər ki, insafla danışdın.

Əbutalib dedi: – Mənim qardaşım oğlu deyir ki, müqaviləni güvə yemişdir.

Onlar möhrü sındırıb gördülər ki, güvə Allah sözündən başqa müqavilənamənin hər yerini yemişdir. Bu iş heç də onların haqq yoluna qayıtmalarına səbəb olmadı, üstəlik onların inadkarlıqlarını artırdı.

Nəticədə Bəni-Haşim yenidən dərəyə qayıtmağa və mühasirəni davam edib Hişamın vasitəsilə sınana qədər orada qalmağa məcbur oldular.[40]

Müqavilə pozulandan sonra Əbutalib bu işin mədhinə bir neçə şer söylədi ki, bunların hamısını İbn Hişam qeydə almışdır.[41]

Bunlar Həzrət Rəsulun dəvəti müqabilində Qüreyş başçılarının əks-əməllərindən bəzi nümunələr idi.

Əlbəttə, onların verdikləri əziyyət və göstərdikləri əks-əməllər burada qeyd etdiklərimizlə qurtarmır. Onlar bu böyük ilahi hərəkatın qarşısında başqa hiylələrə də əl atdılar, o cümlədən Peyğəmbərin şəxsiyyətini sındırmaq üçün ona əbtər (sonsuz) dedilər. As ibn Vaili Səhmi Peyğəmbərin adı gələndə dərhal deyərdi: «Ondan əl çəkin, o, sonsuz bir kişidir ki, ölsə, onun dəvəti sönəcəkdir». Bu vaxt «Kövsər» surəsi nazil oldu və xəbər verdi ki, Allah Rəsuluna çox övlad verəcəkdir.[42]

---

[40] «Tarixe Yəqubi», 2-ci cild, səh.19; «Tarixe Kamil», 2-ci cild, səh.61; «Təbəqati ibn Səd», 1-ci cild, səh.208-2l0.

[41] İbn Hişamın sirəsi, 1-ci cild, səh.374-380

[42] Fəxr Razi öz təfsirində yazır: «Bu qeyb xəbəri o qədər doğrudur ki, hazırda Fatimənin övladları da dünyanın hər yerinə yayılmışdır. Onların çoxunun müxtəlif hadisələr zamanı öldürülməsinə baxmayaraq, Peyğəmbərin Zəhradan olan övladları dünyanın hər yerini tutmuşdur». «Məfatihül–qeyb», 30

## DOQQUZUNCU FƏSİL

### ƏBUTALİBİN ÖLÜMÜNDƏN MERACA QƏDƏR

Son iki fəsildə Qüreyş başçılarının mühüm hiylələri ilə tanış olduq və aydınlaşdı ki, onların zalımcasına hərəkətləri Peyğəmbərin iradəsinə heç bir mənfi təsir etmədi. Üstəlik müsəlmanların iradəsini gücləndirdi. Amma unutmamalıyıq ki, bütün bunlar həm də Əbutalibin düşmən qarşısında yaratdığı müdafiə xəttinin nəticəsi idi. O, Peyğəmbəri səkkiz yaşından öz yanında saxlamışdı və əlli yaşına qədər pərvanə kimi onun başına dolanırdı. Həzrət öz güzəranını təmin edən günə qədər onun yaşayış xərclərini ödəyir, onu öz uşaqlarından üstün tuturdu. Bu halda əgər Peyğəmbər belə bir fədakar himayəçisini, müdafiəçisini itirsəydi, təbiidir ki, onun təbliğat işləri zəifləyər və təhlükəsizliyi təmin olunmazdı. Nəhayət, Peyğəmbərin əziz əmisi ölüm yatağına düşdü. Onun xəstəliyi mühasirə vaxtı məruz qaldığı təzyiqlərdən irəli gəlirdi. O, ölüm vaxtında öz qohumları və övladlarına xitabən belə dedi:

«Məhəmməd Qüreyşin etibarı, ərəb xalqının doğruçu şəxsi olub, bütün kamillik sifətlərinə malikdir. O elə bir dinə malikdir ki, qəlblər ona iman gətirmişdir, amma dillər paxıllıq qorxusundan onu inkar etməyə məcbur olmuşdur. Ey mənim qohumlarım! Onu himayə edin, hər kəs onun tabeçiliyində olsa səadətə çatar. Əcəl mənə möhlət versəydi, onu ruzigarın hadisələrindən qoruyardım».

Əbutalibin ölümündən bəziləri sevindilər, bəziləri isə matəmə batdı; Həzrət Məhəmmədin düşmənləri xoşhal, tərəfdarları isə qəmgin oldular.

Amma həqiqətən Əbutalib tarixin məzlum şəxsiyyətidir. O, təkcə diriliyində yox, hətta vəfatından sonra da bir sıra zülmlərə məruz qaldı. Bəziləri belə təsəvvür edirlər ki, o, qohumluğuna görə fədakarlıq edirdi və əgər Peyğəmbər onun qardaşı oğlu olmasaydı, heç vaxt onu bu dərəcədə müdafiə etməzdi. Amma tarixin bu kimi cahilləri iki məsələdən xəbərsizdirlər:

– Düzdür ki, bəzən qohumluq əlaqələri insanı uçuruma çəkər, lakin bu əlaqələr insanın 42 il bir şəxsi müdafiə etməsinə, pərvanə kimi onun başına dolanmasına, özünü və bütün qohumlarını öz təəssübünə qurban verməsinə səbəb olmaz.

Onlar Əbutalibin söylədiyi nitq və şerləri nəzərə almayaraq əsassız mühakimə yürütmüşlər. Halbuki onun şerləri göstərir ki, onu müdafiəyə vadar edən Peyğəmbərin peyğəmbərliyinə, kamal və fəzilətinə qəlbən iman gətirməsi idi. Məgər onun qardaşı oğlunun kamal, fəzilət və dəvəti barədə söylədiyi şerlərə etina etməmək olar? O, öz qəsidələrinin birində deyir: «Böyük insanlar bilməlidirlər ki, Məhəmməd İsa və Musa kimi peyğəmbərdir və onlar kimi rəhbərlik məşəli ilə bizə tərəf göndərilmişdir; Peyğəmbərlərin hər biri Allahın əmri ilə insanları idarə edir. Siz səmavi kitablarda onun tərifi haqqında oxuyursunuz. Bu bir həqiqətdir ki, onda heç bir şübhə yoxdur».

Bu misraları qoşan bir şəxsi təəssübdə ittihamlandırmaq və onun müdafiəsini qohumluq təəssübü ilə əlaqələndirmək olmaz.

Tarix onun fədakarlıqlarını qeydə almışdır, əlavə məlumat almaq istəyənlər bu barədə yazılmış kitabları oxuya bilərlər. Məşhur tarixçi ibn Əbil Hədid Əbutalibin göstərdiyi fədakarlıqlar haqqında belə yazır: «Bir nəfər Əbutalibin imanı barədə bir kitab yazıb mənim yanıma gətirdi və məndən onun haqqında bir şey yazmağımı istədi. Mən onun kitabının arxasında bu iki misranı yazdım: «Əgər Əbutalib və oğlu Əli olmasaydı, islam dinini qoruyub saxlamaq mümkün olmazdı. Ata Məkkədə onu himayə edirdi və oğlu Yəsribdə ölüm burulğanına düşürdü».[43]

«Əbutalibin imanı» məsələsinin tarix kitablarında qeyd olunmasına siyasi məsələ kimi baxılır. Bəzi yersiz təəssübkeşlər onun imanını inkar etməklə Həzrət Əlinin fəzilətini inkar etmək istəyirlər. Əgər Əbutalib Əlinin atası olmasaydı, onun imanının sübut edilməsi üçün mövcud

[43] İbn Əbil Hədid, «Nəhcül-bəlağə»nin şərhi, 4-cü cild, səh.83

dəlillərin heç onda biri də lazım deyildi. Hər hansı bir şəxsin imanını aşağıda qeyd olunan üç yoldan biri ilə sübut etmək olar:

1. Ondan yadigar qalan elmi əsərləri araşdırmaqla;
2. Onun cəmiyyətdəki rəftarını araşdırmaqla;
3. Onun haqqında dostlarının nəzərini araşdırmaqla.

İndi biz onun imanını qeyd olunan hər üç yolla araşdıraq:

Əgər Əbutalibdən yadigar qalan və divan şəklində çap olan elmi və ədəbi əsərləri araşdırsanız, qoşduqları şerlərin onun kamil imanına dair mühüm sübut olduğunu görərsiniz. Bu misraların müəllifini necə mömin hesab etməmək olar?

«Həqiqətən mən bildim ki, Məhəmmədin dini dünyada olan dinlərin ən yaxşısıdır».

Əgər Əbutalibin Peyğəmbəri qorumaqda göstərdiyi fədakarlıqları və onun məqsədini araşdırsaq, görərik ki, bu xidmətlərin hamısı onun imanını sübut edir. Onun Həzrət Rəsula məhəbbəti qoca olmasına baxmayaraq, üç il bir dərədə qalmasına və bu işi Məkkənin rəisliyindən üstün bilməsinə səbəb oldu. O, dərədən qayıtdıqdan sonra yorğun halda can verdi.

Siz onun barəsində qohumlarından və yaxın adamlarından soruşsaydınız belə deyərdilər:

Əbutalibin ölüm xəbəri Peyğəmbərə çatanda Həzrət ağladı və Əliyə əmr etdi ki, ona qüsl verib kəfənə büksün və dəfn etsin. Özü isə Allahdan onun bağışlanmasını istədi.

Dördüncü imamın hüzurunda Əbutalibdən söz düşəndə, o dedi: «Təəccüb edirəm ki, nə üçün camaat onun səmimiliyinə şübhə edir; heç bir müsəlman qadın kafir ərinin əqdində qala bilməz. Halbuki Həzrət Fatimə Peyğəmbərə ilk iman gətirən qadınlardandır və Əbutalibin həyatının son anlarına kimi onun əqdində idi və ondan ayrılmadı».

İmam Baqir (ə) buyurur: «Əbutalibin imanı camaatın çoxunun imanından üstündür. Əmirəl-möminin bəzilərinə əmr edir ki, atasının tərəfindən həcci yerinə yetirsinlər. Daha möhkəm söz imam Sadiqin

sözüdür ki, onun barəsində deyir: «Onun imanı Əshabi-Kəhfin imanı kimidir ki, ürəyində imanlı idi, amma təzahür etməzdi».

## XƏDİCƏNİN VƏFATI

Bəni-Haşim qəbiləsi dərədən (mühasirədən) çıxan iki ay sonra (hicrətdən üç il əvvəl) Əbutalib vəfat etdi və onun vəfatından üç gün sonra Həzrət Xədicə vəfat etdi. Bu hesabla səhifənin pozulması və Bəni-Haşimin dərədən çıxması onuncu ilin rəcəb ayının 15-də və Əbutalibin dərədən azad olandan iki ay sonra vəfat etməsinə diqqət yetirsək belə nəticə alınır ki, Əbutalibin vəfatından üç gün sonra Həzrət Xədicənin vəfat tarixi həmin ilin ramazan ayının ikinci yarısına düşür. Bu zaman Xədicə 65, Əbutalib 80 yaşında idi. Həzrət Rəsulun ömründən 49 il, 8 ay və 11 gün keçirdi. Əbutalib və Xədicəni Qüreyş qəbristanlığında dəfn etdilər. (Qəbirlərin əsər-əlaməti hələ də qalır). Həzrət Xədicə vəfat etdikdən sonra Həzrət Fatimə atasına çox diqqət yetirir, anasının matəmində göz yaşı tökürdü.[44]

## MERAC

Besətin onuncu ilinin hadisələrindən biri də Həzrət Rəsulun meracıdır. Merac yerdə və yuxarı aləmlərdə seyr etməkdir və məqsəd də Allahın qüdrət və əzəmətini yerdə və başqa aləmlərdə görməkdir. Merac islami bir əqidədir ki, Quran və hədisə inanan şəxs onu inkar edə bilməz. Ona görə ki, Quran «İsra» və «Ənnəcm» surələrində bu cismani və ruhi seyr etməni bəyan etmişdir. «İsra» surəsində buyurulur:

«Pakdır o Allah ki, gecə vaxtı Öz bəndəsinə ayə və nişanələri göstərmək üçün ona Məscidül-Həramdan Məscidül-Əqsaya seyr etdirdi. O, eşidən və görəndir».

---

[44] «Tarixe Yəqubi», 2-ci cild, səh 20-21; «Əmtaül-əsma», səh.21; «Tarixül-xəms», 1-ci cild, səh.301.

Bir az ayənin üzərində dayanaq və ayənin məqsədinin nə olduğunu aydınlaşdıraq:

1. Sözün «Sübhan» kəlməsi ilə başlaması məsələnin əzəmətli olduğunu göstərir.
2. «Əsra» sözü göstərir ki, bu seyretmə gecə olmuşdur. Ona görə ki, ərəblər «gecə seyr etmək» zamanı bu sözü işlədirlər.
3. «Əbd» sözü Peyğəmbərin öz cismi və bədəni ilə yuxarı aləmlərə yüksəlməsini göstərir. Bu seyr cismani və ruhi bir seyr, hərəkət idi.
4. «Li nuriyəhu min ayatina» cümləsi meracın hədəfini, məqsədini bəyan edir. Yəni məqsəd qüdrət nişanələrini göstərmək imiş. Bu ayə mövzunu tam şəkildə aydınlaşdırmışdır və heç bir qaranlıq nöqtə qalmamışdır. «Ənnəcm» surəsində Peyğəmbərin ikinci dəfə olaraq vəhy mələyini gördüyünü xatırlayandan sonra (Birinci dəfə vəhyin başlanğıcında Hira dağında idi) deyilir.

«Peyğəmbərin gözü səhvə yol vermədi o, Allahın böyük nişanələrini gördü». Bu iki ayə göstərir ki, həmin görüş yuxuda deyil, ayıq halda olmuşdur. Bu ayələrin məzmununa diqqət etdikdə aydınlaşır ki, bizim islami əqidəmiz («İsra» və «Ənnəcm» surəsinin ayələrinə əsasən) budur ki, Peyğəmbər bir gecə öz cismi ilə Məscidül-Həramdan Məscidül-Əqsaya və oradan da yuxarı aləmlərə seyr etmişdir. O, Vəhy mələyini eynilə müşahidə edərək, Allahın ayə və nişanələrinin əzəmətini yaxından görmüşdür.

## MERAC HAQQINDA SUALLAR

Möcüzə və ilahi qüdrətə aid məsələlərlə tanışlığı olmayan şəxslər merac haqqında bəzi suallar verib deyirlər: Peyğəmbər yerin cazibə qüvvəsinə necə qalib gəldi? Atmosferdən yuxarıda, oksigen olmayan yerdə Peyğəmbər necə nəfəs aldı?

Həzrət Rəsul atmosferin şiddətli hərarət və ya soyuqluğuna necə dözə bildi? Necə oldu ki, atmosferdən yuxarıda olan kosmik və ultrabənövşəyi kimi öldürücü şüalar Peyğəmbərə ziyan yetirmədi? Necə oldu ki, fəzada müxtəlif sürətlə hərəkət edən yandırıcı cisimlər Peyğəmbərə toxunmadı? Bunlar yerli suallardır və düzgün cavabları da vardır. Ona görə ki, insan texnikanın yardımı ilə bütün maneələri aradan qaldıraraq fəzaya kosmik gəmi göndərib və atmosfer qatından kənara getmişdir. Bu halda labüd olaraq qüdrəti bütün qüdrətlərdən üstün olan Allah belə işlərə qadirdir və Onun qəti iradəsinin qarşısında heç bir maneə dayana bilməz.

Burada bir məsələni xatırlamalıyıq: mahiyyətcə qeyri-mümkün olan şeylə adi halda qeyri-mümkün olan, lakin mahiyyətcə mümkün olan şey arasında fərq vardır. Mahiyyətcə qeyri-mümkün olan bir şeydən məqsəd odur ki, bir şeyin vücuda gəlməsində elə maneələr var ki, onu aradan qaldırmaq əsla mümkün deyil. Məsələn, böyük bir şeyi kiçik bir şeyin içində yerləşdirmək mahiyyət etibarı ilə qeyri mümkündür. (Dünyanın yumurtada yerləşdirilməsi kimi). Bu fikrin əməli olması bir şeyin eyni anda həm kiçik, həm də böyük olmasını tələb edir. Bu zidd olan iki şeyi bir yerdə toplamaqdır və bu da qeyri-mümkündür. Amma elə şeylər var ki, mahiyyətcə mümkündür. Məsələn, yuxarı aləmləri seyr etmək. Bunun mümkün olmasının səbəbi hazırda kosmos əsrində olan işlərdir. Məsələ burasındadır ki, bu mümkün şeyin bir səbəbi olmalıdır. Bəzən bu səbəb təbiidir, (kosmik gəmilər kimi) bəzən də Allahın qüdrəti kimi qeyri-təbiidir. Bunu bilməliyik ki, peyğəmbərlərin möcüzəsi təbii vasitələrlə deyil. Belə olsaydı onların işləri möcüzə deyil, texnikaya aid edilərdi. Yenə də xatırladırıq ki, Peyğəmbərin meracı barədə fikir söyləyən şərqşünaslar xurafat və batil fikirlərə yol verilməməsini arzulamışlar. Nümunə olaraq birini qeyd edirik: «Son göydə Peyğəmbər Allaha o qədər yaxınlaşdı ki, Allahın qələminin səsini eşidirdi. Bu vaxt başa düşdü ki, Allah insanların hesablarını qeydə alır».

Biz kitabın əvvəlində dedik ki, şərqşünaslar öz fikirlərində daha çox qərəzçiliyə yer vermişlər.Burada bir məsələni də xatırladırıq ki, yeddinci

imamımız meracın məqsədi haqda soruşulan suala belə cavab verdi: «Allahın zaman və məkana ehtiyacı yoxdur. Allah istədi ki, Öz Peyğəmbərini mələklər və səma sakinlərindən üstün tutsun və onu xilqətin qəribəliklərindən agah etsin və öz əzəmət nişanələrini göstərsin ki, o, qayıtdıqdan sonra öz ümmətini bu ayələrdən agah etsin».[45]

[45] «Təfsiri-bürhan», 2-ci cild, səh.400.

## ONUNCU FƏSİL

### TAİF SƏFƏRİNDƏN HİCRƏTİN BAŞLANMASINADƏK

Həzrət Rəsul besətin onuncu ilində, bir neçə gün ərzində iki fədakar himayəçisini itirdi. O, bu iki köməkçisini itirməklə özünü Qüreyş qəbiləsi arasında qərib və yalqız hiss etdi. Ona verilən əziyyətlər daha da şiddətləndi. İş o yerə çatdı ki, Qüreyşdən olan bir səfeh onun yolunu kəsib başına torpaq tökdü. O, başı torpaqlı halda evə qayıtdı. Qızlarından biri ayağa qalxdı və ağlaya-ağlaya onun başını yudu. Həzrət Rəsul buyurdu: «Ağlama, Allah sənin atanı saxlayandır. Qüreyşin mənə verdiyi əziyyət Əbutalib vəfat edən zamandan çoxaldı»[46]

Peyğəmbər öz dinini təbliğ etmək üçün Taifə səfərə çıxdı ki, Süqeyfi qəbiləsindən yardım alsın. O, həm də ümidvar idi ki, onlar bu dini qəbul etsinlər. O, Taifə getmək məqsədi ilə Məkkəni tərk etdi. Taifə çatıb Süqeyf qəbiləsinin başçılarından üç nəfərlə görüşdü. Onları tək bir Allaha tərəf dəvət edib yardım istədi, lakin onlar bu dini qəbul etməyib yardım göstərmədilər. Həzrət Rəsul məyus olub qayıtdı və onlardan istədi ki, bu görüşü (Qüreyş başçıları daha inadkar olmasın deyə) açıb ağartmasınlar. Amma onlar nəinki bunu etmədilər, üstəlik Süqeyf qəbiləsinin alçaq və satqınlarını vadar etdilər ki, ona nalayiq sözlər desinlər, dalında qaçıb hay-küy salsınlar və ya daşa bassınlar. Onların bu cinayətləri nəticəsində Həzrət Rəsulun ayaqları yaralandı. Peyğəmbər Taifdən çıxıb şəhərdən kənarda Qüreyş başçılarına məxsus üzüm bağında dincəlmək istədi. Bu bağ Ütbə və Şeybənin idi və Əddas adlı bir cavan məsihi orada işləyirdi. Həzrət Rəsul üzümlüyün kölgəsində öz Allahı ilə belə danışdı: «Pərvərdigara! Çarəsizlik və adamsızlıqdan sənə şikayət edirəm! Ey mehribanlardan daha mehriban olan, ey çarəsizlərin pənahı və ey mənim pərvərdigarım, məni kimə tapşırırsan? Məndən üz döndərən bigana-

---

[46] «İbni-hişamın sirəsi», 1-ci cild, səh.4l6.

liyimi, işimi puç edən düşmənəmi? Əgər Sənin mənə qəzəbin tutmasa, heç qorxum yoxdur. Lakin sağlamlıq gözəl nemətdir, mən sənin zülmətləri aradan qaldıran, dünya və axirət işlərini səhmana salan nuruna sığınıram. Mənə acığın tutmasın, yaxud qəzəbinin odu məni əhatə etməsin; Səndən üzr istəyirəm ki, Sənin razılığından bəhrələnim. Heç bir qüdrətin mənbəyi Səndən başqası deyildir».

Bağ sahiblərinin Qüreyş qəbiləsi başçılarından olmasına baxmayaraq, Peyğəmbərin vəziyyətindən narahat oldular və o məsihi işçini çağırıb əmr etdilər ki, bir az üzüm dərib Peyğəmbərə aparsın. O, öz vəzifəsini yerinə yetirdi və Həzrətə dedi ki, üzümü yesin.. Həzrət Rəsul əlini üzümə tərəf uzatdıqda Allahın adını dilə gətirdi və sonra üzümdən bir az yedi. Məsihi oğlan Həzrət Rəsulun üzünə baxırdı və onun sözündən təəccüblənmişdi. Ona görə ki, o, belə bir sözü heç kəsdən eşitməmişdi. Sükutu pozdu və dedi: – Mən bu yerin camaatından «Allah» sözünü eşitməmişəm.

Peyğəmbər: – Haralısan, dinin nədir? – deyə soruşdu.

O, «Neynəvalıyam və Həzrət Məsihin dinindəyəm» – dedi.

Peyğəmbər dedi: – Həmin saleh şəxs olan Yunis ibn Mətanın həmyerlisisənmi?

Məsihi gənc heyrətə daldı və dedi: – Siz Yunis ibn Mətanı haradan tanıyırsınız?

Peyğəmbər dedi: – O, mənim qardaşımdır. O, peyğəmbər idi, mən də peyğəmbərəm.

Məsihi cavan özünü Peyğəmbərin ayaqlarına salıb onun əl-ayağını öpdü. Uzaqdan bu hadisəni müşahidə edən bağ sahibləri Əddasın hərəkətindən fikrə daldılar və bir-birilərinə dedilər ki, Məhəmməd Əddasın əqidəsini dəyişdi. Gənc onların yanına qayıtdıqda, soruşdular ki, nə üçün o kişinin əl-ayağını öpdün. Gənc dedi: – Yer üzündə bu kişidən böyük şəxsiyyət yoxdur. O elə şeydən xəbər verir ki, Peyğəmbərdən başqa heç kəs ondan xəbər verə bilməz.

Onlar Əddasdan təkidlə tələb etdilər ki, öz dinində qalsın.

Peyğəmbər Taifdə on gün qalıb Süqeyf qəbiləsinin islamı qəbul etməsindən və onların Peyğəmbəri himayə edəcəklərindən naümid olandan sonra Məkkəyə tərəf yola düşdü. Məkkənin yaxınlığına çatdıqda bir nəfəri üç şəxsin, o cümlədən Mütim ibn Ədinin yanına göndərdi ki, onların himayəsi altında Məkkəyə daxil olsun. Qüreyş başçıları tərəfindən gözlənilən təhlükələrdən amanda qalsın. Həmin üç şəxsdən təkcə Mütimin himayəsi ilə Peyğəmbər Məkkəyə daxil oldu.[47]

## QƏBİLƏ BAŞÇILARININ İSLAMA DƏVƏT OLUNMASI

Həzrət Peyğəmbər Məkkəyə daxil olandan sonra tam nəzarət altında idi. Həcc mövsümündən başqa, digər günlərdə öz dinini təbliğ edə bilmirdi. Həzrət haram aylardan sayılan həcc mərasimi aylarında Məkkəyə gələn qəbilə başçıları ilə əlaqə yaradır və öz dinini onlara təqdim edirdi. Məhəmməd (s) onları allahpərəstliyə çağırır və özünü Allahın Peyğəmbəri kimi təqdim edirdi. Peyğəmbər onlardan istəyirdi ki, onu təsdiq edib himayə etsinlər. Bununla da o, tam azad surətdə öz dinini təbliğ etsin.

O, həcc mövsümündə tədricən Ukaz, Məcənnə, Zülməcaz bazarlarında, Mina, Məkkə kimi mərkəzlərdə qəbilə başçıları ilə əlaqə yaratdı. Həzrət hamını tək bir Allaha tərəf dəvət edirdi. Tarixdə Həzrət Rəsulun görüşdüyü qəbilələrin adları çəkilmişdir. Bu zaman Bəni-Hənifə qəbiləsi digər qəbilələrdən daha çox hörmətsizlik edirdi. Bəni-Amir qəbiləsi ərəblərin məhşur qəbilələrindən idi. Həzrət Rəsul onlardan biri ilə görüşdü, o şəxs öz yoldaşları ilə məsləhətləşdi və dedi:

– Biz bu kişiyə iman gətirsək və onu Qüreyşin əlindən qurtarsaq, bizim qüdrətimiz artacaq və ərəblərə sahib olacağıq. Buna əsasən Həzrət Rəsuldan soruşdu: Biz sənə iman gətirsək və nəticədə sən də öz müxa-

---

[47] «Tarixe Yəqubi», 2-ci cild, səh.21-22.

liflərinə qalib gəlsən, öləndən sonra rəhbərlik işini bizim öhdəmizə qoyacaqsanmı?

Peyğəmbər dedi:– Xəlifəlik (canişinlik) məsələsi Allahın əlindədir. O, hər kimi məsləhət bilsə, onu da canişin edəcəkdir.

Qəbilə başçısı bu sözü eşitdikdə iman gətirməkdən və onu himayə etməkdən imtina etdi.

Bu kimi əlaqələr əlbəttə, çox faydalı idi. Bəzilərini etiqadlı, bəzilərini də meylli edirdi. Bundan əlavə, həmin qəbilələr səyyar müxbirlər kimi peyğəmbərlik mövzusunu mühüm bir xəbər kimi başqa qəbilələrə də çatdırırdılar.

## BESƏTİN ON BİRİNCİ İLİ VƏ XƏZRƏCLİLƏRLƏ GÖRÜŞ

Allahın istəyi bu olmuşdur ki, Peyğəmbərin dini bütün dünyada yayılsın. Həcc mərasimlərinin birində Həzrət Rəsul Xəzrəc qəbiləsinin görkəmli şəxsiyyətlərindən olan altı nəfərlə görüşdü və onların kim olduğunu öyrənmək istədi. Hamılıqla dedilər ki, biz Xəzrəc qəbiləsindənik. Sonra onlardan istədi ki, icazə versinlər öz ayinini onlara təqdim etsin. Onlar da bu işə meylli, olduqlarını bildirdilər. Həzrət Rəsul öz dinini onlara təqdim etdi və Quranın ayələrindən onlara oxudu. Hamısı elə orada islamı qəbul etdilər. Onların tez bir zamanda Peyğəmbərə iman gətirmələrinin səbəbi bu idi ki, hamısı Yəsribdə kitab əhli və allahpərəst yəhudilərin yanında yaşayırdılar. Yəhudilərlə onların arasında ixtilaf düşəndə yəhudilər deyərdilər ki, bu yaxınlarda məntəqədə bir Peyğəmbər zühur edəcək. O, hamını bütpərəstliyi tərk etməyə və tək bir Allaha pərəstiş etməyə dəvət edəcək. Biz də o Peyğəmbərlə əlbir olub sizləri Səmud və Ad qövmləri kimi məhv edəcəyik. Öncə verilən bu xəbərdarlıq həmin altı nəfəri dərhal imana gətirdi və onlar yəhudilərdən əvvəl bu alicənablığa çatdılar. Sonra belə dedilər: – Ey hörmətli Peyğəmbər, bizim aramızda daim müharibələr olur, ümidvarıq ki, Allah sənin dinin sayəsində bu döyüşlərə son qoysun və bizim aramızda sülh yaratsın, biz də Yəsribə qayıdıb sənin dinini təbliğ edək.

Onlar Mədinəyə daxil olduqda Peyğəmbərin peyğəmbərlik xəbərini yaydılar. Bu xəbər Mədinənin bütün evlərində əks-səda saldı.

İbn Hişam yazır: Bu altı nəfər aşağıdakılardan ibarət idi: Əsəd ibn Zürarə, Övf ibn Haris, Rafi ibn Malik, Qətbət ibn Amir, Üsbət ibn Amir və Cabir ibn Əbdüllah. Həqiqətən besətin on birinci ili ərəb başçıları ilə görüşmək və islam dinini cəmiyyətdə xüsusi mövqeyə malik şəxsiyyətlərə təqdim etmək ili idi.

## İLK ƏQƏBƏ MÜQAVİLƏSİ

Besətin on ikinci ilinin zilhəccə ayında Yəsrib əhlindən on iki nəfər həcc mövsümündə «Mina Əqəbəsi»ndə Həzrət Rəsul ilə görüşdülər. Bunlardan beşi keçən il Peyğəmbərə iman gətirən həmin altı nəfər idi. Cabir ibn Əbdüllahdan başqa hamısı o peymanda iştirak etdi. Həqiqətdə o təhlükəli yerdə bu şəxslərin bir yerə toplanması və Həzrəti müdafiə etmək üçün müqavilə bağlaması həmin altı nəfərin təbliğatının nəticəsi idi. Bu on iki nəfər Minanın Əqəbə adlanan yerində Peyğəmbərlə görüşüb islamı qəbul etdikdən sonra Peyğəmbərlə aşağıdakı əhd-peymana qol çəkdilər.

Əhd-peyman bağladılar ki, Allaha şərik qoşmasınlar, oğurluq etməsinlər, pis işlərin ardınca getməsinlər, öz uşaqlarını öldürməsinlər, başqalarını müttəhim etməsinlər, yaxşı işlərdən boyun qaçırmasınlar. Bu əhd-peymandan sonra Peyğəmbər onlara xitabən dedi: Əgər bu əhdə əməl etsəniz, cənnət sizin mükafatınızdır və əgər ondan boyun qaçırsanız, sizin işinizə Allah yetişəcək; ya sizi cəzalandırar, ya da bağışlayar.

Məclis sona çatdıqdan sonra hamı dağılışdı. Peyğəmbər Həzrət Haşimin nəvəsi Müsəbi Quran müəllimi kimi Mədinəyə göndərdi və əmr etdi ki, onlara islam təlimlərini və Quranı öyrətsin. O, on iki nəfərdən biri olan Əsəd ibn Zürarənin himayəsi altında Mədinəyə daxil oldu və namazı camaatla qıldı. Onun bu işi islamın genişlənməsinə səbəb oldu.

## ƏQƏBƏDƏ İKİNCİ ƏHD-PEYMAN

Müsəbin Mədinədə olması və iki mühüm qəbilə sayılan Xəzrəc və Ovs qəbilələrinin onu himayə etməsi səbəb oldu ki, islam dini hamısı bütpərəst olan bu iki qəbilənin evlərinə yol açsın və hamısında təsir qoysun. Belə ki, o qəbilələrin böyük bir dəstəsi həcc mövsümünü gözləyirdilər ki, hamılıqca gedib Məkkədə Peyğəmbəri yaxından ziyarət etsinlər. Həcc mövsümü gəlib çatdı, 500 nəfərdən ibarət olan bir karvan Mədinədən hərəkət etdi. Onlardan bir dəstəsi müsəlman, bir dəstəsi allahsız və bir dəstəsi də islama meylli idilər. O 500 nəfərdən ikisi qadın olmaqla 75 nəfər Məkkədə Həzrət Peyğəmbərlə görüşdülər və peyman bağlamaq üçün vaxt istədilər. Həzrət Minanın Əqəbəsini görüş üçün təyin etdi və zilhəccənin on üçüncü gecəsi orada görüşüb peyman bağlamaq qərarına gəldilər. Onlardan biri deyir: «Vəd olunan gün gəlib çatdı. Gecədən bir qədər keçmiş biz tam ehtiyatla, gizlincə və ayrı-ayrılıqda Əqəbəyə tərəf yola düşdük, orada bir yerə yığışıb Həzrət Rəsulu gözlədik. Həzrət əmisi Abbasla gəldi. Abbas sükutu pozub Peyğəmbərin haqqında belə dedi:

– Ey xəzrəclilər, siz Məhəmmədin ayinini himayə edəcəyinizi bildirmisiniz. Bilin ki, o, öz qəbiləsinin ən hörmətli şəxsidir. Bəni-Haşim qəbiləsi bir nəfər kimi istər mömin olsun, istərsə də olmasın onu müdafiə etməyi öhdəsinə almışdır. Amma indi Məhəmməd sizin aranızda olmaq istəyir. Əgər öz əhd-peymanınızın üstündə durmaq və onu düşməndən qorumaq istəyirsinizsə, onu sizə tapşırırıq; yox əgər lazım olan vaxtda onu müdafiə etməyəcəksinizsə, lap elə indi ondan əl çəkin və qoyun öz qəbiləsi içində əzizlik, böyüklük və əzəmətlə yaşasın. Bu işdə məsləhətləşin və bir qərara gəlin, qəti qərara gəlmədən və həmfikir olmadan danışmayın. Düz danışmaq ən yaxşı işdir.

Bu vaxt Bəra ibn Mərur ayağa qalxıb dedi: And olsun Allaha, bizim qəlbimizdə sənin dediyindən başqa bir söz yoxdur; əgər olsaydı, deyərdik. Biz qərara gəlmişik ki, doğrudan da Həzrət Rəsulun yolunda canımızdan keçək.

Bu vaxt Həzrət Rəsul Quran ayələrindən bir neçəsini oxuyaraq onları Allaha tərəf çağırdı və islama təşviq edib dedi: – Mən sizinlə beyət edirəm ki, öz uşaqlarınızı müdafiə etdiyiniz kimi məni müdafiə edəsiniz.

Bəra ayağa qalxıb dedi: – Bəli, səni göndərən Allaha and olsun, biz öz canımızı qoruyan kimi səni qoruyacağıq; and olsun Allaha, biz döyüş əhliyik və bu iftixar bizə ata-babalarımızdan qalmışdır.

Bu zaman məclisdə iştirak edən Əbül Heysəm dedi: – Bizim yəhudilərlə dostluğumuz var. Biz bundan sonra bu dostluq münasibətini qırmamalıyıq. Allah eləməsin ki, biz bu işi gördükdə sən öz məqsədinə çatıb Məkkəyə qayıdasan və bizi boşlayasan.

Həzrət gülümsəyib dedi: – Sizin əhd-peymanınız mənim əhd-peymanımdır. Mən sizinlə, siz də mənimləsiniz. Siz döyüşdüyünüz şəxslərlə döyüşəcək, barışsanız barışacağam.

Bu dəm Ənsardan olanlar dedilər: – Biz Həzrət Rəsulun əhd-peymanını qəbul edirik və bu yolda mal-dövlətimizi, əzizlərimizi qurban verməyə hazırıq.

Söz bu yerə çatdıqda ayağa durdular və Həzrət Rəsulla görüşüb müqavilə bağladılar. Peyğəmbərlə müqavilə bağlayan ilk şəxs bir rəvayətə görə Bəra, başqa bir rəvayətə görə Əbül Heysəm və digər bir rəvayətə görə Əsəd ibn Zürafə idi. Mərasim bitdikdən sonra Peyğəmbər dedi: – Öz içinizdə sizin qəbilənizdə baş verən məsələləri izləmək üçün 12 nəfər seçin.

Tarixdə həm həmin 75 nəfər, həm də 12 nəfər haqqında yazılmışdır.

Peyğəmdər bu əhd-peymanın gizli qalması üçün onlara xitabən dedi: – Öz yataqxanalarınıza qayıdın.

İştirakçılardan biri Abbas ibn Übadə ayağa qalxıb dedi: – Səni göndərən Allaha-and olsun, əgər istəsəniz, sabah öz qılınclarımızla sənin düşmənlərinlə üzləşərik.

Peyğəmbər «Allah mənə belə bir hökm verməmişdir, siz öz yataqxananıza qayıdın»: deyə buyurdu.

Onlar öz yataqxanalarına qayıdıb yatdılar.

Şübhəsiz ki, Ovs və Xəzrəc kimi güclü qəbilələrin başçıları ilə belə bir əhd-peyman bağlamaq islamın və təkallahlığın çoxallahlığa qalib gəlməsinə səbəb olacaqdı. İndi isə Peyğəmbər yeni bir müvəffəqiyyət ərəfəsində, Həbəşistandan sonra Məkkəyə yaxın olan ikinci qərargahı yaratmaqda idi. Aydındır ki, Qüreyş başçıları bu hadisələrdən xəbərdar olsalar, qorxuya düşəcək və özlərini itirəcəkdilər. Onlar bu məsələni gizli saxlamaqlarına baxmayaraq, sübh çağı Qüreyş başçıları hadisədən xəbərdar oldular, xüsusilə mədinəlilərin hərəkəti Qüreyş başçılarını xeyli qıcıqlandırdı və belə qərara gəldilər ki, onları təqib etsinlər. Amma xoşbəxtlikdən artıq mədinəlilərin karvanı məkkəlilərin nüfuz dairəsindən çıxmışdı. Lakin Münzəri və Sədi tutdular. Münzər qurtulub qaçsa da, Sədin əllərini boynuna bağladılar və işgəncə verərək Məkkəyə gətirdilər. Onun saçından yapışıb yerdə sürüyürdülər. Qüreyş başçılarından biri olan Mütim bundan xəbərdar olduqdan sonra onu azad etdi. Çünki Sədi Yəsribin böyük şəxsiyyətlərindən biri idi və Mütimin ticarət karvanı Sədin nəzarəti altında Mədinədən keçib gedirdi və heç bir kəs ona təcavüz etmirdi. Ona görə də Sədi onların əlindən alıb Yəsribə göndərdi. İslamın Yəsribə nüfuz etməsinin səbəblərinə də bir az diqqət yetirməliyik: görəsən, onları islamı qəbul etməyə vadar edən Peyğəmbərin qılıncı idi, yoxsa onun ayininin məzmunu. Yoxsa Peyğəmbərin dəvətinin cazibədarlığı bu iki dəstənin arasında böyük inqilab törətdi?

Tarixdə islamın necə nüfuz etməsi bəyan edilmişdir. Tarixi sənədlərə əsasən, nüfuzun başlıca səbəbi elə islamın mənəvi cazibədarlığı olmuşdur.[48]

---

[48] Bax: «İbn Hişamın sirəsi», 1-ci cild, səh.452; Əmr ibn cümuh «Əlamül-vəra», səh.37; «Biharül-ənvar»,19-cu cild, səh. 10-11.

## QÜREYŞ BAŞÇILARI QORXUYA DÜŞDÜLƏR

Qüreyş başçıları Məhəmmədin başqa bir qərargah yaratmasından qorxuya düşmüşdülər və nə edəcəklərini bilmirdilər. Ona görə ki, islamın qarşısını almaqda aciz idilər. Bu vaxt Həzrət Rəsul tərəfdarlarına əmr etdi ki, Məkkədən çıxıb Mədinəyə mühacirət etsinlər və öz Ənsar qardaşlarına qoşulsunlar. Həzrət buyurdu: Allah sizin üçün qardaş seçmiş və evlər hazırlamışdır ki, onların vasitəsilə amanda olacaqsınız.

Buna əsasən Məkkənin bütün müsəlmanları dəstə-dəstə Mədinəyə mühacirət etdilər. Həzrət Rəsul və Həzrət Əli isə Məkkədə qalıb Allahın fərmanını gözləyirdilər.

## ON BİRİNCİ FƏSİL

### QÜREYŞ BAŞÇILARININ SON HİYLƏSİ

Qüreyş başçıları bir yerə yığışıb Məhəmmədin aradan götürülməsi üçün üç təklif irəli sürdülər: ya onu zindana salsınlar, ya öldürsünlər, ya da sürgün etsinlər. Quran hər üç təklifi belə xatırlayır: «Kafirlər sənə hiylə hazırlayıb səni zindana salmaq, öldürmək, yaxud sürgün etmək istəyən vaxt Allaha hiylə qurmaq istədilər. Lakin Allah onların hiylələrini ifşa edib, tədbirlərini təsirsiz qoydu»!

Nəhayət, Əbucəhl Peyğəmbəri qətlə yetirmək təklifini təsdiq etdi. Qatilin məlum olmaması üçün belə qərara gəldilər ki, hər qəbilədən bir pəhləvan seçsinlər və hamısı birlikdə Peyğəmbərə hücum edib öldürsünlər. Belə olan təqdirdə onun qanı qəbilələr arasında bölünər və Əbdi Mənafın övladları Qüreyş tayfalarının hamısı ilə döyüşə bilməzlər. Ona görə çarəsizlikdən onun qan pulunu almağa razı olarlar, biz də verərik. Bu təklif qərara alındı və Həzrətin evinə hücum etməyin vaxtı müəyyən olunduqdan sonra onlar dağılışdılar.

### İLAHİ YARDIMLARI

Allah-Təala Öz Rəsuluna vəd vermişdi ki, onu allahsızların şərindən amanda saxlasın. Bu dəfə də onu bu hiylədən qurtarmalı idi. Beləcə vəhy mələyi nazil olub Peyğəmbəri Qüreyş başçılarının hiyləsindən xəbərdar etdi, ona Məkkədən çıxıb Mədinəyə köçməyi əmr etdi.

Qüreyş məmurları besətin on dördüncü ilində, rəbiül-əvvəl ayının birinci gecəsi Peyğəmbərin evini mühasirəyə aldılar. Onlar qərara aldılar ki, Peyğəmbər yuxuya getdikdən sonra ona hücum edib tikə-tikə doğrasınlar. Peyğəmbər müxaliflərin hiyləsinin qarşısını almaq üçün Həzrət Əlidən onun yerində yatmasını istədi. Həzrət Rəsul gecə ikən evdən çıxıb evi mühasirəyə alanların üstünə bir ovuc torpaq atdı və «Yasin» surəsindən bir neçə ayə (1-9) oxudu. Beləcə yanlarından keçib

getdi, lakin onlar bilmədilər. Onlar isə Peyğəmbərin evdə olduğunu güman edir və elə zənn edirdilər ki, o, öz yerində yatıbdır.

Qüreyş caniləri evi dövrələyib əmr gözləyirdilər. Bəziləri gecə yarısı Həzrətin evinə girib onu tikə-tikə doğramaq istəyirdilər, lakin Əbuləhəb bu işə mane olub dedi: – Bəni-Haşimin arvad-uşaqları evdədirlər, onların təqsirləri yoxdur. Hava işıqlanana qədər dözməliyik ki, Məhəmməd yatağından dursun və Bəni-Haşimin gözləri önündə onu öldürək. Qoy hamısı bilsin ki, onun qatili müəyyən bir şəxs deyildir; onun qətlində bir dəstə adam iştirak etmişdir.

Həzrət Rəsul evi tərk edib, Mədinənin yolu olan şimal tərəfdən yox, Məkkənin cənubuna tərəf gedib Sovir mağarasına daxil oldu. Bu mağara heç kəsin diqqətini cəlb etmirdi. Ona görə də Qüreyş məmurlarının ağlına gəlmirdi ki, Peyğəmbər Məkkənin cənubuna tərəf getmiş olsun.

Qüreyş məmurları əmrin gəlməsini gözləyirdilər ki, gözlənilmədən Həzrət Əli Peyğəmbərin yatağından qalxdı. Onlar bu mənzərəni görəndə qəzəbləndilər. Günahı Əbuləhəbdə gördülər, çünki o, gecə yarısı onların hücum etmələrinə mane olmuşdu. Narahat halda dedilər ki, bu tezliklə onların əlindən qaça bilməz: ya Məkkədə gizlənib, ya da Mədinə yolundadır. Təcili olaraq onu axtarıb tapmaq lazımdır. Qüreyş məmurları axtarışa başladılar. Onlar Mədinə yollarına gözətçi qoymaqla bütün yolları ciddi nəzarət altına aldılar. Müxaliflər ayaq izini tanımaqda məharəti olan şəxslərdən istifadə edərək Həzrət Rəsulu tapmaq istədilər. Onun yerini tapan şəxsə mükafat da təyin etdilər. Qüreyş məmurları Məkkənin şimal hissəsini diqqətlə axtardılar, lakin heç nə tapa bilmədilər. Çünki onlar Həzrət Rəsulun planından agah deyildilər və bilmirdilər ki, o, düşməni azdırmaq üçün cənuba doğru yola düşmüşdür. Nəhayət, üç gün axtarışdan sonra məyus olub bu işdən əl çəkdilər.

## BÖYÜK ÜSTÜNLÜK

Hədis danışanlar və tarixçilər Həzrət Əlinin Peyğəmbərin yatağında yatdığı gecəyə «Leylətül-məbit» deyirdilər. Bu gecədə Həzrət Əlinin

Peyğəmbərin yatağında yatması faktı onun həqiqətə olan aşkar eşqini və məqsəd yolunda fədakarlığını göstərir. Bu eşq onun daxilindən irəli gəlir və əqidəsini canından üstün tutmasını sübut edir. Bu fədakarlığa Allah-Təala Quranda belə işarə edir:

«Bəziləri Allahın razılığını əldə etmək üçün canlarını satır və Allah Öz bəndələrinə qarşı mehribandır».

Bu üstünlük tarixdə qeyd olunan şəksiz fəzilətlərdəndir ki, bir çox hədis danışanlar və təfsirçilər ondan bəhs etmişlər.

## PEYĞƏMBƏR (S) SOVR MAĞARASINDA

Həzrət Peyğəmbər rəbiül-əvvəl ayının ilk gecəsi Sovr mağarasına yola düşdü. Əbubəkr də onunla idi. Üç gün mağarada qaldıqdan sonra onlar Mədinəyə yollandılar.[49]

Mühüm məsələ budur ki, görəsən Həzrət Rəsul hansı proqramla Sovr mağarasını tərk etdi və Məkkə ilə Mədinə arasındakı məsafəni qət etdi. Tarixdən məlum olur ki, Peyğəmbərin yerini Həzrət Əli, Xədicənin oğlu ibn Əbihalə və Əbubəkrin oğlu Əbdüllah kimi etibarlı şəxslər bilirdilər. Onlar məkkəlilərin sözlərini gündüz eşidir, gecə isə Peyğəmbərə çatdırırdılar. Hətta Əbubəkrin qulamı Amir qoyunları otarmağa aparıb qaytararkən yolunu Sovr mağarasından salardı ki, onlar qoyunların südündən istifadə edə bilsinlər. Bəzən Əbubəkrin oğlu Əbdüllah Qüreyşdəki xəbərləri çatdırmaq üçün mağaraya gəldikdə fürsətdən istifadə edib Amirlə birlikdə şəhərə qayıdırdı. O ayaq izlərini itirmək üçün sürünün önündə gedərdi.

Gecələrin birində Həzrət Əli Həzrət Rəsulun hüzuruna gəldi. Peyğəmbər əmr etdi ki, onun özü və Əbubəkr üçün iki dəvə hazırlasın. Bu vaxt Əbubəkr dedi: – Mən qabaqcadan iki dəvə hazır etmişəm.

---

[49] «Təbəqati-ibn Səd», 1-ci cild, səh.c3.

Peyğəmbər buyurdu: – Mənim öz dəvəm olmasa, minmərəm. Əgər onlardan birini mənə satsan, qəbul edərəm.

Əbubəkr dəvələrdən birini o Həzrətə satdı və Əli də onun pulunu verdi. Sonra Peyğəmbər Əliyə əmr etdi ki, sabah gündüz müəyyən bir yerdə dayansın və hündür səslə elan etsin ki, Peyğəmbərdə əmanəti, yaxud borcu olan şəxslər borclarını, əmanətlərini almaq üçün onun yanına gəlsinlər. Sonra Peyğəmbər dedi: – Əmanət və borcları verdikdən sonra gəlib bizə qoşularsan və «Fəvatim»i (üç Fatimə: Fatimeyi-Zəhra, Həzrət Əlinin anası Fatimə binti Əsəd və Fatimə binti Zübeyr) də özünlə Mədinəyə gətir. Əgər Bəni-Haşimdən kimsə köçmək istəsə, onun səfəri üçün də lazım olan şeyləri hazırla. Bundan belə sənə ziyan toxunmayacaqdır.

Əli(ə) dördüncü günün günbatan çağında üç dəvəni müsəlman olmayan, lakin etibarlı şəxs Əbdüllahın vasitəsilə mağaraya göndərdi. Peyğəmbər dəvənin səsini eşitdikdə Əbubəkrlə birlikdə mağaradan çıxıb dəvəyə mindi. Bu karvan dörd nəfərdən ibarət idi – Peyğəmbər, Əbubəkr, Amir və Əbdüllah.

Əbdüllah onları Məkkənin aşağı tərəfindən və müxtəlif düşərgələrdən keçirib Mədinəyə gətirdi. (Bu düşərgələrdən 20-yə qədərinin adını qeyd etmişlər). Həzrət Rəsul Qüdeyd düşərgəsində Ümmi Məbəd Xüzaminin xeyməsinə daxil oldu. Bu düşərgədə o Həzrətdən elə bir alicənablıq göründü ki, tarixdə qeyd olunmuşdur. Biz onu qısa şəkildə qeyd edirik: Ümmi Məbəd dilli-dilavər və fəzilətli bir qadın idi. Quraqlıq olduğuna görə qoyunları arıq və südsüz idi. Xeymənin yanında arıqlığından sürüdən geri qalan bir qoyun var idi. Həzrət Rəsul dedi: – Ümmi Məbəd, bu qoyunun südü varmı?

Qadın cavab verdi: Arıqlıqdan südü quruyubdur.

Həzrət Rəsul dedi:– İlahi, bu qoyunu qadın üçün bərəkətli et!

Həzrətin duası nəticəsində qoyunun döşlərinə süd gəldi. Peyğəmbər bir qab istədi və qoyunu sağdı. Sonra südlə dolu olan qabı içmək üçün əvvəl

Ümmi Məbədə, sonra yoldaşlarına verdi. Daha sonra özü içdi və dedi: – Hər bir cəmiyyətdə saqinin (su verənin) növbəsi hamıdan axırdadır.

Məhəmməd (s) qoyunu yenə də sağdı və südlə dolu qabı Ümmi Məbədin yanında qoyub Mədinəyə yollandı.

Bu alicənablıq tarix kitablarında qeyd olunmuşdur və mömin bir şəxsin dünyagörüşünə əsasən mümkün olan bir işdir. Ona görə ki, dua təbiətdə təsir qoya bilən amillərdəndir.

Həzrət Rəsulun Məkkədən köçməsi xəbəri Mədinə camaatına çatdı. Qoba məhəlləsinin əhalisi hər gün şəhərdən çıxıb Həzrət Rəsulu gözləyirdilər, lakin ondan bir xəbər olmadıqda qayıdırdılar. Bazar ertəsi, rəbiül-əvvəlin 12-də Həzrət Rəsul Qobaya daxil oldu. Onu görən ilk şəxs müsəlmanların işindən xəbərdar olan və onların Həzrət Rəsulun yolunu, gözlədiklərini bilən bir yəhudi idi. O, Peyğəmbəri görüb müsəlmanlara xəbər verdi. Həzrət Rəsul (s) Qobada (Bəni Əmr ibn Va qəbiləsinin məskunlaşdığı yer idi) bu məhəllənin böyüklərinin birinin evinə getdi. Sədin evi camaatla görüşmək üçün seçildi. Həzrət buradakı bütləri sındırmağı əmr etdi, qaldığı müddət ərzində bir məscidin bünövrəsini qoydu. Orada Əli və «Fəvatim»in yolunu gözlədi ki, onlar çatdıqdan sonra şəhərin mərkəzi hissəsinə doğru hərəkət etsin. Əli Peyğəmbərin (s) tapşırıqlarını yerinə yetirdikdən sonra Bəni-Haşimin qadınları ilə birlikdə gecə yarısı Mədinəyə yollandı. Qüreyş casusları onun Mədinəyə gəlişindən xəbər tutdular, bəziləri onun qarşısını almaq istədi, amma Əli ilə rastlaşdıqda başa düşdülər ki, o, təslim olan deyil və bu işin nəticəsi qan tökülməsindən başqa bir şey olmayacaq. Ona görə də onu buraxdılar. Həzrət Əli ayaqları qanlı halda Qobaya daxil oldu. Peyğəmbər Əlinin qanlı ayaqlarını gördükdə gözləri yaşardı.

Peyğəmbər cümə günü Qobadan getmək istədi. Cümə namazını Bəni Salim ibn va Ovf başqa bir qəbilə ilə qıldı. Bu onun Mədinədə təşkil etdiyi ilk cümə namazı idi. Bəni Salim qəbiləsinin kişiləri israr edib dedilər ki, bizim dilavər döyüşçülərimiz və lazımi qədər silahımız vardır, bizim

yanımızda qal. Peyğəmbər dəvəyə minmiş halda dedi: – Onu (dəvəni) buraxın, harda yatsa, orda yaşayacağam.

Həzrət Rəsulun dəvəsi Mədinənin Ovs və Xəzrəc qəbilələrinə məxsus müxtəlif məhəllələrdən keçib «Sənyətül-vəda» adlı bir yerdə dayandı. Bu məhəllənin cavanları belə bir nəğmə oxuyaraq Həzrəti qarşıladılar:

«Ay Sənyətül-vədadan çıxdı. Bu işə şükür etmək bizə vacibdir. Ey Allahın Rəsulu, sən lazımi əmrlərlə bizə tərəf gəldin».

Nəhayət, Həzrətin dəvəsi Səhl və Süleyli adlı iki yetimin mülkü olan geniş bir yerdə dayanıb yatdı. Əbu Əyyubun evi bu yerin yaxınlığında idi. Onun anası fürsəti əldən vermədən Həzrətin vəsaitini evinə apardı. Həzrət müxtəlif şəxslərin hər birinin onu öz evinə aparmaq üçün təkidləri ilə qarşılaşdıqda, məsələni həll etməkdən ötrü dedi: – Mənim vəsaitim hardadır?

Dedilər: – Əyyubun anası apardı.

Peyğəmbər dedi: – Kişi oraya gedər ki, səfər vəsaiti ordadır. (Sonra Əbu Əyyubun evinə getdi).

## NİFAQIN MƏNŞƏYİ

Sonralar münafiqlərin başçısı Əbdüllah ibn Übəyy mədinəlilərin Peyğəmbəri belə rəğbətlə qarşılamalarından o qədər narahat olmuşdu ki, Həzrətə dedi: – Ey Allahın Peyğəmbəri, bu kişilərin sözünə qulaq asmayın! Bu kişi Ovs və Xəzrəc qəbilələrinin başçılığını ələ keçirmək istəyirdi, hazırlıq işləri də görülmüşdü. Bu yerin əhalisinin sənin dininə iman gətirməsi onun fikirlərini alt-üst etdi. Buna görə də narahatdır.

## HİCRƏT - MÜSƏLMANLARIN RƏSMİ TARİXİ

Hər bir xalqın müəyyən bir tarixi olmalıdır. Bu, inkar olunası məsələ deyil, lakin əsas məsələ budur ki, görəsən hansı tarixi seçmək, sənədləri və tarixləri, günləri hansı tarixlə müəyyən etmək lazımdır. Başqa sözlə, görək hansı hadisə tarixin başlanğıcı kimi seçilməlidir.

Bunun cavabı məlumdur: aydın keçmişə, mədəniyyətə, əsl məzhəb və ayinə malik bir xalq onun ictimai həyatında və məzhəbində baş verən ən böyük hadisəni öz tarixinin başlanğıcı seçməli, bütün hadisələri – istər ondan əvvəl olsun, istərsə də sonra onunla müəyyən etməli, bununla da öz mənliyini möhkəmləndirməli, öz mədəniyyətinin başqa xalqların mədəniyyətinin təsiri altında itib-batmasına imkan verməməlidir.

İslam xalqlarının tarixində islam Peyğəmbərindən üstün şəxsiyyət və hicrətdən üstün heç bir hadisə yoxdur. Ona görə ki, onun hicrəti ilə tarixin səhifəsi dəyişildi. Müsəlmanlar müstəqillik əldə edə bildilər və çox çəkmədi ki, elə bu hicrətin təsirindən siyasi təşkilatlar yaratdılar. Əvvəlcə Ərəbistan yarımadasında, sonralar isə bütün dünyada bir qüdrət kimi zühur edib bəşəriyyət tarixində misli görünməyən bir mədəniyyət yaratdılar. Əgər hicrət olmasaydı, islam nuru elə Məkkənin zülmətlərində sönəcəkdi.

Mötəbər sənədlərə görə, islam Peyğəmbəri şəxsən özü hicrəti müsəlmanların tarixinin başlanğıcı kimi seçdi. Bu sənədlərdən ikisini qeyd edirik:

1. Səlman Peyğəmbərdən xahiş etdi ki, onun özü və uşaqları üçün nəsihət yazsın. Peyğəmbər Əlini çağırıb bir neçə nəsihətli söz dedi, Əli (ə) də yazdı. O məktubun sonunda belə yazılmışdı: «Əliyyibni Əbutalib onu Peyğəmbərin əmri ilə hicrətin doqquzuncu ilində, rəcəb ayında yazdı»[50]

2. Məşhur islam tarixçisi Bilazuru «Fütuhul bildan» adlı kitabında Peyğəmbərin «Muqna» yəhudiləri ilə bağladığı müqaviləni dərc etmiş və xatırlatmışdır ki, bir misirli şəxs onun mətninin qırmızı dəridə yazıldığını görmüşdür, lakin onun bəzi kəlmələri pozulmuşdur. O misirli şəxs müqaviləni mənə oxudu. Onun sonunda belə yazılmışdı: ...***(126, üç nöqtənin yerində tarix yazılmışdır ki, sonralar pozulmuşdur). Bu iki sənəd, habelə birinci xəlifənin dövründə hicri tarixlə islam əmirləri

---

[50] Əbu Nəim. «İsfahan xəbərləri», 1-ci cild, səh.52-53

tərəfindən yazılmış sənədlər sübut edir ki, hicri tarixinin əsasını qoyan Həzrət Peyğəmbər özüdür.

Yəqubi belə yazır: İkinci xəlifə Əlinin təsdiqi ilə elan etmişdi ki, Peyğəmbərin hicrəti tarixin başlanğıcı olsun və həmçinin əmr etmişdi ki, bütün məktublara hicri tarixilə tarix qoyulsun.[51] Yəqubinin bu sözünün dediklərimizlə heç bir ziddiyyəti yoxdur. Çünki ola bilsin hicri tarixi əlaqələrin məhdud olması ucbatından əvvəllər o qədər də geniş yayılmamışdı, ancaq xəlifənin elan etməsi ilə daha çox yayıldı və rəsmiləşdi.

## MƏDİNƏDƏ MƏSCİDİN TİKİLMƏSİ

Həzrət Peyğəmbərin Mədinədə birinci işi məscid tikilməsi idi. O, dəvəsi yatdığı yeri on dinara (məscid üçün) aldı. Müsəlmanlar məscidin tikintisində iştirak etdilər. Hətta Həzrət Peyğəmbərin özü də ətrafdan daş gətirirdi. Müsəlmanlardan biri o Həzrətdən götürdüyü daşı ona verməsini istədi. Peyğəmbər dedi: – Sən başqa bir daş apar.

Bu vaxt müsəlmanlar belə bir nəğməni zümzümə edirdilər: «Bizim oturmağımız və Peyğəmbərin işləməsi... bu iş lap pis işlərdəndir».

Müsəlmanlar məscidin tikintisi üçün materiallar hazırlayarkən belə dua edirdilər: «Pərvərdigara! Həqiqi həyat axirət həyatıdır. İlahi, mühacirlər və ənsarlara rəhmət göndər».

Həzrət Əli də işləyərkən deyirdi:

«Məscid düzəldən, ayaq üstə və ya oturan halda işlə məşğul olan şəxslə özünü toz-torpaqdan qoruyan şəxs eyni deyildir».

O, bu şerdə özlərini toz-torpaqdan qoruyan şəxslərə işarə edir.[52]

İslamın qabaqcıl fəallarından olan Əmmar məscidin tikintisində hamıdan çox işləyirdi. Bəziləri onun sədaqətlə, təmiz niyyətlə işləməsindən sui-istifadə edib çiyninə ağır daşlar qoyurdular. O, yorğun halda

---

51 «Tarixe Yəqub», 2-ci cild, səh.45

52 «Hələbinin sirəsi», 2-ci cild, səh.76-77

Peyğəmbərə dedi: – Ey Allahın Rəsulu, məni öldürdülər, özləri apardıqlarından çox mənə daşıtdırırlar.

Bu halda Həzrət Əmmara dedi: – Ey Süməyyənin oğlu, bunlar sənin qatilin deyillər; səni adil imam əleyhinə üsyan edən bir dəstə öldürəcək.

(Bu xəbər o gündə Peyğəmbərdən eşidildi və Əmmar 90 yaşında, Siffeyn döyüşündə Həzrət Əlinin dəstəsində «Fiətülbağiyə» – üsyan qaldıran bir dəstə (Müaviyənin tərəfdarları) tərəfindən öldürüldü. Əmmarın öldürülməsi şamlıların sıralarına qəribə bir vəlvələ saldı. Çünki bu hadisədən sonra bildilər ki, Əlinin tərəfdarları haqdır və şamlılar batildirlər.[53])

Məscidin tikintisi sona çatdı. İslamın genişlənib yayılması ilə onun sahəsi də ildən-ilə böyüdü. Məscidin yanında yoxsul mühacirlərin və fəqirlərin qalması üçün bir yer hazırladılar. Übadət ibn Samit onlara yazıb-oxumağı öyrətməyi öhdəsinə götürdü.

Həzrət Rəsul hicrətin birinci ili, rəbiül-əvvəl ayından ikinci ilin səfər ayına qədər Mədinədə qalıb məscidi və onun ətraf evlərini düzəltdirdi. Bu müddət ərzində Ovs və Xəzrəc qəbilələrinin hamısı islamı qəbul etdilər. Ənsar qəbiləsindən bir neçə ailə istisna olmaqla, hamısı islamı qəbul etdi. Şübhə içində qalan bəzi tayfalar da Bədr döyüşündən sonra islamı qəbul etdilər.[54]

## QARDAŞLIQ ƏLAQƏLƏRİ

Ənsar Ovs və Xəzrəc qəbilələrindən təşkil olunmuşdu və qədimdən onların arasında ədavət var idi. Həzrət Rəsulu Mədinəyə gətirən və pərvanə kimi başına dolanan da onlar idi. Ənsarla mühacirlər arasında nəinki ixtilaf var idi, həmçinin fikir ayrılığı da mövcud idi. Ona görə ki, onlar adət-ənənə baxımından tamamilə fərqli boya-başa çatmışdılar və

---

[53] «Müstədrəki-Hakim», 3-cü cild, səh.385; «Müsnədi-Hənbəlş», 2-ci cild, səh.199
[54] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.500.

bəzən bir dəstə özünü başqalarından üstün bilirdi. Mühacirlər deyirdilər ki, Peyğəmbər bizim ailəmizin bir üzvüdür, ənsarlar isə Peyğəmbərə pənah aparmaq və onu himayə etməklə fəxr edirdilər. Həzrət Peyğəmbər bu ixtilafı həll etmək və onların arasındakı ittifaqı möhkəmləndirmək üçün Allah tərəfindən məmur oldu ki, onları bir-birləri ilə qardaş etsin. O dedi: «Allah yolunda qardaş olun».

Peyğəmbər bu yolla müsəlmanların siyasi və mənəvi birliyini möhkəmləndirdi və düşmənçiliyi dostluğa çevirdi. Dinin tarixindən yazanlar Peyğəmbərin əmri ilə qardaş olan dəstələrin adlarını qeyd etmişlər.

## BÖYÜK FƏZİLƏT

Peyğəmbər ənsar və mühacirlərdən olan 300 nəfəri bir-biri ilə qardaş etdi. Məsələn, o deyirdi: «Filankəs, sən filan şəxslə qardaş ol!».

Qardaşlıq işi sona çatdı. Əli gözü yaşarmış halda Həzrət Rəsula dedi: – Hamının arasında qardaşlıq yaratdın, lakin mənim üçün bir qardaş seçmədin.

Peyğəmbər dedi: – Sən mənim bu dünyada və axirətdə qardaşımsan. Səni axıra saxladım ki, özüm səninlə qardaş olam. Sənin mənə olan mövqeyin Harunun Musaya olan mövqeyi kimidir. Bir bu fərqlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur və sən mənim qardaşım, varisimsən.

## İSLAMIN İLK SİYASİ SƏNƏDİ

Həzrət Peyğəmbər bildirdi ki, mühacirlərlə ənsar arasında qardaşlıq yaratmaq birlik üçün birinci addım olsa da belə, Mədinənin siyasi birliyindən ötrü kifayət deyildi. Ona görə ki, hələ də ənsarlılar arasında yəhudi ayininə inananlar və bütpərəstlikdə qalanlar var idi. Əgər xüsusi tərkibə malik Mədinədə siyasi birlik yaranmasaydı, islam o mühitdə inkişaf edə bilməz və daimi olaraq Mədinəni hədələyən xarici düşmənlər məsələsi həll olunmazdı. Buna görə o Həzrət müfəssəl bir siyasi sənəd

yazdı ki, onun maddələrinin hamısını bəyan etmək burada mümkün deyildir. Biz ancaq onun bəzi mühüm hissələrini qeyd edirik:

- Sənədə qol çəkənlər vahid bir millət təşkil edirlər,
- Onların hər biri öz dini mərasimlərini yerinə yetirməkdə azaddırlar.
- Müharibə vaxtında bu dəstələrin hər biri başqasına yardım etməlidir. Ancaq bu şərtlə ki, onların özü təcavüzkar olmasın.
- Mədinə düşmənlərin hücumuna məruz qaldıqda hamısı şəhəri müdafiə etməlidir.
- Düşmənlə sülh məsələsi hər iki dəstənin məsləhəti ilə olmalıdır;
- Mədinə müqəddəs bir şəhərdir. Hamı onun hörmətini saxlamalı və orada qan tökmək haramdır;
- İxtilaflarda son qərar Peyğəmbərə mənsub idi.

Qəribədir ki, bu sənədin sonunda «Məhəmməd Rəsulullah» ifadəsi yazılmışdır.

Bu sənədin imzalanmasında Mədinə yəhudilərinin üç qəbiləsinin iştirak etməsinə baxmayaraq, Xəzrəc, Ovs və bu iki qəbiləyə müxalif olanlar sənədə qol çəkdilər. Amma sonralar Peyğəmbər bu üç dəstə ilə başqa bir müqaviləyə də qol çəkdi ki, bunlar tarixdə qeyd olunmuşdur.[55]

## YƏHUDİLƏRİN TÖRƏTDİYİ ƏNGƏLLƏR

Ənsar qəbiləsində və ətraf qəbilələrdə islamın genişlənməsi yəhudilərdə və bəzi müxaliflərdə Peyğəmbərə qarşı həsəd hissini artırırdı. Onlar heç fikirləşmirdilər ki, Peyğəmbərin apardığı iş bu dərəcədə baş tuta bilər. Vəziyyəti daha da gərginləşdirən yəhudi alimi Əbdüllah ibn Səllamın islamı qəbul etməsi idi. O, Peyğəmbərlə söhbət etdikdən sonra islamı qəbul etdi. Onun müsəlman olması xəbəri yəhudi qəbilələrinin qəzəbinə səbəb oldu. Çox çəkmədi ki, Müxəyriq adlı başqa bir alim də

---

[55] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.50l-504.

ona qoşuldu. O, böyük alim və şəriətli bir şəxs idi. Peyğəmbəri öz malına varis və ixtiyar sahibi etmişdi. Bu isə səbəb oldu ki, onlar bəzi sualları irəli sürməklə ənsarın Həzrət Rəsula olan inamını zəiflətsinlər. Həmin sorğulardan sonra və bu məsələ ilə əlaqədar olaraq «Bəqərə» və «Nisa» surələrinin əvvəllərindəki bəzi ayələr nazil oldu. Bu ayələri oxuyan hər bir kəsə müasir yəhudilərlə Peyğəmbər zamanındakı yəhudilərin inad-karlıqları aydınlaşır.

Burada müsəlmanların birliyini pozmaq üçün yəhudilərin hiylələrindən birini (islamın ilk illərinə aid olmasına baxmayaraq) qeyd etməyi məqsədəuyğun sayırıq:

Bir gün Ovs və Xəzrəc qəbilələrinin camaatı bir yerə yığışmışdı. Dünənə kimi düşmən olan bu iki qəbilənin birliyi yəhudilərdən birini çox narahat edirdi. O, dərhal orada olan bir cavana işarə etdi ki, keçmişdə onların arasında baş verən müharibələrin acı xatirələrini onların yadına salsın. O da Ovs qəbiləsinin xəzrəclilərə qalib gəldiyi Buas müharibəsindən danışarkən acı xatirələri onların nəzərində elə canlandırdı ki, nəticədə iki müsəlman dəstəsi arasında ixtilaf başladı. Bu zaman ixtilaf barədə xəbər Peyğəmbərə çatdı. Peyğəmbər dərhal özünü oraya çatdırdı və islamın məqsədini izah edib dedi: – İslam sizləri bir-birinizlə qardaş etdi. Bütün kin-küdurətləri və qəzəblərinizi unudun. Peyğəmbər onlara o qədər nəsihət edib düşmənçiliyin aqibətindən söz açdı ki, birdən onların ağlamaq səsi ucaldı, bir-birlərini qucaqlayıb Allahdan bağışlanmalarını dilədilər.

## ON İKİNCİ FƏSİL

# HİCRƏTİN İKİNCİ İLİNİN HADİSƏLƏRİ QÜREYŞİN TİCARƏT YOLLARININ HƏDƏLƏNMƏSİ, QİBLƏNİN DƏYİŞDİRİLMƏSİ VƏ BƏDR DÖYÜŞÜ

Hicrətin ilk ili bütün acı-şirinlikləri ilə ötüb keçdi. Peyğəmbər və onun tərəfdarlarının Mədinədə məskunlaşmaları ilə hicrətin ikinci ilində mühüm hadisələr baş verdi. Onlardan biri qiblənin dəyişdirilməsi, digəri isə Bədr döyüşüdür. Bədr döyüşünün səbəbinin aydınlaşdırılması üçün ondan əvvəl baş verən və bu müharibəyə gətirib çıxaran hadisələri araşdırırıq. Bu hadisələrdən biri Qüreyşin ticarət yollarını nəzarət altına almaq üçün səyyar keşikçi qüvvələrini səfərbər etmək idi. Dinin tarixini yazanların terminologiyasında iki söz daha çox işlənir: «Qəzvə» və «Səriyyə». Qəzvə Həzrət Rəsulun şəxsən qoşuna rəhbərlik etdiyi döyüşə deyilir. Səriyyə isə Peyğəmbərin səfərbər etdiyi və özünün qatılmadığı hərbi dəstələrin iştirak etdiyi döyüşə deyilir. Peyğəmbər onlara müəyyən bir başçı seçər və onlar bir məqsədə doğru gedərdilər.

Peyğəmbərin iştirak etdiyi «Qəzvələr»in sayını 26, yaxud 27 göstərirlər. Bunun səbəbi odur ki, bir-birinin ardınca baş verən Xeybər və Vadil-qura «Qəzvələr»ini bəziləri bir, bəziləri isə iki qəzvə saymışlar.[56] «Səriyyə»lərin sayı da mübahisəlidir. Tarixçilər onların sayının 35, 36 , 48 və hətta 66 olduğunu qeyd etmişlər. Bunun səbəbi odur ki, bəzi «Səriyyə»lərdə iştirak edənlərin sayı az imiş. Biz hələlik «Səriyyə»lər barədə geniş danışmaq fikrində deyilik. Lakin hicrətin ilk ilində Bədr müharibələrinin araşdırılmasında əhəmiyyətli olan «Səriyyə»lərdən söz açacağıq.

– Həzrət Rəsul Mədinədə olduğu ilk il öz sərkərdəsi Həmzəni otuz atlı ilə (hamısı mühacir idi) Qırmızı dənizin sahilinə səfərbər etdi və ona ağ bayraq verdi. O, «İys» adlı məntəqədə üç yüz qoruqçusu olan Qüreyş

[56] «Mürucüz-zəhəb», 2–ci cild, səh.287–288

karvanı ilə qarşılaşdı. Lakin hər iki dəstə ilə dost olan Məcd ibn Əmrin köməyi ilə məsələ bitdi və səfərbər olmuş qüvvə Mədinəyə qayıtdı.[57]

– Həmin səfərbərliklə Həzrət Übeydət ibn Haris ibn Əbdülmüttəlibi mühacirlərdən ibarət 60 nəfərlik dəstə ilə Qüreyş karvanlarının yollarına göndərdi. O, Qüreyş karvanına başçılıq edən Əkrəmə ilə qarşılaşdı. Amma toqquşma baş vermədi və onlar bir-birindən aralandılar. Yalnız Səd Vəqqas bir ox atdı ki, bu da islam tarixinə atılan ilk ox idi. Bu dəstənin səfərbər olmasının faydası o idi ki, Qüreyş karvanından olan iki nəfər Übeydəyə qoşuldular.[58]

– Zilqədə ayında Həzrət Rəsul Səd Vəqqası səkkiz nəfər mühacirlə Qüreyşin vəziyyətini öyrənmək üçün Mədinədən kənara göndərdi. O, Xərrar məntəqəsinə qədər irəlilədi və düşmənlə qarşılaşmadan Mədinəyə qayıtdı.[59]

– Hələ Peyğəmbərin Mədinəyə gəlməsindən on gün keçməmişdi ki, Kürz adlı bir quldur Mədinənin qoyun və dəvələrini oğurladı. Həzrət Rəsul bir dəstə ilə Bədr məntəqəsinə kimi getdi və şəban ayının axırına qədər orada qaldı.

– Hicrətin ikinci ili rəcəb ayında Peyğəmbər mühacirlərdən 80 nəfəri Əbdüllah ibn Cəhşin sərkərdəliyi ilə Qüreyş karvanını təqib etmək üçün səfərbər etdi və ona bir məktub verib dedi ki, iki gün yol gedəndən sonra açıb oxusun və məktubda yazılanlara əməl etsin. O, iki gün yol gedəndən sonra məktubu açdı və oxudu: «Məktubu oxuyan kimi Məkkə ilə Taif arasındakı Nəxlə adlı bir yerdə düşüb Qüreyş karvanını gözlə və onların məqsədlərini öyrən!» Dəstə üzvləri başlarını qırxdılar ki, düşmən onların əsl məqsədini bilməsin və Kəbə ziyarətinə getdiklərini güman etsin. Rəcəb ayının son günü (haram ayların sonu) Qüreyşin ticarət karvanı

---

[57] «Tarixe Kamil», 2-ci cild. səh.77-78: «İbn Hişamın sirəsi», 1-ci cild. şəh.59l-595

[58] «Tarixe Kamil», 2-ci cild. səh.78; «Tarixül-xəmis», 1-ci cild, səh.363

[59] «Tarixe Kamil», 2-ci cild. səh.78; «Tarixül-xəmis», 1-ci cild, səh.363

Nəxlə məntəqəsindən keçirdi. Karvan qoruqçuları səfərbər olmuş dəstənin ziyarətçi olduğunu və Ümrə mərasimi üçün Məkkəyə getdiklərini güman etdilər. Həmin gün Rəcəb ayının sonu idi və haram ayları başa çatırdı. O günlər döyüşmək qadağan edilmişdi. Amma səfərbər edilmiş qüvvələrin hərbi şurası belə qərara aldı ki, karvana hücum etməsələr, onlar hərəmə daxil olacaqlar. Belə olan halda hərəmdə döyüşməli olacaqlar. Nəhayət, onlar haram ayda döyüşməyi hərəmdə döyüşməkdən üstün tutdular. Beləcə Qüreyş karvanına qəflətən hücum etdilər və karvanın başçısı Vaqid ibn Əbdüllah bir oxla öldürüldü. Başçıların hamısı qaçdı və iki nəfər əsir düşdü. Əbdüllah ələ keçirilmiş qəniməti və həmin iki əsiri Mədinəyə gətirdi. Onlar Mədinəyə çatdıqda Həzrət Rəsulun etirazı ilə rastlaşdılar. Həzrət onlara dedi: – Mən sizə deməmişdim ki, haram ayda döyüşməyin!

Hətta Peyğəmbər ələ keçirilmiş qənimətləri də götürmədi. Vəhy mələyi o zaman bu iki ayəni gətirdi: «Səndən haram ayında döyüşmək barədə soruşurlar. Onlara de ki, həmin ay döyüşmək böyük günahdır və Allah yolunun qarşısını almaqdır. Amma Məscidül-həram (ətrafının) sakinlərini çölə salmağın günahı çoxdu. Fitnəkarlıq qətldən böyükdür. İman gətirib hicrət edənlər, Allah yolunda cihad edənlər, Allahın rəhmətinə ümid bəsləyənlər bilin ki, Allah bağışlayan və mehribandır». («Bəqərə» surəsi, 217-218-ci ayə)

Bu ayə müharibə etməyi qadağan etdiyinə görə hadisənin günahını Qüreyşdə görür. Ona görə ki, inamlı şəxsləri Məkkədən çölə salıb onların əleyhinə hiylə quranlar onlar idi. Əgər onlar bu cinayətə əl atmasaydılar, Əbdüllah ibn Cəhş kimi şəxslər onlardan intiqam almaz, haram ayda karvan başçısını öldürməzdilər. Ayənin məzmununda Əbdüllah ibn Cəhş alqışlanmış və iman, hicrət, cihad əhli, Allahın rəhmətinə ümidli şəxs kimi tanıtdırılmışdır.

Bu iki ayənin gəlməsi ilə Peyğəmbər hərbi qəniməti və əsirləri təhvil aldı. Qüreyşlilər öz əsirlərini geri almaq üçün bir nəfər göndərdilər. Həzrət buyurdu ki, mən sizin iki əsirinizi müsəlmanların Səd və Ütbə adlı

iki əsiri ilə dəyişirəm. Əgər siz bizim əsirlərimizi öldürsəniz, mən də sizinkiləri öldürəcəyəm. Qüreyşlilər müsəlmanların həmin iki əsirini təhvil verəndən sonra Peyğəmbər onları buraxdı. Onlardan biri Həkəm müsəlman oldu və Beri-Məunədə şəhid edildi. O biri əsir isə Məkkəyə qayıtdı.

## SƏFƏRLİKDƏ MƏQSƏD NƏ İDİ?

Qeyd olunan hadisələrin araşdırılmasında əsas məsələ bu səfərbərliklərdə başlıca məqsədin nədən ibarət olduğunu öyrənməkdir. Ona görə ki, bu kimi hadisələri bəziləri, xüsusilə şərqşünaslar əksinə şərh etmiş, hətta bəzi qərəzli təhlillərdən çəkinməmişlər.

İslam tarixi və müsəlmanlar Məkkədə, ümumiyyətlə, iki faktın mövcudluğunu təsdiq edirlər ki, buna da heç bir şəkk-şübhə yoxdur:

– Məkkədə müsəlmanların dini mərasimləri yerinə yetirməsi üçün heç bir azadlığı yox idi. Qüreyş başçıları tutduqları müsəlmana əzab-əziyyət, işgəncə verirdilər və o da bu işgəncə, sıxıntılar nəticəsində öz iş, yaşayış yerini və ailəsini atıb yad yerə köçürdü. Elə bu təzyiqlər nəticəsində Peyğəmbərin tərəfdarları Həbəşistana köçdülər, bəziləri isə Əqəbə əhd-peymanından sonra Mədinəyə getdilər. Əgər birisi müsəlman olub köçə bilməsəydi, hökmən Qüreyşin işgəncəsinə məruz qalardı. Buna görə də Peyğəmbər Əbdüllah ibn Cəhşlə bağlı hadisə zamanı əsirləri dəyişməyə başladı. Bunlar göstərir ki, müsəlman olan şəxs ya Məkkədən çıxmalı, ya da onların əsarəti altında – zindanlarda qalmalı idi. Gələcək fəsillərdə deyiləcək ki, Peyğəmbərin hicrətindən sonra Qüreyşin tanınmış şəxsiyyətlərinin övladlarından olan müsəlmanlara onlar tərəfindən hansı işgəncələr verilirdi. Hətta Qüreyş başçıları Hüdeybiyyə sülhündə Peyğəmbərdən tələb etdilər ki, Məkkədən Mədinəyə qaçan müsəlmanların təhvil verilməsinə dair söz versin. Peyğəmbər qəbul etdi və dəfələrlə buna əməl etdi.

– Mühacirət edən müsəlmanın bütün sərvəti Məkkədə qalırdı və o, heç bir vaxt onu sata, yaxud Yəsribə apara bilmirdi. Beləliklə, onun mal-dövləti Qüreyş tərəfindən müsadirə olunurdu.

Bu iki məsələ sübut edir ki, səfərbərlikdə və Peyğəmbərin həmin dəstələrdə iştirak etməsində əsas məqsəd Qüreyş başçılarının diqqətini onların əhəmiyyətliliyinə yönəltmək idi. Yəni onların ticarət yolu istər Məkkədən Taifə, oradan da Yəmənə, istərsə də Məkkədən Şama olsun – islam qüvvələri tərəfindən kəsilə bilər. Müsəlmanlar istədikləri vaxt onların ticarətlərinin qarşısını ala, yaxud ticarət karvanlarını müsadirə edə bilərlər. Uzaqgörən Qüreyş başçıları bu məsələyə diqqət etməklə Məkkə müsəlmanlarına işgəncə verə bilməyəcək və sərvətlərini müsadirə edə bilməyəcəklər. Çünki ticarət Məkkə əhalisi üçün başlıca məsələ idi və oradan Taifə və Şama aparılan mallar onların həyat və iqtisadiyyatının əsasını təşkil edirdi. Əgər ticarət yolları müsəlmanlar tərəfindən təhlükə altına salınsaydı, onların güzəranı pisləşər və yaşamağa qadir ola bilməzdilər. Həqiqətdə bu səfərbərliklər bir növ hərbi taktika rolunu oynayırdı. Məqsəd 13 il Peyğəmbərin və müsəlmanların azadlığını əlindən alan və onlara əziyyət verən düşməni qorxuya salmaq idi. Bu əməliyyatlar sayəsində Məkkə müsəlmanları işgəncədən azad oldular və mal-dövlətləri müsadirə olunmadı. Müsəlmanlar Məkkəyə get-gəl edə bildilər və islamın təbliğində müəyyən qədər azad oldular.

## MƏQSƏD HƏRBİ TOQQUŞMA DEYİLDİ

Beləliklə, aydın olur ki, bu səfərbərliklərdə məqsəd hərbi toqquşma olmamışdır. Əgər məqsəd hərbi toqquşma olsaydı, Peyğəmbər sayı karvan qoruqçularından dəfələrlə çox olan və mühacir, ənsardan ibarət yaxşı təchiz olunmuş qoşunla Mədinədən çıxardı. Halbuki O, Həmzəni 30, Übeydəni 60 və Sədi-Vəqqası 80 nəfərlə səfərbər etmişdi və karvan

qoruqçularının sayı onlardan xeyli çox idi.[60] Xüsusilə, Qüreyş başçıları Peyğəmbərin karvanın yolu üstündəki Bəni-Zümrə və Bəni-Müdlic qəbilələri ilə müqavilə bağlamasından xəbərdar olduqdan sonra karvanın qoruqçularının sayını artırdılar. Əgər məqsəd hərbi toqquşma olsaydı, heç olmasa bir damla qan tökülməli idi. Halbuki bütün toqquşmalar vasitəçiliklə başa çatdı və tərəflər bir-birindən aralandılar. Məqsədin hərbi toqquşma olmamasına başqa bir sübut: Həzrət Rəsul sərkərdəsinə əmr etdi ki, Məkkə ilə Taif arasında yerləşən Nəxlə adlı bir yerdə düşsün və Qüreyşi güdərək onların işlərindən Mədinəyə xəbər versin. Hətta Peyğəmbər məktub da yazdırıb onu sərkərdəyə verdi. Sərkərdə məktubu iki gündən sonra açdıqda əsgərlərinə dedi: «Həzrət Rəsul mənə əmr edib ki, Nəxləyə düşüb Qüreyşi güdək və əldə etdiyimiz məlumatı Mədinəyə göndərək.» Göründüyü kimi nə Peyğəmbərin əmrində, nə də sərkərdənin danışığında hərbi toqquşmadan söz getmir. Qüreyşin karvan başçılarından birinin öldürülməsi isə onların özbaşına gördükləri işin nəticəsi idi və Həzrət Rəsula heç bir dəxli yox idi. Elə həmin səbəbə görə Mədinəyə daxil olduqda Həzrət onları alqışlamadı, əldə etdikləri qənimətləri almadı və məsələnin həlli üçün vəhyi gözlədi.

## MƏQSƏD TİCARƏT MALLARINI MÜSADİRƏ ETMƏK DEYİLDİ

Bununla aydınlaşır ki, məqsəd karvan mallarına yiyələnmək deyildi. Çünki mühacirlərdən ibarət olan dəstələr heç də karvan qoruqçuları ilə döyüşməyə qadir deyildilər ki, ağır döyüşlərdən sonra onların qoruqçularını əsir götürüb mallarını müsadirə etsinlər. Malların müsadirə edilməsi isə heç şübhəsiz döyüşsüz və bir dəstənin başqa bir dəstəni əsir götürmədən və ya düşmənin qüdrətini məhv etmədən mümkün deyildir. Otuz, yaxud 80 nəfərdən ibarət dəstənin bu iş üçün səfərbər olmasının heç bir mənası yoxdur.

---

[60] «İbn Hişamın sirəsi», 1–ci cild, səh.59l.

Amma hədə gəlmək məsələsində qüvvələrin bərabərliyinə ehtiyac yoxdur. Ona görə ki, qorxuya salmaq ağır bir qoşun tələb etmir. Qüreyşin müsəlmanların güclənib nə vaxtsa ticarət yollarını kəsə biləcəklərindən qorxuya düşməsi onların öz siyasətlərini dəyişmələri üçün kifayət edər. Ona görə də göndərilən dəstələr yalnız Qüreyşi qorxuya salmaq üçün kifayət idi.

Bundan əlavə, bu dəstələrin bəzisində Peyğəmbər özü də iştirak edirdi. Həmin dəstələrdə ənsarlılar iştirak edirdilər və başqasının malını əlindən almaq onların əhval-ruhiyyələri ilə uyğun deyildi. Ona görə ki, Yəsrib əhalisi mədəni və əkinçi idi. İl boyu heç bir karvana hücum etməz, ticarət karvanlarına tamah salmazdılar. Həm də elə güclü idilər ki, başqaları onların mal-dövlətlərinə göz dikə bilməzdi. Talançılıq və qarətçilik köçərilərin əhval-ruhiyyəsi ilə uyğunluq təşkil edir. Başqa bir səbəb budur ki, hicrətin ikinci ilində baş verən Bədr müharibəsindən sonra Məkkənin alındığı hicrətin səkkizinci ilinə qədər Qüreyşin Mədinənin yaxınlığından Şama gedən ticarət karvanı günbəgün güclənən müsəlmanlar tərəfindən hücuma məruz qalmadı. Müsəlmanlar onların karvanlarına hücum etməyib mallarını əllərindən almadılar.

Sözün qısası budur ki, bu səfərbərlik və səfərlərdə məqsəd Qüreyşi qorxutmaq idi ki, nəticədə müsəlmanlar qarşısında hər hansı əks-əməldən çəkinsinlər. Belə bir əməliyyatın dövlətçilik baxımından heç bir eybi yoxdur. İndi isə hicrətin ikinci ilində baş verən iki mühüm hadisəni xatırlayaq:

## QİBLƏNİN DƏYİŞDİRİLMƏSİ

Həzrət Rəsul Məkkədə olduğu on üç il ərzində namazı Beytül-Müqəddəsə tərəf qılırdı. Həmçinin Mədinəyə gələndən sonra da 17 ay[61] Beytül-Müqəddəsə tərəf namaz qıldı. Amma rəcəb ayının 15-də, bazar ertəsi günü Peyğəmbərə ilk cümə namazı qılınan Bəni Salim ibn Ovf

[61] «Elamül-vəra, li əlamil-hüda», səh.8l-82;

məscidində Beytül Müqəddəsin yerinə Kəbəyə tərəf namaz qılmaq əmr edildi. Allahın əmri (vəhy) o zaman nazil oldu ki, Peyğəmbər günorta namazının ilk rükətini Beytül-Müqəddəsə tərəf qılmışdı. O, iki rükəti isə Kəbəyə tərəf qılmalı oldu. Bu, Zül-qibləteyn (iki qibləli) məscidi adlandırıldı.

## QİBLƏNİN DƏYİŞDİRİLMƏSİNİN SƏBƏB VƏ NƏTİCƏLƏRİ

Qiblə bəzi səbəblərə görə dəyişdirildi ki, bu barədə həm tarixdə, həm də Quranda qeyd olunmuşdur. Birinci səbəb bu idi ki, Peyğəmbər Mədinəyə gələndən sonra yəhudilərin hiylələri başlandı. Ona görə ki, onlar islamın yayılması nəticəsində öz ayinlərinin təhlükə altına düşməsindən qorxurdular. Onlar Peyğəmbərlə mübahisəyə girişərək onun mövqeyini zəiflətmək istəyirdilər. Onların etirazlarından biri bu idi: Əgər Məhəmməd Allah tərəfindən gəlmiş və müstəqil bir dinə malikdirsə, bəs nə üçün hələ də yəhudilərin qibləsində namaz qılır. Ona görə Peyğəmbər (s) gecələr evdən çıxıb asimana tərəf baxır və bu haqda bir əmrin nazil olmasını gözləyirdi. Quran buna işarə edib yazır:

«Biz sənin asimana baxdığını görürük və sənin, hökmən razılığını əldə edib qibləyə tərəf döndərəcəyik.»[62] Allah tərəfindən əmr olundu ki, o və bütün müsəlmanlar Kəbəyə tərəf namaz qılsınlar. Quran bu barədə deyir: «Üzünü Məscidül-Hərama tərəf çevir və hər yerdə olsanız, Məscidül-Həram səmtinə dönün».

Beləliklə, Həzrət Rəsul Beytül-Müqəddəsdən Kəbəyə tərəf döndü. Bu vaxt o Həzrətə «nə üçün Beytül-Müqəddəsə namaz qılır» – deyə irad tutanlar yenə irad tutmağa başlayıb dedilər ki, bəs necə oldu ki, Peyğəmbər birinci qiblədən üz çevirdi və Kəbəyə döndü?

Tarix təsdiq edir ki, Bəni-İsrail tayfası inadkar, hər şeyə irad tutan bir camaat idi. Buna görə Peyğəmbər nə edirdisə, onlar irad tuturdular.

[62] «Bəqərə» surəsi, 144-cü ayə (l49 və 150-ci ayələr də bu məzmundadır).

Quran bu barədə başqa bir ayədə işarə edir: Qiblənin dəyişdirilməsi bir növ imtahan və sınaq idi. Ona görə ki, Kəbəyə dönmək və birinci qiblədən üz çevirmək insanların Allah əmrlərinə təslim olmasıdır. Halbuki birinci qiblədə qalmaq tərəddüd, şübhə etmək və nifaq salmağa bərabərdir. Quran bu məsələyə işarə edir və deyir: Qiblənin dəyişdirilməsinin səbəbi odur ki, Peyğəmbərə tabe olan şəxslə onun əmrindən boyun qaçıran şəxs məlum olsun. Bu, yönü müəyyən edilmiş şəxslərdən başqa digər şəxslərlə ağır bir işdir.

Bu zaman bəziləri elə bilirdilər ki, onların qabaqkı namazları batildir. İlahi vəhy onlara cavab olaraq nazil oldu: «Allah heç vaxt sizin əməllərinizi zay etməyəcəkdir, Allah insanlara qarşı mehribandır».[63]

Qiblənin dəyişdirilməsinin nəticələri:

– Allahın əmri ilə Nuhun tufanından əvvəl düzəldilən və Həzrət İbrahim tərəfindən təmir edilən Kəbə ərəblər üçün müqəddəs idi və oranı qiblə kimi qəbul etmək ərəblərin diqqətini islama cəlb edərdi. Bundan üstün nəticə ola bilməzdi ki, iman və mədəniyyətdən geri qalmış allahsızlar islama üz tutsunlar.
– Müsəlmanların yəhudilərdən aralı olmaları mühüm bir məsələ idi. Ona görə ki, yəhudilər heç cür Allaha və Onun Rəsuluna iman gətirməyə hazır deyildilər. Yaxşı olardı ki, müsəlmanlar onlardan aralı olsunlar. Bu da qiblənin dəyişdirilməsi ilə həyata keçirildi. Hətta ramazan ayında oruc tutmaq vacib oldu. Bununla da bu iki dəstə bir-birindən ayrıldı.

Bu da diqqət yetiriləsi məsələdir ki, Peyğəmbər namaz vaxtı Beytül-Müqəddəs səmtində Kəbəyə tərəf elə döndü ki, azacıq da olsa əyrisi olmadı. Mədinənin indiki məscidinin mehrabı olan həmin mehrab dəqiq surətdə Kəbəyə tərəfdir və astronomiya, habelə riyazi elmlərlə uyğundur. Bunun özü də bir elmi nailiyyətdir. Heç bir məktəbdə dərs

---

[63] «Bəqərə» surəsi, 143-cü ayə.

oxumamış bir şəxs namaz vaxtı Kəbəyə dəqiq şəkildə dönməklə elə bir iş görmüşdür ki, astronomlar miqyaslar və elmi vasitələrdən istifadə etmədən onu yerinə yetirə bilməzlər.

## BƏDR DÖYÜŞÜ

Xatırladaq ki, Peyğəmbər Qüreyşi qorxutmaq və onların ticarət yollarını təhlükə altına almaq üçün bir neçə dəstə səfərbər etdi. Məqsəd Qüreyşin müsəlmanlarla davranışlarında dəyişikliyə nail olmaq idi. Amma təcrübə göstərdi ki, onlar öz işlərindən əl çəkən deyillər. Buna görə Peyğəmbər qərara aldı ki, məsələyə daha ciddi yanaşıb güclü bir dəstə ilə Qüreyş karvanını təqib etsin və mallarını mühasirəyə alsın.

Yəsrib diyarı onlarca böyük karvanın yolu idi və heç vaxt görünməmişdi ki, bir müsəlman onlara toxunsun. Amma Qüreyş Məkkədə mühacirlərin var-yoxlarını ələ keçirib onları ev-eşiklərindən çölə salmışdı. Peyğəmbər müsəlmanlara münasibətin dəyişmədiyini gördükdə onlara eyni tərzdə yanaşıb mallarını müsadirə etdi. Bu məqsədlə Həzrət Rəsul hətta geniş bir plan hazırladı.

Qeyd olunduğu kimi, Həzrət Rəsul cəmadil-ula ayının ortalarında Əbu Süfyanın başçılığı ilə Məkkədən Şama gedən Qüreyş karvanını təqib etmək məqsədi ilə Zatül-üşeyrə adlı bir yerə gedib rəcəb ayının əvvəllərinə kimi orada qaldı. Lakin karvan yolunu tapmadan Mədinəyə qayıtdı. Peyğəmbər bilirdi ki, karvan payızın əvvəllərində Şamdan Məkkəyə doğru qayıdacaq. Buna görə hicrətin ikinci ili, ramazan ayının 19-da Əbdüllah ibn Ümmi Məktumu və Əbuləbabəni Mədinədə namaz qılmaq üçün canişini seçib 313 nəfərdən ibarət bir dəstə ilə Əbu Süfyanın karvanının qarşısını almaq məqsədilə Mədinədən çıxdı. Bu dəstə 80 nəfər mühacir, 170 nəfər Xəzrəc və 61 nəfər Ovs qəbiləsindən təşkil edilmişdi. Dəstənin üç atı və 70 dəvəsi var idi.

Şəhid olmaq və fədakarlıq eşqi islamın o vaxtkı cəmiyyətində elə güclü idi ki, hədd-büluğa çatmayan uşaqların bəzisi də dəstədə iştirak etmişdilər ki, Həzrət sonradan onları Mədinəyə qaytardı.

Həzrət Rəsulun taktikası belə idi: O, əvvəlcə düşmənin vəziyyəti barədə məlumat əldə etmək üçün bir neçə nəfəri irəli göndərirdi. Bu dəfə də bir neçə nəfəri məlumat əldə etmək, yəni karvanın yolunu, qoruqçuların sayını və malların növünü öyrənmək üçün irəli göndərdi. Onlar Həzrətə belə bir məlumat gətirdilər:

– Məkkə əhalisinin əksəriyyətinin şərik olduğu bu karvana Əbu Süfyan başçılıq edir. Karvanın 40 nəfər qulluqçusu var, ticarət mallarını min dəvə daşıyır və qiyməti 50000 dinar dəyərindədir.

Bu məlumat Peyğəmbərə çatandan sonra tərəfdarlarına öz qərarını açıqlayaraq[64] dedi: – Bu Qüreyş karvanıdır, siz Mədinədən çıxa bilərsiniz, bəlkə işiniz qaydasına düşdü.[65]

Peyğəmbərin sözlərindən məlum olur ki, Həzrət onlara güzəranlarının yaxşılaşacağına dair müjdə verir. Yəni onlar Qüreyşin daşıdığı malları almaqla rahat yaşayacaqlar. Çünki, qeyd etdiyimiz kimi, Qüreyş Məkkədə müsəlmanların bütün mallarını müsadirə etmişdi. Müsəlmanları Məkkəyə qoymurdular və onların daşına bilən, habelə daşına bilməyən mallarının hamısı sahibsiz qalmışdı. Aydındır ki, hər bir ağıllı insan düşmənlə düşmənin onunla davrandığı kimi rəftar etməlidir.

Ümumiyyətlə, diqqət etmək lazımdır ki, müsəlmanların Qüreyş karvanına hücum etməsinin başlıca səbəbi onların zülmə məruz qalmaları idi. Quran onlara hücum icazəsini verərək deyir:

«Hücuma məruz qalmış şəxslərə müdafiə icazəsi verilmişdir. Ona görə ki, onlar məzlum olmuşlar və Allah onlara yardım etməyə qadirdir».

Bu ayə «müdafiə cihadı» barədə nazil olan iki ayədir.

---

[64] «Biharül-ənvar», 19-cu cild. səh.217
[65] «Məğazi-vaqidi», 1-ci cild, səh.20

## PEYĞƏMBƏRİN ZƏFRAN SƏFƏRİ

Həzrət Rəsul hicrətin ikinci ili ramazan ayının səkkizində qeyd olunan məqsədlə Mədinədən Qüreyş karvanının yolu olan Zəfran məntəqəsinə doğru hərəkət etdi. Həzrət bir bayrağı Müsəbə, birini də Əliyyibni Əbutalibə verdi. Amma Əbu Süfyan Şama gedən vaxt karvanın olmasını bilmişdi və qayıdarkən ehtiyatı əldən verməyib Zəmzəm adlı şəxsə pul verib Məkkə yolunu təcili olaraq ötüb Qüreyşin diqqətini təhlükənin ağırlığına cəlb etmək üçün dəvəsinin qulağını kəsməyi və köynəyinin yaxasını cıraraq Məkkəyə daxil olmasını tapşırdı. O, fəryad edib deyirdi: «Ey Qüreyş xalqı! Müşk daşıyan dəvələr təhlükədədir, Məhəmmədin qoşunu onları almaq istəyir, yardım edin!».

Zəmzəmin qulağı kəsik və qulağından qan süzülən dəvəsinin halı və onun cırıq köynəyi Qüreyşin qanını cuşa gətirdi, hamılıqca (Əbuləhəbdən başqa; o, Asim ibn Hişama dörd min dirhəm verib öz yerinə yolladı) belə qərara gəldilər ki, karvanı xilas etmək üçün yola düşsünlər. Hətta Ümməyət ibn Xələf Həzrət Məhəmməddən qorxmasına baxmayaraq, elə vəziyyətdə idi ki, məcbur olaraq o da meydana yola düşdü. İki nəfər (Qüreyşdən) bir xonça və sürmə götürüb onun yanına gedib dedilər ki, indi ki, öz malını müdafiə edə bilmirsən, arvadlar kimi sürmə çəkib evdə otur.[66] Nəhayət, böyük bir dəstə Məkkədən hərəkət etmək qərarına gəldi.

Əbu Süfyan Şamdan qayıdarkən ehtiyatı əldən vermədi və Bədr adlı quyunun yanında düşərgə saldı. Orada yaşayan qəbilənin başçısından soruşdu: Burada nabələd şəxs görməyibsənmi?

O dedi: – Bəli, gördüm. İki atlı bu təpənin yaxınlığından düşüb bir tuluq su doldurdular və getdilər.

Əbu Süfyan özünü oraya çatdırdı, onların dəvələrinin peyinini eşələyib içindən xurma dənəsi tapdı. Bu, Yəsrib məntəqəsinə məxsus xurmaların

---

[66] «Tarixe Təbəri», 2-ci cild, səh. 138; «Tarixe Kamil». 2-ci cild, səh.82

çəyirdəyi idi. Tez karvanın yolunu dəyişib sahil tərəfdən Məkkəyə yola düşdü, Bədr sol tərəfdə qaldı. Dərhal bir nəfəri Məkkəyə göndərdi ki, karvanın xilas olması xəbərini Qüreyşə çatdırsın və onlara desin ki, gəldikləri yoldan qayıtsınlar. Əbu Süfyanın nümayəndəsi Məkkəyə çatıb bu xəbəri verdikdən sonra onlar sözə qulaq asmayıb dedilər ki, biz gərək Bədr məntəqəsinə qədər gedək, orada üç gün yeyib-içək, yatıb kef çəkək, qadın müğənniləri bizim üçün çalıb-oxusunlar. Ərəb xalqı bizim hərəkətimizdən agah olub qorxsunlar və öz hesablarını aparsınlar.

Beləliklə, hamılıqca hərəkət etdilər. Ancaq Bəni Zöhrə yarı yoldan (cöhfədən) Məkkəyə qayıtdı. Əbutalibin oğlu Talib də qüreyşlilərin biri ilə savaşdığına görə qayıtdı. Qüreyşlilər ona dedilər ki, siz bəni-haşimilər zahirən bizimlə olsanız da, həqiqətdə Məhəmmədin tərəfdarısınız. Talib bu sözü eşidəndən sonra Bəni Zöhrə ilə birlikdə Məkkəyə qayıtdı.

## İSLAM ORDUSU VƏ YENİ MƏLUMAT

Qüreyş karvanının qarşısını almaq üçün Mədinədən çıxan və Zəfran məntəqəsində karvanın yolunu gözləməkdə olan Peyğəmbərə qüreyşlilərin Məkkədən Bədrə tərəf hərəkət etməsinə dair yeni məlumat verildi. Bu halda islam rəhbərinin qarşısına böyük bir məsələ çıxdı: onun dəstəsi Qüreyşin döyüş üçün təchiz olunmuş ordusu ilə deyil, ancaq ticarət karvanının qoruqçuları ilə qarşılaşmaq üçün Mədinədən çıxmışdı və bu iki dəstə təchizat baxımından eyni səviyyədə deyildilər. Bundan əlavə, dəstənin əksəriyyətini ənsar cavanları təşkil edirdi, mühacirlərdən ancaq 80 nəfər iştirak edirdi. Həm də ənsarın Həzrət Rəsulla müqaviləsində məqsəd müdafiə idi, düşmənlə döyüşmək (özü də Mədinədən kənarda) üçün deyildi.

Digər tərəfdən, əgər müsəlmanlar buradan qayıdıb Bədrə tərəf hərəkət etməsələr, nəinki keçmiş iftixarlarını əldən verər, üstəlik düşmən cürət edib Mədinəyə də gələ bilərdi. Bu vaxt Həzrət Rəsul mühacirlərin və ənsarın rəyini öyrənmək üçün hərbi şura təşkil etdi. Bu şurada mühacirlərin nümayəndəsi Mədinəyə qayıtmağı məsləhət gördü və belə

dedi: – Bu orduda Qüreyşin cəngavərləri və böyükləri iştirak edirlər. Qüreyşlilər kafir olan vaxtdan mömin olmayıblar heç vaxt izzətli yaşayışdan zillətə düşməyiblər. Biz isə tam hazırlıqla Mədinədən çıxmamışıq.

Həzrət onların sözü ilə kifayətlənməyib ənsarın da rəyini öyrənmək istəyirdi. Bu dəfə Xəzrəcdən olan Səd Məaz ayağa qalxıb dedi: – Ey Allahın Rəsulu! Bizim rəyimizi istəyirsinizmi?

Həzrət dedi: – Bəli!

Sonra Səd Məaz dedi: – Biz iman gətirib təsdiq edirik və sənə söz vermişik. Sənin məqsədin nədirsə, elə onu da başla. And olsun səni haqq olaraq göndərən Allaha, əgər bu dənizə (Qırmızı dənizə işarə edib) girsən, biz hamılıqca sənin ardınca gələcəyik. Biz istəmirik ki, düşmənlə bu günün əvəzinə sabah üzbəüz olaq. Biz döyüşdə dözümlü şəxslərik.

Ondan sonra ənsardan olan Miqdad ayağa qalxıb dedi: – Biz Bəni-İsrail kimi Musaya «sən öz Allahınla birlikdə gedib döyüşün, biz burda oturmuşuq» deyənlərdən deyilik, əksinə, biz deyirik ki, sən Allahınla get, biz də sənin ardınca gəlirik.

Həzrət ənsarın fikrini öyrənəndən sonra düşmənlə qarşılaşmaq qərarına gəldi və ənsarı razı saldıqdan sonra Zəfrandan Bədrə tərəf hərəkət etdi. İki düşərgə keçəndən sonra Bədrə çatdı. Birinci gecənin qürubunda məlumat əldə etməyə başladı və Həzrət Əlinin başçılığı ilə kəşfiyyat dəstəsini Bədr quyusunun kənarına yolladı. Onlar quyunun kənarında Qüreyşdən su çəkməkdə olan iki qul ilə rastlaşdılar. Hər ikisni yaxalayıb Həzrət Rəsulun yanına gətirdilər. Peyğəmbər onlardan Qüreyşin yerini soruşduqda hər ikisi dağın arxasını göstərdi. Sonra onların sayını soruşdu. Dedilər ki, dəqiq bilmirik. Peyğəmbər dedi: Onların sayı 900-1000 nəfər arasındadır. Sonra qoşundakı mühüm şəxslər barədə soruşdu. Dedilər: Ütbə, Şeybə, Əbucəhl və Hükeym ibn Hizam qoşuna başçılıq edirlər.

Bu zaman Həzrət dedi: Məkkə öz əzizlərindən qıraqda qalmışdır. Sonra əmr etdi ki, axtarış davam etdirilsin və əsirlər zindana salınsın.

Peyğəmbər şəxsən əlavə məlumat toplamaq istədi və dilavər bir əsgərlə bir az yol gedib məntəqənin qəbilə başçısı ilə görüşdü və dedi: Məhəmməd və Qüreyş barəsində nə bilirsən?

Qəbilə başçısı dedi: Mənə xəbər veriblər ki, Məhəmməd və onun tərəfdarları filan gün Mədinədən hərəkət ediblər. Əgər xəbər doğrudursa indi onlar orada olmalıdırlar. (O, İslam qoşununun yerini göstərdi) Habelə xəbər veriblər ki, Qüreyşin qoşunu Məkkədən hərəkət edib. Əgər xəbər düz olsa, onlar orada olmalıdırlar. (O, Qüreyş qoşunlarının yerləşdiyi yeri göstərdi).

Bu xəbərlər Qüreyşin orada yerləşdiyini qəti surətdə bildirdi. Buna görə Həzrət hərəkət fərmanı verdi. İslam ordusu hərəkət etdi və düşmənə yaxın bir yerdə, quyunun kənarında mövqe tutdu. Bədr çölü geniş bir məntəqə idi. Onun cənub tərəfi hündür, şimal tərəfi isə alçaq və yamacdır. Quyular tamamilə açıq yerdədirlər. Burada su quyuları olduğuna görə daim karvanların düşərgəsi olmuşdur. Əsgərlər orada düşdülər və həmin quyunun dövrəsində bir göl düzəltdilər ki, istifadə etsinlər.

## QUYULARIN DOLDURULMASI VƏ «KÖLGƏLİK» ƏFSANƏSİ

Deyirlər ki, guya Səd Məaz Peyğəmbərə təklif etdi ki, onun üçün uca təpənin başında bir kölgəlik düzəltsinlər və onu qorusunlar. Əgər İslam ordusu qalib gəlsə çox yaxşı olacaq. Əgər məğlub olsa, Peyğəmbər yorğa dəvələrə minib keşikçilərlə birlikdə düşməni yubatmaq üçün bir sıra əməliyyatlar keçirib özünü Mədinəyə çatdırsın və orada müsəlmanlar tərəfindən himayə olunsun.[67] Amma qeyd etmək lazımdır ki, kölgəlik düzəltmək və Peyğəmbərin Bədr quyularını doldurmağı əmr etməsi məsələləri əfsanədir və onları bəzi saxtakar tarixçilər uydurmuşlar. Ona görə ki, sərkərdənin qaça bilməsi üçün kölgəlik düzəltmək fikri əsgərlərin

---

[67] «İbn Hişamın sirəsi», 1-ci cild, səh. 620.

əhval-ruhiyyələrinə mənfi təsir göstərərdi. Bundan əlavə, İslam Ordusunun məğlub olması fikri ilə Peyğəmbərin öz tərəfdarlarına verdiyi xəbər də bir-birinə ziddir. Çünki Peyğəmbər vəhy vasitəsilə öz tərəfdarlarına demişdi: Onlar (müsəlmanlar) bu döyüşdə qalib gələcək və kafirlərin kökü kəsiləcəkdir. Bu qəti xəbər düşmənlə qarşılaşmadan əvvəl ilahi vəhy vasitəsilə verilmişdir.[68]

İbn Sədi «Təbəqat» kitabında Ömər ibn Xəttabdan söz açaraq deyir ki, Qəmər surəsinin 45-ci ayəsi[69] nazil olduqda Həzrət Rəsulu Bədr döyüşü günündə gördüm. O, zirehli paltar geyib xüsusi bir cəldliklə ayin oxuyurdu. Mən bildim ki, onların məğlub olması qətidir. Həzrət Əli (ə) «Nəhcül-bəlağə»də Peyğəmbər haqqında belə deyir: «Peyğəmbər düşmənə ən yaxın olan şəxs idi və döyüşün qızğın vaxtında biz Peyğəmbərə pənah aparırdıq».[70] Məlumdur ki, düşmənə hamıdan yaxın olan Peyğəmbər kölgəlikdə qala bilməzdi. İslam ordusunun ixtiyarında olan quyudan başqa digər quyuları da doldurmaq kimi bir iş də Peyğəmbərin əhval-ruhiyyəsi ilə uyğun deyil. O, heç vaxt bu işə əl atmazdı. Gələcək fəsillərdə oxuyacağıq ki, Peyğəmbər döyüşlərdə heç vaxt suyu düşmənin üzünə bağlamamışdır.

## QÜREYŞİN HƏRƏKƏTİ

Hicrətin ikinci ili, ramazan ayının 19-da səhər çağı Qüreyş ordusu Bədrə tərəf hərəkət etdi. Peyğəmbərin gözü onlara sataşdıqda həyəcana gəldi və dedi: «İlahi! Qüreyş lovğalıq edib Səninlə düşmənçiliyə qalxmış və Peyğəmbərini inkar etmişlər. İlahi, vəd verdiyin qəbiləni Səndən istəyirəm. İlahi, düşmənləri də elə bu gün məhv et».[71]

---

[68] «Ənfal» surəsi, 7-ci ayə.
[69] «Qəmər» surəsi, 45-ci ayə.
[70] «Nəhcül-bəlağə», qisar kəlmələri, 214
[71] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.62l

Qüreyş ordusu Bədr çölünə daxil oldu, müsəlmanların düzəltdiyi gölün suyundan içmək istədilər. Peyğəmbər dedi: Mane olmayın!

Düşmən özünə mövqe seçdi, müsəlmanların döyüş qabiliyyətini sınamaqdan ötrü onların sayını təxminən hesablamaqda mahir və döyüşdə dilavər olan Ümeyr ibn Vəhəbi rəqibin qərargahına göndərdi. O, müsəlmanların qərargahının ətrafında fırlanıb qayıtdı və Qüreyşə xəbər verdi ki, onların sayı 300 nəfərdir. Sonra «bəlkə arxada yardımçı qüvvələr vardır» deyə çölü bir daha başdan-başa dolandı və hər tərəfə baxdı. Sonra Qüreyşin qərargahına qayıtdı və belə dedi: Yəsrib dəvələri sizə ölüm sovqatı gətiriblər, bir dəstə adam gördüm ki, qılınclarından başqa bir sığınacaqları yoxdur və sizdən bir nəfəri öldürməyincə ölməyəcəklər. Əgər sizlərdən öz sayları qədər öldürsələr onda həyatın nə faydası? Görürsünüz ki, onlar dinmirlər və əfi ilanlar kimi dillərini ağızlarında tərpədirlər?[72]

Bu şəxsin verdiyi məlumat Qüreyş ordusunda ixtilaf saldı. Hakim ibn Hizam və Ütbə kimi şəxslər döyüşməyə meyl göstərmir, elə oradanca qayıtmaq istəyirdilər. Onlar deyirdilər ki, Məhəmmədin işini ərəb xalqının öhdəsinə qoyun, əgər ərəblər onu aradan götürə bilsələr, məqsədə çatmış olarlar və əgər Məhəmməd qalib gəlsə, onunla döyüşmədiyimizə görə işimiz asan olacaq. Amma Əbucəhl və Amir kimi şəxslər camaatı döyüşməyə çağırırdılar.

Döyüşün baş verməsini qətiləşdirən məsələlərdən biri bu idi ki, bədxah və inadkar adam olan Əsvəd Məxzumi özü ilə əhd etdi ki, bu üç işdən birini hökmən görməlidir: ya müsəlmanların düzəltdiyi gölün suyundan içməli, ya onu dağıtmalı, ya da özünü öldürməlidir. O, Qüreyş qoşunundan ayrıldı və gölə tərəf gəldi. Gölə çatmamış islamın dilavər sərkərdəsi Həzrət Həmzə ilə qarşılaşdı. Həmzə onun ayağına bir qılınc endirdi və onun ayağını budundan qırdı. O, öz əhdinə əməl etsin deyə,

---

[72] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.622, «Məğazi vaqidi», 1-ci cild, səh.62.

gölə tərəf süründü ki, özünü gölə salsın. Bu vaxt Həzrət Həmzə başqa bir zərbə endirdi və onu gölün içində öldürdü. Bu hadisə camaatı təhrik etdi və müharibəni daha da qətiləşdirdi.

## TƏKBƏTƏK DÖYÜŞ

Ərəblərin döyüşlərindəki adət-ənənələrindən biri əvvəlcə təkbətək döyüşmək, sonra isə ümumi döyüşə başlamaq idi. Əsvədin öldürülməsi Qüreyş igidlərinin meydana girib rəqib tələb etmələrinə səbəb oldu. Ütbə, qardaşı Şeybə və oğlu Vəlid təpədən-dırnağa qədər silahlı halda nərə çəkib meydana girdilər. İslam ordusundan üç nəfər (hər üçü Ənsardan idi) igid cavan meydana girib onlarla döyüşə hazırlaşdılar. Ütbə onları tanıdıqda dedi ki, biz sizinlə döyüşmürük. Sonra meydanın ortasında fəryad edib dedi: Məhəmməd! Bizim taylarımızı göndər!

Bu vaxt Həzrət Rəsul Übeydə, Həmzə və Əlini meydana göndərdi. Qüreyşdən olan üç cəsur müsəlman üzü örtülü halda meydana girib özlərini təqdim etdilər. Ütbə dedi: Siz bizim tayımızsınız, sizinlə döyüşməyə razıyıq.

Übeydə Ütbə ilə, Həmzə Şeybə ilə, Əli isə Vəlidlə döyüşə girdilər. İlk anda Həmzə Şeybəni, Əli (ə) də Vəlidi öldürdü, amma Übeydə ilə Ütbə qılıncla bir-birinin canına düşdülər. Əli (ə) və Həmzə rəqiblərini öldürəndən sonra Übeydənin köməyinə çatıb Ütbəni öldürdülər.[73] Übeydə yaralandı və qərargaha gətirildi.

## ÜMUMİ HÜCUM BAŞLANDI

Qüreyş cəngavərlərinin öldürülməsi ümumi döyüşün başlanmasına səbəb oldu. Peyğəmbər hücumdan əvvəl müsəlmanları cihada çağırıb dedi: «Məhəmmədin canı əlində olan Allaha and olsun, bu gün Allah bu

---

[73] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.625

dəstə ilə döyüşən, hücum edib qaçmayan və səbirli olub Allah yolunda şəhid olan hər bir şəxsi cənnətə aparacaqdır». Həzrətin sözləri İslam qoşununa elə təsir etmişdi ki, Ümeyr əlindəki xurmanı yeyərək dedi: Mənimlə cənnət arasında bir bu qalıb ki, məni öldürsünlər.

Sonra xurmaları yerə atıb hücuma keçdi və şəhid oldu. Peyğəmbər irəliləmək əmri verdi. İlk hücumda Qüreyşin bəzi başçıları öldürüldü, bəzisi isə əsir düşdü. Xeyli adam meydandan qaçdı və Qüreyş başçılarının ölüm xəbərini Məkkəyə çatdırdılar. Müsəlmanlar beləcə qələbə çaldı, Qüreyş isə məğlub oldu. Müsəlmanların bu döyüşdə qələbə çalmasının səbəbi İslam ordusuna hakim olan iman qüvvəsi idi. Onlar bilirdilər ki, hər iki halda (şəhid olduqda və ya qələbə çaldıqda) qələbə onlarındır.

Peyğəmbər dərhal əsgərlərə əmr etdi ki, əsirlər içərisində iki dəstə ilə yaxşı rəftar etsinlər:

- Besətin onuncu ilində iqtisadi mühasirəni sındırmaqda ona yardım edənlərlə (Əbilbəxtəra kimi);
- Qüreyşin təzyiqləri nəticəsində Məkkədən çıxıb Qüreyş qoşunlarına qoşulanlarla (Bəni-Haşimin çoxu kimi).

Qüreyşdə işgəncə verməklə məşğul olan Üməyyət ibn Xələfi Əbdürrəhman Ovf tutmuşdu və dost olduqlarına görə onu meydandan diri gətirmişdi.

Birdən uzun müddət onun işgəncəsinə məruz qalan Bilalın gözü ona sataşdı. Dedi ki, Üməyyət küfr başçılarındandır, o öldürülməlidir! Buna görə Üməyyət oğlu ilə birlikdə Bilal və onun həmfikirləri tərəfindən öldürüldü.

## TƏRƏFLƏRİN VERDİYİ İTKİLƏR

Bədr döyüşündə müsəlmanlardan 14 nəfər (6 nəfər mühacirlərdən, 8 nəfər ənsardan) şəhid oldu. Amma Qüreyşdən 70 nəfər öldürüldü, 70 nəfər isə əsir düşdü.

Həzrət Rəsul əmr etdi ki, Bədr şəhidlərini meydanın bir guşəsində dəfn etsinlər. Hazırda onların qəbirləri müsəlmanların ziyarətgahıdır. Qüreyşin

meyitlərini isə yığıb bir quyuya tökdülər. Peyğəmbər quyunun ağzına gəlib küfr başçılarının adlarını səsləyib dedi: «Pərvərdigarınızın vədə verdiyinin düz olduğunu gördünüzmü? Mən Pərvərdigarımın vədə verdiyinin doğru olduğunu gördüm». Həzrətin tərəfdarları onun ölülərlə danışmasından təəccüblənib dedilər: Ölülərlə danışırsan? Peyğəmbər dedi: Siz heç də onlardan yaxşı eşitmirsiniz, amma onlar cavab verə bilmirlər. (Peyğəmbər allahsızlarla danışığını davam etdirdi). Öz Peyğəmbərinizə qarşı nə pis qohum idiniz! Xalq onu təsdiq etdikdə, siz inkar etdiniz, siz məni evimdən çölə saldınız, onlar mənə sığınacaq verdilər; onlar mənə yardım göstərdilər, siz isə mənimlə döyüşə girişdiniz. İndi Pərvərdigarınızın sizə verdiyi vədlərin düz və doğru olduğunu bildiniz».

Meydandan yığılan qənimətlərin bölünməsi məsələsində ixtilaf yarandı: bəziləri deyirdilər ki, qənimətlər onları yığanlarındır, bəziləri isə deyirdilər ki, qənimətlər düşmənlə döyüşüb onları təqib edənlərindir. Bəziləri də Peyğəmbəri qorumağı öhdələrinə aldıqlarına görə özlərini qənimətlərə sahib olmaqda haqlı bilirdilər. Peyğəmbər onların ixtilafına son qoydu və qənimətlərin hamısını Əbdüllah ibn Kəbə verdi ki, onların arasında bölsün. O, hər nəfər üçün bir pay, hər at üçün iki pay və bəzi səbəblərə görə müharibədə iştirak edə bilməyən 8 nəfər üçün müəyyən pay ayırdı. Onun beşdə bir hissəsini isə Allah, Peyğəmbər, ona bağlı olan qohumlar, yetimlər, çarəsizlər və yoxsullar üçün ayırdı. Ancaq mühacirlərin payı çox olsun deyə qənimətlərin xümsünü çıxmadı. «Ənfal» surəsi Bədr döyüşündən sonra nazil oldu və qənimətin necə bölünməsini aydınlaşdırdı. Qənimətlər bölünəndən sonra Mədinəyə hərəkət əmri verildi. Çox pis keçmişə malik olan və azad olmaları islam üçün təhlükə doğuran iki əsir yolda öldürüldü. Peyğəmbər mədinəliləri sevindirmək üçün əmr etdi ki, Əbdüllah ibn Rəvahə və Zeyd ibn Harisə Mədinəyə tələssinlər və onları qələbədən xəbərdar etsinlər. Onlar Mədinəyə çatanda camaat Peyğəmbərin qızı Rüqəyyənin dəfn

mərasimindən qayıtmışdı. Qələbə xəbəri mədinəlilərə çatanda onun sevinci ilə Peyğəmbərin qızının vəfatı qəmi bir-birinə qarışdı.

## ƏSİRLƏRİN TALEYİ

Peyğəmbər Bədr döyüşündə tutulan əsirləri tərəfdarları arasında böldü və dedi ki, onlarla yaxşı rəftar edin. Sonra belə qərara alındı ki, hər əsir özünün maddi vəziyyətinə görə min dirhəmdən dörd min dirhəmə qədər pul verib azad olsun. Bu məbləği verə bilməyən əsir isə ənsar uşaqlarından on nəfərinə yazıb-oxumaq öyrədəndən sonra azad ola bilər. Zeyd ibn Sabit bu yolla təhsil alan şəxslərdən idi.[74]

Qüreyş öz əsirlərini almaq istədi. Əsirlərdən biri Peyğəmbərin kürəkəni Əbül As idi. Onun anası Halə Xədicənin bacısı idi. Həzrət Rəsul Xədicənin istəyinə görə Zeynəbi ona vermişdi. Besətdən sonra Zeynəb iman gətirdi, amma əri allahsız olaraq qaldı. Zeynəb ərini və xalasıoğlunu azad etmək üçün anasının toy gecəsində ona verdiyi boyunbağını göndərdi. Həzrət boyunbağını görəndə kədərləndi və müsəlmanlara dedi ki, əgər məsləhət bilsəniz, Əbül Ası azad edin, malını da geri qaytarın. Onlar razılıq verdilər. Əbül As söz verdi ki, Zeynəbi azad edib Mədinəyə göndərsin. O da Məkkəyə qayıdandan sonra Zeynəbi Mədinəyə göndərdi və sonra özü də Mədinəyə gəlib müsəlman oldu.

## QÜREYŞDƏ MATƏM

Qüreyşin məğlubiyyət xəbəri və onların başçılarının öldürülməsi məkkəliləri matəmə qərq etdi. Məkkənin əksər evləri yas içində idi.

Qüreyşin tam səlahiyyətli rəisi sayılan Əbu Süfyan bir siyasi fərman verməklə ölülərə ağlamağı və şer deməyi qadağan etdi. O, bununla istəyirdi ki, xalqı qəzəbləndirsin və onları ölülərin intiqamını almaq üçün hazırlasın. Hətta üç oğlu ölən Əsvəd qəflətən bir qadının ağlamaq səsini

---

[74] «İbn Hişamın sirəsi», I-ci cild. «Təbəqat», 2-ci cild, səh.22; «Əmtaül-asma», səh.101

eşitdi və elə güman etdi ki, ölülərə ağlamağa icazə verilmişdir. Sonra o qadının ardınca bir nəfər göndərdi ki, məsələdən xəbərdar olsun. Xəbər gətirdilər ki, qadın dəvəsi itdiyinə görə ağlayır və dəvəyə ağlamağın maneçiliyi yoxdur. O, bu məsələdən çox narahat oldu və dedi ki, necə ola bilər ki, dəvəyə ağlamaq azad olsun, amma öz əzizinə ağlamaq azad olmasın?[75]

Qüreyş başçılarının, o cümlədən Əbucəhlin ölüm xəbəri Əbuləhəbə çatdıqda onu elə kədərləndirdi ki, yeddi gün ərzində xəstəliyə tutulub həlak oldu.

Ramazan ayının axırında baş verən Bədr döyüşü Həzrət Rəsulun məşhur döyüşlərindəndir. Bu müharibənin ardınca müsəlmanlar başqa qələbələrə də nail oldular və bu hadisələr müsəlmanlara fədakarlıq və (Allaha) eşq dərsi verdi.

## BƏNİ-QƏYNUQA DÖYÜŞÜ

Bu qəbilə Mədinədə yaşayan üç yəhudi qəbiləsindən biri idi. Qüreyşin məğlubiyyət xəbəri onları qorxuya saldı. Ona görə də onlar müsəlmanların əleyhinə soyuq müharibəyə başladılar. Peyğəmbər Bəni-Qəynuqa bazarında təşkil olunmuş böyük bir yığıncaqda onlara belə dedi: Ey yəhudilər, Qüreyşin başına gələn bəladan qorxun! Hamınız bilirsiniz ki, mən Allahın rəsuluyam, bunu öz kitablarınızda görübsünüz.

Bu anda qəbilədəki yəhudilər kobudluq edib dedilər: Məhəmməd, sən elə güman edirsən ki, biz də Qüreyş kimiyik; təcrübəsiz camaatla döyüşüb qalib gəldiyindən özünü məğlub hesab et. And olsun Allaha, əgər bizimlə döyüşsən, görəcəksən ki, biz meydan oğluyuq!

Onlar bundan əlavə, bir iş də gördülər ki, bu da əhdlərinə vəfalı qalmadıqlarını göstərdi. Hadisə belə olmuşdu: bir ərəb qadın öz mallarını satmaq üçün Bəni–Qəynuqa bazarına gətirib yəhudi zərgərin yanında

---

[75] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.648.

oturdu. Bazar yəhudiləri nə hiylə ilə olursa-olsun onun üzünü açmaq istədilər, amma qadın imtina etdi. Onlar zərgəri qadının köynəyinin arxa tərəfinə düyünlədilər. Qadın ayağa qalxanda bədəninin bir hissəsi göründü və o, yəhudi cavanları tərəfindən təhqir edildi. Qadın fəryad qopararaq yardım istədi. Oradan keçən müsəlman bir kişi qadını himayə etmək üçün zərgərə tərəf qaçdı. Yəhudilər aman verməyib həmin müsəlmanın üstünə tökülüşdülər və onu öldürdülər. Müsəlman kişinin qohumları digər müsəlmanları köməyə çağırdılar və beləcə iş uzandı...

Bəni-Qəynuqa yəhudiləri təhlükə hiss etdilər və öz dükanlarını bağlayıb möhkəm bir qalanın içindəki evlərinə qaçdılar. Qalada qalmaq Peyğəmbərlə birbaşa müxaliflik etmək nişanəsi idi. Peyğəmbər əmr etdi ki, qalanı mühasirəyə alsınlar. Müsəlmanlar qalanı 15 gün müddətində mühasirədə saxladılar. Nəhayət, Bəni-Qəynuqa yəhudiləri usanıb Həzrət Rəsulun onlar haqqındakı qərarını qəbul etməyə razı oldular. Həzrət onları Mədinənin siyasi birliyi üçün bir təhlükə gördü. Bu səbəbdən onlara tətbiq etdiyi ən yüngül cəza bu idi ki, silahlarını təhvil verib Mədinədən çıxsınlar. Onlar Mədinədən Xeybər yaxınlığına, oradan da Şama getdilər.

Əlbəttə, Bəni-Qəynuqa yəhudiləri Mədinədə sakin olan digər iki yəhudi qəbiləsi kimi Peyğəmbərlə müqavilə bağlamışdılar. Lakin sonralar öz əhdlərinin əksinə hərəkət etdilər ki, məzmunu gələcək fəsillərdə qeyd olunacaqdır.

(Hicrətin ikinci ilində baş verən hadisələrin sonu).

## ON ÜÇÜNCÜ FƏSİL

### HİCRƏTİN ÜÇÜNCÜ İLİNİN HADİSƏLƏRİ

### ÜHÜD DÖYÜŞÜ

Hicrətin üçüncü ilinin hadisələri öz əhəmiyyətlilik baxımından ikinci ilin hadisələrindən heç də geri qalmırdı. Əgər hicrətin ikinci ilində Bədr döyüşü baş vermişdisə, hicrətin üçüncü ilində Ühüd döyüşü baş verdi. Qeyd edək ki, hər ikisi islamın böyük və əhəmiyyətli döyüşlərindən sayılır. Ühüd döyüşü hicrətin üçüncü ilinin yeganə döyüşü deyildir: bu ildə başqa hadisələr də baş verdi ki, biz ancaq bir neçəsini qeyd etməklə kifayətlənirik.

**1 – Məhəmməd ibn Məsləmə döyüşü.**

Bədr müharibəsində müsəlmanların qələbə xəbəri iki müsəlman əsgər tərəfindən Mədinəyə çatdırıldı. Zəfər çalmış islam qoşunu hələ Mədinəyə çatmamışdı ki, anası yəhudi, şairlikdə mahir olan Kəb Əşrəf bu qələbədən çox narahat oldu. O, həmişə, hətta Bədr döyüşündən əvvəl də şerlərində Peyğəmbəri pisləyir və düşmənləri müsəlmanların əleyhinə təhrik edirdi. O, bu qələbə xəbərini eşitdikdə «yerin altı üstündən daha yaxşıdır» deyib Mədinədən Məkkəyə getdi və öz şerləri ilə Qüreyşi müsəlmanların əleyhinə təhrik etməyə başladı. O, Mədinəyə qayıtdıqda müsəlmanlara qarşı çox böyük bir hörmətsizlik etdi; belə ki, şerlərində müsəlman qadının adını çəkir və onu təhqir edirdi. Belə bir şəxs yer üzündə fəsad törədənin ən bariz nümunəsi idi. Peyğəmbər onun şərini aradan qaldırmaq qərarına gəldi və bu işi Məhəmməd Məsləməyə tapşırdı. O, Kəbi öldürmək üçün yaxşı bir plan hazırladı: Kəbin süd qardaşı Əbunailənin iştirakı ilə bir dəstə təşkil etdi. Əbunailə onun yanına getdi. Bir neçə saat şer oxuyub danışdılar. Əbunailə dedi: Bir gizli sözüm var, sənə demək istəyirəm, ancaq onu ürəyində saxla. Bu kişi (Peyğəmbər) bizim şəhərimizə bəla yağdırır, ərəblər bizimlə düşmən olub, hamısı

bizim əleyhimizə birləşiblər. İndi bizim ailələrimiz çətinliyə düşüb, əlacsız qalıblar.

Kəb onun sözünü təsdiq edib dedi: Mən bunu əvvəllər demişəm, indi məndən nə istəyirsən?

Əbunailə dedi: Gəlmişəm bir az ərzaq malları alım, amma pulum yoxdur. Bizdən bir şey girov al və bizə yaxşılıq et!

Kəb dedi: Öz qadınlarını girov qoymağa hazırsanmı?

Əbunailə dedi: Məgər bu düz işdir ki, mən arvadlarımı sənin yanında girov qoyum, axı sən cavansan?

Kəb dedi: Onda oğlanlarını girov qoy!

Əbunailə dedi: Məni rüsvay etmək istəyirsən? Səndən ərzaq malları istəyən təkcə mən deyiləm, mənimlə bir neçə nəfər də var. Səndən ərzaq alıb əvəzində silahlarını girov qoymaq istəyirlər.

Kəb dedi: Eybi yoxdur.

(Əlbəttə, silah girov qoymaqda məqsəd bu idi ki, o, sonrakı danışıqlarda silahlı şəxs görəndə qorxmasın və elə bilsin ki, silahlar girov qoymaq üçündür.)

Sonra Əbünailə oradan çıxıb dostlarının yanına gəldi ki, ərzaq malları almaq məqsədilə planlarını həyata keçirsinlər.

Gecə vaxtı bir neçə dəfə Kəbin evinə getmək qərarına gəldilər. Onun evi qalanın içində idi. Əbunailə qala qapısının arxasından səsləndi. Kəb qapını açmaq üçün otaqdan çıxdı. Arvadı təhlükəni duyub ona mane olmaq istəsə də, Kəb qapını açdı və onlar ərzaq malları almaq üçün gələnlərlə danışığa başladılar. Əbunailə təklif etdi ki, gecə ikən «Qoca arvad» dərəsinə getsinlər. Hamılıqca yola düşdülər. Yolda Əbunailə öz əli ilə Kəbin saçlarından yapışıb iylədi və dedi: «İndiyə kimi belə bir ətir iyləməmişəm». Bunu üç dəfə təkrar etdi. Üçüncü dəfə onun saçlarından bərk-bərk tutub səsləndi: «Bu Allah düşmənini öldürün!» Ani olaraq qılınclar onu doğradı. Sonra cənazəni orada qoyub yola düşdülər. Bəqi qəbristanlığına çatanda təkbir deməklə bildirdilər ki, öz planlarını həyata

keçiriblər. Bununla da təhlükəli bir ünsür müsəlmanların yolundan götürüldü.[76]

## ÜHÜD DÖYÜŞÜ

Əbu-Süfyanın ölülərə ağlamağı, şer deməyi və matəm saxlamağı qadağan etməsi Qüreyşin intiqam hissini artırdı və qəzəb odunu onların qəlbində daha da şiddətləndirdi. Kəb ibn Əşrəlin Qüreyşlə əlaqə yaradıb ölülər barəsində şer oxuması və onları müsəlmanlardan intiqam almağa təhrik etməsi bu işi daha da qızışdırmışdı. Buna görə də Qüreyş başçıları qərara gəldilər ki, daha bir müharibənin xərcini Qüreyşin ticarət karvanında malı olanlardan yığsınlar və beləliklə, ölənlərin intiqamını müsəlmanlardan alsınlar. Onlar müsəlmanlarla qarşılaşmada özlərini gücsüz gördükləri üçün Kənana və Səqf qəbilələrinin igid döyüşçülərindən yardım almağa səy göstərdilər. Nəhayət, onlar üç min nəfərlik qoşun hazırlayıb hərəkət etdilər. Amma bu dəfə öz qadınlarından da bir neçəsini özləri ilə apardılar ki, nəğmə oxumaqla kişiləri döyüşə həvəsləndirsinlər. Hətta qullara döyüşdə iştirak edəcəkləri təqdirdə azadlıq vədəsi verdilər. Cübeyr ibn Mütim də özünün həbəşistanlı qulu Vəhşini gətirmişdi. Ona söz verdi ki, əgər islamın üç böyük şəxslərindən birini öldürsə, onu azad edəcəkdir.

## PEYĞƏMBƏR (S) QÜREYŞİN HƏRƏKƏTİNDƏN XƏBƏRDAR OLDU

Peyğəmbərin müsəlman olduğunu gizlədən əmisi-Abbas dərhal Həzrətə məktub yazıb onu Qüreyşin hərəkətindən xəbərdar etdi. Qasid məktubu məsciddə Peyğəmbərə verdi. Peyğəmbər məktubu Übəyy ibn Kəbə oxutdurdu.

Mədinədən Qüreyşin hərəkət xəbəri yayıldıqdan sonra yəhudilər və müxaliflər müsəlmanların əhval-ruhiyyəsinə təsir etməyə başladılar. Həzrət Rəsul çərşənbə günü, şəvvalın beşində kəşfiyyat aparmaq üçün iki

---

[76] «İbn Hişamın sirəsi». 2-ci cild, səh.51, 58; «Məqazi vaqidi», I-ci cild. səh.184, 190.

nəfəri Mədinənin ətraf rayonlarına göndərdi. Onlar xəbər gətirdilər ki, Qüreyş öz mal-qaralarını Mədinənin əkin yerlərinə tökmüş və otlaqları tamamilə otlatmışlar. Peyğəmbər bununla kifayətlənmədi, Hübab ibn Münzərə düşmən qoşununun sayından bir xəbər gətirməyi tapşırdı. Əldə edilən xəbərlər göstərirdi ki, Qüreyşin Mədinəyə hücum etməsi qətidir. Cümə axşamı, şəvvalın altısında müsəlmanlar səhərə kimi keşik çəkərək məscidin və Peyğəmbərin evinin ətrafını qoruyurdular. Cümə günü hərbi müşavirə keçirildi və müdafiənin taktika və üslubu məsələsində ixtilaf yarandı. Zahirən müsəlman, qəlbən müxalif olan Əbdüllah ibn Übəyy ənsar və mühacir böyüklərindən bir dəstənin Mədinədə qalmasını məsləhət görüb dedi ki, qadınlar hündür yerdə dayanıb düşməni daşa bassınlar, özləri isə küçələrdə şəhəri müdafiə etsinlər. Ənsar və mühacirlərin böyükləri dedilər: İndiyə kimi düşmən Mədinəyə hücum etməyib. Əgər hücum etmiş olsa belə məğlub olubdur. Yaxşı olar ki, Mədinədə qalıb müdafiə edək.

Bu sözlərin əksinə olaraq ənsar gəncləri, xüsusilə Bədr döyüşündə iştirak etməyənlər şəhidlik eşqi ilə alışdıqlarına görə təkid edirdilər ki, islam qoşunu Mədinədən bayıra çıxıb orada düşmənlə qarşılaşsın. Bu an islamın rəşadətli sərkərdəsi Həmzə and içib dedi: And olsun Quranı göndərən Allaha, mən bu gün Mədinədən kənarda düşmənlə döyüşməyincə heç nə yeməyəcəyəm.

Nəhayət, Peyğəmbər əksəriyyət təşkil edənlərin fikri ilə razılaşdı və gənclərin Mədinədən kənarda düşməni qarşılamaq fikrini üstün bildi. Əbdüllahın verdiyi təklif müsəlmanların qələbə çalmalarına zəmanət versəydi də, psixoloji baxımdan düz iş deyildi. Çünki evdə oturub düşmənin hücumunu gözləmək və onlar hücum etdikdən sonra müdafiəyə başlamaq, həmçinin müdafiədə qadınların iştirak etməsi zəiflik əlaməti olardı. Bu iş Bədr döyüşündə rəşadət göstərən müsəlmanlara əsla uyğun deyildi. Peyğəmbər evə gedib zirehli paltar geydi, qılıncını, qalxanını götürdü, çiyninə yay saldı və əlinə nizə alıb evdən çıxdı. Ənsar, xüsusilə gənclər Peyğəmbəri bu halda gördükdə həyəcana

gəldilər və elə təsəvvür etdilər ki, Həzrət onların dediklərinə görə məcburiyyət qarşısında Mədinədən bayırda düşmənlə qarşılaşmaq istəyir. Odur ki, «Peyğəmbər hər nə qərara gəlsə, onlar əməl etməyə hazırdırlar» – dedilər. Peyğəmbər dedi: Hər hansı bir peyğəmbər zirehli paltar geydisə, düşmənlə döyüşməmiş onu çıxartması şəninə layiq deyil.

Nəhayət, Peyğəmbər cümə namazını qıldı, sonra tərəfdarlarına dözümlü olmaq şərti ilə qələbə vədəsi verdi. Həzrət içərisində 100 nəfər zirehli paltar geymiş min nəfərlə birlikdə Mədinədən çıxdı. Peyğəmbər ata minib əlində nizə tutaraq üç bayraqdan birini Ovsa, birini Xəzrəcə, üçüncüsünü isə mühacirlərə (və mühacirlərin bayrağını Əliyyibni Əbutalibə) verdi.

Bu dəfə də həddi-büluğa çatmayanlar (Üsamə və Zeyd ibn Harisə kimi) islam qoşununda iştirak etmək istəyirdilər. Lakin Peyğəmbər onlara mane oldu və yalnız ox atmaqda məharətli olan Səmurə və Rafe adlı iki yeniyetməyə icazə verdi.

İslam ordusu hərəkət edib Mədinə ilə Ühüdün arasında yerləşən Şut adlı yerə çatdı. Əbdüllah ibn Übəyy Peyğəmbərin cavanların sözünü yaşlıların sözündən üstün tutmasını bəhanə edib bir dəstə müxaliflə Mədinəyə qayıtdı. Bu vaxt Peyğəmbərin tərəfdarlarından bir qrupu müttəfiqləri olan yəhudilərdən yardım almaq istədilər. Lakin Peyğəmbər dedi ki, buna ehtiyac yoxdur.

Cümə günü günəş qürub edəndən sonra Bilal azan dedi və Peyğəmbər camaatla namaz qıldı. Onlar Şeyxan adlı bir yerdə gecələdilər və Məhəmməd ibn Məsləmə 50 nəfər əsgərlə birlikdə səhərə kimi keşik çəkdi. Peyğəmbər səhər tezdən oradan hərəkət etdi və sübh namazını Ühüddə qıldı. O, arxası Ühüd dağına söykənən yeri qərargah seçməyi məsləhət gördü. Amma Ühüd dağının ortasında bir cığır var idi ki, düşmənin Ühüd dağını dövrə vurub onun arxasından o cığır ilə islam ordusuna arxadan zərbə vurması gözlənilirdi. Peyğəmbər cığırı qorumaq üçün iki dəstə oxatanı orada yerləşdirib Əbdüllah ibn Cübeyrə əmr etdi ki, düşmən həmin cığırdan qərargaha hücum etmək istəyəndə onları oxa

tutsunlar. Həm də tapşırdı ki, oranı istər qələbə çalsalar, istərsə də məğlub olsalar əsla tərk etməsinlər. Sonralar məlum oldu ki, cığır mühüm strateji mövqeyə malik imiş və müsəlmanların qələbə çaldıqdan sonra məğlub olmalarının səbəbi Peyğəmbərin fərmanına qulaq asmayıb bu cığırı tərk etmələri idi.

## SIRALARIN NİZAMA SALINMASI

Hicrətin üçüncü ilinin şəvval ayı, şənbə günü sübh tezdən Həzrət Rəsul sıraları nizama saldı. (Bu dəfə 700 nəfər 3000 nəfərin qarşısında dayanmışdı.[77] Sonra üzünü onlara tutub dedi: Mən sizə Allahın tapşırdığı şeyləri tövsiyə edirəm: Allahın əmrinə itaət edin və müxalifətçilikdən çəkinin. Düşmənlə mübarizə etməyin çətinliyi var, yalnız Allahın himayə etdiyi şəxslər düşmən qarşısında dayanıb müqavimət göstərə bilərlər. Allah Onun əmrinə itaət edənlərlə, şeytan isə üsyankarlarladır. Hər şeydən artıq cihada müqavimətli olun. Vəhy mələyi mənə xəbər vermişdir ki, bu dünyada heç kim son ruzisini yeməmiş dünyadan köçməz. Döyüş fərmanı verilməyincə, heç kəs hücuma keçməsin.

Düşmən də öz sıralarını nizama saldı. Sağ cinahın sərkərdəliyi Xalidə, sol tərəfinki isə Əkrəmyə verildi və zirehli paltar geymiş piyada qüvvələri ortada qərar tutdu. Bundan əlavə, qarovulçular qoşunun önündə yerləşdi.

## DÖYÜŞ BAŞLANDI

Əbu Süfyan öz qoşunlarının bayraqdarlarına müraciət edərək «Qoşunun qələbəsi bayraqdarların mübarizliyindən çox asılıdır. Biz Bədr döyüşündə elə bu səbəbdən məğlub olduq. Əgər Bəni Əbdüldar qəbiləsi bayrağı saxlaya bilməyəcəksə, elə indidən bayraqları başqa qəbiləyə versinlər» – deyəndə döyüş başlandı. Bu vaxt bayraqdarlardan biri Təlhət

[77] «İbn Hişamın sirəsi», 2-ci cild.

ibn Əbi Təlhə irəliləyib dedi: Ey Məhəmmədin tərəfdarları, siz deyirsiniz ki, bizim ölülərimiz cəhənnəmdə, sizinkilər isə cənnətdədir. Belə olan halda sizdə bir nəfər vardır ki, onu cənnətə göndərim və ya o məni cəhənnəmə göndərsin?

Onun nərəsi meydanda dolaşdı. Əli (ə) irəlilədi və qısamüddətli vuruşdan sonra onu torpağa sərdi. Qüreyş ondan başqa səkkiz nəfəri ehtiyat üçün bayraqdar seçmişdi, hamısı da Bəni Əbdüldar qəbiləsindən idilər. Hamısının əlində də bayraq var idi. Ardıcıl olaraq onlar da Həzrət Əlini (ə) döyüşə çağırdılar. Onlar da Həzrət Əlinin qılıncı ilə öldürüldülər. Sonra vahiməli siması və enlikürək həbəş Suab adlı bir qul bayrağı götürdü. Onun məqsədi Həzrət Rəsulu öldürmək idi. Qəzəbindən gözləri qızarmış və ağzı köpüklənmişdi. O da Əlinin qılıncı ilə məhv edildi.[78]

Qüreyş qadınları islam qoşununun şücaətini gördükdən sonra dövrə vurub xüsusi ahənglə şer oxuyaraq öz əsgərlərinə deyirdilər: «Əgər düşmənlə qarşı-qarşıya dursanız, sizinlə qolboyun olacağıq, əgər düşmənə arxa çevirsəniz, sizdən ayrılacağıq».

Bu qədər tədbirdən sonra Qüreyş qoşunu on nəfər bayraqdarının hamısını itirdi. Qorxu onlara hakim oldu və hamı qaçmağa üz qoydu. Beləcə müsəlmanlar qalib gəldilər.

## QƏLƏBƏDƏN SONRA MƏĞLUBİYYƏT

İslamın bir dəstə şücaətli əsgəri düşməni təqib etməyə başladı. Lakin qoşunun əksəriyyəti düşməni təqib etməkdən daşındılar və silahları yerə qoyub qənimət yığmaqla məşğul oldular. Onlar elə güman etdilər ki, artıq döyüş sona çatıb. Digər tərəfdən, cəbhənin arxasındakı dərənin qoruqçuları da oranı buraxıb qənimət yığmağa başladılar. Onların başçısının «biz buranı tərk etməməliyik, Peyğəmbər bizim burada qalmağımızı əmr etmişdir» deyə təkid etməsinə baxmayaraq, əsgərlər

---

[78] «Biharül-ənvar», 20-ci cild, səh.5l.

qənimət yığmaq üçün oranı tərk etdilər. Yalnız Əbdüllah ibn Cübeyr on nəfərlə birlikdə orada qaldı.

Bu vaxt iki səbəbə görə məğlub olmuş düşmən dağılmış qoşununu nizama sala bildi:

1 – Xalid ibn Vəlid dərənin mühüm strateji mövqeyə malik olduğunu bilirdi və bir neçə dəfə oradan cəbhənin arxasına keçmək istəsə də qoruqçular tərəfindən qaytarılmışdı. Növbəti dəfə qoruqçuların az olmasından istifadə edib qəfil bir hücumla öz qüvvələrini islam qoşununun arxasına çəkdi, ancaq təpədə olanların müqaviməti fayda vermədi. Bütün fədakarlıqlarına baxmayaraq onlar şəhid oldular. Çox çəkmədən silahı yerə qoyub qənimət yığmaqla məşğul olan müsəlmanlar silahlı düşmənin ağır hücumuna məruz qaldılar və bu hücumda müsəlmanlardan bir neçəsi öldürüldü.

2 – Əlqəmin qızı Əmrə Xalidin hücumunu müşahidə etdikdə dərhal bayrağı yuxarı qaldırdı. Qaçanların hamısı bayrağı görcək yenidən meydana qayıdıb bayrağın ətrafına yığışdılar. Nəhayət, Qüreyş qoşunu yenidən nizama düşdü və müsəlmanları mühasirəyə aldı.

Qüreyş döyüşçülərindən Lisi adlı bir nəfər islam sərkərdəsi Müsəb ibn Ümeyri öldürdü. Onun üzü örtülü olduğuna görə qatil elə bildi ki, Peyğəmbəri öldürmüşdür və fəryad qopardı ki, ay camaat, Məhəmməd öldü!

Bu xəbərin yayılması islam əsgərlərinin döyüş ruhunu zəiflətdi. Çoxu ətraf dağlara qaçdı. Qüreyş əsgərləri bu xəbəri eşitcək çox sevindilər və Peyğəmbərin tərəfdarlarını öldürmək üçün hərəkətə gəldilər.

Bu və bu kimi amillər nəticəsində islamın qalib gəlmiş qoşunu məğlub oldu və Peyğəmbərin canı təhlükəyə düşdü. Əgər bu zaman bəzi şəxslər səy göstərməsəydilər və islam rəhbərini qorumasaydılar, islamın əbədi məğlubiyyəti qəti idi. Bu şəxslərin adı tarixə düşmüşdür ki, biz onların göstərdikləri bəzi fədakarlıqları qeyd edirik:

1 – İbn Əsir yazır: «İslam döyüşçüləri dağılandan sonra Qüreyş dəstələri Peyğəmbərin üstünə hücuma başladılar. Lakin Əli onların hücumlarını

dəf edir, bəzilərini öldürməklə sıralarını dağıdırdı. Bu anda vəhy mələyi nazil oldu və Əlini alqışladı. Meydanın içində bu nida səsləndi: «La fəta illa Əli, ya seyfə illa zülfüqar»,[79] yəni Əlidən başqa bir igid və Zülfüqardan (Əlinin qılıncından) başqa bir qılınc yoxdur».

Həzrət Əli özü belə deyir: «Qüreyş qoşunu hücum edən vaxt mühacir və ənsarın çoxu meydandan qaçmışdı. Bədənimdə 70-dən çox yara olmasına baxmayaraq, Peyğəmbəri müdafiə edirdim. Elə qılınc çəkirdim ki, axırda qılıncım sındı və Peyğəmbər öz qılıncını mənə mərhəmət etdi».

İbn Hişam Qüreyş ölülərinin adlarını sadalayaraq xatırladır ki, onların çoxu Əli (ə) tərəfindən öldürülmüşdür. Bunlar imamın güclü imanını, habelə sədaqətli və fədakar olduğunu göstərir.[80]

2 – Əbu Dəccanə Həzrət Əlidən sonra Peyğəmbəri müdafiə edən ikinci şəxsdir. Onun şücaəti barədə çox deyilmişdir. Müharibə başlamazdan əvvəl Peyğəmbər əlinə bir qılınc alıb dedi: Bu qılıncın haqqını kim yerinə yetirə bilər? Bəziləri ayağa qalxıb hazır olduqlarını bildirdilər, amma Peyğəmbər qılıncı onlara vermədi. Sonra Əbu Dəccanə ayağa qalxdı və soruşdu ki, qılıncın haqqı nədir? Həzrət buyurdu ki, o qədər onunla vurasan ki, axırda əyilə. Əbu Dəccanə dedi: Mən onun haqqını yerinə yetirməyə hazıram.[81]

– Peyğəmbərin üçüncü müdafiəçisi islamın fədakar sərkərdəsi Həmzə ibn Əbdülmüttəlibdir. O, ikinci hücumda Peyğəmbəri müdafiə edərkən öldürüldü. Onun qatili Vəhşi Həbəşi deyir: «Mən Məhəmmədə yaxın düşə bilmirdim. Əli də döyüş meydanında çox ayıq idi, lakin Həmzə döyüşdə o qədər qəzəbli idi ki, öz ətrafına diqqət yetirmirdi. O, şir kimi qoşunun qəlbini yarırdı. Hər kəsə çatırdısa, canını alırdı. Mən daşların

---

[79] Dahi Azərbaycan şairi Seyid Əbülqasim Nəbati həmin ibarəni müxəmməsində təkrar etmişdir (Divani Nəbati)

[80] «İbn Hişamın sirəsi», 2-ci cild. səh.l27-l28.

[81] Yenə orada, səh; «Tarixe Kamil», 2-ci cild, səh. l06.

arxasında gizləndim. O, döyüşə məşğul idi və özünü müdafiə edirdi. Müəyyən bir fasilədən sonra nizəmi var gücümlə atıb onu öldürdüm».

– Digər bir müdafiəçi Nəsibə adı ilə məşhur olan fədakar qadın Ümmi Amir idi. Onun fədakarlığı tarixdə qeyd olunubdur. Onun döyüş meydanında vəzifəsi su gətirmək, yaralıların yarasını bağlamaq idi. O, Peyğəmbərin təhlükədə olduğunu hiss etdikdə su tuluğunu bir tərəfə atıb qılınc götürdü və onunla Peyğəmbəri müdafiə etməyə başladı. Nəsibə Peyğəmbəri öldürmək istəyən düşmən əsgərinin qarşısını alanda çiyninə bir zərbə endirildi və o yaralandı. Peyğəmbər onun döyüşməkdə olan oğlunu çağırdı ki, anasının yarasını bağlasın. Nəsibə yenə də Peyğəmbəri müdafiə edirdi. Çox çəkmədi ki, oğlu da yaralandı. O, yaralıları bağladığı parça ilə oğlunun yarasını da bağladı və dedi: «Oğlum, dur Peyğəmbəri müdafiə et!»

Bu kimi fədakar şəxslərin müdafiəsi nəticəsində Peyğəmbər nicat tapdı, amma bu döyüşdə Həzrətin bədəninə ağır yaralar dəydi. (Tarixdə qeyd olunmuşdur) O cümlədən Əbdüllah ibn Şəhab Peyğəmbərin alnını yaraladı. Əbi Vəqqasın oğlu Ütbə dörd daş atıb Həzrətin qabaq dişini sındırdı. İbn Qümeyə Leysi Həzrətin üzünə elə bir zərbə vurdu ki, onun dəbilqəsinin həlqələri yanaqlarına keçdi.

Peyğəmbərin nicat tapmasına müəyyən qədər kömək edən başqa bir hadisə onun ölüm xəbərinin yayılması idi. Bu xəbərdən sonra Peyğəmbərin cənazəsini tapmaq üçün onu ölülərin içində axtarırdılar. Yaranmış bu fürsətdə Peyğəmbərin tərəfdarları onun ölüm xəbərinin inkar edilməməsini məsləhət bildilər. Beləliklə, Həzrət öz ətrafında olan fədakar döyüşçülərin köməyilə dərəyə tərəf hərəkət edə bilərdi. Həzrət bu yolda düşmənin qazdığı dayaz bir quyuya düşdü. Əli (ə) onun əlindən yapışıb çıxardı. Müsəlmanlardan Peyğəmbəri tanıyan ilk şəxs Kəb Malik idi. O, Peyğəmbərin diri olduğunu bildirmək istəyəndə Həzrət dərhal onun qarşısını aldı. Peyğəmbər dərənin ağzına çatdıqda meydandan qaçan müsəlmanlar onu görüb xəcalət çəkdilər. Cərrah Əbu Übeydə Peyğəmbərin üzünə sancılan iki dəmir həlqəni dişləri ilə çıxardı, amma

onun dörd dişi sındı. Həzrət Əli qalxanı su ilə doldurdu ki, Həzrət əl-üzünü yusun. Fatimə (s) bir həsir parçası yandırıb yaranın üzərinə qoydu ki, qanı kəsilsin. Peyğəmbər yaralı olduğuna görə, günorta namazını oturduğu yerdə qılmağa məcbur oldu. Namazdan sonra dedi: Allahın qəzəbi öz Peyğəmbərinin üzünü qana batıranlara qarşı artacaqdır.

## QÜREYŞİN DƏHŞƏTLİ CİNAYƏTİ

Qüreyş qadınları hər hansı bir cinayət üçün meydanı boş gördükdə yaralıların və ölülərin canına düşür, intiqam almaq məqsədilə müsəlmanların qulaqlarını, burunlarını kəsirdilər. Əbu Süfyanın arvadı Hind müsəlmanların bədən üzvlərindən boyunbağı və sırğa düzəltmişdi. O, islamın fədakar sərkərdəsi Həmzənin qarnını yarıb ciyərini çıxartdı, dişinə aldı və nə qədər çalışdısa çeynəyə bilmədi. Bu o qədər qəbahətli bir iş idi ki, hətta Əbu Süfyan onu məzəmmət etdi. O, bu hərəkəti ilə tarixdə «akilətül-Əkbad» («ciyər yeyən Hind») adı ilə məşhurlaşdı. Onun uşaqları da bu adla məşhur oldular.

## TƏBLİĞAT DÖYÜŞÜ

Fürsətdən istifadə edən düşmən belə qərara gəldi ki, müsəlmanların əleyhinə təbliğat aparsın və öz əqidələrini yaysın. Çünki belə bir vəziyyətdə təbliğat məğlub olmuş xalqa öz təsirini göstərə bilərdi.

Əbu Süfyanla Əkrəmə çox xoşhal idilər və böyük bir bütü (Hübəli) əllərinə alıb fəryad edirdilər:

Yəni: «Yaşasın Hübəl!» Onlar bu yolla demək istəyirdilər ki, bizim qələbəmiz bütpərəstlikdən, sizin məğlubiyyətiniz allahpərəstlikdəndir. Həzrət Rəsul bu həssas vaxtda bütün müsibətləri unutdu və dərhal Əli (ə) və sair müsəlmanlara əmr etdi ki, onun cavabını versinlər və desinlər ki, «Allah böyük və qüdrətlidir, Allah böyük və qüdrətlidir».

Əbu Süfyan əl çəkmədi və dedi: «Bizim «Üzza» adlı bütümüz var, sizin yoxdur» Peyğəmbər dərhal əmr etdi ki, desinlər: «Allah bizim mövlamızdır, sizin isə başçınız yoxdur».

Əbu Süfyan üçüncü dəfə dedi: «Bu gün Bədrin əvəzindədir». Müsəlmanlar dərhal dedilər: «Elə deyildir, bizim ölülərimiz cənnətdədir, sizinkilər isə cəhənnəmdə!» Əbu Süfyan müsəlmanların cavabında çox təsirlənib «vədəmiz gələn ilə qalsın» – deyə Məkkəyə tərəf hərəkət etdi.[82]

## MÜHARİBƏNİN SONU

Həzrət Rəsul Əli (ə)-ın verdiyi xəbərdən sonra arxayın oldu ki, Qüreyş qoşunu Məkkəyə getmək istəyir. Amma ehtiyatı əldən vermirdi. Nəhayət, Ühüd döyüşü müsəlmanların 70 (başqa rəvayətdə 74 və ya 87) şəhid verməsilə sona çatdı. Qüreyşin ölüləri 22 nəfərdən çox deyildi. Bu acı hadisə ona görə baş verdi ki, müsəlmanlar Peyğəmbərin əmrindən boyun qaçırdılar. Peyğəmbər Qüreyş qoşununun Məkkəyə qayıtdığını yəqinləşdirəndən sonra bəzi işləri gördü.

– Həzrət Rəsul əmisi Həmzəni soruşdu. Onu meydanın ortasında qarnı yarılmış, ciyərləri çıxarılmış, qulağı və burnu kəsilmiş halda gördü. Sonra dedi ki, əgər Qüreyşə qalib gəlsə onlardan 30 nəfəri müslə ediləcək. («Müslə» bədən üzvlərinin kəsilməsi) Sonra Həmzənin cənazəsinin yanında durub dedi: Daha sənin müsibətin kimi müsibətə düçar olmayacağam və heç vaxt, heç bir məqamda mənə bu qədər ağır olmayacaq. (və əlavə etdi:) Vəhy mələyi mənə nazil olub dedi ki, Həmzə göylərdə «Allahın və Onun Peyğəmbərinin aslanı» ləqəbini alıbdır.

Həmzənin bacısı Səfiyyə qardaşının bədəninə baxmaq istədi. Həzrət Rəsul onun oğlu Zübeyrə dedi ki, anasını qardaşının bədəninə baxmasına imkan verməsin. Zübeyr, anasına mane olmaq istədi, amma o qəbul etmədi və dedi: Eşitmişəm ki, qardaşımı müslə ediblər, amma Allah yolunda olduğuna görə dözərəm. Zübeyr anasının sözünü Peyğəmbərə çatdırdı. Peyğəmbər dedi ki, mane olmayın. Səfiyyə gəlib qardaşının

[82] «Təbəqat», 2-ci cild, səh.33; «Tarixül-xəmis», 1-ci cild; səh.440.

cənazəsinə baxdı və meyit namazı qılıb «inna lillah və inna iləyhi raciun» dedi. O, qardaşına Allahdan bağışlanmaq dilədi. Sonra Həzrət Rəsul əmr etdi ki, Həmzəni bir paltara büksünlər, sonra ona namaz qıldı və əmr etdi ki, qulaq və burnu kəsilmiş Əbdüllah ibn Cəhşi də onunla bir yerdə dəfn etsinlər. Əlbəttə, mədinəlilərin bəzisi öz şəhidlərini Mədinədə dəfn etdilər.

– Peyğəmbər göstəriş verdi ki, Səd ibn Rəbidən bir xəbər gətirsinlər. Məhəmməd ibn Məsləmə bu işin ardınca getdi. Bir az axtardıqdan sonra onu ölülərin içində tapdı, ancaq hələ sağ idi. Məhəmməd ibn Məsləmə dedi: Mən Peyğəmbər tərəfindən gəlmişəm ki, səndən ona bir xəbər aparam.

Səd dedi: Mən ölülərin sırasındayam, mənim salamımı Peyğəmbərə yetir və de ki, Allah Öz peyğəmbərlərinə verdiyi mükafatı sənə versin. – Mənim salamımı Peyğəmbərin köməkçilərinə yetir və de ki, «Əgər siz sağ ikən Peyğəmbərə bir ziyan yetişsə, Allahın dərgahında üzrünüz qəbul deyildir».

Sonra ruh bədəndən ayrıldı. Məhəmməd ibn Məsləmə qayıtdı və onun sözünü Peyğəmbərə və ətrafındakılara çatdırdı. Peyğəmbər onun sözünü eşitcək dedi: «Allah Sədə rəhmət eləsin, diriliyində də, ölən halda da Allahın və peyğəmbərin fikrində idi».[83]

– Düzdür, Həzrət Rəsulun bəzi tərəfdarları ağır şəraitdə meydandan qaçdılar və Allah da onları məzəmmət etdi. Amma Peyğəmbərin tərəfdarları arasında şəhidlik aşiqləri və fədakarlar çox idi. Əmr ibn Cəmuh onlardan biri idi. O, çolaq idi və dörd oğlu var idi ki, hamısı aslan kimi döyüşürdü. Oğlanları onun Ühüd döyüşündə iştirak etməsinə mane oldular. Əmr Həzrət Rəsulun hüzuruna gəlib dedi: Mənim oğlanlarım mənə müharibədə iştirak etməyə mane olurlar, mən isə bu çolaq ayaqla cənnətdə gəzmək istəyirəm.

---

[83] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.194-195.

Peyğəmbər dedi: Allah səni üzürlü saymışdır, sənin öhdəndə heç bir vəzifə yoxdur. Sonra üzünü onun oğlanlarına tutub dedi: Onun müharibədə iştirak etməsinə nə üçün mane olursunuz, bəlkə Allah şəhidliyi onun ruzisi edibdir?

Sonra qoca evindən çıxdı və Allahdan istədi ki, onu bir daha evinə qaytarmasın. Beləliklə, Ühüdə getdi və müharibədə şəhid oldu.

– Əmr ibn Cəmuhun taleyi ilə yanaşı onun arvadı Hindin də taleyi təəccüblüdür. O, bir dəvə ilə Mədinədən hərəkət edib əri Əmr ibn Cəmuhun, qardaşı Əbdüllah ibn Əmrin (Cabir ibn Əbdüllah Ənsarinin atası) və oğlu Xəllad ibn Əmrin cənazələrini Mədinəyə gətirmək üçün Ühüdə getdi. Mədinəyə qayıdarkən Ühüddə bir dəstə qadınla rastlaşdı. Qadınlardan biri soruşdu: Sən Ühüddən gəlirsən, orada nə xəbər var?

O dedi: Həzrət Rəsulun halı yaxşıdır və onun sağlığı ilə hər bir müsibət yüngüldür. Allah möminlərin bəzisini şəhidlik zirvəsinə yüksəltdi və kafirləri qəzəbli halda geri qaytardı.

Qadınlardan biri soruşdu: Dəvə ilə daşıdığın cənazələr kimlərdir?

Dedi: Ərim, qardaşım və oğlumdur. Mədinədə dəfn etmək istəyirəm.

O, bu sözü deyib dəvənin yüyənini çəkdi, lakin dəvə çox ağır gedirdi. Qadınlardan biri dedi: Bəlkə dəvənin yükü ağırdır?

Hind dedi: Bu çox güclü dəvədir, iki dəvənin yükünü apara bilər. Dəvənin axsamasının başqa səbəbi var: Ühüdə tərəf çəkəndə çox rahat gedir, lakin Mədinəyə tərəf çəkəndə yavaş gedir, dizini yerə qoyur.

Hind belə qərara gəldi ki, oradan Ühüdə qayıdıb hadisəni Peyğəmbərə desin. O, Ühüddə hadisəni olduğu kimi Həzrətə söylədi. Həzrət ondan soruşdu: Ərin evdən çıxanda nə dedi?

Hind dedi: Ərim dedi ki, «ilahi, məni bir də evə qaytarma!»

Peyğəmbər dedi: Macəranın səbəbi aydındır: ərinin duası qəbul olub və sən hər üç cənazəni Ühüddə dəfn etməlisən. Bil ki, bu üç nəfər axirətdə bir yerdə olacaqlar!

Bu halda Hind ağlayaraq Peyğəmbərdən xahiş etdi ki, Allahdan onun da qiyamətdə onlarla birgə olmasını istəsin.[84]

Həzrət Rəsul Bənidinar qəbiləsindən olan və Ühüddə əri, qardaşı və atası ölən bir qadın gördü. Qadına hər üç nəfərin ölüm xəbəri verildikdə dərhal soruşdu: «Həzrət Rəsul nə haldadır?» Dedilər: «Yaxşıdır». Dedi: «Onu göstərin görüm», gözü Həzrət Rəsula sataşdıqda dedi: «Ey Allahın Rəsulu, sən sağ olsan, hər müsibətə dözmək asan bir işdir».[85]

– Əbu Amirin oğlu Hənzələ iyirmi yaşında bir gənc idi. O, həqiqətən *** (181) «Allah ölüdən diri xəlq edər» ayəsinin bariz nümunəsidir. Ona görə ki, o, Peyğəmbərin düşməni Əbu Amirin oğlu idi. Atası Ühüd döyüşündə Qüreyş qoşununda idi. Lakin onun oğlu Hənzələ pak təbiətli bir cavan idi və Ühüd döyüşündə şəhid oldu. Onun toy gecəsi ilə müsəlmanların Mədinədən hərəkətə başlamaları eyni vaxta düşmüşdü. Cihad nidasını eşitdikdə nə edəcəyi barədə düşündü. Nəhayət, gecəni Mədinədə qalıb səhər özünü müsəlmanlara çatdırmaq üçün Peyğəmbərdən icazə aldı. O, toy etdikdən sonra qüsl etməmiş döyüş meydanına yollandı. Evdən çıxan vaxt gəlin ağlayıb əllərini ərinin boynuna saldı və dedi ki, bir qədər dayansın. Sonra bir neçə nəfəri çağırdı ki, hamısı Hənzələ ilə onun toy etdiklərini eşitsinlər. Hənzələ evdən çıxıb birbaşa Ühüdə gəldi. Gözü iki qoşunun arasında gəzən Əbu Süfyana düşdü. O, bir hücumla onu öldürmək istədi, qılınc Əbu Süfyanın atına dəydi və at yıxıldı. Bu zaman Leys meydana gəlib onu Hənzələnin əlindən qurtardı. Sonra Qüreyşdən bir nəfər Hənzələyə hücum edib, nizəni bədəninə sancdı. Hənzələ onu təqib edib öldürdü və sonra özü də şəhid oldu. Həzrət Rəsul deyirdi ki, gördüm Hənzələyə mələklər qüsl verirlər. Buna görə də o, «ğəsilül-məlaik» (mələklərin qüsl verdiyi) ləqəbini aldı.

Əbu Süfyan dedi: Müsəlmanlar Bədrdə oğlum Hənzələni öldürdülərsə, biz də Ühüddə müsəlmanların Hənzələsini öldürdük.

---

[84] «Məğazi vaqidi», I-ci cild, səh.265.
[85] «İbn Hişamın sirəsi», 2-ci cild. səh.99.

Təzə ailə qurmuş bir bəylə gəlin tarixin nümunələrindəndir: Bu, Həzrət Rəsulun düşməni Əbu Amirin oğlu, gəlin isə müxaliflərin rəisi Əbdüllah ibn Übəyyin qızıdır.[86]

Bu kimi rəşadətli qəhrəman kişi və qadınlar haqqında məlumat verdikdən sonra Həzrət Rəsulun tərəfdarlarından olan və vəzifələrini yerin yetirməyən, həssas vaxtda meydandan qaçan əsgərlər haqda da söz açmağı zəruri hesab edirik.

Ənəs ibn Malikin əmisi Ənəs ibn Nəzir deyir ki, Peyğəmbərin ölüm xəbəri yayıldıqda mühacir və ənsardan bəziləri döyüşdən əl çəkib bir yerdə oturmuşdular. Onlara yaxınlaşıb dedim: «Nə üçün oturubsunuz?» Dedilər ki, Həzrət Rəsulu öldürdülər. Dedim: «Peyğəmbərdən sonra qalmağın nə faydası? Durun Həzrət Rəsul ölən yolda siz də ölün». O, bu sözü deyib döyüşə başladı, bədəninə 70 zərbə dəydikdən sonra can verdi.

Quran bu acı həqiqətə işarə edib deyir ki, Həzrət Rəsulun tərəfdarlarından bir dəstə belə güman etdilər ki, Peyğəmbərin qələbəyə dair verdiyi vədlər əsassız imiş: «Bir dəstə öz canlarının hayına elə qalmışdılar ki, Allah barədə cahillik dövrünün gümanları kimi pis gümanlar edirdilər və deyirdilər ki, görəsən, bir çarə varmı? Onlar iki qoşunun bir-biri ilə qarşılaşdığı gündə düşmənə arxa çevirdilər, şeytan onları bəzi əməllərinə görə zəlalətə saldı və Allah onları bağışladı. Allah bağışlayan və mehribandır».[87]

Quran Peyğəmbərin ölməsi ilə artıq vəzifələrinin başa çatmasını zənn edən şəxsləri məzəmmət edir və deyir: «Məhəmməd ancaq bir elçidir (peyğəmbər) ki, ondan əvvəl də bəzi peyğəmbərlər gəlib-gediblər. Əgər o ölsə, yaxud öldürülsə, cahillik dövrünə qayıdacaqsınızmı? Hər kəs qayıtsa, Allah zərər yetirməz. Allah şükr edənlərə mükafat verəcəkdir».

[86] Üsdül-ğabə, 2-ci cild, səh. 59; «Biharül-ənvar», 20-ci cild, səh.75
[87] «Ali-İmran» surəsi. 54-55-ci ayələr

Təkcə bu ayələr deyil ki, həqiqətin üzərindən pərdələri qaldırır. «Ali-İmran» surəsində Ühüd döyüşü ilə əlaqədar 60-a qədər ayə nazil olmuşdur ki, bir çox şirin və acı həqiqətləri aydınlaşdırır. (Əlavə məlumat əldə etmək üçün «Ali-İmran» surəsinin 121-179-cu ayələrindən oxuyun.)

## PEYĞƏMBƏR MƏDİNƏYƏ QAYIDIR

Həzrət Rəsul şəhidlərə meyit namazı qılıb dəfn etdikdən sonra Mədinəyə gəldi. Əqsardan olan bir nəfərin yaşadığı məhəllədən keçəndə gördü ki, ənsar qadınları öz ölülərinə ağlayırlar. Bu zaman Peyğəmbər də ağladı və soruşdu ki: Əmim Həmzəyə matəm saxlayan bir şəxs yox-durmu?

Səd ibn Məaz və başqaları Həzrətdən bu sözləri eşitdikdə öz arvadlarına dedilər ki, Peyğəmbərin əmisi Həmzəyə də matəm saxlasınlar. Bu xəbər Peyğəmbərə çatdıqda Həzrət dedi: Allah ənsara rəhmət etsin, siz də heç vaxt mənimlə həmdərd olmaqda səhlənkarlıq etməyibsiniz və qədimdən mənimlə həmdərd idiniz.

Müsəlmanların Ühüddən Mədinəyə gəldikləri gecə çox həssas bir gecə idi. Mədinə yəhudiləri və Əbdüllah ibn Übəyyin tərəfdarları bu hadisədən xoşhal idilər. Evlərin çoxunda nalə səsi yüksəlirdi. İki müxtəlif dəstənin əlbir olub iğtişaş salaraq şəhərin siyasi sabitliyini təhlükəyə salmaları gözlənilirdi.

Peyğəmbər müxaliflərə və yəhudilərə qüdrətini göstərmək üçün ertəsi gün düşməni Mədinədən kənarda təqib etməyə dair əmr etdi və dedi ki, bu döyüşə yalnız Ühüd döyüşündə iştirak edənlər qatıla bilərlər. Burada bir sual qarşıya çıxır ki, bəs nə üçün Peyğəmbər düşməni təqib etmək üçün ancaq onlara icazə verdi?

Peyğəmbər iki səbəbə görə belə elədi: l– cihadda iştirak etməkdən boyun qaçıran şəxslərin bu müdafiədə iştirak etmək üçün ləyaqəti olmadığını bildirsin; 2– Ühüd döyüşündə məğlubiyyətin səbəbi onların intizamsızlıq və sözə baxmamazlığı olduğuna görə onlar özləri bu işi görməli idilər. Burada üçüncü bir dəlili də qeyd etmək olar: əgər Həzrət

cihadda iştirak etməyənlərdən yardım istəsəydi, bu, onların zəif olduğunu sübut edərdi. Peyğəmbər Əbdüllah ibn Ümmi, Məktumu Mədinədə öz yerində qoyub bayrağı Əli (ə)-ın əlinə verəndən və iki rükət namaz qılandan sonra atını istədi, zirehli paltarını geyib atını mindi və hərəkət etdi. Dünənki döyüşdə iştirak edənlər Həzrətin ardınca hərəkət etdilər və hamısı Mədinədən 8 mil məsafədə olan Həmraül-Əsədə qədər getdilər. Onlar bazar ertəsi, çərşənbə axşamı və çərşənbə günü orada qaldılar. Peyğəmbər əmr etdi ki, 500 yerdə od yandırsınlar.

Odun alovları elə şölələnirdi ki, lap uzaqdan da görünürdü. İslam ordusunun səsi uzaqdan eşidilirdi. Peyğəmbər cümə günü Mədinəyə qayıtdı. Bu hərbi taktika çox faydalı idi. Belə ki, Həmraül-Əsədin yaxınlığında düşərgə salan və Mədinəyə qayıdıb yenidən döyüşə başlamaq qərarına gələn Əbu Süfyan və onun qoşunu bu hərbi taktikanı görüb qorxuya düşdülər. Hətta Xüzaə qəbiləsinin başçısı Əbu Süfyanla görüşəndə onun Mədinəyə qayıtmaq istəyini bilib dedi: Mən bunu məsləhət görmürəm, ona görə ki, Məhəmməd çoxlu döyüşçü ilə Mədinədən çıxıb və intiqam almaq istəyir. Onlar acıqdan qəzəblənmişlər və dünənki nizamsızlıqlarından bərk peşmandırlar.

Xüzaə qəbiləsinin rəisi müsəlmanların barəsində elə məlumat verdi ki, Əbu Süfyan öz fikrindən əl çəkdi. Bu zaman Qüreyş qoşununun sərkərdələrindən biri Səfvan ibn Üməyyə ona dedi: Müsəlmanlar qəzəbli və yaralıdırlar, məsləhət budur ki, Məkkəyə yollanaq.

Həmraül-Əsəddə Qüreyş qoşunlarından olan Əbu Əzəti müsəlmanlar tərəfindən tutuldu. O, Bədr döyüşündə də əsir düşmüşdü və Peyğəmbər də onu azad etmişdi. O, azad olunmaq üçün Peyğəmbərə söz vermişdi ki, bir daha müsəlmanlar və islamın əleyhinə çıxmayacaq. Bu dəfə əsir olmaqla əməli olaraq öz əhdini sındırdı. O, Peyğəmbərə yalvardı ki, onu əfv etsin. Lakin Peyğəmbər dedi ki, mömin heç vaxt bir deşikdən iki dəfə

sancılmaz, daha Məkkəyə gedib «mən Məhəmmədi iki dəfə aldatdım» deməyin mümkün deyildir.[88]

Həmraül-Əsəd kitablarda ayrıca bir döyüş kimi verilmişdir. Lakin belə deyil, bir gecəlik fasilə ilə Ühüd döyüşünün ardınca baş vermişdir.

Bununla da Ühüd döyüşü Hicrətin üçüncü ilinin şəvval ayının yeddisində, şənbə günü (hicrətdən 32 ay sonra) baş verdi və Həmraül-Əsəd daxil olmaqla həmin həftənin cümə günü (həmin ilin şəvval ayının l4-də) sona çatdı.

Həzrət imam Həsən Müctəba (ə) bu ilin ramazan ayında anadan olub. Bu il başqa hadisələr də baş verdi ki, onlar barədə danışmaq istəmirik.

(Hicrətin üçüncü ilinin hadisələrinin sonu)

---

[88] «İbn Hişamın sirəsi», 2-ci cild, səh. 104

## ON DÖRDÜNCÜ FƏSİL

### HİCRƏTİN DÖRDÜNCÜ İLİNİN HADİSƏLƏRİ

Bu ildə də böyüklü-kiçikli bəzi hadisələr baş vermişdir. Həzrət Rəsul bu il bir dəstəni beş dəfə köməkçilərindən birinin başçılığı ilə Ərəbistan yarımadasının ətrafına göndərdi. Peyğəmbərin özü həmin ildə şəxsən üç döyüşdə iştirak etmiş, qoşunun rəhbərliyini öz öhdəsinə götürmüşdür. Bundan əlavə, həmin il islamın iki böyük döyüşçüsü – Zeyd ibn Dəsinə və Xübəyb ibn Ədi şəhid edildi.

İndi mühüm hadisələrə işarə edirik:

### RƏCİ DÖYÜŞÜ, YAXUD QURAN MÜƏLLİMLƏRİNİ ÖLDÜRMƏK PLANI

Həzrət Peyğəmbər Quran və islam hökmləri ilə tanış olan şəxsləri ətrafdakı kənd və şəhərlərə göndərirdi ki, yenicə müsəlman olanları islamla tanış etsinlər. Müəllimlər bu yolla islamı ən ucqar yerlərə çatdırırdılar. Bəzi qəbilələr Peyğəmbərin bu işindən sui-istifadə edib dedilər: «Ey Peyğəmbər! İslam bizim aramızda genişlənməkdədir, səhabələrdən bir neçəsini Quran öyrətmək üçün bizim məntəqəyə göndər». Bu təklifi irəli sürənlər Əzəl və Qarə qəbilələrindən idilər.

Peyğəmbər ilahi vəzifəyə əsasən, öz səhabələrindən altı nəfəri (başqa rəvayətə görə on nəfər) onlarla birlikdə yola saldı və döyüşə rəhbərliyi Mərsəd adlı bir şəxsə həvalə etdi. Bu dəstə bir əldə Quran, o biri əldə silah götürərək həmin iki qəbiləyə tərəf yola düşdü.

Quran müəllimləri Hüzeyl qəbiləsinə məxsus Rəci bulağına çatanda, o iki qəbilə öz əhdlərini sındırdılar və Quran müəllimlərini öldürmək üçün Hüzeyl qəbiləsindən yardım istədilər. Bu anda qəbilə əhli qılıncla onların üstünə töküldülər, lakin Quran müəllimləri silahlı olduqlarına görə özlərini müdafiə etməyə başladılar. Hücum edənlər dedilər ki, biz sizi öldürmək yox, diri tutub Qüreyşə satmaq və əvəzində bir şey almaq istəyirik.

Müəllimlərdən üçü döyüşdə şəhid edildi, qalan üç nəfəri – Zeyd, Xübeyb və Əbdüllah əsir düşdülər. Hücum edənlər hər üçünü satmaq üçün Məkkəyə apardılar. Yolda əsirlərdən biri əllərini açdı və qılınc götürüb döyüşə başladı və axırda şəhid edildi. Digər iki əsiri Məkkənin böyüklərinə satdılar. Səfvan ibn Üməyyə Zeydi 50 dəvəyə aldı ki, atasının intiqamını almaq üçün onu öldürsün. Üqbət ibn Haris Xübeybi 80 misqal qızıla aldı ki, Bədrdə öldürülmüş atasının intiqamını almaq üçün onu dar ağacından assın. Səfvan Zeydi dar ağacından asmaq istədikdə tamaşa üçün Qüreyşdən bir dəstə adamı dəvət etdi. Bu vaxt Əbu Süfyan irəli gəlib dedi: Razısanmı, sənin yerinə Məhəmməd öldürülsün və sən diri qalasan?

Zeyd dedi: And olsun Allaha, Məhəmmədin ayağına tikan batmasına belə razı deyiləm!

Əbu Süfyan dedi: Mən indiyədək öz tərəfdarları içində Məhəmməd qədər məhəbbət qazanmış digər bir şəxs görməmişəm!

Nəhayət, Zeyd Səfvan tərəfindən şəhid edildi. Xübeyb də bir müddət dustaq ediləndən sonra öldürüldü. Onu öldürmək istəyəndə Qüreyş başçılarından iki rükət namaz qılmağa icazə vermələrini xahiş etdi. Dedilər ki, eybi yoxdur. O iki rükət namaz qılandan sonra dedi: «And olsun Allaha, əgər «ölümdən qorxduğu üçün namaz qılır» deyə fikirləşməyinizdən qorxmasaydım, çox namaz qılardım». Sonra üzünü səmaya qaldırıb dedi: «İlahi, Peyğəmbər tərəfindən öhdəmizə qoyulan vəzifəni yerinə yetirdik, Peyğəmbəri bizim vəziyyətimizdən agah et. İlahi, bunları məhv et!»

Sonra onu bərk-bərk bağladılar və elə o halda təklif etdilər ki, islamı buraxıb bütpərəstlik ayinlərinə qayıtsın. O, bu təklifin cavabında «la ilahə illəllah» kəlməsini dilə gətirib dedi: «And olsun Allaha, istəmirəm ki, yer üzündə olan hər şey mənim olsun və mən əvəzində islamı buraxım!» Bir daha ona dedilər: «İstəyirsən ki, sən öz evində olasan və Məhəmməd sənin yerinə öldürülsün?» O dedi: «And olsun Allaha, razı olmaram ki, Məhəmmədin ayağına bir tikan batsın və mən rahat qalam!» Bir daha

təkid etdilər ki, islamdan əl çəksin, əks halda öldürüləcək. O dedi: «Mənim Allah yolunda ölməyimin heç bir əhəmiyyəti yoxdur».

Sonra onu dar ağacına bağlayıb Bədrdə öldürülmüş şəxslərin uşaqlarından qırx nəfər çağırdılar və hərəsinin əlinə bir nizə verdilər ki, hamısı ona hücum edib doğrasınlar. Bu cinayəti törədənin əsl səbəbkarı olan Üqbə onun köksünə nizəni elə soxdu ki, arxasından çıxdı. Bu zaman Xübeyb Allahla raz-niyaz edirdi. Onun cəsədi bir müddət dar ağacından asılı qaldı. Nəhayət Əmr ibn Üməyyə onu gizli olaraq dardan endirdi.

## BERİ-MƏUNƏ DÖYÜŞÜ, YAXUD BİR QURAN MÜƏLLİMİNİN ÖLDÜRÜLMƏSİ

Rəci şəhidlərinin şəhidlik xəbəri Peyğəmbərə çatmazdan əvvəl Əbu Bəra adlı bir şəxs Mədinəyə, Həzrət Rəsulun yanına gəldi. Ona islam hökmləri deyildikdə nə islamı qəbul etdi, nə də rədd etdi və dedi: Əgər öz tərəfdarlarından birini xalqı dəvət etmək üçün Nəcdə göndərsən, ümidvaram onlar bu dini qəbul edərlər.

Peyğəmbər buyurdu: Nəcd əhlinə (öz dostlarım barədə) etibar etmirəm.

Əbu Bəra dedi: Mən onların təhlükəsizliklərini təmin edirəm.

Peyğəmbər Münzərin başçılığı ilə öz tərəfdarlarından 40 nəfəri Əbu Bəra ilə birgə Nəcdə göndərdi. Onlar Beri-Məunə adlı bir yerdə düşdülər və Həzrətin tərəfdarlarından biri onun məktubunu Amir qəbiləsi başçısının yanına gətirdi. O, məktubu oxumazdan əvvəl onu gətirən şəxsi öldürdü və digərlərini də öldürmək üçün öz qəbiləsindən yardım istədi. Amma qəbilə əhli onunla razılaşmadı və dedilər ki, bizim qəbilədən olan Əbu Bəra onlara aman vermişdir, biz bu işə girişə bilmərik. Amir digər qəbilələrdən yardım istədi və birlikdə Quran müəllimlərinə hücum etdilər. Onlar da özlərini müdafiə etdilər və özünü yaralı halda ölülərin arasına salan Kəb adlı bir şəxsdən başqa hamısı şəhid edildi. O, özünü Mədinəyə çatdırdı və Peyğəmbəri baş verən faciədən xəbərdar etdi. Rəci

döyüşünün və Beri-Məunə şəhidlərinin xəbəri Həzrət Rəsula bir gecədə yetişdi. Peyğəmbər həmişə onların qatillərinə lənətlər yağdırardı.[89]

## BƏNİ-NƏZİR DÖYÜŞÜ

Bəni-Nəzir tayfası Mədinədə yaşayan üç yəhudi dəstəsindən biri idi. Peyğəmbər Mədinənin siyasi birliyi üçün bu üç dəstə ilə müqavilə bağlamışdı. Həzrət Rəsul hicrətin dördüncü ilini rəbiül-əvvəl ayında sayı on nəfərə çatmayan bir dəstə ilə Bəni-Nəzir qalasına getdi. Məqsəd onlarla bağladığı müqavilənin maddələrinin birinin əsasında onlardan yardım istəmək idi. Peyğəmbər qalanın qapısında atdan endi və bu məsələni qəbilə başçılarına dedi. Onlar Həzrəti yaxşı qarşıladılar və söz verdilər ki, hər nə istəsə, yerinə yetirəcəklər. Peyğəmbər onların birinin evinin kənarında oturdu. Bu zaman qəbilə başçıları bir-biri ilə məsləhətləşib dedilər ki, onu heç vaxt belə tək tapa bilmərik, onun həyatına elə buradaca son qoyaq. Yaxşı olar ki, birimiz dama çıxıb böyük bir daşı onun başına salaq və öldürək. Bu vaxt Bəni-Nəzirdən olan Əmr bu işə razı oldu və Həzrətin oturduğu divarın damına çıxdı ki, böyük bir daşı onun başına salsın. Bəni-Nəzirdən olan Səllam ibn Mişkəm onları bu işdən çəkindirib dedi: Allah onu bu hadisədən agah edər və nəticədə bağladığımız müqavilə pozular.

Bu vaxt vəhy mələyi nazil oldu və onu bu şeytan hiyləsindən agah etdi. Peyğəmbər «bir işim vardır» deyə yerindən qalxdı və qaladan çıxıb Mədinəyə sarı yollandı. Onunla qalaya gedənlər nigaran halda axtarış apardılar. Nəhayət, Mədinədən gələn bir şəxs onlara dedi ki, Peyğəmbər Mədinədədir. Onlar qayıdıb macəranı Peyğəmbərdən soruşdular. Həzrət Rəsul onları yəhudilərin hiyləsindən agah etdi. Sonra əmr etdi ki, döyüş üçün hazırlaşsınlar. Peyğəmbər Məhəmməd ibn Məsləməni Bəni-Nəzirin yanına göndərərək xəbərdar etdi ki, on günə kimi Mədinədən çıxsınlar.

[89] «Məğazi Vaqidi», 1-ci cild, səh.364-369; «Təbəqate ibn Sad». 2-ci cild, səh.37.

Bəni Nəzir əhli Peyğəmbərin qərarından agah olub vəlvələyə düşdülər. Bu vaxt müxaliflərin rəisi Əbdüllah ibn Übəyy Bəni Nəzir qalasına adam göndərib onları Mədinədə qalmağa təşviq edərək dedi ki, mən iki min nəfərlə gəlib sizi müdafiə edərəm. Bəni-Qüreyzə kimi başqa yəhudilərdən də kömək alarıq.

Əbdüllah ibn Übəyyin sözləri onları qalmağa vadar etdi. Bəni-Nazirin rəisi Həzrət Rəsula xəbər göndərdi ki, biz getmirik, hər nə istəyirsən et! Həzrət Rəsul onların qalalarını bir rəvayətə görə 15, başqa rəvayətə görə 6 gün mühasirədə saxladı. Bu müddət ərzində onlara nə riyakarlardan kömək gəldi, nə də Bəni-Qüreyzə qəbiləsindən. Nəhayət, mühasirənin uzun çəkməsindən təngə gələn Bəni-Nəzir qəbiləsi Mədinədən köçmək qərarına gəldi. O vaxt Həzrət Rəsul buyurdu: Onlar Mədinəni tərk edə və bir dəvə yükü miqdarında yük apara bilərlər. Amma silah aparmağa haqları yoxdur.

Tamahkar yəhudilər öz mallarını aparmaqda çox səy göstərdilər, hətta evlərinin qapılarını çərçivəsi ilə birlikdə yerindən qoparıb apardılar, evləri isə uçurtdular. Onların bir dəstəsi Xeybərə, bir dəstəsi Şama getdi və iki nəfər də müsəlman oldu. Bəni-Nəzir qəbiləsi gedəndən sonra onların qalan əmlak və əkin yerləri Peyğəmbərin ixtiyarına keçdi.

Quranın hökmünə görə, daşına bilən və daşına bilməyən əmlak (Bəni-Nəzirin malları kimi) Peyğəmbərin ixtiyarına keçir.[90] Peyğəmbər bu malların bölüşdürülməsi məqsədilə ətrafındakılarla məsləhətləşdi. O, ənsarı çağırdı və onların xidmətlərindən danışdı, sonra dedi: Mühacirlər sizin qonağınızdır, onlar sizin evinizdədir, əgər razısınızsa, mən Bəni-Nəzirdən alınmış qənimətləri mühacirlərin arasında bölüm, onlar da sizin evlərinizdən çıxsınlar.

[90] «Həşr» surəsi, I-ci ayə. 188

Səd ibn Məaz və Səd ibn İbadə (Ovs və Xəzrəcin böyükləri) Peyğəmbərin sözü ilə razılaşıb bildirdilər ki, mühacirlər yenə də onların evlərində qala bilərlər.

Peyğəmbər malları mühacirlərin arasında böldü və ənsardan olan iki yoxsula da bir pay verdi.

## ZATÜR-RİQA DÖYÜŞÜ

Bu döyüş də digərləri kimi Peyğəmbərin başladığı müharibə deyildi. Məqsəd yalnız islam düşmənlərinin həyata keçirmək istədikləri hiylələrin qarşısını almaq idi. Peyğəmbərə xəbər verilmişdi ki, Qətfan qəbiləsindən olan iki tayfa Mədinəyə hücum etmək məqsədilə hərbi sursat və əsgər toplayırlar. Peyğəmbərin adəti bu idi ki, məlumat əldə etdikdən sonra düşmənə hərəkət etmək macalı verməz, hücum edib onları məhv edərdi. Peyğəmbər Əbuzəri öz yerinə qoyub düşmənə tərəf hərəkət etdi. İslam qoşunu Bəni-Qətfan qəbiləsindən olan bir dəstə ilə rastlaşdı, amma döyüş baş vermədi. Çünki qarşılaşan kimi düşmənlərin canına qorxu düşdü və hamısı qaçdılar.

Tarix yazanlar Peyğəmbər Mədinəyə qayıdarkən baş verən hadisələrdən bəhs ediblər, nəql ediblər, biz də belə edirik:

## KEŞİKÇİLƏR

Həzrət Rəsul bu hiyləni də zərərsizləşdirəndən sonra geri qayıtdı və düşmənin qəfil hücumundan ehtiyat edib bir dərədə düşdü, sonra dedi: Bu gecə kim keşik çəkəcək?

Əmmar Yasir və Əbbad ibn Bişr dərəni qorumaq üçün qərara gəldilər ki, hər biri gecənin bir yarısını keşik çəksin. Əbbad gecənin ilk yarısını oyaq qaldı, Əmmar isə yatdı, Əbbad namaz qılmağa başladı. Birdən düşmən gəlib ona tərəf bir ox atdı. Ox onun bədəninə sancıldı, ancaq Əbbad oxu çəkib çıxartdı. Bir azdan yenə bir ox dəydi, yenə çıxardıb atdı, amma oxumağa başladığı surəni davam etdirə bilmədi. Rüku və səcdəyə gedib namazı bitirdi. Əmmarı oyadıb dedi: Qalx ayağa, mən əldən düşdüm.

Əmmar gileyləndi ki, bəs ilk ox dəyəndə niyə məni çağırmadın. Dedi: Namaz üstəydim, surəni oxuyurdum. Allahın sözünü kəsmək istəmirdim. Əgər Həzrət Rəsul dərəni mənə tapşırmasaydı, oxuduğum surəni yarımçıq kəsməzdim və öz canımı Allahla münacatda olarkən əldən verər, namazımı pozmazdım.

## İKİNCİ BƏDR DÖYÜŞÜ

Ühüd döyüşünün sonunda Əbu Süfyan müsəlmanlara demişdi ki, görüşümüz gələn il Bədrə qalsın. O sözdən bir il keçdi. Əbu Süfyan bu müddət ərzində müxtəlif çətinliklərlə qarşılaşmaqda idi. O çalışdı ki, Peyğəmbəri döyüş meydanına gəlməkdən çəkindirsin, amma onun planları Həzrətin əhval-ruhiyyəsinə təsir etmədi. Həzrət dedi: Tək də getməli olsam, gedəcəyəm.

Sonra Əbdüllah adlı bir şəxsi Mədinədə öz yerinə qoydu, bayrağı Əli (ə) verib 1500 nəfərlə birlikdə Bədrə tərəf yollandı. Həzrət Rəsul səkkiz gecə Bədrdə Əbu Süfyanın yolunu gözlədi. Əbu Süfyan da iki min nəfərlə Məkkədən çıxdı, lakin Üsfan məntəqəsinə çatdıqda geri qayıtmaq qərarına gəldi və dedi: bu il quraqlıqdır. Meydana getməyimiz yaxşı deyil. Buradan Məkkəyə qayıtmağımız daha yaxşıdır.

Müsəlmanlar Bədrdə qaldıqları müddət ərzində özləri ilə gətirdikləri ticarət mallarını satdılar və 16 gündən sonra Mədinəyə qayıtdılar.

Həmin ilin şəban ayının üçündə Hüseyn ibn Əli (ə) dünyaya gəldi və Həzrət Əlinin anası Fatimə binti Əsəd vəfat etdi. Habelə bu ildə Həzrət Rəsul Zeyd ibn Sabitə əmr etdi ki, Suriya əlifbasını yəhudilərə öyrətsin.

## ON BEŞİNCİ FƏSİL

### HİCRƏTİN BEŞİNCİ İLİNİN HADİSƏLƏRİ

Hicrətin dördüncü ili ötüb keçdi, bu ildə müsəlmanlar bir sıra qələbələr əldə etdilər və bəzi çətinliklərlə üzbəüz oldular. İndi isə beşinci ilin mühüm hadisələrini qeyd edirik.

### DUMƏTÜL-CƏNDƏL DÖYÜŞÜ

Müsəlmanlara xəbər çatdı ki, Dumətül-cəndəldə bir dəstə yolkəsənlik edir və Mədinəyə hücum etmək fikrindədirlər. Həzrət Rəsul onların hücumlarını dəf etmək üçün min nəfər döyüşçü ilə hərəkət etdi. Onlar gündüzlər dincəlib, gecələr yol gedirdilər. Düşmən Peyğəmbərin onlara doğru hərəkət etməsindən agah olub dağılışdı. Peyğəmbər bir müddət orda qaldı, ətraf məntəqələrə adam göndərdi ki, onlara qarşı ehtimal edilən hücumları zərərsizləşdirsinlər və rəbiül-əvvəlin 20-də Mədinəyə tərəf qayıtdı. Yolda Fəzar qəbiləsindən olan bir şəxslə müqavilə bağladı və ona icazə verdi ki, quraqlığa düçar olduğuna görə Mədinənin otlaqlarından istifadə etsin.

### XƏNDƏK DÖYÜŞÜ

Qeyd olunduğu kimi, Həzrət Rəsul dördüncü ildə Bəni-Nəzir yəhudilərini əhdlərinə vəfalı qalmadıqlarına görə Mədinədən çıxartdı. Onların bir dəstəsi Xeybərə, bir dəstəsi isə Şama getdi. Peyğəmbərin bu inqilabi işi iki tərəfin qol çəkdiyi müqavilə əsasında idi. Həmin əməlin nəticəsində Bəni-Nəzirin tayfa başçıları hiylə qurub Məkkəyə getdilər və Qüreyş qəbiləsini Peyğəmbərlə döyüşməyə təhrik etdilər.

Qüreyş başçıları yəhudi başçılarından soruşdular: Siz qabaqkı əhli-kitabsınız, bizimlə Məhəmmədin arasında olan ixtilaflardan tamamilə agahsınız. Bizim bütpərəstlik ayinimiz yaxşıdır, yoxsa Məhəmmədin ayini?

Yəhudi başçıları utanmazlıqla dedilər: Sizin ayinləriniz Məhəmmədin ayinindən daha yaxşıdır.

Tövhid dininə inandıqlarını iddia edən yəhudi başçıları bu sözü deməklə çox böyük günaha batdılar. Bu səhv o qədər bağışlanılmazdır ki, hətta yəhudilərin insaflı yazıçıları bu hadisəyə görə öz təəssüflərini bildirirlər. Belə ki, doktor İsrail «Yəhudilərin tarixi və Ərəbistan» kitabında yazır: Heç bir əhəmiyyət yox idi ki, yəhudi xalqı belə bir səhvə yol versin, hərçənd Qüreyşin onların istəklərini rədd etmək bahasına olsaydı da. Yəhudi xalqının bütpərəstlərə pənah aparmağı düz iş deyildi. Ona görə ki, bu iş Tövratın təlimləri ilə uyğun deyildi.[91]

Əhli-kitab alimlərinin sözləri bütpərəst ərəblərə təsir etdi: yəhudilərin nümayəndələrinin təklifini qəbul edərək hərəkətin tarixini müəyyənləşdirdilər. Onlar Qüreyş başçılarına dedilər ki, biz Bəni-Qüreyzə qəbiləsindən yardım alacağıq və onları vadar edəcəyik ki, Məhəmmədlə bağladıqları müqaviləyə baxmayaraq, sizinlə çiyin-çiyinə döyüşsünlər.[92]

Müharibə odunu qızışdıranlar Qüreyşi döyüş üçün hazırladıqdan sonra Qətfan məntəqəsinə gedib bu qəbilənin şeyxlərini də Peyğəmbərlə döyüşmək üçün səfərbər etdilər və onlara söz verdilər ki, əgər döyüşdə Qüreyşlə birlikdə olsalar, Xeybərin bir illik məhsullarını onlara versinlər.

İş bununla bitmədi. Qüreyş başçıları öz müttəfiqləri olan Bəni-Səlimi, Qətfan başçıları isə Bəni-Əsədi bu döyüşdə iştirak etməyə çağırdılar. Hərəkətin və Mədinənin mühasirə olunmasının tarixi müəyyən edildi. Bu dəstələr (və Quranın dediyi kimi «Əhzab») Ərəbistanın müxtəlif yerlərindən Mədinəyə doğru yola düşdülər.

Peyğəmbərlə yaxşı münasibətdə olan Xüzaə qəbiləsi onu Qüreyşin hərəkət etməsindən agah etdi. Həzrət əhzabın hərəkətini yəqin etdikdən sonra müdafiə fikrinə düşdü.

---

[91] Doktor Məhəmməd Hüseyn Heykəl, «Mühəmmədin həyatı» 1-ci cild, səh.297.
[92] «Məğazi Vaqidi», 2-ci cild, səh.441-442.

## MÜDAFİƏ ŞURASI TƏŞKİL EDİLDİ

Peyğəmbərin göstərişi ilə müdafiə şurası təşkil olundu. Bəziləri təklif etdilər ki, Mədinəni «qala üslubu» ilə qorusunlar, yəni hündür yerlərdə özlərinə mövqe seçib düşmənlə döyüşsünlər. Bu üslub o şəraitdə faydalı ola bilərdi ki, düşmən qoşunu çox olmasın; əks halda sel kimi axan düşmən qarşısında müdafiə üçün bu qalalar yararlı olmazdı. Salmani Farsi İranın döyüş taktikaları ilə tanış idi. O, bir təklif irəli sürdü və dedi: Yaxşı olar ki, düşmənin Mədinəyə daxil olmasının qarşısını almaq üçün şəhərin ətrafında dərin xəndək qazılsın.

Salmanın təklifi qəbul edildi və bu təklif Mədinənin müdafiə olunmasında mühüm rol oynadı. Xəndək qazılacaq yerləri Peyğəmbər özü müəyyənləşdirdi. Mədinənin bir tərəfı ağaclıq, o biri tərəfi isə dağlıq idi ki, düşmən keçə bilməzdi, amma üçüncü tərəf səhraya açılırdı və heç bir təbii maneə yox idi. Xəndək bu hissədə qazılmalıydı. Xəndək işi sürətlə başlandı. Müsəlmanlar əl-ələ verib səylə çalışdılar. Həzrət Rəsul özü şəxsən işləyir, külüng vurur və bəzi torpaq kisələrini daşıyırdı. Xəndəyin hər hissəsinin qazılması müəyyən bir dəstəyə tapşırıldı və belə qərara gəldilər ki, hər nəfər 40 zira (zira dirsəkdən barmaqların ucuna qədər) qazsın. Müsəlmanlar xəndək qazmaq üçün Bəni-Qüreyzə yəhudilərindən bel, külüng, balta borc aldılar. Xəndəyin qazılması altı gün çəkdi. Xəndəyə bir neçə qapı qoyuldu və hər qapı bir qəbiləyə verildi. Zübeyr ibn Əvam qala qapıları keşikçilərinin başçısı təyin edildi.[93]

Xəndəyin qazılması sona çatdı və düşmən qoşunu altı gündən sonra Mədinəyə tərəf hərəkət etdi. Onlar belə fikirləşdilər ki, müsəlmanlarla Ühüddə qarşılaşacaqlar. Lakin oraya çatdıqda bir kəslə üzbəüz olmadan hərəkəti davam etdirdilər. Axırda dərin bir xəndəyə çatdılar və onu görəndə təəccübləndilər. Qüreyşin hərbi işlər üzrə mütəxəssisləri

---

[93] «Tarixe Yəqub», 2-ci cild, səh.30

dedilər: «Məhəmməd bu taktikanı iranlılardan öyrənib, ərəblər belə müdafiə yolunu bilmirlər».

Düşmən qoşununun sayı barədə tarixçilər arasında məşhur olan rəvayət budur: On min nəfərdən ibarət olan üç qoşuna Əbu Süfyan başçılıq edirdi.

## BƏNİ-QÜREYZƏ ƏHDİNİ POZUR

Bəni-Qüreyzə Mədinədə yaşayan üç yəhudi qəbiləsindən biri olub müsəlmanlarla müqavilə bağlamışdılar. Bəni-Qüreyzə qalası Mədinənin girişində idi. Qüreyş və onun müttəfiqləri bu qaladan Mədinəyə daxil ola bilərdi. Əhzab Mədinənin ətrafına çatandan sonra Hüyy ibn Əxtəb (Bəni-Nəzir qəbiləsindən idi və Peyğəmbərin əmri ilə Mədinədən çıxarılmışdı) bu qərara gəldi ki, Bəni-Qüreyzə qəbiləsinin rəisi ilə əlaqə yaratsın və onların 700 nəfərdən ibarət olan döyüşçülərini islamın əleyhinə döyüşməyə dəvət etsin. Amma qala qapılarını onun rəisi Kəb ibn Əsədin fərmanı ilə Hüyy ibn Əxtəbin üzünə bağladılar. Danışıqlar qapı arxasından oldu. Nəhayət, qala başçısınn cavabı bu oldu ki, biz Məhəmmədlə müqavilə bağlamışıq və hazırda da qüvvədədir. Biz ondan düzlükdən başqa bir şey görməmişik. Hüyy ibn Əxtəb Kəbə «Qapını niyə açmırsan. Qorxursan çörəyindən yeyəm?» – deməklə ona təsir göstərməyə başladı. Kəb qapını açdı, Hüyy qalaya girdi. Əhzabın hücum etməsini deyərək onu müqaviləni pozmağa təhrik edib dedi ki, əgər bir gün ərəb qoşunu Məhəmmədlə döyüşməkdən peşman olub öz mərkəzlərinə qayıtsa, o, bu qalada qalsın. Bu sözlər Kəbə təsir etdi və müqavilənin əksinə hərəkət etdi.

İslam Peyğəmbəri Bəni-Qüreyzənin müqaviləyə zidd hərəkət etdiyini eşitdikdə, Ovs və Xəzrəcdən iki nəfəri məsələni araşdırıb gizlincə xəbər gətirmək üçün qalaya göndərdi. O iki nəfər qalada qəbilə başçısı ilə danışarkən Kəb aşkar şəkildə Peyğəmbərə nalayiq sözlər deyərək müqaviləni dandı və dedi ki, bizimlə onun arasında heç bir müqavilə yoxdur. Hər ikisi Peyğəmbərin hüzuruna gəlib onların müqaviləni

pozduqlarını xəbər verdilər. Həzrət təkbir dedi və əlavə etdi ki, müsəlmanlar, qələbə sizinlədir.[94] Müsəlmanlar çox həssas bir vəziyyətdə idilər: bir tərəfdən düşmənin qoşunu Mədinənin ətrafında iki yerdə toplaşıb xəndəkdən keçməyə çalışır, digər tərəfdən Bəni-Qüreyzə yəhudiləri müqaviləyə zidd hərəkət etməklə müsəlmanlara arxadan zərbə endirmək istəyirdilər. Bu vəziyyət bir ay davam etdi və iki tərəf döyüşdən yorulub soyuq müharibəyə girişərək şer demək və nitq söyləməklə bir-birinə istehza edirdilər.

Xəbər çatdı ki, Bəni-Qüreyzə qəbiləsi şəhəri qarət etmək istəyir. Şəhərin şücaətli cəngavərlərinin xəndəkdən o tərəfdə düşmən qarşısında dayandıqlarına və şəhərdə qocalardan başqa bir şəxs olmadığına görə arvad-uşaq qorxu içindəydi. Qüreyş və Qətfan döyüşçülərinin qaladan Mədinəyə daxil olması xəbəri Peyğəmbərə çatdı. Peyğəmbər xəndəyin ətrafında olan döyüşçülərdən 500 nəfəri şəhərə yolladı ki, təkbir desinlər və düşmənin Bəni-Qüreyzə qalasından şəhərə daxil olmasının qarşısını alsınlar.[95]

## BEŞ PƏHLƏVANIN XƏNDƏYİ KEÇMƏSİ

Həzrət Rəsul öz qızğın və ruhoxşayan çıxışları ilə islam əsgərlərinin əhval-ruhiyyəsini xeyli gücləndirdi. Bir gün təntənəli yığıncaqda öz döyüşçülərinə dedi: Ay camaat, düşmənin qarşısında müqavimət göstərin və bilin ki, cənnət qılıncların kölgəsi altındadır.[96]

Nəhayət, neçə gün keçəndən sonra bütpərəst pəhləvanlardan beş nəfər: Əmr ibn Əbdüvədd, İkrəmət ibn Əbicəhl, Hübeyrət ibn Vəhəb, Nufə ibn Əbdüllah və Zirar ibn Xəttab döyüş paltarı geyinib Bəni-Kinanə qərargahından keçdilər. Onlar dedilər: Bu gün bilərsiniz ki, həqiqi

---

[94] «ibn Hişamın sirəsi», 2-ci cild, səh.222.
[95] «Hələbinin sirəsi», 2-ci cild, səh.335.
[96] «Hələbinin sirəsi», 2-ci cild, səh.345.

qəhrəmanlar kimdir. Sonra atlarını cövlana gətirdilər və atlar xəndəyin dar yerindən sıçrayıb keçdi. Onlar xəndəklə Səl dağı arasındakı yerdə atlarını oynadırdılar. Əvvəl onların içindən ən şücaətlisi gəlib müsəlmanlara istehza edərək dedi: «Cənnət iddiaçıları hardadır? Sizdə bir nəfər yoxdur ki, gəlsin, mən onu behiştə göndərim, yaxud o məni cəhənnəmə?» Bu cümləni bir neçə dəfə təkrar etdi və sonra dedi: «Mən qışqırıb döyüşçü istəməkdən yoruldum, boğazım partladı?» Bu anda Həzrət Peyğəmbər üzünü müsəlmanlara tərəf tutub dedi: Bir nəfər varmı ki, bunun şərini aradan qaldırsın?»

Əli (ə) öz hazırlığını bildirdi. Həzrət Əliyə icazə vermədi və dedi ki, bəlkə başqası dursun. Amma Əlidən başqa heç bir şəxs bu işə razı olmadı.

Vaqidi öz «Məğazi»sində (2-ci cild, səh.470) yazır: «Ərəb pəhləvanı döyüşçü istəyəndə ölüm sükutu islam qoşununu bürümüşdü». Nəhayət, Peyğəmbər Əlini çağırdı, öz əmmaməsini onun başına qoydu, qılıncını ona verdi və onun haqqında dua etdi. Sonra dedi: «Pərvərdigara, Bədrdə Übeydət ibn Varisi və Ühüddə Allahın aslanı Həmzəni əlimdən aldılar. Pərvərdigara, Əlini düşmənin şərindən qoru! İlahi məni yalqız qoyma! Sən varislərin ən yaxşısısan»[97]

Əli qərargahdan çıxıb bütpərəst pəhləvanın qarşısında dayandı. Həzrət Peyğəmbər buyurdu: İmanın hamısı riyakarlığın hamısının qarşısında durubdur. Sonra Əli (ə) düşmən qarşısında dayanıb onun oxuduğu vəzn və qafiyədə oxudu və dedi: Tələsmə! Sənin döyüşə səslədiyin şəxs sənə cavab verməK üçün gəlibdir. Elə bir şəxs ki, möhkəm iradəyə, əzm və kamilliyə malikdir.

Hər iki tərəfin rəcəz oxuması sona çatdı, amma Əmr Həzrət Əli ilə döyüşməyə hazır olmadı, iddia etdi ki, keçmişdə onun atası ilə dost olubdur. Amma Həzrət Əli (ə) buyurdu: Mən səni öldürmək istəyirəm!

---

[97] «Kənzül-fəvaid», səh.137.

İbn Əbil-Hədid yazır: «Əmrin Əbutaliblə dostluğu bəhanə idi. O, Əlini döyüşmək fikrindən daşındırmaq istəyirdi. Ona görə ki, Əlinin Bədr və Ühüd döyüşlərindəki rəşadətini yaxından görmüşdü.

Həzrət Əli dedi: Atından düş döyüşək.

O, dərhal atından enib atı meydandan qovdu. İki qəhrəmanın döyüşməsini yaxından görmək üçün Əli ilə meydana gələn Cabir deyir: «Meydanı toz-torpaq elə bürümüşdü ki, mən onları əsla görmürdüm. Lakin o tozun içində təkbir səsini eşitdim və bildim ki, Əli qalib gəlib, o bütpərəst pəhləvan isə ölübdür».

Əlinin təkbir səsi Peyğəmbər və müsəlmanları xoşhal etdi. Əmrin arxasında duran dörd nəfər onun öldürülməsini müşahidə etdikdə qaçmağa üz qoydular və xəndəkdən keçdilər. Təkcə Nofəl ibn Əbdüllahın atı xəndəyə düşdü, özü də xəndəkdən çıxa bilmədi, müsəlmanlar onu daşa basdılar. Nofəl dedi ki, məni öldürmək istəyirsinizsə, sizdən bir nəfər gəlib mənimlə döyüşsün. Əli (ə) xəndəyə daxil olub onu da öldürdü.

Əbu Süfyan müsəlmanların Həmzənin intiqamını almaq üçün Nofəli müslə edəcəklərindən qorxub onun cənazəsini on min dinara satın almaq istədi. Peyğəmbər buyurdu: Onun cənazəsini verin, çünki ölüyə pul almaq haramdır.

Həzrət Peyğəmbər Əlinin bu döyüşdəki zərbəsini insanlar və cinlərin ibadətindən üstün qiymətləndirdi.[98] Başqa bir rəvayətə görə, öz ümmətinin qiyməti kimi ibadətdən üstün bildi.[99] Doğrudur, o, bir zərbə idi, lakin elə bir zərbə idi ki, yer üzündə tovhidin davam etməsinə zəmanət verdi. Əgər o gün Əmrin cavabını verən bir nəfər olmasaydı, ərəblərin on min nəfərlik qoşunu tovhid ayininin davam etməsinə son qoyardı.

---

[98] «Dəlailüs-sidq», 2-ci cild, səh.l75

[99] «Müstədrək», 3-cü cild, səh.32

Əli(ə) Əmrlə döyüşü başa vurub Peyğəmbərə tərəf gəldi. Səhabələrdən bəzisi «Onun zirehini nə üçün bədənindən çıxarmadın» – deyə soruşdular. Amma Əli (ə) çox alicənab idi, heç vaxt bu işi görməzdi. Əmrin bacısı Əlinin alicənablığından agah olanda dedi: «Bundan üstün fəxr nə ola bilər ki, qardaşım böyük şəxsin əlində ölübdür». Sonra qardaşının matəminə və Əlinin tərifinə bir neçə şer qoşdu.[100]

Əmrin ölməsi, Qüreyş pəhləvanlarının qaçması onların döyüş ruhunu zəiflətdi. Xalid ibn Valid bu qərara gəldi ki, o günün səhəri bir dəstə ilə dar yerlərdən keçərək bu məğlubiyyətin intiqamını alsın. Bu iş üçün bir dəstə hazırladı, lakin xəndəyi qoruyan döyüşçülərin sübhdən axşama qədər mərdanə müdafiə etmələri nəticəsində düşmən xəndəkdən keçə bilməyib qayıtdı.

## MÜXALİF QOŞUNUNU DAĞITMAQ PLANI

Həzrət Rəsul Qüreyşlə əlbir olanları dağıtmaq üçün bir plan hazırladı. Həzrət bilirdi ki, Qətfan qəbiləsinin Qüreyşin köməyinə gəlməsinin səbəbi Xeybər yəhudilərinin onlara Xeybərin bir illik məhsulunu verəcəklərinə dair vədləri idi. Əgər onlara mal-dövlət vədəsi verilsəydi, yəhudilər yardım göstərməkdən əl çəkərdilər. Ona görə də Həzrət bu qərara gəldi ki, onların başçıları ilə əlaqə yaradıb vədə versin ki, əgər Mədinədən çıxıb getsələr, Mədinənin məhsulunun üçdə birini onlara verəcək. Bu iş üçün müqavilə yazdı ki, sonradan qol çəkilsin. Həzrət Peyğəmbər bu məsələni Ovs və Xəzrəc qəbilələri ilə müzakirə etdi. Onlar dedilər ki, əgər bu iş üçün Allahdan fərman gəlibsə, biz qəbul edirik, amma bu iş bizə görə olsa, bizim başqa nəzərimiz vardır. Peyğəmbər dedi: Mən işi sizə görə görmək istəyirəm, çünki bütün ərəblər sizin əleyhinizə birləşib sizi təzyiqə məruz qoyduqlarını görürəm, bu yolla da onları dağıtmaq istədim.

---

[100] «İrşad», səh.54

Hər iki qəbilənin başçısı dedi: Biz bütpərəst olub Allaha pərəstiş etmədiyimiz günlərdə bu qəbilələrdən heç kim bizim bağımızdan bir xurma dərməyə cürət etməzdi, indi Allah bizi islam vasitəsilə əziz, hörmətli və hidayət etdiyi halda öz malımızı onlara necə verək? Biz onların batil istəklərinə qılıncla cavab verəcəyik ki, bu iş sona çatsın.

Həzrət Rəsul onların danışıqlarından xoşhal olub dedi: Bu müqavilə, bu da siz.

Bu anda Səd Məaz məktubdakı yazıları pozdu və dedi: Qoy düşmən hər nə istəyir, eləsin!

## NÜİM İBN MƏSUD VƏ ƏRƏB ORDUSU

Yenicə müsəlman olan Nüim ibn Məsudun təklif etdiyi tədbir əhzabı dağıtmaqda çox təsirli idi. O, Həzrət Rəsulun yanına gəlib dedi: Mən yenicə müsəlman olmuşam və burada sizin əleyhinizə toplaşan qəbilələrin hamısı ilə dostluğum var. Əgər əmriniz varsa, deyin icra edim.

Peyğəmbər dedi: – Elə bir iş gör ki, bunlar dağılışsınlar.

O, bu işi boynuna götürdü. Əvvəlcə müsəlmanlar üçün təhlükəsi başqa qəbilələrdən daha çox olan Bəni-Qüreyzə qəbiləsinin yanına getdi. Nüim onların qalasına daxil olub sözünü belə başladı: «Mənimlə sizin aranızda dostluq əlaqələri vardır. (Hamısı təsdiq etdilər, sonra dedi:) Sizin vəziyyətiniz Qətfan və Qüreyşlə fərqlidir. Bura sizin şəhərinizdir, mallarınız, arvad-uşağınız buradadır. Siz buradan köçə bilməzsiniz, halbuki Qüreyş və Qətfan qəbilələri Məhəmmədlə döyüşmək üçün buraya gəlmişlər. Bura onların məskənləri deyil, malları, arvad-uşaqları da başqa yerdədir. Onlar sizin kimi deyillər, əgər qalib gəlsələr və öz məqsədlərinə çatsalar, əllərinə düşəcək fürsətdir. Əgər qalib gəlməsələr, buradan gedəcəklər və sizi müsəlmanların caynağında yalqız qoyacaqlar. Siz Məhəmmədlə qarşılaşa bilməzsiniz. Yaxşı olar ki, Qüreyş və Qətfana yardım etməyəsiniz. Amma onların böyüklərini girov tutub saxlasanız, arxayın olacaqsınız ki, yaman gündə sizi tək buraxmaz və Məhəmmədin işini bitirməyincə öz yerlərinə qayıtmazlar.

Hamısı onun fikrini təsdiq etdilər və qərara gəldilər ki, Qüreyş və Qətfanın böyüklərindən girov götürməyincə onlara yardım etməsinlər.

Sonra Nüim Qüreyşin qərargahına gedib dedi: Mənimlə sizin dostluğunuz məlumdur. Mənim Məhəmmədlə heç bir əlaqəm yoxdur, amma mənə bir xəbər yetişibdir ki, sizə demək istəyirəm. Bu şərtlə ki, bunu heç kimə deməyəsiniz. (Hamısı qəbul etdi dedi:) – Bəni-Qüreyzə qəbiləsi sizinlə əməkdaşlıq etməkdən peşman olub və gizli şəkildə Məhəmmədin yanına bir nəfər göndərib, ona öz peşman olduqlarını bildiriblər və söz veriblər ki, Qətfan və Qüreyş başçılarını tutub onlara təhvil versinlər, onlar da hamısını öldürsünlər. Sonra onlar söz veriblər ki, son anlara qədər Məhəmmədlə birgə olsunlar. Məhəmməd də onların vədini qəbul edib və qabaqkı müqavilələri yenidən qüvvəyə minib. Bununla belə, əgər Bəni-Qüreyzə yəhudiləri sizin böyüklərinizi girov saxlamaq istəsələr, buna qətiyyən yol verməyin.

O, bu sözləri deyəndən sonra Qüreyş qərargahından çıxıb Qətfan qərargahına gəldi və dedi: Mən sizin vücudunuzun bir parçasıyam, sizi hamıdan çox istəyirəm.

Hamısı təsdiq etdi. Sonra Qüreyşə dediklərini onlara dedi. Nüimin planı elə təsirli idi ki, onların birliyini pozdu. Beşinci ilin şəvval ayının beşində, şənbə gecəsi Əbu Süfyan və Qətfan başçıları Bəni-Qüreyzə qalasına bir dəstə adam göndərib dedilər: Bura bizim üçün münasib yer deyil, dəvələr və mallarımız yemsizlikdən ölürlər, tezliklə döyüşə hazırlaşın, Məhəmmədin işini qurtaraq.

Onlar cavabında dedilər: Bu gün şənbə günüdür, belə bir gündə biz işə başlamırıq. Bundan əlavə, biz o zaman Məhəmmədlə döyüşməyə hazırıq ki, sizin böyüklərinizdən bir neçəsini girov saxlayaq. Bunu ona görə edirik ki, biz Məhəmmədin işini birdəfəlik edənə kimi bizimlə olacağınıza inanaq. Biz qorxuruq ki, döyüşün çətin vaxtında öz yerlərinizə qayıdasınız və bizi yalqız buraxasınız.

Qüreyş və Qətfan tərəfindən gələn heyət eşitdikləri bu sözləri hər iki qəbiləyə çatdırdılar. Onlar Nüimin sözünü xatırlayıb ona inandılar.

Qüreyş bir daha Bəni-Qüreyzə qalasına bir heyət göndərdi. Bəni-Qüreyzə başçıları da həmin sözləri təkrar etdilər. Qüreyşdən gələn heyət onlara dedi: Biz bir nəfəri də olsun sizin ixtiyarınıza verməri k, əgər döyüşə hazırsınızsa, bayıra çıxın və döyüşün!

Bəni-Qüreyzə Qüreyş nümayəndələrindən bu sözü eşitdikdə, Nüimin sözlərini təsdiq etdilər və hər iki qəbiləyə xəbər göndərdilər ki, biz sizin böyüklərinizi girov götürməyənə qədər döyüşə başlamayacağıq. Belə olan halda iradələr süstləşdi, yalançı birlik pozuldu. Qeybdən gələn yardımlar nəticəsində soyuq küləklər əsdi, düşmənlərin çadırlarını uçurtdu, xörək qazanlarını üzü üstə çevirdi.

Peyğəmbər Qüreyşin pərişan vəziyyətini gördükdə məlumat əldə etmək üçün Hüzeyfəyə əmr etdi ki, özünü düşmənin qərargahına yetirsin. Hüzeyfə deyir ki, mən özümü baş qərargaha çatdırdım, gördüm ki, külək onlarn çadırlarını dağıdıb, nə çadır qalıb, nə ocaq, nə də xörək qazanları. Bu anda Əbu Süfyan əmr etdi ki, hər kəs öz yoldaşını tapsın və yad adamın olmadığını bilsin. Mən dərhal yanımdakı şəxsdən kim olduğunu soruşdum, o dedi ki, mən filan şəxsəm. Sonra Əbu Süfyan üzünü camaata tutub dedi: «Bura bizim üçün yaxşı yer deyil, heyvanlarımız öldü, külək çadırları dağıtdı, Bəni-Qüreyzə bizə yardım etmədi. Məsləhət görürəm ki, buranı tərk edək».

Hələ dan yeri ağarmamışdı ki, Qüreyş qoşunu oradan çıxıb getdi və ehtiyatı əldən verməsinlər deyə Əmr As və Xalid ibn Vəlid iki yüz atlı ilə Qüreyş qoşununun ardınca yola düşdülər ki, müsəlmanlar onları təqib edə bilməsin. Qətfanlar da öz yerlərinə qayıtdılar və müsəlmanlar zilqədənin 24-də xəndəyi tərk edib Mədinəyə gəldilər.[101] Əhzab döyüşündə müsəlmanlardan altı nəfər şəhid edildi, əhzabdan isə üç nəfər öldü. Quranda «Əhzab» surəsinin 9-25-ci ayələri bu döyüş barədə nazil olub.

---

[101] «Tarixe Təbəri», 2-ci cild, səh.244; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.229-232.

## BƏNİ-QÜREYZƏ DÖYÜŞÜ

Müsəlmanlar xəndəkdən qayıdandan sonra zilqədənin 24-də vəhy mələyi nazil olub Peyğəmbərə əmr etdi ki, Bəni Qüreyzə qalasına getsin. Peyğəmbər Bilala dedi ki, camaata Allaha və Onun Rəsuluna boyun əyən hər bir kəsin namazı Bəni-Qüreyzə qalasının kənarında qılmasını elan etsin. Həzrət Rəsul Əbdüllah ibn Ümmü Məktumu Mədinədə öz yerinə qoyub üç min döyüşçü və otuz altı atla Bəni-Qüreyzə qalasına yollandı. Peyğəmbər bayrağı Həzrət Əliyə verdi. Qalanın mühasirəsi axşam namazından sonra başlandı və 25 gün davam etdi. Qalanın rəisi mühasirənin uzun çəkməsindən təngə gəldi və böyükləri bir yerə yığıb dedi: Mənim üç təklifim var, siz birini seçin:

– Məhəmmədə iman gətirmək. Ona görə ki, onun peyğəmbər və Tövratın vəd verdiyi şəxs olması məlumdur. Belə olan təqdirdə sizin malınız, canınız və uşaqlarınız xilas olacaqdır. (Bu təklifi heç kim qəbul etmədi.)

– Arvad-uşaqlarımızı öldürək və sonra Məhəmmədə hücum edək. Əgər ölsək, daha arvad-uşaqdan nigaran olmayaq. (Bu təklif də qəbul olunmadı.)

– Bu gecə şənbə gecəsidir. Məhəmməd bilir ki, yəhudilər bu gecə bir işə başlamaz. Ona görə gecə ikən ona qəfildən hücum edək.

Bu təklif də rədd edildi. Dedilər ki, ata-babalarımız şənbə gününün hörmətini saxlamadıqlarına görə Allahın qəzəbinə tutuldular.

Bu təkliflər rədd edildi və məcbur oldular ki, onların qədim dostları, Mədinə müsəlmanlarından olan Əbüləbbabə Ovsi ilə məsləhətləşsinlər. Əbüləbbabə qalaya daxil olanda, dedilər ki, onların qeydsiz-şərtsiz təslim olmaları barədə öz fikrini bildirsin. Əbüləbbabə onları bu qərardan çəkindirdi. Bildirdi ki, Peyğəmbər onların Mədinədə qalmalarına razı deyildir.

## SƏD MƏAZIN MÜNSİFLİYİ

Qalada olan yəhudilərdən biri Peyğəmbərlə əlaqə yaradıb dedi: Bəni-Qüreyzə digər iki qəbilə kimi mallarını götürüb Mədinədən çıxmağa hazırdır.

Peyğəmbər qəbul etmədi. O, başqa bir təklif irəli sürüb dedi: Bəni-Qüreyzə öz mallarından əl çəkib Mədinəni tərk etməyə hazırdır.

Peyğəmbər yenə qəbul etmədi.

Yəhudi qəbilələrinin keçmişinə diqqət edəndə Peyğəmbərin həmin təklifləri nə üçün qəbul etməməsi aydınlaşır. Peyğəmbərin buyurduğu kimi, «mömin bir deşikdən iki dəfə sancılmaz». Həzrət Bəni-Qüreyzədən əvvəl başqa bir yəhudi qəbiləsinə də belə icazə vermişdi, amma elə onlar «Əhzab» müharibəsini qızışdırdılar. Kim zəmanət verə bilərdi ki, Bəni-Qüreyzə də azad olduqdan sonra islamı başqa bir təhlükə ilə üzbəüz qoymayacaq. Bu vaxt Ovs qəbiləsi ayağa qalxdı və dedilər ki, bizim Bəni-Qüreyzə ilə müqaviləmiz var. Əbdüllah ibn Übəyyin xahişi ilə Bəni-Qəynuqanı azad etdiyiniz kimi, bunları da azad edin. Həzrət Rəsul buyurdu: Sizdən bir nəfər Bəni-Qüreyzə haqqında hökm verməyə razıdırmı?

Hamısı dedi: Bəli.

Həzrət Səd Məazı münsif seçdi. Səd Məaz işi yaralıları müalicə etmək olan Rüfeydə adlı bir qadının evində yaralı halda yatmışdı. Ovs cavanları Sədi Peyğəmbərin hüzuruna gətirdilər. Səd gələndə Həzrət dedi ki, onun hörmətinə hamı ayağa qalxsın. Mühacir və ənsar hamılıqla ayağa durdu. Ona dedilər ki, Bəni-Qüreyzə barədə hökm versin. Səd onlara dedi ki, o, hər nə desə, həyata keçirilsin. Hamı qəbul etdi. Bəzi tarixçilər yazırlar ki, Sədin münsifliyini Bəni-Qüreyzə qəbiləsi də qəbul edirdi. Nəhayət, Səd hökm etdi ki, təqsirkarlar öldürülsün, malları paylansın, arvad-uşaqları əsir edilsin. İndi qazinin sübutlarını araşdıraq:

1. Ovs qəbiləsinin başçısı Səd Bəni-Qüreyzə qəbiləsi ilə yaxından dost idi və onların cəza qanunlarını bilirdi. Odur ki, onları Tövratın hökmü ilə məhkum etdi. Tövratda belə deyilirdi: «Döyüş məqsədi ilə bir şəhərə

tərəf hərəkət etdikdə əvvəl sülhə çağır, əgər döyüşmək istəsələr, mühasirəyə al. Şəhərə hakim olduqdan sonra bütün kişiləri öldür, arvad-uşaqları, mal-heyvanları və şəhərdə nə varsa hamısını qənimət götür».[102]

2. Peyğəmbər Mədinəyə gələndən sonra Ovs və Xəzrəcin bütün şəhərləri ilə, habelə Mədinədəki üç yəhudi qəbiləsi ilə bir müqavilə bağlamışdı. Bu müqavilədə hər iki tərəf razılaşmışdılar ki, Peyğəmbər və onun tərəfdarlarının əleyhinə heç bir iş görməsinlər, dildə və əməldə zərər yetirməsinlər, düşmənlərinə silah verməsinlər. Bu müqaviləyə zidd hərəkət etsələr, Peyğəmbər onları öldürməkdə, mallarına sahib olmaqda və arvad-uşaqlarını əsir götürməkdə ixtiyar sahibidir.

3. Səd təcrübə ilə dərk etmişdi ki, bunları azad etmək islam üçün böyük təhlükədir. Ona görə ki, Xəzrəc qəbiləsinin xahişi ilə azad olunan Bəni-Qəynuqa yəhudiləri hələ islam torpaqlarını tərk etməmiş Qüreyşi islamın əleyhinə təhrik etdilər ki, nəticədə Ühüd müharibəsi baş verdi. Nəhayət, Peyğəmbər Bəni-Nəziri bağışlayandan sonra onlar birləşdilər və Xəndək döyüşü oldu. Əgər islam döyüşçülərinin fədakarlıqları olmasaydı, islamın məhvi labüd idi.

Qazi bu iki sənədə diqqət yetirərkən hissiyyata qapılmadı və müsəlmanların mənafeyini özünün Bəni-Qüreyzə ilə dostluğuna qurban vermədi.

Bəni-Qüreyzənin təqsirkarlarını edam etmək istəyəndə onlar şəxsi ədavətlərini büruzə verdilər. Misal üçün, Hüyy ibn Əxtəb (O, Bəni-Qüreyzəni müqaviləyə zidd hərəkət etməyə vadar etmişdi) dar ağacından asılarkən üzünü Peyğəmbərə tutub dedi: Mən səninlə düşmən olmaqdan peşman deyiləm, amma Allah hər kimi xar etsə, o xar olar (Sonra dedi:) Bəni İsrailin zəlilliyi qətidir.[103]

Qazi hökm etdi ki, döyüşdə bir müsəlman öldürən qadın da öldürülməlidir. Bəni-Qüreyzədən dörd nəfər müsəlman oldu. Düşməndən alınan

[102] Tövrat, 2-ci fəsil
[103] «Tarixe Təbəri», 2-ci cild, səh.250

qənimətlərin beşdə birini çıxandan sonra qalan vəsait müsəlmanların arasında paylandı. Süvarilərə üç pay, piyadalara iki pay verildi.

Peyğəmbər qənimətlərin xümsünü döyüş təchizatları və at almaq üçün Səd ibn Zeyidi Ənsarəyə verdi.

Bəni-Qüreyzə döyüşündə müsəlmanlardan Xəllad ibn Süvəyd bir yəhudi qadının atdığı daş ilə şəhid oldu və xəndəkdə yaralanan Səd Məaz Bəni-Qüreyzə hadisələrindən sonra həmin yara ilə şəhid oldu.[104] Bəni-Qüreyzə hadisəsi hicrətin beşinci ilinin zilhiccə ayının 19-da başa çatdı.[105]

## SƏHV ƏNƏNƏLƏRİN LƏĞV EDİLMƏSİ

Peyğəmbərin qulamı Zeyd Həzrətin oğulluğu oldu. Peyğəmbər bibisi qızı Zeynəbi ona verdi və sübut etdi ki, iki nəfərin bir-birinə tay olmasında əsas meyar etiqad, əxlaqi keyfiyyətlər və insani səciyyələrdir. Bu evlənmə qəlbən razılıq olmadığına görə boşanma ilə nəticələndi. Ona görə ki, Zeynəb öz ailəsinin əzəmətini ərinin üzünə vurur, həyatın şirinliyini acı edirdi. Zeyd dəfələrlə Peyğəmbərin yanına gəlib arvadını boşamaq istədiyini bildirirdi. Lakin Peyğəmbər mane olurdu.[106] Nəhayət, Zeyd onu boşadı.

Cahillik dövrünün adət-ənənəsinə görə, atanın öz oğulluğunun (boşanmış) arvadı ilə evlənməsi haram idi. Başqa sözlə, ərəblər oğulluğu həqiqi oğul kimi bilirdilər. Peyğəmbərə Allah tərəfindən əmr olundu ki, bu yalnış ənənəni pozmaq üçün öz ərindən boşanan Zeynəblə evlənsin. Quran bu barədə deyir: «Zeyd arvadını boşayandan sonra biz Zeynəbi sənin əqdinə keçirdik ki, imanlı şəxslər üçün oğulluqlarının arvadını almaqda məhdudiyyət olmasın».[107]

---

[104] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.250-254.

[105] «Əhzab» surəsinin 26-27-ci ayələri Bəni-Qüreyzə barəsində nazil olub «Əhzab» surəsi, 37-ci ayə.

[106] «Əhzab» surəsi, 37-ci ayə

[107] «Əhzab» surəsi, 37-ci ayə

Peyğəmbərin bu işinin ardınca müxaliflər şayiə yaydılar ki, o, öz oğlunun arvadı ilə evlənibdir. Həmin vaxt bu təfəkkür tərzini məhv etmək üçün aşağıdakı ayə nazil oldu.

«Məhəmməd sizin kişilərinizdən heç birinizin atası deyildir, O, Allahın rəsulu və Peyğəmbərlərin sonuncusudur».[108] Hicrətin beşinci ilinin hadisələrindən biri Peyğəmbərin Mədinədə at çapma yarışını keçirməsi idi.[109]

---

[108] «Əhzab» surəsi, 4-cü ayə
[109] «Tarixül-Xəms», 1-ci cild, səh.502

## ALTINCI İLİN HADİSƏLƏRİ
## BƏNİ-MÜTƏLİQ QƏBİLƏSİNİN QİYAMI, HÜDEYBİYYƏ DÖYÜŞÜ, BEYƏTİ-RİZVAN

Əhzabı dağıdıb, yəhudiləri Mədinədən çıxarmaq müsəlmanlar üçün böyük qələbə idi. Altıncı il başladı. Peyğəmbər bu ildə ancaq fitnələri yatırdır, üsyançıları dağıdır və hiylələri aradan qaldırırdı. Bu məqsədlə Peyğəmbər ətrafa dəstələr də göndərirdi. Biz altıncı ilin hadisələrindən Həzrət Peyğəmbərin şəxsən iştirak etdiyi dörd döyüşü qeyd edirik:

### BƏNİ-LEHYAN DÖYÜŞÜ

İslam təbliğatçılarının şəhid edilməsinə səbəb olan və Bəni-lehyan tərəfindən baş verən Bəci və Beyri-məunə kimi faciəli hadisələr müsəlmanlara təkan verdi. İndi artıq Peyğəmbərin onlara ibrət dərsi verməsinin vaxtı çatmışdı. Buna görə Həzrət altıncı ilin cəmadiyyə ayında ibn Məktumu yerinə qoyub məqsədini bir kəsə bildirmədən hərəkət etdi. O, Şama getdiyini güman etsinlər deyə, əvvəlcə şimala tərəf getdi, bir neçə düşərgə keçəndən sonra dönüb Məkkə yolundakı Bəni-lehyan məntəqəsinə daxil oldu. Lakin düşmən qabaqcadan agah olub dağlara pənah aparmışdı.

Peyğəmbər məqsədini sona çatdırmaq üçün iki yüz döyüşçü ilə Üsfana tərəf getdi və Qüreyşin vəziyyətindən xəbərdar olmaqdan ötrü iki süvari göndərib Mədinəyə qayıtdı.

### Zİ-QƏRƏD DÖYÜŞÜ

Peyğəmbərin Mədinəyə qayıtmasından bir neçə gün keçmişdi ki, Üyəynət ibn Hisn Qətfandan olan iki süvarinin köməyi ilə Mədinə dəvələrindən bir neçəsini qarət etdi, çobanı öldürdü və bir qadını da əsir tutdu. Sələmə adlı bir müsəlman hadisəni uzaqdan müşahidə edirdi. O, özünü Səl təpəsinə çatdırıb «Va sabaha» deyərək fəryad etdi və

müsəlmanları köməyə çağırdı. Peyğəmbər Sələmənin səsini eşitdikdə birinci dəfə olaraq «əl-fəzə, əl-fəzə» (fəryad, fəryad) deyərək səsləndi: «Ey Allah qoşunları, irəli!» Peyğəmbərin fəryadından Mədinə atlılarının bəzisi onun yanına gəlib hərəkət etməyə hazırlaşdılar. Həzrət Ümmü Məktumu öz yerinə qoyub Səd ibn Übadəyə əmr etdi ki, üç yüz nəfər xəzrəclilərlə Mədinəni qorusun. Həzrət Rəsul Zi-qərəddə düşmənə çatdı və dəvələrin hamısını geri aldı. Bu toqquşmada müsəlmanlardan üç, düşməndən isə altı nəfər öldü. Həzrət bir gün orada qaldı.[110]

## BƏNİ-MÜSTƏLİQİN QİYAMI

Peyğəmbər cəmadiəl-axir və rəcəb aylarını Mədinədə qaldı. Bu müddətdə xəbər gəldi ki, Xüzaə qəbiləsindən olan Bəni-Müstəliq əhli silah toplayıb Peyğəmbərlə döyüşmək fikrindədir. Peyğəmbər kəşfiyyat aparmaq üçün Büreydəni oraya göndərdi. Büreydə qəbilə rəisi Harislə əlaqə yaradıb vəziyyəti öyrəndi, sonra Mədinəyə qayıdıb xəbərin doğru olduğunu dedi. Həzrət şəbanın 15-də Əbuzər Qəffarini öz yerinə qoyub düşmənə tərəf hərəkət etdi. Təsadüfən heç bir döyüşdə Peyğəmbərə yardım etməyən müxaliflər də müsəlmanlara qoşuldular. Həzrət Mürəysi adlı bir yerə qədər getdi, döyüş başladı və nəticədə müsəlmanlar qalib gəldilər. Bu döyüşdə düşməndən 10 nəfər öldürüldü, qalanı da əsir düşdü. Müsəlmanlardan isə bir nəfər şəhid edildi. O, müsəlmanlardan biri tərəfindən şəhid oldu ki, səhvən onu düşmən güman edib öldürmüşdü.

Müsəlmanlar bu döyüşdə düşmənin hiyləsini zərərsizləşdirməklə yanaşı, iki min dəvə, beş min qoyun qənimət aldılar. Qənimətlər islam hökumətinin payını-xümsünü çıxandan sonra döyüşçülər arasında paylandı.

---

[110] «İbn Hişamın sirəsi», səh.281-289.

## MÜHACİRLƏ ƏNSAR ARASINDA TOQQUŞMA

Bütün ictimai qruplar arasında ixtilafların yaranması labüd şəkildə ziyan və zərərlə nəticələnir. Lakin eyni bir ümmət döyüşçüləri arasında ixtilafın yaranması çox təhlükəlidir. Hələ müsəlmanlar Bəni-Müstəliq məntəqəsindən hərəkət etməmişdilər ki, Cəhcah adlı bir mühacir Sinan adlı bir ənsarla su üstündə dalaşdı. Hər biri öz tayfasını haraya çağırdı. Bu vaxt daxili düşmən Əbdüllah ibn Übəyy bu fürsətdən istifadə edib ənsardan bir dəstəni başına yığıb dedi: Gör bizim işimiz hara çatıbdır ki, mühacirlər öz torpağımızda bizə qarşı zorakılıq edirlər. Buna özümüz imkan yaratmışıq. Bizimlə bunların məsəli «yaxşılığın əvəzi pislikdir» kimidir. And olsun Allaha, əgər Mədinəyə qayıtsaq «güclülər zəifləri şəhərdən çölə salacaqlar» kimi edəcəyik. Siz onlara öz torpağınızda yer verdiniz və öz sərvətinizi onlarla bölüşdünüz. And olsun Allaha, əgər bundan belə onlara bir şey verməsəniz, öz yerlərinə qayıdarlar.

Müxaliflərin rəisinin bu sözlərini Zeyd ibn Ərqəm eşidib Həzrət Rəsula yetirdi. Ömər ibn Xəttab Peyğəmbərə dedi ki, Əbdüllah ibn Übəyy öldürülsün. Peyğəmbər razı olmadı və buyurdu ki, bu iş məsləhət deyildir. Ona görə ki, islam düşmənləri «Məhəmməd öz tərəfdarlarını öldürür» deyərlər. Məsləhət görürəm hamımız buradan gedək ki, bu kimi batil fikirlər beyinlərdən silinsin.

Hərəkət fərmanı verildi, hamı köçməyə hazırlaşdı. Bu vaxt Həzrət Rəsulun əsgərlərindən biri Üsəyd soruşdu: Ya Rəsulallah, bəs nə üçün münasib olmayan bir vaxtda hərəkət edirsiniz?

Peyğəmbər dedi: Məgər Əbdüllah ibn Übəyyin dediyi sözü eşitmə-yibsən?

O dedi: Nə deyibdir?

Peyğəmbər dedi: O belə güman etmişdir ki, əgər Mədinəyə qayıtsa, Mədinənin əzizləri olan ənsar mühacirləri çölə salacaqdır.

Üsəyd Peyğəmbərə toxtaqlıq versin deyə, dedi: Siz istəsəniz, biz onu eşiyə salarıq. O, zəlil adamdır, sən hörmətli və əzizsən. Ya Rəsulallah, onunla keçinin. And olsun Allaha, səni Allah elə bir zamanda bizə

göndərdi ki, qəbiləsi ona şahlıq tacı düzəldirdi və o elə güman edir ki, sənin gəlməyin onun səltənətini əlindən almışdır.

Tarixçilər yazırlar ki, müxaliflərin rəisi öz sözündən peşman oldu, dərhal Həzrət Rəsulun hüzuruna gəlib dedi: Mən heç vaxt belə söz deməmişəm və o cavan səhv demişdir.

Əbdüllahın dostları onun sözünü təsdiq etdilər. Nəhayət, islam qoşunu durmadan gecə-gündüz yol getdi. Axırıncı gün hava çox qızmar idi. Peyğəmbər əmr etdi, hamı dayandı və dincəlməyə başladılar. Elə yorğun idilər ki, atlardan düşən kimi hamısını yuxu tutdu. Bunu ona görə edirdilər ki, Əbdüllah ibn Übəyyin sözünü unutsunlar.[111]

Dincəldikdən sonra yenidən hərəkət fərmanı verildi. Bəqa adlı bir bulağa çatdılar. Peyğəmbər (s) orada qeybdən gələn bir xəbəri – Rifaənin ölüm xəbərini verdi. O, yəhudi böyüklərindən (Bəni-Qəynuqa qəbiləsindən) idi və müxaliflər üçün bir sığınacaq sayılırdı.

## İMANIN ƏN BÖYÜK NİŞANƏSİ

Əbdüllah ibn Übəyyin Əbdüllah adlı bir oğlu var idi. O, atasının sözündən agah olanda belə güman etdi ki, Həzrət Peyğəmbər onun qətlinə fərman veribdir. Peyğəmbərin hüzuruna gəldi və dedi: Əgər mənim atam öldürülməlidirsə, mən özüm onu öldürməliyəm. Çünki əgər başqası onu öldürsə, atalıq məhəbbətim məni qisas almağa, öldürməyə vadar edəcəkdir və belə olsa, əlim bir müsəlmanın qanına batar.

Bu söhbət imanın ən böyük nişanəsidir. Belə ki, atalıq məhəbbətini Peyğəmbərə iman gətirdiyi üçün görməməzliyə vurur. Peyğəmbər Əbdüllaha dedi: Belə bir qərar yoxdur və biz onunla keçinəcəyik.

Peyğəmbərin sözü mühacirlə ənsar arasında yayıldı, hamı Əbdüllah ibn Übəyyi danladı və o öz ictimai heysiyyətini əvvəlkindən daha çox itirdi. Ondan sonra heç kəs ona etina etmədi.

---

[111] «Tarixe Təbəri», II cild, səh.26l-262; «Məcməül-bəyan», I cild, səh.292-295.

Peyğəmbər Əbdüllaha yönələn etiraz və danlaqlardan agah olandan sonra Ömərə dedi: And olsun Allaha, əgər o gün onu öldürsəydim, bəziləri bu əməldən inciyərdilər, amma indi vəziyyət elədir ki, əgər onlara əmr etsəm, özləri onu öldürərlər.

## BƏRƏKƏTLİ EVLƏNMƏ

Bəni-Müstəliq üsyançılarının rəisi Haris ibn Zirarın qızı əsirlər olanların sırasında idi. Onun atası fidyə ilə qızının ardınca gəldi ki, onu azad etsin. O, Əqiq çölünə çatanda fidyə üçün gətirdiyi dəvələrdən ikisini seçib bir dərədə gizlətdi. Peyğəmbərin hüzuruna çatıb dedi: Mən qızımın fidyəsini gətirmişəm.

Peyğəmbər Harisə dedi: Bəs dərədə gizlətdiyin iki dəvə necə olsun?

Haris bu xəbəri eşitdikdə heyrətləndi. O və yanındakı iki oğlu müsəlman oldular və dərhal iki dəvəni də gətirib Həzrət Rəsula verdilər. Beləliklə, onun qızı azad edildi, o da müsəlman oldu. Sonra Peyğəmbər onun qızına elçilik etdi və atası tam rəğbətlə onu Peyğəmbərə verdi. Peyğəmbərin Bəni Müstəliqin rəisi Harislə qohum olması xəbəri müsəlmanların arasında yayıldı və bu iş Bəni-Müstəliqdən yüz ailənin azad edilməsinə səbəb oldu.

Nəhayət, Bəni-Müstəliqin bütün əsirləri azad edildi və öz qəbilələrinə qayıtdılar.

## FIRILDAQÇI RÜSVAY OLDU

Bəni-Müstəliqin islama yönəlməsi əsl bir yönəliş idi. Ona görə ki, onlar əsarətdə olarkən yaxşılıqdan başqa bir şey görməmişdilər. Peyğəmbər Vəlid ibn Üqbəni onlardan zəkat almaq üçün göndərdi. Onlar Peyğəmbərin nümayəndəsinin gəlməsini eşitcək onun qarşısına çıxdılar. Peyğəmbərin nümayəndəsi elə təsəvvür etdi ki, onu öldürmək istəyirlər. Dərhal Mədinəyə qaytdı və yalandan dedi ki, onlar məni öldürmək istəyirdilər və zəkat verməkdən imtina etdilər.

Bu xəbər müsəlmanların arasında yayıldı. Onlar Bəni-Müstəliqdən bunu gözləmirdilər. Bu vaxt onların nümayəndəsi Mədinəyə daxil oldu və həqiqəti Həzrət Rəsula deyərək əlavə etdi: Biz onun qarşısına çıxdıq, ona hörmət edərək öz zəkatımızı vermək istədik. Amma o gözlənilmədən bizdən uzaqlaşdı və Mədinəyə qayıtdı. Eşitdik ki, sizə yalan deyibdir. Bu anda «Hücərat» surəsinin altıncı ayəsi nazil oldu və Bəni-Müstəliqin sözünü təsdiq etdi, Vəlidi günahkar bir adam kimi tanıtdırdı:

«Ey möminlər, əgər mənəviyyatsız bir şəxs sizə xəbər gətirsə, dayanın və araşdırın. Heç vaxt onun dediyinə inanıb bir iş görməyin ki, sonra peşman olasınız».

## ÜDEYBİYYƏ DÖYÜŞÜ

Həzrət Rəsul Bəni-Müstəliq döyüşündən sonra ramazan və şəvval aylarını Mədinədə qaldı. Sonra qərara gəldi ki, zilqədə ayını öz səhabələri ilə ömrəyə getsin. Bu ruhani səfər Peyğəmbər üçün çox əhəmiyyətli idi. Ona görə ki, bütpərəstlər belə güman edirdilər ki, Peyğəmbər onların ata-babalarından qalmış bütün etiqad, milli və məzhəbi mərasimlərə və hətta «ömrə» dini ayini ilə müxalifdir. Bundan əlavə, Peyğəmbərin camaatla birlikdə ömrəyə səfər etməsində məqsəd tövhid ayinini birbaşa təbliğ etmək idi. Çünki o bu səfərlə yolda və Məkkədə bəzi şəxslərlə görüşüb onları özünə tərəf cəlb edə bilərdi. Başqa sözlə, bu səfərin nəticəsi olaraq Peyğəmbər ya Kəbəni ziyarət edib ömrə mərasimini yerinə yetirəcək, ya da yerinə yetirə bilməyəcək. Birinci halda ömrə feyzinə nail olmaqdan əlavə, onun tərəfdarları öz dostları və qohum-əqrabaları ilə görüşə bilərdilər. İkinci halda isə Qüreyş öz heysiyyətini itirər və ərəblər bilərdilər ki, Qüreyş haram aylarda Allah Evi ziyarət-çilərinə mane olub ziyarətdən başqa bir məqsədi olmayanları ziyarətdən məhrum etmişdir. Həmin səbəbə görə Peyğəmbər əmr etdi ki, heç kəs səfər silahından başqa bir silah götürməsin. Peyğəmbər 1400 nəfərlə (və bir rəvayətə görə 1600, başqa bir rəvayətə görə 3800 nəfərlə) Zil-həlifə adlı bir yerdə ehram bağladılar və qurbanlıq üçün 70 dəvə hazırladılar.

Peyğəmbər Übad ibn Bişri iyirmi süvari ilə əvvəlcədən yola saldı ki, Həzrətin Məkkəyə getmək xəbərini yolda olan qəbilələrə çatdırsın və əgər xoşagəlməz bir hadisə baş verərsə, onu agah etsin.

Peyğəmbər Üsfan yaxınlığında Xüzai adlı bir şəxslə görüşdü. O, Peyğəmbərə xəbər verdi ki, Qüreyş sizin hərəkətinizdən agah olmuş, öz qüvvələrini toplayıb Lat və Üzzaya and içiblər ki, sizin qarşınızı alsınlar. Sonra Qüreyş başçılarının yığışdıqları yeri göstərdi və dedi: Onlar Zituyda (Məkkənin yaxınlığında) toplaşıblar. Qüreyş sizin qarşınızı almaq üçün Xalid ibn Vəlidi iki yüz atlı ilə Küraül-qəmiməyə (Üs- fadan səkkiz mil məsafədə) göndəriblər. Onların planları budur ki, ya sizin qarşınızı alsınlar, ya da hamısı bu yolda ölsünlər. Peyğəmbər Xalidlə qarşılaşmasın deyə, öz hərəkətinin istiqamətini dəyişdi və Əsləm adlı bir şəxsin bələdçiliyi ilə keçilməz dərələrdən keçdi və Hüdeybiyyə adlı yerdə (Hərəmin yaxınlığında) düşdü. Müsəlmanlar miniklərindən enib çadır qurdular. Xalid müsəlmanların yollarının dəyişməsindən agah olub Hüdeybiyyəyə tərəf hərəkət etdi və onların qarşısında mövqe tutdu. Müsəlmanların Hüdeybiyyədən hərəkət etmələri məsləhət deyildi. Ona görə ki, Peyğəmbərin bu hərəkətində ziyarət və ömrədən başqa bir məqsədi yox idi, hərəkəti davam etdirmək qan tökülməsinə səbəb olardı. Buna görə səhabələrə dedi: Əgər bu gün Qüreyş məndən qohumluq əlaqələrini möhkəmləndirəcək bir şey istəsə, mən onu qəbul edəcəyəm.[112]

## QÜREYŞ PEYĞƏMBƏRİN (S) HÜZURUNA GƏLİR

İslam tarixinin bu bölməsi çox həssas məqamlardır və hər bir insaflı şəxs bunları oxumaqla Peyğəmbərin nə qədər mehriban, Qüreyşin isə nə qədər inadkar olduğundan agah olar. Qüreyş Peyğəmbərin Hüdeybiyyədə qaldığı müddət ərzində onun hüzuruna dörd nümayəndə göndərdi.

---

[112] «Tarixe Təbəri», II cild, səh.270-272.

Onlar Peyğəmbərin yaxşı münasibətinin qarşısında əsla yaxşı rəftar göstərmədilər. Hətta bəzən nümayəndələri də razılığa gəlsəydilər, bu razılaşmanın əksinə hərəkət edib başqa nümayəndə göndərirdilər. Birinci dəfə Qüreyş tərəfindən dörd nəfər: Büdeyl Xüzail, Mükriz, Həlis ibn Əlqəmə, Ürvət ibn Məsud Səqəti Allah Rəsulunun yanına gəldi. Amma Qüreyşin, yaxud nümayəndələrin inadkarlığına görə bu görüşlərin heç birinin müsbət nəticəsi olmadı. Dördüncü nümayəndə Ürvə Peyğəmbərlə görüşdükdən sonra Qüreyş başçılarının yanına gəlib dedi: Mən Kəsra, Qeysəl və Həbəşistan padşahları kimi böyük qüdrətləri görmüşəm, lakin heç biri Məhəmməd kimi mövqeyə malik deyildir. Mən öz gözlərimlə gördüm ki, Məhəmməd dəstəmaz aldı, onun tərəfdarları qoymadılar ki, dəstəmaz suyunun bir damcısı da yerə düşsün. Gərək Qüreyş bu barədə fikirləşsin.

Həzrət Rəsulun xoş rəftarından agah olan Qüreyş başçıları iğtişaş yaratmaq üçün bəhanə axtarırdılar. Ona görə əmr etdilər ki, əlli nəfər islam qüvvələrinin ətrafına dolansınlar, Peyğəmbərin tərəfdarlarını tutsunlar və bu yolla narazılıq yaratsınlar. Bu iş heç bir nəticə vermədi, onlar özləri tutuldular. Əsirləri Peyğəmbərin yanına gətirdilər. Onların islam qüvvələrinə tərəf daş və ox atmalarına baxmayaraq, Peyğəmbər onları bağışladı və hamısını azad etdi.

## PEYĞƏMBƏRİN (S) NÜMAYƏNDƏLƏRİ QÜREYŞƏ GEDİRLƏR

Qüreyş nümayəndələrinin müsəlmanların qərargahına get-gəl etmələri və aparılan danışıqlar fayda vermədi. Amma gözlənilirdi ki, əgər Peyğəmbər onların yanına bir nümayəndə göndərsə, onlarla əlaqə yaratsa, məsələ həll olacaqdır. Ona görə ki, Peyğəmbərin nümayəndəsi elan edirdi ki, müsəlmanların Kəbəni ziyarət etməkdə başqa bir məqsədi yoxdur. Peyğəmbərin nümayəndəsi özünü Zi-tüvaya çatdırıb Həzrətin bu səfərdə məqsədinin nə olduğunu bildirdi. Amma onlar gözlənilmədən və adət-ənənələrin əksinə olaraq Peyğəmbərin nümayəndəsinin dəvəsini

peylədilər və əgər bir neçə nəfər olmasaydı, özünü də öldürəcəkdilər. Bu iş sübut etdi ki, Qüreyş qəbiləsi sülh, səfa əhli deyildir.

Qüreyşin Peyğəmbərin nümayəndəsi ilə pis rəftar etməsi onu məyus etdi. Peyğəmbər belə qərara gəldi ki, Qüreyşə nifrəti olmayan bir şəxsi onların yanına göndərsin. O, əvvəlcə Ömər ibn Xəttabı seçdi, lakin o, bəzi səbəblərə görə getmədi. Onun yerinə Əbu Süfyanla qohumluğu olan Osman ibn Əffanı göndərdi. Osman Əməvi qohumlarının birinin (Əban ibn Səid ibn As) pənahında Məkkəyə daxil oldu və Peyğəmbərin sözünü Qüreyş başçılarına çatdırdı. Onlar dedilər ki, biz and içmişik ki, Məhəmmədin zorla Məkkəyə daxil olmasına icazə verməyək. Bu and müzakirə qapılarını bağlayıbdır. Sonra icazə verdilər ki, Kəbəni təvaf etsin. Amma o, Peyğəmbərin hörmətinə görə Kəbə evini təvaf etməkdən imtina etdi. Qüreyş başçıları Osmanın Peyğəmbərin yanına qayıtmasına mane oldular. Çox keçmədi ki, Osmanın ölməsi xəbəri Həzrət Rəsulun tərəfdarları arasında həyəcan yaratdı və qərara gəldilər ki, onun intiqamını Qüreyşdən alsınlar. Peyğəmbər dedi: Bu xəbər düz olsa, Qüreyşlə döyüşməyincə buradan getməyəcəyəm.

Həzrət Rəsul bu fürsəti əldən verməyib Səmərə adlı bir ağacın altında hamıdan beyət aldı. Hamı Peyğəmbərlə beyət etdi ki, son nəfəsə kimi dayansınlar (bir rəvayətə görə beyət aldı ki, Qüreyşlə döyüşdən qaçmasınlar). Bu beyət tarix və hədis kitablarında «Beyəti-rizvan» adı ilə məşhurdur. Quran onun barəsində belə deyir: «Allah möminlərin ağac altında səninlə müqavilə bağlamalarından xoşhal oldu və ürəklərindən agah oldu. Onlara ruhi təskinlik verdi və yaxın qələbəni müjdə verdi».[113] Beyət sona çatdıqdan sonra məlum oldu ki, Peyğəmbərin nümayəndəsi öldürülməmişdir. Çox çəkmədi ki, o müsəlmanların yanına qayıtdı. Onun qayıtması ilə Qüreyşin beşinci nümayəndəsi Süheyl ibn Əmr Peyğəmbərin yanına gəlib, onunla bir sülh müqaviləsi bağlamaq istədi.

---

[113] «Fəth» surəsi, 18-ci ayə.

Müqavilənin maddələri belə olmalı idi ki, Peyğəmbər bu il Mədinəyə qayıtsın və gələn il Məkkəyə təşrif gətirsin. Çünki Məhəmmədin bu il Məkkəyə daxil olmasına Qüreyş dözə bilməzdi, ərəblər deyərdilər ki, Məhəmməd zorla Məkkəyə daxil oldu.

Süheyl müsəlmanların yanına gəldi. Peyğəmbər buyurdu: Bu kişi bizimlə Qüreyş arasında sülh müqaviləsi bağlamaq üçün gəlmişdir.

Süheyl xüsusi bir iclasda Peyğəmbərə dedi: Ey Əbülqasim, Məkkə hərəm və izzət yerimizdir. Ərəblər bilirlər ki, biz səninlə döyüşmüşük. Sən bu vəziyyətdə Məkkəyə daxil olsan, bizim zəifliyimiz aşkara çıxar və sabah başqa ərəb qəbilələri də bizim ölkəmizi istila altına almaq istəyərlər. Səni aramızda olan qohumluğumuza and verirəm və Məkkənin hörməti xatirinə səndən istəyirəm ki, bu il geri qayıdıb ömrə mərasimi üçün gələn il gələsən. Bu şərtlə ki, Məkkədə üç gündən artıq qalmayasan və özünlə səfər silahından başqa silah götürməyəsən.

Süheylin Peyğəmbərlə apardığı müzakirə uzun çəkdi. Qüreyşin nümayəndəsi müqavilənin maddələrinin hazırlanmasında həddindən artıq səy göstərirdi. Hətta az qalırdı danışıqlar dayandırılsın, lakin xoş münasibət ruhiyyəsinə görə müzakirə davam edirdi.

Sülh müqaviləsinin maddələri aydınlaşdı və qərara alındı ki, Peyğəmbərin katibi tərəfindən yazılsın.

Peyğəmbər öz katibi Əli (ə)-ı çağırıb əmr etdi ki, sülh müqaviləsinin əvvəlində «Bismillahir-Rəhmanir-Rəhim» yazsın. Süheyl etiraz etdi və dedi ki, biz «Rəhmani və Rəhm» tanımırıq, müqavilə bizim adət-ənənələrimizə uyğun yazılmalıdır. Onun yerinə yazılsın ki, «Bismikə Əllahümmə». Peyğəmbər onun təklifi ilə razılaşıb Həzrət Əliyə dedi: Süheyl deyən kimi yaz! (Sonra Peyğəmbər Əliyə dedi:) Yaz ki, bu müqavilə Allahın Rəsulu Məhəmmədlə Qüreyşin nümayəndəsi Süheyl arasında bağlandı.

Qüreyşin nümayəndəsi bir daha inadkarlıq etdi və dedi: Əgər sənin Allah Peyğəmbəri olduğuna inansaydım, səninlə döyüşməzdim! «Allah Rəsulu» yerinə özünün və atanın adını yaz!

Bu vaxt Peyğəmbərin tərəfdarları razı olmadılar və bunu peyğəmbərlik məqamına bir növ hörmətsizlik bildilər. Amma Peyğəmbər bu müqavilənin bağlanmasının məsləhət olduğuna görə Həzrət Əliyə dedi: «Allahın Rəsulu» sözünü sil və onun yerinə «Məhəmməd ibn Əbdüllah» yaz.

Əli (ə) dedi ki: Mən sənin Peyğəmbərliyini adının kənarından silə bilmərəm. Peyğəmbər Həzrət Əliyə dedi: «Allahın Rəsulu» sözünü göstər, mən özüm silim.

Sonra Peyğəmbər özü «Allahın Rəsulu» sözünü sildi.

## MÜQAVİLƏNİN MADDƏLƏRİ

Müqavilə yeddi maddə əsasında tənzim edildi ki, onu yığcam şəkildə dərc edirik:

1. Hər iki tərəf razılaşır ki, on il müddətində bir-birinin əleyhinə müharibə və təcavüzkarlıqdan əl çəksinlər;
2. İcazəsiz olaraq Məkkədən qaçıb müsəlmanlara qoşulan şəxsi Peyğəmbər Qüreyşə qaytarmalıdır, lakin əgər müsəlmanlardan biri Qüreyşə pənah gətirsə, Qüreyş onu təhvil verməyə məcbur deyildir;
3. Hər iki tərəf istədikləri hər qəbilə ilə müqavilə bağlaya bilər;
4. Məhəmməd və onun tərəfdarları elə bu yerdən Mədinəyə qayıdıb gələn il Allah Evinin ziyarətinə gəlsinlər, bu şərtlə ki, Məkkədə üç gündən artıq qalmayıb özləri ilə səfər silahından başqa silah götürməsinlər;
5. Məkkədəki müsəlmanlar bu müqaviləyə əsasən öz dini vəzifələrini yerinə yetirməkdə azaddırlar və heç kəsin onları incidib əziyyət verməyə, istehza etməyə və ayinlərini tərk etməyə məcbur etməyə haqqı yoxdur;
6. Hər iki tərəf söz verir ki, bir-birinin mallarına ehtiramla yanaşsınlar;

7. Mədinədən Məkkəyə gələn müsəlmanların canı və malına ehtiram göstərsinlər.[114]

Sülh müqaviləsi iki nüsxədə yazıldı, Peyğəmbər və Süheyl ona qol çəkdi, müsəlmanlar və bütpərəstlərdən bir dəstə də onu təsdiq etdi. Bir nüsxəsi Süheylə, bir nüsxəsi də Peyğəmbərə verildi. Bu vaxt Xüzaə qəbiləsi üçüncü maddəyə əsasən Peyğəmbərlə, Xüzaənin qədim düşməni olan Bəni-Kənanə qəbiləsi də Qüreyşlə müqavilə bağladılar.

Bu müqavilənin maddələrini araşdırarkən aydınlaşır ki, Peyğəmbər elə bir islamı izləyir ki, insanlar onu ürəkdən qəbul etsinlər. Ona görə ki, ikinci maddədə deyilir ki, əgər bir müsəlman kafirlərə pənah aparsa, Qüreyş onu qaytarmaya bilər. Çünki bir nəfər küfrə pənah aparsa, məlum olar ki, zahirən müsəlman olub və onun islamı həqiqi islam olmadığına görə ona etimad etmək olmaz.

Burada bir sual qarşıya çıxır: Nə üçün Peyğəmbər qəbul etdi ki, əgər bir müsəlman Məkkədən Mədinəyə pənah gətirsə, onu küfr böyüklərinə qaytarmalıdır. Peyğəmbər öz tərəfdarlarının etirazları qarşısında buyurdu: «Allah belə bir müsəlman üçün qurtuluş yolu hazırlayır». Zamanın keçməsi də sübut etdi ki, Allah bu kimi şəxslər üçün qurtuluş yolu hazırlayır. Hətta Qüreyş özü Peyğəmbərdən istədi ki, ikinci maddənin bu hissəsi ləğv edilsin.

Müqavilə yazılmağa başlananda gözlənilmədən təzəcə müsəlman olub Qüreyşin zindanında olan Süheylin oğlu Əbu Cəndəl iclasa daxil oldu. O, zindanda bilmişdi ki, müsəlmanlar Hüdeybiyyədədirlər və xüsusi bir tədbirlə özünü Peyğəmbərin hüzuruna çatdırdı. Qüreyşin nümayəndəsi zindandan qaçmış oğlunu gördükdə əsəbiləşdi və onun yaxasından tutub üzünə sillə vurdu və dedi: Ey Məhəmməd! Biz müqaviləni oğlum

---

[114] «İbn Hişamın sirəsi», 2-ci cild. səh.317-318; «Hələbinin sirəsi», 2-ci cild, səh.24; «Bihar», 20-ci cild, səh.353.

gəlməmişdən qabaq bağlamışıq. İndi o maddənin hökmünə görə onu mənə təhvil verməlisən, əks halda müqaviləni cıraram.

Süheyl oğlunun yaxasından tutub çəkir, Əbu Cəndəl isə fəryad edərək müsəlmanları köməyə çağırırdı. Onun fəryadı müsəlmanlardan bəzilərini təsirləndirdi, lakin müqaviləyə əməl etməyi hər şeydən üstün bilən Peyğəmbər dedi: Səbr et! Hamısını Allah yolunda hesab et, Allah sənə və səninlə birlikdə zülm altında olanların hamısı üçün qurtuluş yolu açacaqdır. Biz Qüreyşlə sülh müqaviləsi bağlamışıq və heç bir vaxt hiyləyə əl ata bilmərik.

Süheyl müqaviləni əlinə aldı və öz tərəfdarları və oğlu ilə birlikdə qayıtdı. Bu vaxt Peyğəmbər durub qurbanlığını kəsdi, başını qırxdırdı ki, ehram dini ayininə son qoysun. Sonra müsəlmanlar da Peyğəmbərin etdiyi kimi qurbanlıqların kəsib başlarını qırxdırdılar.

## QÜREYŞ İKİNCİ MADDƏNİN LƏĞVİNİ İSTƏYİR

Müqavilənin ikinci maddəsi zahirən müsəlmanların zərərinə və Qüreyşin xeyrinə idi. Ona görə ki, Peyğəmbər o maddəyə əsasən, Qüreyşin əlindən qaçanları qaytarmalı olurdu və həmin maddənin əsasında Peyğəmbər Əbu Cəndəli öz atasına qaytardı. Lakin Peyğəmbər o zaman ona buyurdu ki, Allah sənə və səninlə birlikdə zülm altında olanların hamısı üçün bir qurtuluş yolu açacaqdır. Zamanın keçməsi Peyğəmbərin sözünü təsdiq etdi. Qüreyş bu maddənin ləğv edilməsini istədi. Səbəbi də bu idi ki, Məkkədə zindanda olan Əbu Bəsir adlı bir müsəlman qaçıb müsəlmanlara qoşuldu. Bu vaxt Qüreyşin böyükləri Həzrət Rəsula məktub yazıb onu geri almaq istədilər. Peyğəmbər Əbu Bəsiri çağırdı və dedi: Bilirsən ki, bizim Qüreyşlə müqaviləmiz var, müqaviləyə zidd hərəkət etməyimiz yaxşı deyil. Bil ki, Allah sənə və səninlə zülm altında olanlara qurtuluş yolu açacaqdır. Gərək öz qəbilənə tərəf qayıdasan.

O dedi: Ey Allahın Rəsulu, məni bütpərəstlərin içinə buraxırsan ki, işgəncə versinlər?

Peyğəmbər əvvəlki cümləni yenə təkrar etdi. Əbu Bəsir Qüreyşin göndərdiyi iki məmurla Məkkəyə yollandı. Bir az yol gedəndən sonra Zil-hüleyfə adlı bir yerə çatdılar və dincəlmək üçün bir divarın dibində oturdular. Əbu Bəsir onlarn birinə dedi: Sənin qılıncın çox yaxşı və kəsərli qılıncdır, onu mənə verə bilərsən ki, ona baxam?

Qüreyş məmuru dedi: Eybi yoxdur.

Əbu Bəsir qılıncı aldı və onu qınından çıxarıb dərhal Qüreyş məmuruna hücum etdi və onu öldürdü. O biri məmur təcili Mədinəyə qayıtdı və Peyğəmbərə dedi: Əbu Bəsir yoldaşımı öldürdü.

Çox keçmədi Əbu Bəsir qılıncı siyirmiş halda gəlib dedi: Ey Allahın Rəsulu! Sən öz əhdinə əməl etdin və məni ona verdin, amma mən dinimdən əl çəkməyi, yaxud da işgəncə altında qalmağı qəbul etmədim.

Əbu Bəsir sonra Mədinədən çıxıb dəniz sahilində, Qüreyş karvanının Şama getdiyi yolda özünə mənzil seçdi. Bu xəbər Məkkədəki işgəncə altında olan müsəlmanların qulağına çatdı. Hamısı müxtəlif bəhanələrlə Məkkədən qaçdılar və yetmiş müsəlman orada bir yerə toplaşıb Qüreyşi təzyiqlərə məruz qoydular. Onlar orada Qüreyşdən hər kəsi görsəydilər, dərhal öldürür, karvanlarını qarət edirdilər. Bu vaxt Qüreyş Peyğəmbəri aralarındakı qohumluğa and verdilər ki, müqavilənin bu maddəsini ləğv etsin və həmin məntəqədə toplaşan müsəlmanları Mədinəyə çağırsın. Peyğəmbər də onların hamısını Mədinəyə çağırdı və əməli surətdə sübut edildi ki, müqavilənin bu maddəsi islamın mənafeyinə imiş.

## MÜSƏLMAN QADINLARIN MƏKKƏYƏ MÜHACİRƏTİ

Hüdeybiyyə sülhündən sonra müsəlman qadınlardan bir dəstə tədricən Mədinəyə mühacirət etdilər. O cümlədən Üqbənin qızı Ümmi Gülsüm də onların içində idi. Onun qardaşları Həzrət Rəsulun hüzuruna gəlib onu Məkkəyə qaytarmaq istədilər. Peyğəmbər qəbul etmədi. Bu barədə «Mümtəhinə» surəsinin onuncu ayəsi nazil oldu və əri kafir olan qadınların vəzifəsini müəyyən etdi. Qüreyşə izah edildi ki, bu kimi qadınlar Hüdeybiyyə sülh müqaviləsinin dairəsindən xaricdir.

## YEDDİNCİ İLİN HADİSƏLƏRİ
## PEYĞƏMBƏRİN (S) DÜNYANIN MÜXTƏLİF YERLƏRİNƏ GÖNDƏRDİYİ ŞƏXSLƏR XEYBƏRİN, YAXUD TƏHLÜKƏ MƏRKƏZİNİN FƏTHİ. ÖMRƏTÜL-QƏZA

Hicrətin altıncı ilində Qüreyşlə sülh müqaviləsinin bağlanması müsəlmanların islamı yaymaqda qələbə çalacaqlarını qətiləşdirdi. Ona görə ki, Peyğəmbər 19 il Qüreyşlə keşməkeşdən sonra cənub tərəfdən arxayın oldu. Buna əsasən, o, hicrətin yeddinci ilində genişmiqyaslı təbliğat aparmaq fikrinə düşdü. Dünyanın böyük şəxsiyyətlərini, padşahları öz ayininə dəvət etdi və bu yolla islamın səsini Hicaz məntəqəsindən dünyanın ucqar yerlərinə çatdırdı. Bundan əlavə, Qüreyş tərəfindən arxayın olandan sonra şimaldakı təhlükəni aradan qaldırmaq fikrinə düşdü: böyük təhlükə mərkəzi sayılan Xeybəri fəth edərək Ərəbistan yarımadasında yəhudilərin fitnəsinə son qoydu.

Yeddinci ildə Qüreyşlə bağladığı müqavilə əsasında Allah Evinin ziyarətinə getdi və ömrə dini ayinini yerinə yetirdi. Bunlar yeddinci ilin mühüm hadisələri idi ki, indi onları izah edirik:

## İSLAM PEYĞƏMBƏRİNİN (S) BƏŞƏRİ PEYĞƏMBƏRLİYİ

İslam Peyğəmbəri besətin ilk günündən etibarən öz ayininin bəşəri bir din olduğunu elan edirdi. Quran bir çox ayələrdə həmin mövzuya işarə edir:

«Ey insanlar, mən sizin hamınız üçün Allah tərəfindən göndərilmişəm». Peyğəmbər həmişə dünya xalqları arasında öz ayinini təbliğ etmək üçün bir fürsət axtarırdı, lakin Qüreyş və yəhudilərin hiylələri buna imkan vermirdi. Qüreyş az da olsa inadkarlıqdan əl çəkib müharibə etməməyə dair müqavilə bağladığı vaxt bu böyük vəzifəni yerinə yetirmək üçün ən yaxşı fürsət yaranmışdı.

İslam Peyğəmbəri dünya başçılarını islama dəvət etmək məsələsini öz tərəfdarları arasında irəli sürdü və onların müəyyən bir vaxtda bir yerə yığışmalarını əmr etdi. Onlar hazır olduqda belə dedi: Allah bəndələrinə nəsihət edin; xalqa rəhbərlik işini əlinə alıb onları düz yola hidayət etməkdə səy göstərməyən şəxslərə Allah behişti haram etmişdir. Ayağa qalxın, dini uzaq diyarlara çatdırmaqda mənim qasidim olun və Həzrət İsanın şagirdləri kimi mənimlə müxalifətçilik etməyin.

Sonra Həzrət İsanın şagirdlərinin necə müxalifətçilik etdiklərini izah edib buyurdu: o da mənim kimi bir neçə nəfəri ətrafa göndərdi ki, onun ayinini dünyaya yaysınlar. Yolu yaxın olanlar bu işi qəbul etdi, amma yolları uzaq olanlar qəbul etmədilər.

Sonra Peyğəmbər bir neçə nəfər bacarıqlı şəxsi yaxın və uzaqda onun ayininin təbliğatçısı olmaq üçün seçdi və onları İran, Roma, Həbəşistan, İsgəndəriyyə, Şam, Yəmamə və Bəhreynə göndərdi.

Həzrət Rəsul o məntəqələrin adət-ənənələri ilə tanış olan bəzi şəxsləri də onlara qoşdu. Misal üçün, Həbəşistan üçün elə bir şəxs seçdi ki, onun özü uzun müddət orada qalmışdı.

Qasidlərin hamısı yeddinci ilin məhərrəm ayının birində o ölkələrə yollandılar. Əlbəttə, sonuncu dəfə deyildi ki, Peyğəmbər dünyanın böyük şəxsiyyətlərini islama dəvət etsin. Sonralar da ətraf məntəqələrə təqribən 29 dəfə nümayəndə göndərdi.

Bu məktubların hamısını yox, müxtəsər olsun deyə, ancaq ikisini qeyd edirik.

Peyğəmbərin İran padşahı Xosrova yazdığı məktub:

Mehriban və bağışlayan Allahın adı ilə. Allahın Rəsulu Məhəmməddən İranın böyük kəsrasına. Alqış olsun o şəxsə ki, həqiqətin tabeçiliyində olub Allaha və onun Peyğəmbərinə iman gətirsin və şəhadət versin ki, ondan başqa bir məbud yoxdur, şəriki və misli yoxdur; şəhadət versin ki, Məhəmməd Allahın bəndəsi və Rəsuludur. Mən Allahın əmri ilə səni ona tərəf çağırıram. Mən bütün insanlar üçün Peyğəmbər göndərilmişəm ki, gözü açıq insanları Onun cəzasından qorxudam və hüccəti ona tamam

edəm. Müsəlman ol, təki salamat olasan, yoxsa boyun qaçırsan, xalqının günahı sənin boynundadır.

Peyğəmbərin qasidi məktubu Xosrov Pərvizə verdi. Onun tərcüməçisi məktubdan bir az oxudu. Hələ məktubun tərcüməsi qurtarmamışdı ki, Xosrov acıqlandı, məktubu alıb cırdı və dedi ki, gör bu kişinin işi hara çatıb ki, öz adını mənim adımdan əvvəl yazıbdır. Sonra qasidi dərhal qəsrindən çölə saldı. O da Mədinəyə qayıtdı və olanları Peyğəmbərə dedi. Peyğəmbər qəzəbləndi, ona qarğış edib dedi ki, pərvərdigara, onu səltənətdən sal!

İran padşahı bununla da kifayətlənməyib müstəmləkəsi olan Yəmənin valisinə əmr etdi ki, Mədinədə peyğəmbərlik iddiası edən şəxsi tutub onun yanına gətirsinlər və əgər gəlməsə, başını bədənindən ayırıb gətirsinlər.

Yəmən hakimi əmrə itaət edib iki hərbiçini Mədinəyə göndərdi. Onlar Məədinəyə gəlib hakimin məktubunu Peyğəmbərə verdilər və dedilər ki, biz səni aparmalıyıq. Bəlkə Bazan sizin haqqınızda Xosrov Pərvizlə məktublaşdı və onun razılığını cəlb edə bildi. Əks halda aramızda müharibə baş verə bilər və Sasanilər sizin ev-eşiklərinizi oda çəkər, kişilərinizi öldürərlər.

Peyğəmbər tam aramla onların sözlərini dinlədi və dedi ki, bu gün gedin, cavabınızı sabah verərəm. Bu vaxt vəhy mələyi nazil oldu və Şiruyyə tərəfindən Xosrov Pərvizin öldürülməsindən onu xəbərdar etdi. Bazanın məmurları səhər Peyğəmbərin hüzuruna çatdıqda Həzrət buyurdu: Allahım mənə xəbər verdi ki, dünən gecə İran padşahı öz oğlu tərəfindən öldürülüb və oğul atasının yerində oturub.

Bazanın məmurlarının bədənləri lərzəyə düşdü və dedilər ki, bu sözün məsuliyyəti peyğəmbərlik iddiasından yüksəkdir və əlavə etdilər ki, biz Bazanın yanına qayıdırıq, o, Xosrov Pərvizlə danışar. Peyğəmbər buyurdu: Yəmən hakiminə deyin ki, yorğa atlar gedə bilən yerə qədər gedib çatacaq. Əgər sən tovhid dinini qəbul etsən, öz hökumətində qala bilərsən.

Sonra qəbilələrin Həzrətə verdikləri kəməri Bazanın məmurlarına verdi. Onlar Yəmənə yollandılar və baş verənləri Bazana dedilər. Yəmən hakimi dedi: Əgər bu xəbər düz olsa, deməli, o, hökmən peyğəmbərdir. Təsadüfən çox çəkmədi ki, Şiruyyədən rəsmi məktub da yetişdi. Onda yazılmışdı: «Bil ki, mən Xosrov Pərvizi İran xalqının qəzəbinə görə öldürdüm. Çünki o, İranın böyük şəxsiyyətlərini öldürüb. Mənim məktubum sənə çatan kimi camaatdan mənə beyət al və yeni fərman gələnə kimi peyğəmbərlik iddiası edən şəxslə pis rəftar etmə».

Peyğəmbərin qeybdən verdiyi xəbəri təsdiq edən Şiruyyənin məktubu Bazanın və onun iranlı qulluqçularının müsəlman olmasına səbəb oldu. Sonra Bazan Peyğəmbərə məktub yazaraq özünün müsəlman olduğunu elan etdi.

## PEYĞƏMBƏRİN SƏFİRİ ROMADA

Peyğəmbər Şərqi Roma qeysərinə (padşahına) xitabən belə bir məktub yazdı:

«Bağışlayan və mehriban Allahın adı ilə. Allahın Peyğəmbəri Məhəmməddən böyük Roma qeysərinə. Həqiqətən xitab olan şəxsə salam olsun! Səni islama dəvət edirəm, qəbul et, təki salamat qalasan. Allah da sənə iki dəfə mükafat verər». De ki: «Ey əhli-kitab, gəlin bizimlə sizin aranızda bərabər olan bir sözü deyək və qəbul edək: Allahdan başqasına pərəstiş etməyək, ona heç bir şərik qoşmayaq və bəzilərimiz bəzilərimizi ərbab seçməsin. Əgər üz döndərsələr, deyin: şahid olun ki, biz müsəlmanıq».

Peyğəmbərin qasidi Dühyə Kəlbi məktubu alıb Şam yolu ilə Romaya yollandı. Busraya çatdıqda xəbər tutdu ki, qeysər Beytül-müqəddəs səfərindədir; O, nəzir etmişdi ki, əgər iranlılar qalib gəlsə, piyada bu evin ziyarətinə getsin.

Peyğəmbərin qasidi Busranın hakimi ilə görüşüb öz məqsədini ona bildirdi. Hakim Ədiyy ibni Hatəmi qasidə qoşdu ki, birlikdə məktubu qeysərə çatdırsınlar. Nəhayət, Hims şəhərində məktub qeysərə yetişdi.

O, böyükləri çağırdı və onları islama dəvət etdi, lakin onlar müxalif çıxdılar. Sonra onları sakitləşdirmək məqsədi ilə dedi: Mən sizi yoxlayırdım ki, görüm məsih dininə nə qədər bağlısınız. Sonra Peyğəmbərə xitabən belə bir məktub yazdı.

«Sənin məktubun qasidinlə birlikdə çatdı. Doğrudan da şəhadət verirəm ki, sən Allah tərəfindən gəlibsən. Sənin adını əlimdəki İncildə görürəm. İsa ibni Məryəm bizə sənin gəlişini müjdə vermişdir. Mən öz xalqımı sənin dininə dəvət etdim. Amma qəbul etmədilər. Əgər mənim sözümü qəbul etsəydilər, yaxşı olardı. Kaş sənin yanında olaydım və ayaqlarını yuyardım».

Təbəri yazır: Qeysər xristian alimlərinin birinə məktub yazdı və Peyğəmbərə məktubunun məzmununu onda yerləşdirdi. O da qeysərə məktubunun cavabında yazdı ki, Məhəmməd ibn Əbdüllah elə vəd verilmiş Peyğəmbərdir ki, yolunu gözləyirik. Onu təsdiq et.[115] Qeysər bununla kifayətlənmədi və başqa tədqiqat da apardı.

## QEYSƏR PEYĞƏMBƏR HAQQINDA TƏDQİQAT APARIR

Həqiqi peyğəmbərlə yalançı peyğəmbəri tanımağın yollarından biri budur ki, həqiqət axtaran şəxs müəyyən sübutlar və dəlillər toplamaqla onun həqiqi, yaxud yalançı olduğunu yəqin etsin. (Əlbəttə, bu yol təkcə Peyğəmbəri tanımaq məsələsinə aid olunmur; bu gün məhkəmə orqanlarında da haqla batili ayırmaq üçün bu yoldan istifadə edilir). Qeysər malik olduğu zəka ilə məsələni araşdırmaq istədi. Buna görə Şama adam göndərdi ki, Peyğəmbərlə yaxından əlaqədə olan şəxslərlə danışsınlar. Təsadüfən qeysərin nümayəndələri Şama ticarət üçün gəlmiş Əbu Süfyanın dəstəsi ilə rastlaşdılar. Məmurlar onların hamısını qeysərin yanına apardılar. O, rəsmi bir məclisdə onlardan «sizlərdən hansınız bu

---

[115] «Tarixe Təbəri», 3-cü cild, səh.5

kişi ilə yaxın qohumsunuz?» – deyə soruşdu. Əbu Süfyan özünü təqdim etdi və dedi: Mən onun əmoğlusuyam!

Qeysər əmr etdi ki, o, hamıdan qabaqda, qalanları isə onun arxasında dursunlar. Sonra tərcüməçi vasitəsilə Əbu Süfyanın yoldaşlarına dedi: Mənim bu yeni Peyğəmbər haqqında bəzi suallarım var, əgər o, yalandan cavab versə tez mənə deyin!

Əbu Süfyan deyir ki, mən cavab verərkən qorxurdum ki, əgər yalan desəm, arxadakılar yalanımı çıxarar və mən rüsvay olaram! Sonra Qeysər 12 sual verib cavabını eşitcək Əbu Süfyana dedi: – Əgər sənin dediklərin düz olsa, bilin ki, Məhəmməd Allahın Rəsuludur.

Peyğəmbərin məktubu təkcə Qeysərin qəlbində həqiqət məşəlini yandırmadı. Xosrov Pərvizdən başqa dünyanın bütün rəhbərləri Peyğəmbərin məktubunu aldıqda onun qarşısında təvazökarlıq göstərdilər, bəziləri onun dinini qəbul etdilər, bəziləri hədiyyələr və məktublar göndərməklə Həzrət Rəsulun çağırışına müsbət cavab verdilər.

## SON TƏHLÜKƏ MƏRKƏZİ, YAXUD XEYBƏRİN FƏTHİ

Mədinənin şimal tərəfdən 32 ağaclığında yerləşən geniş düzənlik Xeybər adlanır. Peyğəmbərin besətindən əvvəl bir dəstə yəhudi oranı yaşayış məskəni seçmiş, yeddi möhkəm qala düzəltmişdilər. Xeybər məntəqəsi əkinçilik üçün əlverişli idi və ona görə də sakinlərinin hamısı əkinçi idilər. Onlar əkinçilikdə, sərvət toplamaqda, silah hazırlamaqda, müdafiə məsələsində məharətli idilər. Əhalisi 20 min nəfərdən çox idi və aralarında çoxlu döyüşçü və pəhləvan var idi. Hüdeybiyyə sülh müqaviləsi Peyğəmbərə imkan verirdi ki, dünyanın müxtəlif yerlərinə məktub yazıb öz dinini elan etməklə yanaşı, yəhudilərin son təhlükə mərkəzini dağıtsın. Peyğəmbərin bu təhlükə mərkəzini dağıtmaqda iki əsas məqsədi var idi:

– Xeybər yəhudiləri Əhzab döyüşündə müharibə odunu qızışdıranlar idi ki, əgər müsəlmanların fədakarlıqları olmasaydı, islamın məhv olub

aradan getməsi qəti idi. Belə olan halda bu qala aradan götürülməli idi ki, islam düşmənləri üçün sığınacaq yeri olmasın.

– Yəhudilər İran-Roma döyüşlərində iki ölkədən birinə romalıların xristian olduqlarına görə, əksər vaxtlar isə iranlılara yardım edirdilər. Bu baxımdan kəsra və ya qeysərlə islamı məhv etməsi üçün əlbir olmaları gözlənilirdi.

– Bu səbəbə görə Peyğəmbər yeddinci ilin Məhərrəm ayında Xeybərə yola düşdü. Həzrət Rəsul Həzrət Əliyə ağ bayraq verdi, bir bayraq da Hübab ibn Münzirə (başqa rəvayətə görə Səd ibn Übadəyə) verdi. Sonra 1600 döyüşçü (200 nəfəri atlı idi) ilə Xeybərə tərəf hərəkət etdi. Tarixçilər yazır ki, Peyğəmbərin qoşununun sarvanı Həzrətin dəvəsini sürmək üçün «hüda» (dəvəni sürətləndirmək üçün oxunan nəğmə) oxuyurdu. Onun məzmunu belə idi: «And olsun Allaha, əgər Allahın mərhəməti olmasaydı, biz zəlalət içində qalardıq: nə sədəqə verər, nə də namaz qılardıq. Amma indi də bir xalq olmuşuq ki, bizə zülm etmək istəyənlərin qarşısında dayanırıq. İlahi, bizə təskinlik ver ki, düşmənlə qarşılaşdıqda bizi səbrli et!» Həzrət sarvandan bu nəğməni eşitdikdə ona dua etdi.

Bu nəğmənin məzmununa diqqət etsək bizi Xeybər döyüşünün məqsədi ilə tanış edir və göstərir ki, xeybərlilər müsəlmanlara zülm etmiş, onların əleyhinə hiylə hazırlamışdılar.

Peyğəmbərin döyüşdə seçdiyi taktika gizli hərəkət etmək idi ki, heç kəs onun məqsədini bilməsin və düşmənə qəfildən hücum etsin. Buna əsasən Peyğəmbər şimala tərəf yola düşdü və camaat elə bildi ki, o, Qətfan qəbiləsinə hücum etmək istəyir. Peyğəmbər Rəci məntəqəsinə çatdıqda (Rəci Xeybərlə Qətfan arasındadır) istiqamətini Xeybərə tərəf dəyişdi ki, Qətfan qəbiləsi ilə Xeybərin əlaqəsini kəssin. Nəhayət, Peyğəmbər qalaların kənarına yetişdi. Hər qalada bürclər var idi. Məmurlar bürclərdən qalanın ətrafını nəzarət altına alır və hücum edənləri daşlayıb, oxa tuturdular. Qalada qalanların ərzaq cəhətindən ehtiyacları yox idi. Döyüş uzun çəksəydi də, onlar çətinliyə düşməzdilər.

Qalanın divarları elə möhkəm idi ki, onları dəlmək mümkün deyildi, qalaların birindən digərinə yol var idi.

Müsəlmanlar bu qalaları mühasirə etməkdə elə hünər göstərdilər ki, gecə qalaların bütün strateji yerlərini və qapıları ələ keçirdilər və onların bayırla əlaqələrini kəsdilər. Bu iş elə sürətlə görüldü ki, hətta qalanın qoruqçuları da bilmədilər.

Səhər tezdən qaladakı əkinçilər işləmək üçün qaladan bayıra çıxmaq istəyəndə islam qüvvələri ilə rastlaşdılar və dərhal içəri qayıtdılar. Xeybər başçıları mühasirədən agah olduqdan sonra qalalardan birində belə qərara gəldilər ki, arvad-uşağı qalaların birində, ərzaq mallarını isə başqa bir qalada yerləşdirsinlər. Hər qalanın qoruqçuları və döyüşçüləri özlərini müdafiə etsinlər və zərurət tələb edən halda pəhləvanlar o qaladan eşiyə çıxıb islam qüvvələri ilə döyüşsünlər. Yəhudi başçıları son qala alınana kimi bu şəkildə hərəkət etdilər və müsəlmanların qarşısında uzun müddət dayana bildilər.

Birinci qala alınarkən islamın böyük sərkərdələrindən biri olan Məhmud ibn Məsləmə şəhid oldu və əlli nəfər yaralandı. Onların yaralarını Bəni-Qəffar qadınları bağladılar. Birinci qala alınandan sonra müsəlmanlar ikinci qalanı da açdılar. Bu iki qalanın açılması islam döyüşçülərinin əhval-ruhiyyələrini gücləndirdi və Xeybərdəkiləri qorxuya saldı. İslam döyüşçüləri artıq ərzaq baxımından gərgin vəziyyətdə idilər. Bununla belə, təqvaya riayət etdilər. O ağır günlərdə yəhudilərin qoyunlarını otaran bir çoban Peyğəmbərin hüzuruna gəldi və dedi: «Mən Xeybər-dəkilərin birinin çobanıyam, gəlmişəm ki, mənə islamı öyrədəsən».

Peyğəmbər islamı ona öyrətdi və o, müsəlman oldu. Sonra dedi ki, bu qoyunlar mənim əlimdə əmanətdi, onları neyləyim? Peyğəmbər dedi ki, onları sahiblərinə qaytar. Çoban onları Xeybərə tərəf apardı, qoyunların hamısı qalaya daxil olandan sonra əlinə qılınc alıb döyüşmək istəyəndə hündür yerdən atılan bir daş onu şəhid etdi. Bir gün xeybərlilərin bir sürü qoyunu otlaqdan qayıdanda islam döyüşçüləri həddindən artıq ac

olduqlarına görə onlardan ikisini tutub kəsdilər və qalanını qalaya buraxdılar.

Qalaların birini tutmaq üçün müsəlmanlar çox əziyyət çəkdilər və ağır tələfat verdilər, lakin tuta bilmədilər. Bu döyüşdə Peyğəmbər qoşunun başçılığını tanınmış səhabələrindən bəzisinə tapşırmışdı, lakin onlar bir iş görə bilmədilər.

Nəhayət, Peyğəmbər buyurdu: Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və Onun Rəsulunu sevir, Allah və Onun Rəsulu da onu sevirlər. Allah onun əli ilə bu qalanı alacaq, o, heç vaxt qaçmaz.

Hamı xoşhal olduğu halda, eyni zamanda iztirab da çəkirdilər və arzu edirdilər ki, bu böyük fəxr onun olsun. O günün səhəri Peyğəmbər soruşdu: Əli hardadır?

Dedilər: Onun gözü ağrıyır.

Dedi: Ona deyin gəlsin!

Əlini bir dəvəyə mindirib Peyğəmbərin çadırının qarşısına gətirdilər. Həzrət əlini onun gözlərinə çəkib dua etdi. Həzrətin duası ona elə təsir etdi ki, Həzrət Əli ömrünün sonuna qədər göz ağrısına tutulmadı. Peyğəmbər bayrağı ona verib dedi: «Əvvəlcə onları islama dəvət et; əgər qəbul etməsələr de ki, silahlarını yerə qoyub cizyə verməklə islam hökumətinin himayəsində azad yaşaya bilərlər və əgər bunu da qəbul etməsələr, onlara cihad et…»

Həzrət Əli zirehli paltar geyib Zülfüqarını siyirdi, döyüş meydanında qəhrəman pəhləvanlara məxsus bir əzəmətlə döyüşə yollandı. O, Peyğəmbərdən aldığı bayrağı qalanın yaxınlığında yerə sancdı. Bu zaman Xeybərin qapısı açıldı və yəhudi pəhləvanları bayıra çıxdılar. Əvvəlcə Haris adlı bir pəhləvan irəli gəlib elə nərə çəkdi ki, Həzrət Əlinin arxasındakı döyüşçülər geri çəkildilər. Amma Əli (ə) öz yerində dağ kimi dayandı. Döyüş başladı, çox çəkmədi Harisin yaralı bədəni torpağa düşdü və can verdi.

Onun ölümündən qardaşı Mərhəb qəzəbləndi. İntiqam almaq üçün irəli gəldi və döyüşə başladı. Qılıncların və nizələrin şaqqıltısı adamları

vəhşətə saldı. Birdən Əlinin kəsərli qılıncı Mərhəbin başına elə endi ki, qalxanını və dəbilqəsini yarıb başını da çənəsinə qədər iki yerə böldü. Bu zərbə elə dəhşətli idi ki, Mərhəbin arxasında duran bəzi yəhudi pəhləvanları qaçıb qalaya girdilər, qaçmayanlar isə birbəbir öldürüldülər. Əli qaçan yəhudiləri qala qapısına qədər təqib etdi. Yolda yəhudi döyüşçülərinin biri öz qılıncı ilə Əlinin qalxanına vurdu, nəticədə qalxan əlindən düşdü. Əli (ə) qala qapısına tərəf getdi və ilahi bir qüdrət və mənəvi qüvvə ilə qapını yerindən çıxardı[116] və onu qalxan yerinə işlətdi. Qapı o qədər ağır idi ki, sonradan onu səkkiz nəfər yerindən tərpədə bilmədi. Möminlərin əmiri Həzrət Əli (ə) müsəlmanlarla birlikdə qalaya daxil oldu. Bu qalanın açılışı ilə Xeybər döyüşü sona çatdı və qənimətləri yığmağa başladılar. Bu döyüşdə müsəlmanların verdiyi tələfat 20 nəfər, yəhudilərin tələfatı isə 93 nəfər olmuşdur.

## QƏLƏBƏDƏN SONRAKI HADİSƏLƏR

Fəsad yuvası və təhlükə mərkəzi islamın fədakar cəngavərləri tərəfindən dağıdıldı və yəhudi döyüşçüləri təslim oldu, qənimətlər yığıldı. İndi görək bu hadisə necə sona çatdı:

İslam Peyğəmbəri Xeybərə yola düşməzdən əvvəl Əmr ibn Ümməyə Zəmrini Həbəşistana göndərdi ki, oranın hakimindən Həbəşistandakı mühacirlərin Hicaza hərəkət etmələrinə imkan yaratmasını istəsin. Nəcaşi onlar üçün iki gəmi hazırladı. Nəhayət, mühacirlər Mədinəyə yaxın olan sahildə gəmidən endilər, lakin Peyğəmbərin Mədinədən Xeybərə getməsini eşitdikdə hamılıqca Xeybərə gəldilər və o vaxt çatdılar ki, artıq qalaların hamısı alınmışdı. Həbəşistandakı müsəlmanların başçısı Cəfər ibn Əbutalibin Xeybərə gəlməsi xəbəri Peyğəmbərə çatdıqda, Həzrət onu qarşılamaq üçün 16 addım irəli getdi, onun alnını öpdü və

---

[116] Əli (ə) ondan Xeybər qapısını necə yerindən çıxardığı barədə suala belə cavab vermişdi: «Mən onu heç də insan qüvvəsi ilə çıxarmadım, əksinə onu ilahi qüvvə ilə, sonrakı günə inamlı olduğum ruhi qüvvə ilə çıxardım».

dedi: Bilmirəm bunların hansına sevinim: Cəfərin gəlməsinəmi, yoxsa onun qardaşı Əli tərəfindən Xeybərin alınmasına? (Sonra buyurdu:) Sənə bir hədiyyə vermək istəyirəm.

Camaat belə təsəvvür etdi ki, Peyğəmbər ona nəsə hədiyyə vermək istəyir, lakin Həzrət ona «Cəfər-Təyyar» adlı xüsusi bir namaz öyrətdi.

Qalaların biri fəth olunanda Hüyyibni Əxtəbin qızı Səfiyyə başqa bir qadınla əsir düşmüşdü. Bilal bu iki əsiri yəhudi ölülərinin yanından keçirib Peyğəmbərin yanına gətirdi. Peyğəmbər bu vəziyyətdən agah olduqda, öz əbasını Səfiyyənin başına saldı və qərargahda ona məxsus bir yer təyin etdi. Sonra çox sərt bir formada Bilala etiraz edib dedi: «Məgər sənin ürəyində mehr-məhəbbət yoxdur ki, bu iki qadını öz əzizlərinin cənazələrinin kənarı ilə gətirdin?».

Xeybər əsirləri Həzrət Rəsula təklif etdilər ki, biz əkinçilik işlərində məharətliyik, əgər Peyğəmbər Həzrətləri məsləhət görsələr, biz müsəlmanların qənimətləri olan Xeybər torpağında əkinçilik edək və onun gəlirini, məhsulunu yarı bölək. Peyğəmbər bu təklifi bir şərtlə qəbul etdi ki, istədiyi vaxt onları Xeybərdən çölə salsın. Buna əsasən, bu ərazilər bir müddət Xeybər yəhudilərinin ixtiyarında idi və hər il Peyğəmbər tərəfindən məhsulun miqdarını müəyyənləşdirmək üçün bir nümayəndə təyin edilirdi. Bu iş üçün təyin edilən ilk şəxs Əbdüllah ibn Rəvahə idi. O, məhsulun miqdarını hesablayanda yəhudilərin etirazına məruz qaldı və dedi: – İstəyirsinizsə bu qədəri sizin olsun, qalanı isə bizim, yaxud bu qədəri bizim olsun, qalanı isə sizin.

Yəhudilər Peyğəmbərin nümayəndəsinin ədaləti qarşısında peşman olub dedilər: Yer və göylərin yaranışı ədalət üzərindədir.

Fədək məntəqəsi Xeybər kimi abad və məhsuldar olub, Ərəbistan yarımadasındakı yəhudilər üçün əhəmiyyətli idi. Peyğəmbər bu məntəqədə əks-islamçı ünsürlərin fəaliyyətinə son qoymaq üçün oranın rəisinin yanına nümayəndə göndərib onları islama dəvət etdi. Fədək yəhudiləri məhsullarının yarısını Həzrət Rəsula vermək şərti ilə öz dinlərində, öz yerlərində qalmaq məsələsində razılaşdılar.

Peyğəmbər nəinki əks-islamçı qüvvələrə son qoydu, hətta Vadil-qürayə getməyi qərara aldı. O, özü şəxsən oradakı yəhudilərin qalalarını mühasirə etdi və fəth edəndən sonra yerlərini özlərinə verib xeybərlilərlə bağladığı kimi onlarla da müqavilə bağladı. Beləliklə, Hicaz məntəqəsini fitnəkarların şərindən təmizlədi və onların hamısının silahlarını alıb müsəlmanların himayəsi altına keçirdi.[117]

## ÖMRƏTÜL-QƏZA

Hüdeybiyyə sülhünün böyük əhəmiyyəti var idi və bu, zaman keçdikcə daha yaxşı məlum olurdu. İmam Sadiq (ə) buyurur: «Peyğəmbərin (s) həyatında Hüdeybiyyə sülh müqaviləsi kimi səmərəli bir hadisə olmamışdır».

Hüdeybiyyə sülhünün maddələrindən biri bu idi ki, müsəlmanlar o biri ildə azad şəkildə Allah evinin ziyarətinə gedə və orada üç gün qalıb ömrə ayinini yerinə yetirə bilərdilər. Buna əsasən, Peyğəmbər yeddinci ilin zilqədə ayının 6-sı, bazar ertəsi günü ömrəni yerinə yetirmək üçün keçən ilki şəxslərlə birlikdə Məkkəyə yollandı.

Peyğəmbər bir tərəfdən səfər silahından başqa bir silah götürməməyə söz vermişdi, digər tərəfdən düşmənin hiyləsindən xatircəm deyildi; ehtimal edilirdi ki, düşmən silahsız müsəlmanlara hücum edib onları qətlə yetirsin. Bu cəhətdən Məhəmməd ibn Məsləmə adlı sərkərdəni 200 nəfərlə göndərdi ki, karvanın qabağınca hərəkət edib Kəbənin yaxınlığında düşsünlər və Peyğəmbərin karvanını gözləsinlər. İslam sərkərdəsinin hərəkət etməsindən xəbərdar olan Qüreyş casusları bu xəbəri öz başçılarına çatdırdılar.

Qüreyş nümayəndələri Peyğəmbərlə əlaqə yaratdılar və onun bu işini Hüdeybiyyə sülh müqaviləsinə zidd hesab etdilər. Peyğəmbər buyurdu: Mən və tərəfdarlarım müqavilənin əksinə bir iş görməmişik. Bu sərkərdə

---

[117] «Tarixe Kamil», II cild səh.150.

200 döyüşçüsü ilə birlikdə orada qalacaq və bir addım da belə irəliləməyəcəklər.

Həzrət Rəsul Qüreyş nümayəndəsini başa saldı ki, bu ehtiyat qüvvələr orada qalıb Qüreyşin hərəkətini nəzarət altına alacaqlar və əgər Qüreyş bir cinayət törətmək istəsə, dərhalköməyə gələcəklər.

Qüreyş başçıları Peyğəmbərin uzaqgörənliyindən xəbərdar olub Məkkənin qapılarını açdılar. Bütpərəstlər arvad-uşaqları ilə birlikdə şəhəri boşaldıb ətraf dağlara çəkildilər ki, Peyğəmbər və onun tərəfdarlarının təbliğatından uzaq qalsınlar.

Peyğəmbər iki min nəfərlə Məkkəyə daxil oldu və onların «Ləbbeyk, əllahummə ləbbeyk» fəryadı məkkəliləri öz təsiri altına aldı. Ləbbeyk fəryadı kəsildikdən sonra dəvənin yüyəni əlində olan Əbdüllah ibn Rəvahə belə bir şeir oxudu: «Ey kafir övlad, Həzrət Rəsula yol verin və bilin ki, o, xeyir-bərəkət və yaxşılıq mənbəyidir. Səadət onun dinini qəbul etməkdədir. Pərvərdigara, mən onun dediyinə inanıram. Biz bir gün sizə elə bir zərbə endirərik ki, kəllənizin qapağı yerindən oynayar və dost-dostu yadından çıxarar».

Peyğəmbər dəvənin üstündə Kəbəni dolandı və əmr etdi ki, bu duanı hamı oxusun: «Ondan başqa məbud yoxdur, o vahiddir, Onun vədəsi doğrudur. Bəndəsinə yardım etdi, Öz qoşununu qalib etdi, küfr əhlini təklikdə məğlub etdi».

İki min cavan və şücaətli müsəlmanın ağzından xüsusi şövqlə çıxan bu tovhid şüarları müxalif başçılarının əhval-ruhiyyəsinə sarsıdıcı zərbələr endirdi. Hamı bildi ki, islamın Hicaz məntəqəsinin bütövlüyündə qələbə çalması sözsüzdür. Günorta çağı Bilal əvvəllər Allahın təkliyinə və Həzrət Məhəmmədin peyğəmbərliyinə şəhadət vermək böyük cinayət sayılan yerdə mətanətlə azan verdi. Onun uca səsi Məkkənin ətrafına sığınan bütpərəstləri çox narahat etdi, bəzilərinə isə mənəvi işgəncə verdi.

Peyğəmbər əmr etdi ki, ömrə mərasimini yerinə yetirənlərdən iki yüz nəfər ehtiyat qüvvələr olan yerə gedib onlardan silahları təhvil alsınlar. Onlar da öz növbəsində gəlib ömrəni yerinə yetirsinlər. Qüreyşlilər bu

hadisədən narahat oldular, çünki Peyğəmbər belə bir müqavilə bağlamaqla islamın təbliği sahəsində böyük manevr edə bildi. Buna görə hələ Məkkədə qalmağın vaxtı sona çatmamış Qüreyş tərəfindən bir məmur gəlib Həzrət Rəsula dedi ki, vaxt qurtarandan sonra dərhal Məkkədən çıxsınlar.

## ON SƏKKİZİNCİ FƏSİL

### HİCRƏTİN SƏKKİZİNCİ İLİNİN HADİSƏLƏRİ
### MÖTƏ DÖYÜŞÜ, MƏKKƏNİN FƏTH OLUNMASI,
### HÜNEYN VƏ TAİF DÖYÜŞLƏRİ

Hicrətin yeddinci ili müsəlmanlar üçün fəth və qələbə ili idi. Onlar artıq Hicazın bir çox yerlərinə hakim olmuş, fəsad mərkəzlərini məhv etmiş və azad surətdə ömrə mərasimini yerinə yetirmişdilər. Səkkizinci ildə isə Peyğəmbər ətraf məntəqələrə 23 dəfə qoşun yolladı, 4 döyüşə isə Peyğəmbər şəxsən özü rəhbərlik etdi.

### MÖTƏ DÖYÜŞÜ

Həzrət Peyğəmbər ömrə mərasimini yerinə yetirib Mədinəyə qayıtdı. Səkkizinci ildə O, 3 min nəfərdən ibarət bir qoşunu Mötəyə göndərdi. Qoşuna Cəfər ibn Əbutalib rəhbərlik edirdi.

Yeddinci ildə əldə edilən qələbələr sayəsində Hicazda sülh və sabitlik yaranmışdı. Peyğəmbər təbliğ siyasətini Şam sərhədlərinə doğru yönəltməyi məsləhət gördü. Buna əsasən Roma qeysərinin nümayəndəsi olan Şamın sərhəd hakiminə bir məktub yazdı. Peyğəmbərin qasidi Mötə kəndinə yetişdikdə sərhəd məmurlarının biri onu yaxaladı və məqsədini bildikdən sonra əl-qolunu bağlayıb öldürdü. Peyğəmbər bu hadisədən agah olandan sonra müsəlmanlardan onun intiqamını almalarını istədi. Peyğəmbəri döyüşməyə daha ciddi sövq edən başqa hadisə onun səkkizinci ildə göndərdiyi bir dəstə Quran müəllimlərinin həmin məntəqədə öldürülməsi idi.

Bu iki hadisə səbəb oldu ki, Peyğəmbər 3000 nəfərdən ibarət bir qoşun göndərsin və islam təbliğatçılarına əngəl törədənləri məhv etsin. Hərəkət üçün hazırlıq görüldü. Peyğəmbər özü qoşunun hərəkət edəcəyi yerə gəlib dedi: «Mən sizi pəhrizkarlığa çağırıram. Allahın adı ilə Allah yolunda döyüşün, kafirlərlə döyüşün, hiylə işlətməyin, aldatmayın, uşaqları

öldürməyin, düşmənlə qarşılaşdıqda onları üç şeydən birinə dəvət edin: əvvəlcə islama dəvət edin, əgər qəbul etsələr, əl çəkin; yox əgər qəbul etməsələr, onlara deyin ki, islamın himayəsi altına gəlsinlər və bir sıra şərtlər əsasında vergi verməklə islam hökumətinin himayəsi altında öz dinlərində qalsınlar. Əgər bunu da qəbul etməsələr, Allahdan yardım istəyib döyüşün. Bu döyüşdə kənara çəkilib ibadətgahlarda olan şəxslərə dəyməyin. Bir dəstə ilə rastlaşacaqsınız ki, şeytan onların beynində yuva salıbdır, bu yuvaları dağıdın. Heç vaxt qadınları, qocaları, uşaqları öldürməyin, ağacları kəsməyin, evləri uçurmayın».

Sonra əlavə etdi: «Ey mühacirlər, əmim oğlu Cəfər ibn Əbutalib sizin sərkərdənizdir; o ölsə, bayrağı Zeyd ibn Harisə götürsün və qoşuna başçılıq etsin və əgər o da ölsə, qoşunu Əbdüllah ibn Rəvahə idarə edər və əgər o da ölsə, siz özünüz bir nəfəri rəhbər seçib döyüşü davam etdirərsiniz.»

Sonra «Sənyətül-vida» adlı bir yerə qədər qoşunu müşayiət etdi. Qoşunu müşayiət edənlər «Allah sizi sağ-salamat, çoxlu qənimətlərlə qaytarsın» deyə vidalaşdılar. İslam ordusu Şama yollandı. Yolda bildilər ki, Roma padşahı Herəql 100 min əsgərlə həmin məntəqədə düşərgə salıbdır.

Onlar əvvəlcə dayanıb Peyğəmbərə xəbər vermək istədilər. Amma sərkərdənin birinci müavini Zeyd ibn Harisə (o, Mədinədən çıxanda şəhadət arzu etmişdi) üzünü islam əsgərlərinə tutub atəşli bir nitq söylədi və dedi:

«And olsun Allaha! Biz döyüşçünün, silahın və atların gücünə deyil, iman gücünə düşmənlə döyüşürük. Ayağa qalxın, yolunuzu davam etdirin və döyüşü başlayın. Xatırlayın ki, Bədr döyüşündə iki atımız, Ühüddə isə bir atımız var idi. Biz döyüşdə ya onlara qalib gələcəyik və bu surətdə

Allahın və Peyğəmbərin verdiyi vədə yerinə yetirilər; ya da şəhid olacağıq ki, bu surətdə öz qardaşlarımıza qoşulacağıq.[118]

Bu nitqdən sonra islam qoşunu hərəkət edib Mötə məntəqəsində düşmənlə rastlaşdı. Əvvəl sərkərdə döyüşə başladı, xeyli döyüşdükdən sonra özünü mühasirədə gördü. O, düşmən onun atından istifadə etməsin deyə, atına bir zərbə vurub hərəkətdən saldı. Ağır döyüşdən sonra sağ qolunu vurub saldılar. Bayrağı sol əlinə aldı. Sol əlini də saldılar, bayrağı qolunun qalan hissəsi ilə saxladı və nəhayət, 80 zərbədən sonra torpağa düşüb can verdi. Sonra müavinlərinin hər ikisi növbə ilə bayrağı götürdülər və onlar da şəhid edildilər.

Bu vaxt islam qoşunu başsız qaldı, ancaq onlar Peyğəmbərin göstərişinə əməl etməli idilər. Sabit ibn Ərqəm bayrağı qaldırdı və döyüşçülərə xitabən dedi: «Özümüzə sərkərdə seçməliyik». Döyüşçülər onu özlərinə başçı seçmək istədilər, lakin o, razı olmadı. Yenicə müsəlman olmuş Xalid ibn Vəlidi seçdilər. Xalid qoşunu xilas etmək üçün bir taktika işlətdi. O, gecənin qaranlığından istifadə edib döyüşçüləri nizama saldı, sonra əmr etdi ki, müsəlmanlar gecə yarısı uzaq yerə gedib oradan «La ilahə illəllah» şüarı ilə qərargaha qayıtsınlar. Bununla düşmən elə güman etsin ki, müsəlmanlar üçün əlavə köməkçi qüvvələr gəlir. Nəhayət, üçgünlük müqavimətdən sonra müsəlmanlar Mədinəyə qayıtdılar. Bu döyüşdə romalıların sərkərdəsi həlak oldu.[119]

## MƏKKƏNİN FƏTHİ

Məkkənin fəthi Hüdeybiyyə sülhünün nəticələrindən biri idi ki, Hicaz məntəqəsində bütpərəstliyin kökünün tamamilə kəsilməsinə səbəb oldu.

Hüdeybiyyə sülhündən sonra müsəlmanlar Xüzaə, Qüreyş isə Bəni-Bəkir qəbiləsi ilə müqavilə bağlayıb müttəfiq oldular. İslam qüvvələrinin romalılarla döyüşdə məğlub olmaları Qüreyş başçılarının cürətlənməsinə

---

[118] «Məğazi Vaqidi», 2-ci cild, səh.760.
[119] «İbn Hişamın sirəsi», səh.381, 388, 389; «Məğazi-Vaqidi», 2-i cild. səh.769.

səbəb oldu. Həmin vaxt Qüreyş qəbiləsi Bəni-Bəkir qəbiləsini təhrik etdi ki, Xüzaə qəbiləsinə hücum etsin. Bu iki qəbilənin döyüşü Hüdeybiyyə sülhündən 17-18 ay sonra baş verdi. Bəni-Bəkir Qüreyşin himayəsi altında gecə ikən Xüzaəyə hücum edib onlardan 23 nəfəri öldürdülər.

Qüreyş qəbiləsi özünün bu əməli ilə Hüdeybiyyə sülhünə zidd hərəkət etdilər. Xüzaəlilər Mədinəyə gəlib başlarına gələnləri belə dedilər: «Ey Allahın Rəsulu, onlar gecə yarısı bəzimiz yuxuda, bəzimiz ibadətdə olarkən bizə hücum etdilər və bəzilərimizi öldürüb, bəzilərimizi isə əsir etdikdən sonra getdilər. Müsəlman olduğumuz halda bizi kütləvi şəkildə qırdılar». Peyğəmbər bu sözü eşitdikdə onlara yardım edəcəyinə söz verdi.

Qüreyşlilər öz işlərindən peşman oldular, çünki islamın günbəgün qüdrətlənməsindən agah idilər. Buna əsasən, Əbu Süfyan Mədinəyə gəldi ki, Hüdeybiyyə sülhünü yenidən bağlasın. Yarı yolda Xüzaə qəbiləsinin rəisi ilə görüşdü və bildi ki, xəbər Peyğəmbərə çatıbdır.

Əbu Süfyan Peyğəmbərin hüzuruna gəlib Hüdeybiyyə müqaviləsi haqqında danışdı, lakin müsbət bir cavab eşitmədi. Sonra Həzrətin tərəfdarlarını vasitəçi salmaq istədi, amma heç kim onu qəbul etmədi. Sonra Həzrət Əli və Peyğəmbərin qızının evinə gedib onları vasitəçi salmaq istədi. Əli buyurdu: Peyğəmbər hər hansı bir qərara gəlsə, biz heç vaxt onun qarşısında dayana bilmərik.

Sonra Peyğəmbərin qızına dedi: Oğlun Həsənə de ki, Qüreyşə pənah versin.

Peyğəmbərin qızı buyurdu: Oğlum hələ uşaqdır, bu işlərlə işi yoxdur.

Əbu Süfyan Peyğəmbərin məscidinə gəldi, camaatın içində ayağa qalxıb birtərəfli olaraq sülh müqaviləsini yenidən qüvvəyə mindirdi. Sonra dəvəsini minib getdi. Qüreyş bu işə görə ona tənə vurdu.

## CASUS TORA DÜŞDÜ

Peyğəmbər əmr etdi ki, hamı hərəkət üçün hazırlaşsın. Məqsədini bildirmədi ki, Qüreyşə qəflətən hücum etsin. Lakin bir nəfər Pey-

ğəmbərin məqsədini duyub Qüreyşə xəbər vermək üçün gizli bir məktub yazdı və Sarə adlı bir qadının hörükləri arasında gizlədib Məkkəyə tərəf yola saldı. Peyğəmbərə vəhy nazil oldu və onu bu casusluqdan agah etdi. Peyğəmbər Həzrət Əli və Zübeyrə əmr etdi ki, Sarəni tutsunlar. Onlar yola düşdülər və yarı yolda onu tutdular. Nə qədər axtarsalar da, bir şey tapa bilmədilər. Nəhayət, çoxlu axtarışdan sonra qadın məktubu saçlarının arasından çıxarıb verdi. Məktub Peyğəmbərin əlinə çatdı və casus tora düşdü. Peyğəmbər Mədinə ətrafına adam göndərib ərəbləri də bu səfərdə iştirak etməyə dəvət etdi. Beləliklə, bu ümumxalq səfərbərliyində 10 min fədakar müsəlman Məkkəni fəth etməyə hazırlaşdılar.

Həzrət Rəsul səkkizinci ilin ramazan ayının 10-da Məkkəyə yola düşdü. Bu dəfə Məkkəyə getməsini bütün qoşun dəstələrinə bildirdi və əmr etdi ki, bu xəbərin Məkkəyə çatmasına yol verməsinlər. İslam ordusu Qüreyşdən xəbərsiz Məkkə yaxınlığında düşərgə saldı.

## QÜREYŞ İSLAM QOŞUNUNUN MÜDAXİLƏSİNDƏN XƏBƏRDAR OLDU

İslam qoşunu Məkkə şəhərinin yaxınlığında yerləşəndən sonra əmr verildi ki, gecə Məkkə əhlini vəhşətə salmaq üçün uca yerlərdə od qalasınlar.

Abbas ibn Əbdülmüttəlib Məkkədə qalan müsəlmanlardan idi. O, Mədinəyə gəlib müsəlmanlara qoşulmaq istədi. Cöhfə adlı bir yerdə Peyğəmbərin hüzuruna yetişdi. Peyğəmbər ona yenidən Məkkəyə qayıtmasını əmr etdi.

O fikirləşirdi ki, Məkkəyə qayıtsa və müsəlmanlar uca yerlərdə od yandıran vaxt Qüreyşi belə bir təhlükədən xəbərdar etsə, Qüreyş qan axıdılmasından xilas olar və qan tökülmədən Məkkə fəth olunar. Həmin gecə Qüreyş başçılarından bəzisi Əbu Süfyanla birlikdə Məkkədən bayıra çıxmışdılar. Peyğəmbərin əmisi Abbas Əbu Süfyanın səsini eşitdi. O deyirdi: «Mən indiyə qədər bu qədər od və qoşun görməmişəm». Abbas deyir ki, Əbu Süfyanı çağırdım. O, məni çağırdı və soruşdu ki, nə xəbər

var. Dedim ki, Peyğəmbər buraya qoşun çəkibdir. Soruşdu ki, mənim çarəm nədir? Dedim ki, əgər müsəlmanların əlinə düşsən öldürəcəklər. Yaxşı olar ki, gəl mənimlə gedək, Peyğəmbərdən sənə aman alım. Əbu Süfyan müsəlmanların qərargahına yollandı.

Əbu Süfyanın Peyğəmbərin yanına gəldiyi vaxt müsəlmanlar onu öldürmək istədilər. Lakin Abbas dedi ki, mən ona aman vermişəm. Abbas Əbu Süfyanı səhərə kimi saxlamalı və gün çıxandan sonra onu Peyğəmbərin hüzuruna aparmalı oldu.

Əbu Süfyan sübh çağı Peyğəmbərin hüzuruna gəldi. Peyğəmbər ona dedi: Hələ inanmamısan ki, Allahdan başqa bir məbud yoxdur?

Əbu Süfyan dedi: Atam, anam sənə qurban, nə qədər dözümlü və mehribansan! Əgər vahid Allahdan başqa bir məbud olsaydı, mənim dadıma çatardı.

Peyğəmbər dedi: Mənim Peyğəmbərliyimə inanmırsanmı?

Əbu Süfyan Peyğəmbərin dözümlü və mehriban olduğunu söylədi, lakin Peyğəmbərliyini etiraf etmədi. Amma Abbasın təkidi ilə şəhadət kəlmələrini dedi. Abbas Peyğəmbərdən istədi ki, bu həssas vaxtda ona bir imtiyaz verilsin. Peyğəmbər dedi: Məkkə əhlinin üç dəstəsinə toxunulmayacaq:

- Əbu Süfyanın evinə sığınanlar;
- Evdə oturub qapılarını bağlayanlar;
- Məscidül-Hərama sığınanlar.

Əbu Süfyan Məkkəyə qayıdıb əhalini Peyğəmbərin məhəbbət və mərhəmətindən agah etməli idi. Peyğəmbər Abbasa dedi ki, Əbu Süfyanın islam qoşununun gücünü görməsi üçün onu hündür bir yerə çıxarsın.

Abbas Əbu Süfyanı münasib bir yerdə saxladı, islam qoşunu öz gücünü nümayiş etdirdi və Əbu Süfyan da onu gördü.

Əbu Süfyanı dəhşətə salan mühüm işlərdən biri bu idi ki, dəstələr onun qarşısından keçdikcə təkbir səsləri dağ-dərəni titrədirdi. Əbu Süfyan səbirsizliklə Peyğəmbərin hansı dəstədə olduğunu görmək istəyirdi.

Birdən 4 min nəfərdən (2 mini zirehli paltar geyinmişdi) ibarət, sərkərdələrinin əlində bayraqlar olan böyük bir dəstə Əbu Süfyan və Abbasın diqqətini cəlb etdi. Bu dəstənin adı «yaşıl qoşun» idi. Onlar zireh içində itmişdilər, gözlərindən başqa bütün yerləri poladla örtülmüşdü. Ərəb atları və qırmızı dəvələr daha çox gözə dəyirdi. Bu dəstənin əzəməti Əbu Süfyanı elə vəhşətə salmışdı ki, ixtiyarsız olaraq Abbasa dedi: Bunların qarşısında heç bir qoşun dayana bilməz! Abbas, qardaşoğlunun səltənəti çox böyükdür.

Abbas onu danladı və dedi: Bu səltənət deyil.

Yaşıl qoşun Əbu Süfyanın qarşısından keçdikdə Səd ibn İbadə Əbu Süfyanı görüb fəryad etdi: «Bu gün döyüş günüdür, yalançı qüvvələrin aradan gedən günüdür. Yersiz hörmətlər aradan qaldırılacaqdır, bu gün Allah Qüreyşi zəlil edəcəkdir».

Bu vaxt Əbu Süfyanın bədəni lərzəyə düşdü və Peyğəmbərlə qarşılaşdıqda dedi: Səd ibn İbadə deyir ki, bu gün döyüş günüdür və… Ey Allahın Rəsulu, sən ən əməlisaleh və ən çox bağışlayansan.

Peyğəmbər dedi: Bu gün rəhmət günüdür. Bu gün Allah Qüreyşi əziz etdi.

Sonra bayrağı Səddən alıb oğlu Qeysə verdi.[120]

Əbu Süfyan özünü Məkkəyə çatdırdı. Gördüklərini Qüreyş başçılarına izah etdi və sonra amanda olan üç dəstəni elan etdi. Daha sonra dedi: «Ey Qüreyş əhli, vay olsun sizə! Məhəmməd ağır qoşunla gəlibdir, siz onun qarşısında dayana bilməzsiniz. O, 20 min silahlı ilə gəlir».

Bu zaman Qüreyş başçılarının bəzisi camaatı müqavimət göstərməyə çağırdılar, lakin onlar bu qoşunun qarşısında dura bilməyib 12-13 nəfər tələfat verməklə dağıldılar.

---

[120] «Məğazi-Vaqidi», 2-ci cild, səh. 800, 801, 819.

Peyğəmbər şəhərə daxil olandan sonra üç sığınacaqdan əlavə, Əbdüllah Xəsəminin əlinə bir bayraq verib tapşırdı ki, fəryad qoparıb desin ki, bayrağın altına toplaşanlar amandadır.

Beləliklə, şəhər alındı, Peyğəmbər bir az dincəlib təvaf üçün Məscidül-Hərama getdi. O, hərbi geyimdə Məscidül-Hərama daxil olub, Həcərül-Əsvədin qarşısında dayandı. Sonra təvaf edərkən əlindəki ağacla bütləri yerə töküb deyirdi: «Haqq gəldi və batil məhv oldu, batil elə məhv olmalıdır». O günlərdə Məkkədə 360 büt vardı ki, ən böyüyü «Hübəl» idi. Peyğəmbər təvafını bitirdi. Bilalı Kəbənin açarını almaq üçün göndərdi. Açarı əvvəlcə vermirdilər, ancaq sonra verdilər və Kəbənin qapısını açdılar. Peyğəmbər Kəbəyə daxil oldu, divarlarındakı şəkilləri təmizlədi, sonra əllərini Kəbə qapısının çərçivəsinə qoyub dayandı. Hamı onun nurlu simasını gördü. O dedi: «Şükür olsun Allaha, öz vədəsinə əməl etdi. Bəndəsinə yardım etdi, əhzabçıları məğlub etdi».

Sükut hər yeri bürümüş, nəfəslər sinələrdə gizlənmişdi. Hər kəs öz təqsiri barədə fikirləşirdi. Peyğəmbər sükutu pozub dedi: Nə barədə fikirləşirsiniz?

Dedilər: Yaxşılıqdan başqa bir şey barədə fikirləşmirik. Siz qalibsiniz, sizi böyük qardaş və qardaşoğlumuz bilirik.

Peyğəmbər bu ayəni oxudu:

«Bu gün sizə tənə yoxdur. Allah sizi bağışlayır və o, Ərhəmər-Rahimindir. («Yusif» surəsi, 92-ci ayə)». Bu ayə Həzrət Yusifin qardaşlarına dediyi sözdür. Bütpərəstlər Peyğəmbərdən əfv dilədikdə Həzrət dedi:

«Gedin, siz azad olunmuşlarsınız».[121]

Peyğəmbərin Məscidül-Həramdakı tarixi nitqi islamın həqiqi simasını bütpərəstlərə aydınlaşdırdı. Həmin nitqin bir hissəsini təqdim edirik:

«Ey camaat, Allah islamın gücünə cahillik dövrünün yersiz təkəbbürlüklərini və öyünmələri aradan qaldırdı. Hamımız Adəmdən törən-

---

[121] «Məğazi Vaqidi», 2-ci cild, səh.835; «Biharül-ənvar», 21-ci cild, səh.107

mişik, Adəm isə palçıqdan yaranıbdır. Allahın ən yaxşı bəndələri günahdan pəhriz edən şəxslərdir».

«İnsanlar Allah dərgahında iki növdür; bir dəstə Allah dərgahında əziz, digər dəstə isə günahkar, bədbəxt və zəlildir».

«Camaat! Ərəb olmaq sizin zatınızın bir hissəsidir və sizə «mənəmlik» gətirmir, o, yalnız bir dildir ki, onunla danışa bilirsiniz, vəzifəsinə səhlənkarlıq edən şəxsin bir şeyə məxsus olması onun nöqsanını aradan qaldırmaz».

«Adəm zamanından indiyə qədər bütün insanlar daraq dişləri kimi bərabərdirlər, ərəbin əcəmə və ağın qaraya heç bir üstünlüyü yoxdur; üstünlük etiqad ilədir».

«Mən islamda da olan Beytin ziyarəti, həccdə su vermək və Kəbənin açarını saxlamaqdan başqa can və mal ilə əlaqədar olan cahillik dövrünün bütün mərasim və iddialarını ayağım altında əzdim».

«Müsəlman müsəlmanın qardaşıdır və bütün müsəlmanlar bir-birləri ilə qardaşdırlar, onlar yadellilərin qarşısında bir ər kimidirlər, hər birinin qanı başqasının qanı ilə bərabərdir».

## BİLAL AZAN ÇƏKDİ

Məkkənin fəthindən sonra Bilal – fəth olunmuş Məkkə şəhərinin əzab-əziyyət çəkmiş müsəlmanı bir daha Peyğəmbərin əmri ilə Kəbənin damına çıxdı və Allaha şərik tutanların başçılarının bir qrupunun Kəbə divarının aşağısında dayandığı halda, uca bir səslə azan çəkdi. Bilalın Allahın birliyinə, Peyğəmbərin peyğəmbərliyinə dair verdiyi və müxalif düşüncələrinin əksinə olan bu şəhadətlər onları çox narahat etdi.

Onlardan biri dedi: «Allah istəyirdi ki, atam diri qalmasın və bu səsi eşitməsin. Haris ibn Hişam dedi: «Kaş öləydim və Bilalın Kəbə divarı üstündə nərə çəkməsini eşitməyəydim!».

Həkəm ibn Əbül As dedi: «Bu, böyük müsibətdir ki, Bilal kimi bir qul Kəbənin divarı üstündə durub və belə bir fəryad çəkir».

Süheyl ibn Əmr dedi: «Əgər Allah Məhəmmədin dövlət təşkil etməsini istəməsə, burada müəyyən dəyişikliklər olacaq və əgər bu işdən razı olsa, bu hökumət möhkəmlənəcəkdir».

Əbu Süfyan dedi: «Qorxuram ki, bir söz deyəm və bu, Məhəmmədi agah etsin».[122]

## ƏNSARA VƏFALI QALMAQ

Peyğəmbər Məkkəni fəth edəndən sonra ənsardan olanlar onun ətrafına yığışaraq dua və raz-niyazla məşğul idi. Ənsardan olanlar qorxurdular ki, Peyğəmbər Məkkənin fəthindən sonra o şəhərdə məskunlaşsın. Buna görə də Həzrət dua və raz-niyaz qurtarandan sonra ənsarın nigaranlığından agah olub buyurdu: «Allaha pənah aparıram! Mənim həyatım da, ölümüm də sizinlədir».[123]

## CİNAYƏTKARLAR ÖLDÜRÜLÜRLƏR

Peyğəmbər duyğular, mehr-məhəbbət, əfv və bağışlamaq siması idi və elə buna görə Məkkəyə yığışan bütün bütpərəstləri bağışlayıb azad etdi. Bu əməl onların islama doğru yönəlmələrinə şərait yaratdı. Lakin onların arasında azlıq təşkil edən bir neçə nəfər də var idi ki, böyük cinayətlərə əl atdılar. Onlar heç vaxt qeyd-şərtsiz olaraq əfv oluna bilməzdilər. Buna görə də Peyğəmbər onların qanlarını halal etdi, adlarını birbəbir saydı. Onlardan bəziləri müsəlmanlar tərəfindən öldürüldü, başqa bir qrupu isə Həzrətin bəzi dostlarının vasitəçiliyi, şəfaəti ilə azad olunaraq zahirən islama doğru yönəldilər.[124]

Amma bu zaman baş verən və islamın müxaliflər barəsində azadlıqsevərlik ruhunu əks etdirən iki hadisəni qeyd edirik.

---

[122] «Əmtəül-əsma», 1-ci cild, səh.390; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.113.
[123] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.116
[124] – Yenə orada, səh.409-411; «Məğazi Vaqidi», 2-ci cild, səh.947-863; «Tarixül-Xəms», 2-ci cild, səh.90.

On dördüncü fəsildə qeyd etdiyimiz kimi, Səfvan ibn Üməyyə qəbilələrdən birinə əsir düşmüş islam təbliğatçılarından birini müəyyən qiymətə aldı və atasının intiqamını alaraq onu Məkkədə faciəli şəkildə öldürdü. Səfvan Peyğəmbərin qanını halal etdiyi 10 nəfərdən biri idi.

O, hələ Məkkənin fəthində müqavimət göstərmiş və sonra Yəmənə getmək məqsədilə Cəddəyə qaçmışdı. Rəsulullahın dostlarından olan Ümeyir Həzrətin hüzuruna gəldi və xahiş etdi ki, Səfvana aman versin. Peyğəmbər ona aman verdi, lakin bununla kifayətlənmədi. Peyğəmbər Məkkəyə daxil olduğu vaxt öz başına qoymuş olduğu əmmaməni ona verdi. Ümeyir Rəsulullahın əmmaməsini götürüb özünü Cəddəyə çatdırdı. Səfvan gəmiyə minməyə hazırlaşırdı. Ümeyr üzünü ona tutub dedi: Özünü fəlakətə atma! Peyğəmbər sənə aman vermişdir, indi birlikdə onun hüzuruna getməliyik. O, səni islama dəvət edəcəkdir. Əgər qəbul eləsən daha yaxşı; əks-halda sənə iki ay möhlət verəcəkdir. O, öz əhd-peymanına sadiqlikdə hamıdan üstündür.

Səfvan Rəsulullahın yanına gəldi. Peyğəmbər onu islama dəvət etdi, amma Səfvan dedi ki, ona dörd ay möhlət versinlər, təki bu barədə axtarış aparsın. Peyğəmbərin hərəkəti Səfvana o qədər təsir etmişdi ki, günlərin birində Rəsulullah Məkkədən Həvazini fəth etmək üçün çıxdığı vaxt iman gətirməməsinə baxmayaraq öz zirehli paltarını Peyğəmbərə icarəyə verdi. Peyğəmbər də onların hamısına zəmanət verdi. Həzrət Həvazin müharibəsindən qayıdanda o, artıq islamı qəbul etmişdi.[125]

Əbutalibin qızı və Əmirəlmöminin bacısı Ümmü Hani ərinin qohumlarından iki nəfərə (onun evinə pənah gətirmişdilər) sığınacaq vermişdi. Ümmü Hani deyir: «Məkkənin fəth olunduğu gün başdan-ayağa dəmir zirehdə olan bir süvari bizim evimizin qapısını döydü. Mən onu tanımırdım. O istəyirdi ki, mənim evimə pənah gətirənləri tutsun. Mən onun evə daxil olmasına mane oldum və dedim ki, mən

---

[125] «Məğazi Vaqidi», 2-ci cild, səh.854; «ibn Hişamın sirəsi», 2-ci cild, səh.418

Peyğəmbərin əmisi qızıyam. Bu vaxt üzündəki niqabı götürdü, gördüm ki, qardaşım Əlidir. Mən qardaşımı uzun çəkən ayrılıqdan sonra gördüyüm üçün çox xoşhal oldum və qollarımı boynuna saldım. Sonra onunla birlikdə Peyğəmbərin çadırına getdik. Orada Peyğəmbərin qızı Fatimədən başqa heç bir kəsi görmədik. Elə ki, Peyğəmbər gəldi, hadisəni ona dedim, buyurdu: «Ümmü Hani, sən hər kəsə aman versən, biz də aman verərik».[126]

## BÜTPƏRƏSTLƏRİN ARVADLARI PEYĞƏMBƏRLƏ BEYƏT EDİRLƏR

Əvvəlki fəsillərdə qeyd olundu ki, ənsarın qadınları Əqəbə beyətində Peyğəmbərlə beyət etmişdilər. Məkkənin fəthindən sonra islam nəğməsi qulaqlarına dəyən və bu dini qəbul etmək niyyətində olan Məkkənin bütpərəst qadınları Rəsulullahla aşağıdakı şərtlər daxilində beyət etdilər:

1. Allaha heç bir şərik qoşmasınlar;
2. Xəyanət etməsinlər;
3. Fahişəlik etməsinlər;
4. Öz arvadlarını öldürməsinlər;
5. Başqalarından olan övladlarını öz ərlərinə aid etməsinlər;
6. Xeyir işlərdə Peyğəmbərlə müxalifət etməsinlər.

Sonra Peyğəmbər əmr etdi ki, bir qabı su ilə doldurub bir az içərisinə ətir töksünlər. Sonra öz əllərini o qabın içinə salıb əhd-peymanın maddələrini göstərən ayələri oxudu və öz yerindən qalxıb dedi: «Mənimlə qeyd olunan şərtlər daxilində beyət etmək istəyən şəxslər öz əllərini suyun içinə qoysunlar və rəsmi olaraq öz sadiqliklərini elan etsinlər».

---

126 «Məğazi Vaqidi», 2-ci cild, səh.829; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.411

## MƏKKƏNİN FƏTHİNDƏN SONRAKI HADİSƏLƏR

Məkkə şəhəri demək olar ki, qan tökülmədən fəth olundu və islam tədricən Məkkənin evlərinə nüfuz etdi. Bir müddətdən sonra Peyğəmbər əmr etdi ki, hər kəsin evində bütü olsa, onu sındırsın və yaxud da yandırsın. Bütlərin biri digərindən sonra sındırılırdı. İş o yerə çatmışdı ki, Peyğəmbərin qədim düşməni olan Əbucəhlin oğlu Əkrəmə harda bir büt görsəydi, dərhal onu sındırmaq üçün yola düşərdi. Hətta Əbu Süfyanın arvadı Hind evlərindəki bütü sındırdı və bütə xitabən dedi: «Sən bizi çox aldatmısan!»

Məkkənin fəthi səkkizinci hicri il, ramazan ayının 20-də sona çatdı. İndi artıq Peyğəmbər ətraf məntəqələrə müəyyən heyətlər göndərərək köçəri ərəb qəbilələri arasında mövcud olan bütlərin sındırılmasının vaxtı gəlib çatdığını açıqlayırdı. Maraqlı hadisələrdən biri bu idi ki, Məkkənin ətraf məntəqələrində mövcud olan bütlər elə şəxslər tərəfindən sındırılırdı ki, onlar uzun müddət bütpərəst olmuşdular və bütlərin qorunub saxlanması yolunda mallarını, canlarını fəda etmişdilər. Məsələn, Xalid ibn Vəlid «Üzza» bütünü sındırmaq, Əmr As «Süva» bütxanasını dağıtmaq, Səd ibn Zeyd «Mənat» bütünü sındırmaq barədə göstəriş almışdı.

## HÜNEYN MÜHARİBƏSİ

Müxaliflərin ən böyük mərkəzi olan Məkkə şəhərinin fəth edilməsi ucqar məntəqələrdə olan qəbilələri çox narahat etdi və onlar başa düşdülər ki, tezliklə islam onların da vilayətinə çatacaqdır. Onlar qorxurdular ki, Peyğəmbər bu qəbilələrin bütlərini sındırmaq üçün ya şəxsən özü gələcək, ya da qüvvə göndərəcəkdir. Bu cəhətdən bir-birinin yanında yaşayan qəbilələr (Həvazin, Səqif, Nəsr, Səd və s.)[127] qərara aldılar ki, hərbi birlik təşkil etməklə islam ordusunun qarşısını alsınlar.

---

[127] «Məğazi Vaqidi», 2-ci cild, səh.829; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.411

Onlar təcrübə yolu ilə anlamışdılar ki, öz evlərində otursalar və düşmən onların məntəqələrinə çatsa, çox acınacaqlı hadisələrlə üzbəüz olacaqlar. Buna görə də qərara aldılar ki, hamılıqla Rəsulullaha müharibə etmək üçün hərəkət edib Hüneyn adlanan yerdə özlərinə düşərgə salsınlar. Peyğəmbərə xəbər verdilər ki, Həvazin qəbiləsi başqa qəbilələrlə birlikdə onlara tərəf hərəkət edirlər. Peyğəmbər həmin qəbilələrin tanımadığı bir şəxsi onların arasına göndərdi ki, xəbərin düz olub-olmaması barədə bir məlumat gətirsin. Bu qəbilələrin hərəkətə gəlməsi səbəb oldu ki, Peyğəmbər 12 min nəfərlik qoşunu (onlardan 2 min nəfəri islamı qəbul edən Məkkə müxalifləri idi) onlara doğru göndərsin.

Peyğəmbər Şəvvalın 6-da Məkkədən hərəkət etdi və Xalid ibn Vəlidi ordunun ön cəbhəsinin sərkərdəsi seçib irəliyə göndərdi. Amma Həvazin və onun müttəfiqləri olan qəbilələrin kişiləri həmin yolda dərələrdə gizlənmiş, özlərinə mövqe seçmişdilər və qəflətən müsəlmanlara həmlə etdilər. Ordunun ön tərəfində olan süvarilər qaçmağa üz qoydular, o birilər də bunların ardınca qaçdılar və ordu pərakəndə şəklə düşdü.

Bu vaxt Əbu Süfyan və zahirən müsəlman olan digər kafirlərin tənəli səsləri ucaldı və onlar öz qədim kin-küdurətlərini aşkar etdilər. Əbu Süfyan dedi: «Bu fərarilər dəryanın sahilinə qədər qaçacaqlar». Cəbələh ibn Hənbəl dedi: «Bu gün cadu batil oldu». Atası Ühüd döyüşündə öldürülən Şəbl dedi: «Mən bu gün Məhəmmədi atamın intiqamını almaq üçün öldürəcəyəm». Ordunun önündə gedən süvarilərin qaçması sonradan gələn dəstələrin də qaçmasına və ordunun nizamını bir-birinə vurmalarına səbəb oldu. Peyğəmbər belə həssas vaxtda xüsusi bir dahiliklə pərakəndə hala düşmüş qoşunu nizama saldı. Həzrət qaçanlara xitab edərək dedi: «Hara qaçırsınız?! Geri qayıdın! Mən Allahın Peyğəmbəri, Məhəmməd ibn Əbdüllaham».

Sonra çox uca səsi olan əmisi Abbasa dedi ki, fəryad çəkib desin ki, «Beyətür-rizvanın səhabələri, siz Hüdeybiyyədə ağacın altında Peyğəmbərlə beyət etmisiniz, ona doğru qayıdın!» Peyğəmbərin və Abbasın fəryadları müsəlmanları bir yerə yığdı. Onlar Rəsulullahın ətrafına

yığışdılar ki, müharibəni yenidən başlasınlar və islam ordusu öz nəzmini yenidən tapsın. Rəsulullah da düşmənin oxlarından amanda qalacaq bir məkana nəql olundu. Tarix bu barədə Əliyyibni Əbutalib, Ümmü Əmarə kimi şəxslərdən söz açır. Onlar müharibənin əvvəlindən pərvanə kimi Rəsulullahın ətrafında fırlanır, onu müdafiə edirdilər. İslam ordusu yenidən nizama salındıqdan sonra Həvazin qəbiləsinin kişiləri arvad-uşaqlarını, mal-dövlətlərini qoyub qaçmağa başladılar və onların əksəriyyəti əsir düşdü.

Müsəlmanların bu müharibədə ilk məğlubiyyəti onlara böyük bir dərs verdi. Qələbə Rəsulullahın köməkçilərinin bəzilərinin güman etdikləri kimi ordunun, silahın və döyüş-sursatın çoxluğu sayəsində deyil, əksinə başqa amillərin sayəsində olmuşdu. Həmin amillərdən əsas etibarilə möhkəm iman və əqidəni qeyd etmək olar. Əgər Peyğəmbərin dövrəsində əqidəli şəxslər olmasaydı, islam ordusu yenidən nizama salınmayacaqdı və qazanılmış bütün iftixarlar əldən gedəcəkdi.

Hüneyn müharibəsində müsəlmanlardan 8 nəfər şəhid oldu, bunun müqabilində Həvazin qəbiləsi və ətraf qəbilələrdən 6 min nəfər əsir düşdü. İslam ordusu əsirlərdən başqa, 24 min dəvə, 40 mindən artıq qoyun və 852 kq gümüş qənimət aldılar.

## TAİF DÖYÜŞÜ

Həvazin qəbiləsi və onunla müttəfiq olan qəbilələrin məğlub olmuş qoşunu ətraf məntəqələrə dağılışdı. Peyğəmbər oradan qaçanları təqib etməyi və Hicaz məntəqəsində bütpərəstlərin son dayaq yerlərini məhv etməyi məsləhət görürdü. Həvazin qəbiləsindən olan fərarilərin bir hissəsi Ovtaz məntəqəsinə yığışmışdı. Peyğəmbər Əbu Amir Əşarini həmin məntəqəyə göndərdi ki, bu məsələni sona çatdırsın. Ordunun sərkərdəsi fərarilərlə rastlaşıb müharibəyə başladı. Baxmayaraq ki, onun özü bir oxla şəhadətə çatdı, amma müharibə müsəlmanların xeyrinə başa çatdı.

Fərari bütpərəstlərin ən böyük düşərgəsi Taif qalası idi. Bu qala çox möhkəm idi və müharibədən qaçanlar orada bir yerə yığışmışdılar. Buna görə də Peyğəmbər Taifə yola düşdü və Səqif tayfasının yaşadığı bu qalanı mühasirəyə aldı.

Mühasirə zamanı iki tərəf arasında şiddətli döyüşlər başladı. Onlar bir-birinə ox yağdırır, mancanaqlardan istifadə edirdilər, lakin qaladakıların təslim olmasından azacıq da olsun əsər-əlamət görünmürdü. Peyğəmbərin əsgərləri müharibə arabalarından istifadə edərək qala divarlarını uçurmaq istəyirdilər, amma Taif camaatı onların başlarına qızmış dəmir parçaları tökərək, geri çəkilməyə məcbur edirdilər.

Mancanaqların işə salınması, döyüş arabalarından istifadə edilməsi inadkar Taif camaatını təslim edə bilmədi. Peyğəmbər onların əhval-ruhiyyəsini sarsıtmaq üçün əmr etdi ki, bir nəfər uca səslə desin ki, qaladan çölə çıxan hər hansı bir qul və ya kəniz azad olunacaqdır. Bu müraciətdən sonra onlardan bir qrupu qaladan çölə qaça bildilər. İslam əsgərləri onları sorğu-suala tutdular. Hamısı etiraf etdi ki, qalanın əhalisi qətiyyən təslim olmağa razı deyil. Əgər mühasirə hətta bir il də çəksə, onlar su və ərzaq baxımından çətinlik çəkməyəcəklər.

Peyğəmbər bütün hərbi taktikalardan istifadə etdi, lakin təcrübə göstərdi ki, meydandan tülkü kimi qaçan və möhkəm bir qalaya sığınan inadkar Səqif qəbiləsi çox da asanlıqla təslim olmayacaqdır. Nəhayət, 20 gündən sonra Peyğəmbər qərara aldı ki, mühasirəni ləğv edib Mədinəyə qayıtsın.

## ƏSİRLƏR AZAD OLUNUR

Peyğəmbər Mədinəyə qayıdarkən əksəriyyəti Həvazin qəbiləsindən olan 6 minə yaxın əsirin saxlandığı bir yerə çatdı. Həvazin qəbiləsinin bu müharibədə iştirak etməyən bəzi şəxsləri Rəsulullahın hüzuruna gəlib islamı qəbul etdilər və xahiş etdilər ki, əsirləri azad etsin. Peyğəmbər buyurdu: Mənə və Əbdülmüttəlib övladlarına məxsus olan şeylərin hamısını sizə bağışlayıram. Əgər o biri müsəlmanların da öz haqlarından

keçmələrini istəyirsinizsə, onda günorta namazında onlara deyin ki, biz Rəsulullahı müsəlmanların yanında, müsəlmanları da Rəsulullahın yanında arvad-uşaqlarımızın azadlığa buraxılması üçün vasitəçi edirik.

Həvazin qəbiləsindən göndərilənlər Peyğəmbərin göstərişinə uyğun olaraq günorta namazından sonra həmin cümlələri təkrar etdilər. Sonra Peyğəmbər ayağa durub dedi: Mən özümün və Əbdülmüttəlib övladlarının haqlarını sizə bağışladım.

Bundan sonra ənsardan olanlar dedilər ki, bizim haqqımız da Rəsulullaha aiddir. Rəsulullah bütün əsirləri onlara qaytardı.

Rəsulullah Həvazin qəbiləsindən gələn adamlardan soruşdu ki, Həvazin ordusunun sərkərdəsi Malik ibn Ovf haradadır. Cavab verdilər ki, o, Taif qalasına sığınıb və Səqif qəbiləsi ilə birlikdə yaşayır. Peyğəmbər buyurdu: Ona xəbər verin ki, əgər mənim yanıma gəlsə və islamı qəbul etsə, onun mal-dövlətini və adamlarını özünə qaytararam, üstəlik ona 100 dəvə də bəxşiş edərəm.

Elə ki, Peyğəmbərin verdiyi müjdə Malikə çatdı, gecə ikən Taifdən qaçıb Peyğəmbərin yanına gəldi. Beləliklə, qənimət alınmış mal-dövləti və tayfasının əsir düşmüş adamları azad olundu, üstəlik 100 dəvə də mükafat aldı. Bundan sonra o, islamda axıra kimi möhkəm qaldı. Peyğəmbər Malikin göstərdiyi şücaətlərə görə onu bir qəbiləyə başçı təyin etdi. Qənimətlərin bölüşdürülməsi zamanı Peyğəmbərin dostları, tərəfdarları israr edirdilər ki, onları tez bir zamanda bölüşdürsün. Peyğəmbər öz bitərəfliyini bildirmək üçün bir dəvənin yanında durdu və onun küvənindən bir az yun qopardı. Sonra barmaqlarının arasına qoyub üzünü camaata tutaraq dedi: Mənim sizin qənimətlərinizdən, hətta əlimdəki bu yunda da xümsdan başqa heç bir haqqım yoxdur. Mən özümə məxsus olan bu xümsü sizin özünüzə qaytarıram. İndi ki, belədir, sizlərdən hər kəsin yanında nə qədər və hansı növdən qənimət varsa, hətta iynə və sap kimi kiçik şeylərdən olsa da hamısını qaytarsın, sonra ədalətə riayət etməklə bölüşdürülsün.

Peyğəmbər beytülmalın hamısını müsəlmanların arasında bölüşdürdü, özünə məxsus olan beytülmalı isə islamı yenicə qəbul etmiş qəbilə başçıları arasında bölüşdürdü. Dünənə kimi Peyğəmbərin qatı düşmənləri və bütpərəst olan Əbu Süfyana və oğlu Müaviyəyə, Həkim ibn Xüzama, Haris ibn Harisə, Haris ibn Hişama, Süheyl ibn Əmarə, Hüvəytəb ibn Əbdülüzzaya və s. 100 dəvə, onlardan aşağı səviyyədə olanlara isə 50 dəvə verdi. Onlar bu kimi bəxşişlərlə Peyğəmbərin məhəbbətinin təsiri altına düşdülər və istər-istəməz islama doğru meyl göstərdilər. Bu işi islam fiqhində «müəllifətül-qülub» adlandırırlar və islam zəkatının məsrəf olunan yerlərindən biridir.[128]

[128] « İbn Hişamın sirəsi», 3-cü cild.səh.493

## ON DOQQUZUNCU FƏSİL

### DOQQUZUNCU HİCRİ İLİNİN HADİSƏLƏRİ
### HƏZRƏT ƏLİ TEYY MƏNTƏQƏSİNDƏ

Hicrətin səkkizinci ili tovhidin bütpərəstliyə qələbə çaldığı il və təkallahçılığın hər hansı çoxallahçılıq qarşısında qələbəsi idi. Bu il islam döyüşçülərinin fədakarlığı sayəsində tovhid günəşi Ərəbistan yarımadasının böyük bir hissəsinə nur saçdı. İslam dininin tam qələbəsi yarımadanın hər bir yerində hamı üçün qəti bir məsələ oldu. Bunun üçün əksər ərəb qəbilələri yarımadanın müxtəlif məntəqələrində islamı qəbul etmək üçün öz hazırlıqlarını bildirdilər və bu məqsədlə müxtəlif nümayəndə heyətlərini Peyğəmbərin hüzuruna göndərdilər.

Bu heyətlər ərəb qəbilələrinin islama sədaqətlərini və məhəbbətlərini Peyğəmbərə xəbər verdilər. Məhz buna görə də doqquzuncu hicri ili islam tarixində «Ammül-Vüfud» (nümayəndə heyətlərinin Ərəbistan yarımadasının bütün məntəqələrindən Mədinəyə axışıb gəlməsi ili) adlandırılırdı. Bu nümayəndə heyətlərinin sərgüzəştlərinin, onların Peyğəmbərlə apardıqları müzakirələrin araşdırılması aşkar şəkildə göstərir ki, islam məntiqi dəvət və təbliğ yolu ilə Ərəbistan yarımadasına nüfuz etmişdir. Əlbəttə, dövrün şeytanları əbusüfyanlar, əbucəhllər islamın daha çox genişlənməsi yolunda bir maneə idilər. Peyğəmbərin apardığı müharibələrin əksəriyyəti müsəlmanlar əleyhinə planlaşdırılan hiylələri zərərsizləşdirmək məqsədi daşıyırdı. Bundan əlavə, bu müharibələrin bəziləri də bu cür şeytanların məhv edilməsi üçün idi; elə şeytanlar ki, islamın yayılması yolunda böyük bir maneə törədir, təbliğat qoşununun Hicaz, Nəqd və sair kimi məntəqələrə hərəkətinin qarşısını alırdı. Heç bir ayin və islahat proqramı şeytanları məğlub etmədən, yol üzərində göyərmiş «tikanları» aradan qaldırmadan mümkün olmaz. Bu cəhətdən də görürük ki, təkcə islam Peyğəmbəri yox, ümumiyyətlə peyğəmbərlərin hamısı, hər şeydən əvvəl, şeytanları məhv etmək,

maneələri aradan qaldırmaq üçün çalışmışlar. Qurani- Məcid xüsusi bir surədə belə heyətlərin gəlməsindən, islamın Ərəbistan yarımadasında gündən-günə artan qələbəsindən söz açır[129] və buyurur: «Elə ki, Allahın qələbəsi gəlib çatdı (Məkkə fəth olundu), camaatı görərsən ki, dəstə-dəstə Allah dininə daxil olurlar. Bu halda öz Allahına sitayiş et, bağışlanmaq tələb et, çünki O, tövbələri qəbul edəndir». («Nəsr» surəsinin ayələri)

Ərəb qəbilələrində mövcud olan hazırlıqlara və nümayəndə heyətlərinin Mədinəyə daxil olmasına baxmayaraq, onların tərəfindən 9-cu hicri ilində 7 səriyyə, 1 qəzvə (döyüşlərin adı) baş verdi; bu döyüşlər müxaliflərin planlarının zərərsizləşdirilməsi və əksər hallarda böyük bütlərin sındırılması istiqamətində idi. Bu bütlər hələ də ərəb qəbilələri arasında pərəstiş olunurdu.

Bu döyüşlər içərisində Əliyyibni Əbutalibin apardığı bir döyüşü (o, Peyğəmbərin əmri ilə Teyy məntəqəsinə yola düşmüşdü), habelə Təbuk müharibəsini qeyd etmək olar. Bu döyüşdə Peyğəmbər böyük bir qoşun ilə Mədinədən çıxıb Təbuk sərhədlərinə gəlib çıxmışdı, amma düşmənlə qarşılaşmadan, qan axıdılmadan Mədinəyə qayıtdı, lakin gələcəkdə həmsərhəd şəhərlərinin fəth olunmasını hazırladı. Biz bu fəsildə bir döyüşü və Təbuk müharibəsini qeyd edirik.

## ƏLİ (ə) TEYY MÜHARİBƏSİNDƏ

Peyğəmbər 9-cu hicri ilində Həzrət Əlini 150 hərbi süvari ilə Teyy qəbiləsinə doğru göndərdi və ona əmr etdi ki, qəbilənin böyük bütünü (Fəlsi) sındırsın, Teyy qəbiləsini çoxallahçılıq caynağından qurtarsın. Teyy qəbiləsi Hatəmi Tainin mənsub olduğu qəbilə idi. O, ərəb qəbilələri arasında səxavət və ehsanla şöhrət tapmışdı. Teyy qəbiləsi bir qədər

[129] «Təbəqatül-kübra», 1-ci cild, səh.291 -359.

müqavimət göstərdikdən sonra məğlub oldu, qəbilə üzvləri isə əsir düşdülər.

Bu qəbilənin rəisi Ədi ibn Hatəm Şama çatdı, amma bacısı Süffanə əsir düşdü. Ədi ibn Hatəm özünün islamı qəbul etməsini belə nəql edir: «İslam dinini özümə din seçməmişdən əvvəl məsihi dinində idim və islam Peyğəmbəri barədə aparılan əks təbliğat mənim qəlbimdə ona qarşı kin-küdurət yaratmışdı. Mən o Həzrətin qazandığı qələbələrdən agah idim. Bilirdim ki, bir gün bu qələbələrin dalğası bizim də diyarımıza gəlib çatacaq, amma mən islam əsgərlərinin əlinə düşməmək üçün öz qulamlarıma əmr etdim ki, yorğa dəvələri hərəkət üçün hazırlasınlar. Məqsədim təhlükə hiss edəndə onlara minib Şama hərəkət etmək idi. Günlərin birində qulamlarımdan biri mənim yanıma gəlib İslam ordusunun bizim məntəqəyə doğru irəlilədiyini xəbər verdi. Mən dərhal əvvəldən hazırlanmış vasitələrlə Şama yola düşdüm və orada özümə məskən seçdim. Lakin bacım əsir düşdü və Mədinədə, Harisin qızının evində yaşamağa başladı. Peyğəmbər oradan keçəndə ona demişdi: «Ey Peyğəmbər, atam ölmüş, ərim və sahibim yoxa çıxmışdır. Boynuma minnət qoy, Allah sənə minnət qoysun».

Günlərin birində Peyğəmbər bacımdan soruşmuşdu ki, sahibin kimdir? O da cavab vermişdi ki, Ədi ibn Hatəmdir. Peyğəmbər buyurmuşdu: «Allahdan və onun Peyğəmbərindən qaçan şəxsi deyirsənmi?» Bacım xahişini üç gün təkrar etdi, amma heç bir nəticə vermədi. Dördüncü gün Peyğəmbər oradan keçəndə Əlinin (ə) etdiyi işarə ilə xahişini yenə təkrar etdi. Rəsulullah bacımı azad edib özünün etimad etdiyi bir karvanla Şama göndərdi. Birdən gördüm ki, üstündə kəcavə olan bir dəvə evimin qabağında yatdı, bacım ondan yerə endi. Evə daxil olduqdan sonra giley-güzar edib dedi ki, nə üçün onu Teyy məntəqəsində tək qoydum və özümlə Şama gətirmədim. Bacım ağıllı bir adam olduğundan ondan soruşdum ki, peyğəmbərlik iddiası edən bu kəs haqqında nə deyə bilər? O cavab verdi: Mən sənə məsləhət görürəm ki, təcili olaraq ona qoşulasan. Əgər o, Peyğəmbər olsa, qabağa düşdüyündən sizin üçün

böyük bir fəzilət olar: yox əgər adi bir sərkərdə olsa, sən onun qüdrətindən bəhrələnərsən.

Mən onun sözünü təsdiqlədim və qərara aldım ki, Mədinəyə gedib Peyğəmbəri yaxından görüm. Elə ki, Mədinəyə daxil oldum Peyğəmbəri məscidin içində gördüm, ona salam verib dedim: Mən Ədi ibn Hatəməm.

O, ayağa qalxdı və məni öz evlərinə apardı. Yolda qoca bir arvad ondan bir söz soruşmaq üçün saxladı. Peyğəmbər təmkinlə qadının sözünə qulaq asdı, sonra da cavabını dedi. Mən öz-özümə fikirləşdim ki, bu xasiyyət padşahlara və sərkərdələrə məxsus olan xasiyyət deyildir. Sonra birlikdə evinə daxil olduq. Onun sadə həyat tərzi mənim diqqətimi özünə cəlb etdi.

Evlərində xurma lifindən toxunmuş bir həsir vardı, onu mənə tərəf çəkdi və dedi ki, onun üstündə oturum. Onun təvazökarlığı məni heyrətə salmışdı. Əxlaqından dərk etdim ki, padşah, yaxud sərkərdə deyildir. Sonra mənim tabe olduğum dindən xəbər verib dedi ki, məgər sən öz qəbilənin gəlirinin dörddə bir hissəsini özünə aid etməmisənmi? Dedim ki, bəli. Dedi ki, axı bu iş sənin tabe olduğun dində halal iş deyildir. Onun verdiyi xəbərlər məni daha da cəzb etdi. Sonra məndən soruşdu ki, nə üçün islam dininə iman gətirmirsən; əgər müsəlmanların yoxsulluğu sənin islama doğru gəlməyinin qarşısını alırsa, bilməlisən ki, çox keçməz mal-dövlət müsəlmanlara tərəf axıb gələr, onların arasında bir nəfər də olsun yoxsul qalmaz; yox əgər onların düşmənlərinin çoxluğu sənin islamı qəbul etməyinə mane olursa, Allaha and olsun ki, bir azdan görəcəksən ki, bu maneələr yolun üzərindən götürülmüşdür. Belə ki, öz dəvəsinə minmiş bir qadın tək-tənha Qüdsiyyədən Allah Evinin ziyarətinə gedəcək. Əgər indi qüdrət və səltənəti başqalarının əlində görürsənsə və bu da sənin iman gətirməyinə mane olursa, Allaha and olsun ki, Babil diyarı özünün ağ sarayları ilə birgə müsəlmanların üzünə açılacaqdır.

Ədi ibn Hatəm deyir: «Mən sonralar Peyğəmbərin verdiyi iki xəbərin həqiqətən doğru olduğunu öz gözlərimlə müşahidə etdim. Gördüm ki, Babil saraylarının qapıları müsəlmanların üzünə açıldı və həmçinin

gördüm ki, bir qadın Qüdsiyyədən təklikdə öz dəvəsinə minib, heç kəsdən qorxmadan Allah Evinin ziyarətinə gedə bilir. Çox çəkməz ki, o Həzrətin verdiyi üçüncü xəbər də həqiqətə çevrilər».[130]

## TƏBUK DÖYÜŞÜ

9-cu hicri ilində bir ticarət karvanı Şamdan Mədinəyə un və yağ gətirirdi. Peyğəmbərə xəbər verdilər ki, Roma dövləti böyük bir qoşunla Suriya və Hicaz məntəqəsinin sərhəd zolağına gəlmiş və ərəb qəbilələrinin bəzilərini müsəlmanlarla müharibə etmək üçün hazırlamışdır. Artıq ordunun ön hissələri Bəlqa məntəqəsinə gəlib çatmışdır.[131]

Bu xəbər Peyğəmbərə çatanda hava çox isti idi məhsulun yığılması, taxılın biçilməsi mövsümü idi, amma islamın dəyəri Peyğəmbər və onun səmimi dostları yanında qeyd olunan maddi məsələlərdən daha yüksəkdə dururdu və onlar bu kimi məsələləri unudub düşmənin onların vətənlərinə hücum etməsinə icazə verməzdilər.

Peyğəmbərin adəti belə idi ki, həmişə düşmənin üzərinə atılar, düşmənə azacıq da olsa möhlət və hərəkət etmək imkanı verməzdi. Düşmən ordusu pərakəndə hala düşəndə isə onun yenidən nizama salınmasına imkan verməzdi. O, heç vaxt gözləməzdi ki, düşmən onun evinə gəlib çıxsın və onunla döyüşə başlasın.[132]

Peyğəmbər döyüşlərin çoxunda düşmənə qəflətən hücum etmək üçün öz hərəkət istiqamətini əvvəlcədən demirdi. Lakin bu müharibədə yol çox uzun olduğuna görə (Təbuk məntəqəsi Suriya və Hicaz sərhədlərində yerləşir və Mədinədən Təbuka qədər olan məsafə təqribən 600 km-dir) o, naçar qalıb öz məqsədini müsəlmanlara aydınlaşdırdı ki, yolun uzun olması ilə əlaqədar olaraq lazım olan vasitələri hazırlasınlar. Məlum

---

[130] «Məğazi Vaqidi», 3-cü cild, səh.980, 988, 989; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.578, 581.

[131] «Məğazi Vaqidi», 3-cü cild, səh.989, 990.

[132] «Təbəqat», 2-ci cild, səh.108-109.

olduğu kimi, azsaylı qoşunla romalılarla döyüşə girişmək heç də məsləhət deyildi. Əks-halda, islam ordusu Mötə döyüşündəki vəziyyətlə qarşılaşmalı olacaqdı. Bu cəhətdən Təmim, Qətvan və Teyy qəbilələrindən kömək aldı və müxtəlif qəbilələrə, o cümlədən Ətab ibn Əsidə (Məkkənin cavan sərkərdəsi idi) məktub göndərdi, hamını müqəddəs cihadda iştirak etməyə dəvət etdi. Belə bir ümumi dəvət heç də gizlədiləsi deyildi.[133] Buna görə Peyğəmbər hamını Mədinəyə dəvət etdi. 30 min nəfərlik bir ordu (onların 10 min nəfəri süvari idi) Mədinə qərargahına yığışdı. Bu ordugahda hər qəbilədən bir dəstə var idi, hərəsi də özlərinə məxsus bayraq götürmüşdü.

## TƏBUK MÜHARİBƏSİ VƏ MÜXALİFLƏR

Peyğəmbər bilirdi ki, bu döyüş digər döyüşlərdən fərqlənir. O, həmişə istəyirdi ki, çoxlu qoşun yığsın, hamısı da hazırlıqlı olsun, çoxlu döyüş sursatı ilə təchiz olunmuş halda hərəkət etsin. Amma bu vaxt müxaliflər işi pozmağa başlayıb, dəstələrdən birini islam ordusunda iştirak etməkdən saxladılar. «Tövbə» surəsində nazil olan ayələrə müraciət etməklə məlum olur ki, o zaman Rəsulullahın dostları bir neçə qrupa bölünürdü: birincisi, fədakar qrup idi, bunlar ya döyüş cəhətindən müxtəlif imkanlara malik idilər, ya da bu yolu getməyə qadir idilər. İkinci qrup döyüşə hazırlıqlı idi, lakin döyüş vəsaiti və sursatı yox idi. Onlar Rəsulullahdan döyüşdə iştirak edə bilmək üçün döyüş sursatları istədilər. Peyğəmbər buyurdu: «Sizə verə biləcək heç bir vasitə, döyüş sursatı yoxumdur». Onlar bu sözü eşidəndən sonra gözlərindən yaş axan halda öz yerlərinə qayıtdılar. Üçüncü dəstə özləri iştirak etməyən və qoşunun yığılması işində maneə törədənlər idi. Onlar deyirdilər ki, isti havada müharibə etmək məsləhət deyildir. Dördüncü dəstə müharibədə iştirak etməyən və həm də bu işə meyli olmayanlar idi. Amma aşkar şəkildə də

[133] «Biharül-Ənvar», 21-ci cild, səh.244.

müxalifətdə olmaq istəmirdilər. Onlar Peyğəmbərdən icazə almışdılar ki, Mədinədə qalsınlar və bu döyüşdə iştirak etməsinlər.

Bir qrup da Peyğəmbərin çadırında ordugah qurub onunla hərəkət etməyə hazır idilər. Lakin hərəkət vaxtı Peyğəmbərdən ayrılıb şayiə yaydılar ki, O, romalılarla müharibədə məğlub olacaq və tezliklə əsir düşəcəkdir. Bunlar Əbdüllah ibn Übeyyin başçılığı altında müxtəlif maneələr yaradan müxaliflər idi.

## HƏZRƏT ƏLİ MƏDİNƏDƏ PEYĞƏMBƏRİN CANİŞİNİ OLUR

Əmirəlmöminin Əli ibn Əbutalib (ə) bütün döyüşlərdə Peyğəmbərlə birlikdə olmaq iftixarına malik idi, lakin bu döyüşdə Peyğəmbərin əmrinə görə Mədinədə qalmışdı. Mədinədəki müxaliflər və sonradan oraya qayıdan Əbdüllah ibn Übeyy fürsətdən istifadə edərək aqibəti çox pis olan işlər törədə bilərdilər.[134] Bunu nəzərə alan Peyğəmbər şücaətli və işbilən bir adamı – Həzrət Əlini Mədinədə öz canişini təyin etdi ki, hər hansı xoşagəlməz hadisənin qarşısını alsın. Müxaliflər Həzrət Əlinin Mədinədə qalmasından agah olduqdan sonra öz planlarının və hiylələrinin puç olduğunu gördülər. Onlar bilirdilər ki, orada Əlinin və onun ətrafındakıların mövcud olması ilə iğtişaş yarada bilməyəcəklər. Ona görə də başqa yolla şayiələr yaymağa başladılar və dedilər ki, Peyğəmbərlə Əlinin arasında soyuqluq yaranmış, əlaqələri pozulmuş və nəticədə onu özü ilə aparmamışdır. Əli (ə) dərhal Peyğəmbərin (s) yanına gəldi və belə bir şayiənin yayıldığını ona xəbər verdi.

Peyğəmbər buyurdu: Mən səni yalnız cihadda iştirak etməkdən boyun qaçıraraq Mədinədə qalan bir qrupun törədə biləcəyi işlərin qarşısını almaq üçün orada qoymuşam. Əlican, qayıt, mənim öz ailəm arasındakı nümayəndəm ol.

---

[134] «Təbəqatü ibn Səd». 2-ci cild, səh.213.

Bundan sonra Peyğəmbər özünün çox mühüm və tarixi bir fikrini belə buyurdu: – Əlican, razı olmazsanmı ki, sənin mənə nisbətən olan məqamın Harunun Musaya nisbətən olan məqamı kimi olsun, yalnız bu fərqlə ki, məndən sonra heç bir Peyğəmbər yoxdur![135]

## HİYLƏLƏR İFŞA OLUNDU

Ümumi səfərbərlik elan olunan zaman Peyğəmbərə xəbər verdilər ki, bir qrup müxalif bir yəhudinin evinə yığışmış və camaatı cihaddan saxlamaq istəyirlər. Peyğəmbər Təlhə və başqa birisinə dedi ki, oraya gedib həmin evi yandırsınlar. Beləliklə, fitnə-fəsad törədənlər bilsinlər ki, islam cəmiyyətinə nüfuz etmək üçün onlara heç bir yol yoxdur. Müxaliflər öz planları ilə məşğul olduqları vaxt gözlənilmədən evdən qalxan od şölələrini gördülər. Hamısı evdən qaçmağa başladı və qaçanlardan birinin ayağı sındı. Beləliklə, hiylə ifşa olundu.

Mədinədə bu cür hiyləbazlarla yanaşı, xeyli fədakar insanlar da var idi. Məsələn, Rəsulullahın dostlarından biri – Malik islam ordusu hərəkətə başlayandan sonra Mədinəyə gəldi və hər yeri sakit gördü. O, öz bağına girib ailəsinin yanında oturdu və dedi ki, yemək hazırlayıb gətirsinlər. Lakin vicdanı ona icazə vermədi ki, Peyğəmbər və onun dostları qızmar günəş altında cihada doğru tələsdikləri halda öz ailəsində, ağacların altında istirahətlə məşğul olsun. Buna görə də dərhal azuqə götürüb yola düşdü və Təbuk məntəqəsində özünü Peyğəmbərə çatdırdı.[136]

Cihadın xərcləri xüsusi bir qrup üçün çox da ağır deyildi. Əgər Əbdürrəhman ibn Ovf, Osman ibn Əffan, Abbas ibn Əbdülmütəllib, Təlhət ibn Übeydulla kimi varlı şəxslər böyük məbləğdə kömək etmişdilərsə, gəlirləri yalnız üç kilo xurma dəyərində olan fəqir və kasıb

---

[135] Yəni «Məndə olan bütün mənsəblər və məqamlar səndə də vardır. Yalnız bu fərqlə ki, mənimlə tamamlanmaqda olan peyğəmbərlik məqamı səndə yoxdur». «ibn Hişamın sirəsi», 2-ci cild, səh.519,520 .

[136] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.520.

şəxslər də öz imkanları dairəsində köməklik göstərirdilər. Qadınlar da öz bəzəklərini, qiymətli paltarlarını verməklə cihadın xərclərini təmin edirdilər.

Beləliklə, Peyğəmbər öz ordusu ilə Təbukə doğru yola düşdü. Yolda çoxlu çətinliklərlə üzbəüz oldular; hətta iş o yerə çatmışdı ki, bu ordunu «ceyşül-əsrət», yəni «çətinlik ordusu» adlandırmışdılar. İslam ordusu Səmud qövmünün yaşadığı məntəqəyə çatanda Peyğəmbər yandırıcı küləklərin təsirindən qorunmaq üçün üzünü bir parça ilə örtdü. Bu qövmün qədimdəki yaşayış məskənləri olan xarabalıqların yanından keçəndə Həzrət əmr etdi ki, əsgərlər o yerin suyundan içməsinlər. Həzrət Salehin dəvəsinin su içdiyi quyunun yanına çatanda artıq gecənin yarısından bir qədər keçmişdi. Peyğəmbərin əmri ilə əsgərlər dəvələrdən və atlardan düşüb istirahət etdilər. Allahın Rəsulu ehtiyat əmrləri də verərək buyurdu ki, dəvələrin ayaqlarını bağlasınlar, heç kəs gecə yarısı istirahət yerindən təklikdə çölə çıxmasın. Bu ehtiyat göstərişinə riayət etmək çox lazımlı idi. Belə ki, iki nəfər səhlənkarlıq edərək çölə çıxdılar, biri tufanın şiddətindən boğuldu, digəri isə dağa-daşa çırpıldı.

Yolun yarısında Peyğəmbərin dəvəsi itdi, bir neçə nəfər onu axtarmağa başladılar. Bu anda müxaliflərdən biri müsəlmanların əqidəsini zəiflətmək üçün dedi: «Məhəmməd yuxarı aləmlərdən xəbər verir, lakin öz dəvəsinin yerini bilmir». Bu xəbər Peyğəmbərə çatanda buyurdu ki, mən Allahın öyrətdiklərindən başqa heç nə bilmirəm. Allah indi məni dəvəmin olduğu səmtə yönəltdi. Mənim dəvəm o dərədədir. Onun cilovunu ağaca bağlayıb yoldan saxlamışlar, gedin onu gətirin. Bir neçə nəfər dərhal o yerə getdilər və dəvəni Həzrətin buyurduğu yerdə gördülər.[137]

Əbuzərin dəvəsi yerimir və qoşundan geri qalırdı. O, dəvəni hərəkətə gətirmək üçün səy göstərdi, amma faydası olmadı. Əbuzər piyada yola düşdü. Bir məntəqədə istirahətlə məşğul olan əsgərlər uzaqdan tək-

---

[137] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.523; «Məğazi Vaqidi», 3-cü cild, səh.109.

tənha gələn bir qaraltı gördülər. Peyğəmbər onu tanıdı və dedi ki, bu Əbuzərdir. Daha sonra qeybdən gələn bir xəbər verib buyurdu: «Allah Əbuzəri bağışlasın; tək yol gedir, tək öləcək və təklikdə məşhər ayağına gələcəkdir». Zaman bu xəbərin düzgün olduğunu isbat etdi – Əbuzər Rəbəzə adlı bir səhrada, faciəli halda can verdi.[138]

## İSLAM ORDUSU TƏBUK MƏNTƏQƏSİNDƏ

Nəhayət, islam ordusu Peyğəmbərlə birlikdə Taif məntəqəsinə gəldi və gecəni orada istirahətlə məşğul oldular. Peyğəmbər öz əsgərlərinə müraciət etdi və bir yeri məscid üçün seçib qibləsini bir daşla təyin etdi. O, iyirmi gün Təbukda qaldı, lakin Roma qoşunlarından heç bir əsər-əlamət görünmürdü.

İndi bir sual qarşıya çıxdı ki, bu qədər xərc və əzab-əziyyətlə bura qoşun gətirməyin nə kimi faydası oldu? Cavabda aşağıdakıları qeyd edirik:

– Bu ordunun rəhbəri – Həzrət Peyğəmbər Mədinədən Şam sərhədlərinə qədər ərazilərdə yaşayan sakinlərə, onların Qeysər tərəfindən təyin olunan padşahlarına başa saldı ki, islamın qüdrəti onların düşündüklərindən daha çoxdur və islam ordusu ilə qarşılaşmaq qeyri-mümkündür. Buna görə də Peyğəmbər Təbuk məntəqəsinə çatanda, onun qoşununun əzəmətini hiss edən sərhəd məntəqələrinin bəzi sərkərdələri dərhal o Həzrətin hüzuruna gəlib bildirirdilər ki, hər il islam hökumətinə müəyyən məbləğdə pul verib onun himayəsi altında yaşamağa razıdırlar. Peyğəmbər də onlar üçün bir amannamə yazdı.[139]

– Dumətül cəndər adlı bir məntəqədə (yaşıllıqlar və axar suları olan yerdir) möhkəm bir qala vardı. Ükəydər adlı bir məsihi orada hökmranlıq edirdi. Onunla Roma sərkərdəsi Hirqəl arasında yaxşı münasibət olduğuna görə, müsəlmanlar üçün təhlükə mərkəzi sayılırdı. Peyğəmbər

---

138 «İbn Hişamın sirəsi», 2-ci cild, səh.523
139 «İbn Hişamın sirəsi», 2-ci cild, səh.525; «Əmtaül-Əsma», 1-ci cild, səh.468-469.

ordunun köməyi ilə həmin məntəqənin silahsızlaşdırılmasının zəruri olduğunu vurğuladı. Həzrət Xalid ibn Vəlidi bu məqsəd üçün göndərdi. Xalid 420 süvari ilə Dumətül-cəndərə getdi, oranın hakimini tutdu və onu məcbur etdi ki, öz adamlarına qalanı islam qoşunlarının üzünə açmaq barədə göstəriş versin. Ükəydərin əmri ilə qalanın qapısı açıldı və orada mövcud olan bütün silahlar müsadirə edildi. Ükəydər və qardaşı Əmir Xalid ilə birlikdə Peyğəmbərin yanına qayıtdılar. O Həzrət hər ikisini bu şərtlə azad etdi ki, hər il müəyyən miqdarda cizyə verib islam dövlətinin himayəsində yaşasınlar.

– Peyğəmbər bu məşəqqətli səfərdə Şamın fəth olunması yolunu hazırladı, ordu başçılarını bu yolun xüsusiyyətlərindən, çətinliklərindən agah etdi, o dövrün qüdrətli dövlətləri ilə nə cür qarşılaşmaq yollarını onlara göstərdi. Bu səbəbdən də Peyğəmbərin vəfatından sonra fəth olunan ilk məntəqə Suriya idi.

– Bu ümumi səfərbərlikdə möminlər allahsızlardan seçildi; belə ki, onlar Peyğəmbərlə birlikdə getməkdən boyun qaçırdılar.

## MÜXALİFLƏRİN PLANLARI

Peyğəmbər Təbukdə 20 gün qalıb bir müqavilə bağladıqdan və ətraf məntəqələrə müxtəlif heyətlər göndərməyi qərara aldıqdan sonra Mədinəyə qayıtdı. Yol üstündə bir tərəfi dərin bir dərəyə gedib çatan yerdə dayandılar. Peyğəmbər qoşuna əmr etdi ki, həmin dərədən hərəkət etsinlər, özü isə dərənin yuxarısından getdi ki, başqa bir yerdə onlara qoşulsun. Əmmar Peyğəmbərin dəvəsinin yüyənini çəkir, Hüzeyfə isə arxadan sürürdü. Gecə qaranlığında gözlənilmədən bir neçə nəfərin səs-küyü eşidildi. Onlar üzlərini örtmüş halda Peyğəmbərin dəvəsinin ardınca hərəkət edirdilər. Məlum oldu ki, onlar sui-qəsd etmək istəyirlər. Bu hiylədən agah olan Peyğəmbər Hüzeyfəyə dedi ki, onları geri qaytarsın. Hüzeyfə onlara həmlə etdi, onlar tanınacaqlarını duyduqları üçün geri qayıdıb özlərini qoşunun içinə saldılar. Ertəsi gün Peyğəmbərin dostlarından biri dünən onu öldürmək qərarına gələn şəxslərin edam

olunmalarını istədi. Peyğəmbər icazə vermədi və buyurdu ki, onları boş buraxın. Sui-qəsd işində iştirak edənlər 12 nəfər idi və Peyğəmbərin dəvəsini hürküdüb dərəyə salmaq istəyirdilər.

Hüzeyfə deyir: Mən onların dəvələrindən və nişanələrindən tanıdım. Hətta onların adlarını da Peyğəmbərə dedim ki, cəzalandırsın, amma buyurdu ki, onları ifşa etməyin, bəlkə tövbə etdilər. Tarix göstərir ki, Hüzeyfənin onlar barəsində əldə etdiyi məlumata görə, ikinci xəlifə onun (Hüzeyfənin) bir kəsin o müxaliflərdən olmaması barədə şəhadət verməyincə heç kəsin cənazəsinə namaz qılmazdı.[140]

## YAXŞI NİYYƏT MÜKAFATSIZ QALMIR

İslam ordusu müəyyən müvəffəqiyyətlər əldə etdikdən sonra Mədinəyə qayıtdı. Bu müvəffəqiyyətlər bəzi şəxslərə qürur gətirə bilər, onların üzrlü səbəblərə görə Mədinədə qalan şəxslərə təhqirlə yanaşmasına səbəb ola bilərdi. Bunun qarşısını almaq üçün Peyğəmbər Mədinənin yaxınlığında dayanıb əsgərlərə dedi: Mədinədə bəzi adamlar var ki, şəhərdən kənara çıxmamışlar, lakin onlar mükafat məsələsində sizinlə şərikdirlər. Onlar cihada getmək arzuları və istəkləri olduğu halda üzrlü səbəblərə görə gedə bilməyənlərdir.[141] Bu iş bizə islamın tərbiyəvi əlamətlərindən birini xatırladır.

Bəzi vaxtlar təmiz niyyət əməlin yerində oturur; elə bir niyyət var ki, qüdrətlə birlikdə olsaydı, təbiidir ki, o, işin görülməsilə nəticələnəcəkdi.

## ZİRAR MƏSCİDİNİN SƏRGÜZƏŞTLƏRİ

Müxaliflərin başçılarından biri Əbu Amir adamlarına göstəriş verir ki, qəbilələrin birində namaz vaxtlarında yığışıb öz işləri barəsində söhbət etmək üçün məscid tiksinlər. Məlum idi ki, onların məscid tikmək məsələsində əsl məqsədi casusluq yuvası idi. Peyğəmbər Təbukdan

---

[140] «Məğazi Vaqidi», 3-cü cild, səh. l043; «Biharül-Ənvar», 21-ci cild, səh.247
[141] «Təbəqatü ibn Səd», 2-ci cild, səh.121; «Hələbinin sirəsi», 3-cü cild, səh.103

qayıdandan sonra Mədinənin yaxınlığında məscid tikənlərin alçaq niyyətlərindən agah oldu. Öz dostlarından iki nəfəri çağırıb dedi ki, həmin məscidə gedib onu sökün və orada işlədilən ağacları yandırın. Onlar dərhal yola düşdülər. Məscidə çatanda artıq müxaliflər namaz qılmaq üçün oraya yığışmışdılar. Onlar məscidi söküb dağıtdılar, bütün ağaclarını isə yandırdılar. Beləliklə, bu məsciddən heç bir əsər-əlamət qalmadı. Quran bu məscidin sərgüzəştlərini «Tövbə» surəsinin 107-108-ci ayələrində bəyan etmişdir.

Zirar məscidinin dağıdılması müxalif təşkilatına böyük zərbə idi. Bu hadisədən sonra oraya yığışanların birliyi dağıldı, yeganə himayəçisi olan Əbdüllah ibn Übeyy Təbuk müharibəsindən sonra öldü.

## MƏNFİ MÜBARİZƏ

İslam ordusunun Mədinədən Təbuka çıxdığı vaxt bir dəstə müxalif Mədinədə qalmış müsəlmanlara bu işdə kömək etməmişdilər. Onların işi heç də təəccüblü deyildi, çünki həssas vaxtlarda müsəlmanlara kömək etmələri heç də gözlənilmirdi. Əlbəttə, qəlbində şəkk və nifaq olan şəxslər ola bilsin ki, Peyğəmbərə o məşəqqətli cihadda bəzi köməklər elədilər, lakin Rəsulullahın dostlarından üç nəfər gözlənildiyinin əksinə olaraq, müəyyən səbəblərə görə Mədinədə qaldılar və bu müharibədə o Həzrətə kömək etmədilər. Onlar belə bəhanə gətirdilər ki: «Məhsulun yığım mövsümüdür, meyvələr ağacların başında qalmışdır. Biz meyvələri tədarük etdiyimizə görə bu cihadda iştirak edə bilməyəcəyik». Əlbəttə, onlar Peyğəmbərə söz verdilər ki, məhsul yığımından sonra özlərini islam ordusuna çatdıracaqlar, amma sözlərinə əməl etmədilər və islam ordusu qayıdana kimi Mədinədə qaldılar. İslam ordusu zəfərlə Mədinəyə daxil oldu, halbuki həmin üç nəfər hələ də bazar işləri ilə məşğul idilər. Elə ki, Peyğəmbər Mədinəyə çatdı, müsəlmanları «mənfi mübarizə»yə dəvət etdi. Onlara dedi ki, bu üç nəfərlə danışmayın, alver etməyin. Nəticədə onların müsəlmanlarla olan hər növ əlaqəsi kəsildi, öz evlərində oturdular. Peyğəmbərin bu siyasəti həmin üç nəfərə çox ağır təsir etdi.

Hamısı başa düşdü ki, islamın hakim olduğu mühitdə həyat yalnız onun qələbə və proqramları sayəsində ola bilər. Peyğəmbərin bu üç nəfərin əleyhinə «blokada» elan etməsi onlara o qədər ağır başa gəlmişdi ki, dünyanın geniş fəzası belə onlara dar gəlirdi. Nəhayət, onlar öz keçmiş əməllərindən peşman oldular və Allah dərgahında tövbə etdilər. Bu hadisədən əlli gün keçəndən sonra vəhy nazil olub tövbələrin qəbul olunduğunu elan etdi. Quran o üç nəfərin sərgüzəştlərini «Tövbə» surəsinin 118-ci ayəsində bəyan etmişdir.

Təbuk müharibəsi Peyğəmbərin şəxsən iştirak etdiyi axırıncı müharibə idi.

## TAİF NÜMAYƏNDƏLƏRİ MƏDİNƏDƏ

Təbuk müharibəsi özünəməxsus çətinlik və müsibətlərlə sona çatdı. Qeyd etdiyimiz kimi, Peyğəmbər Həvazin qəbiləsi ilə müharibədə Taifi mühasirəyə aldı, amma islam ordusu nə qədər səy göstərdisə, qalanın qapısını aça bilmədi. Çünki qala çox uca və möhkəm, camaatı isə pəhləvan və inadkar idi. Bu səbəbdən Peyğəmbər Mədinəyə qayıtdı. Təbuk müharibəsində Həzrətin qələbə çalması isə bütün ərəb qəbilələrinə xəbərdarlıq idi ki, Hicaz məntəqəsində bütpərəstlərə yer yoxdur. Çünki dünyanın böyük bir qüdrəti (Roma imperatorluğu) islam ordusu ilə üzləşməkdən çəkindiyi halda Səqif kimi qəbilələrin halı artıq aydındır. Bundan sonra Səqif qəbiləsində bir növ ikitirəlilik, ixtilaf əmələ gəldi.

Ürvət ibn Məsud Səqif (Səqif qəbiləsinin başçılarından biri) islam ordusunun qələbəsindən agah olandan sonra Peyğəmbərin hüzuruna gəlib islamı qəbul etdi, icazə aldı ki, Taifə qayıdıb öz qəbiləsini islama dəvət etsin. O, islamın ilk təbliğatçısı kimi Taifə qayıtdı, lakin islamın qüdrətindən kifayət qədər xəbərdar olmayan şəxslər onun üstünə tökülüb öldürdülər. Ürvətin qətlə yetirilməsi qəbilə arasında ciddi ixtilaf və ikitirəlilik saldı, ələlxüsus, onların bütün yol və otlaqlarının müsəlmanlar tərəfindən hədələnməsi məlum olduqdan sonra bu daha

da artdı. Bu cəhətdən qərara aldılar ki, öz tanınmış şəxsiyyətlərindən birini Peyğəmbərin hüzuruna göndərib bu qəbilənin islamı qəbul etməsi üçün hazır olduqlarını elan etsinlər. Səqif qəbiləsinin nümayəndəsi beş nəfərlə birlikdə Mədinəyə gəlib elan etdi ki, qəbiləsi aşağıdakı şərtlər daxilində islamı qəbul etməyə hazırdır:

– Onların bütxanaları öz yerində qalsın;
– Peyğəmbər onları namaz qılmaqdan azad etsin;
– Səqif camaatının güzəranı pula bağlı olduğuna görə, Peyğəmbər sələmin haram edilməsi hökmünü onlardan götürsün;
– Onları iffətə zidd olan əməllərdən məhrum etməsin.

Bu heyət qeyd olunan şərtləri deməklə öz niyyətlərini aşkar etdilər. Onların istədiyi islam həqiqətdə Allahın əmr etdiyi və Peyğəmbərin onu yaymaq üçün əmr olunduğu islam yox, öz istəklərini təmin edən islam idi. Peyğəmbər bu şərtlərin heç biri ilə razılaşmadı. Birinci şərtin xüsusunda bütxanaların yığışdırılması haqqında razılığa gəldikdən sonra, o Həzrətdən istədilər ki, bu iş onların öz əlləri ilə deyil, başqa şəxslərin əlləri ilə görülsün. Peyğəmbər bu xahişi qəbul etdi, yerdə qalan üç şərti isə tamamilə rədd edib buyurdu: «Namazı olmayan dində heç bir kəramət yoxdur». Sonra üçüncü və dördüncü şərtlərin batil olmasını göstərən ayələri Qurandan oxudu. (Bu ayələr sələmin və iffətə zidd olan əməllərin qadağan edilməsi barədə idi).[142]

---

[142] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.537-543.

## ONUNCU HİCRİ İLİNİN HADİSƏLƏRİ

Qeyd olunduğu kimi, doqquzuncu hicri ili nəzərə çarpan qələbələrlə sona çatdı. Ərəb qəbilələrinin nümayəndələri biri digərindən sonra Mədinəyə gəlib öz qəbilələrinin islamı qəbul etmək haqqında hazır olduqlarını elan edirdilər. Peyğəmbər qəbilə başçılarının çoxlarına məktub yazır, tərəflər arasında müqavilələr bağlanırdı.

Onuncu il elə bir halda başladı ki, Ərəbistan yarımadasının böyük bir hissəsində nisbi sakitlik hökm sürürdü. Onuncu hicri ilində heç bir müharibə baş vermədi. Peyğəmbər fürsət yaranan kimi müəyyən şəxsləri camaata islam təlimlərini öyrətmək üçün ətraf məntəqələrə göndərirdi. Bu məqsədlə onuncu ildə Həzrət Əlini və Məaz ibn Cəbəli Yəmənə göndərdi.[143] O, həmçinin Əmr ibn Həzəmi təfsilatı ilə yazılmış bir məktubla (onda islam hökumətlərinin bir çoxu əks olunmuşdu) təbliğat aparmaq üçün Ərəbistan yarımadasında məsihilərin mərkəzi olan Nəcrana göndərdi.

Peyğəmbərin bu barədə yazdığı məktubların tərcüməsi tarixi və sair kitablarda əks olunmuşdur. Bu fəsildə qeyd olunacaq hadisələrdən bir neçəsinin şərhi təqdim edilir.

## ÖVLAD MATƏMİNDƏ

Peyğəmbərin Misir başçısına yazdığı təbliğat məktubu onun əhval-ruhiyyəsinə çox yaxşı təsir etdi. O, Peyğəmbərin məktubuna müsbət cavab verməkdən əlavə, Mariya adlı bir kənizi də onun hüzuruna göndərdi. Peyğəmbər əvvəlcə onu azad etdi, sonra isə onunla evləndi.

---

[143] «Tarixül-xəmis», 2-ci cild. səh.142-144; «İbn Hişamın sirəsi», 2-ci cild, səh.2.

Allah-Təala səkkizinci hicri ilində baş verən bu evlənmə sayəsində Peyğəmbərə İbrahim adlı bir oğlan nəsib etdi.[144]

İbrahimin dünyaya gəlişi Peyğəmbərin və bütün müsəlmanların sevincinə səbəb oldu. Amma bir müddətdən sonra, 17-18 aylığında o (hicrətin onuncu ilində) vəfat etdi. Peyğəmbər məsciddə olarkən oğlunun şiddətli qızdırmasından və xəstəliyindən agah olmuşdu. Elə ki, evə qayıtdı oğlunu qucağına alıb buyurdu: «Əziz İbrahim, atanın gözləri sənin ölümündə ağlayacaq, qəlbini qəm-qüssə tutacaq, lakin dilinə Allahı qəzəbləndirəcək bir söz gətirməyəcək. Əgər Allahın doğru vədələri olmasaydı (biz də sizin ardınızca gələcəyik), sənin ayrılığında bundan artıq ağlayar, qəmgin olardım».

Nəhayət, övladının ruhu öz əbədi yuvasına pərvaz etdi. İbrahimi çox sevən Peyğəmbər həzin-həzin ağlamağa başladı, hələ dəfn edilməmişdi ki, birdən Günəş tutuldu. Bu vaxt Peyğəmbərin dostlarından bəziləri bu təbii hadisəni belə izah etdilər: «Peyğəmbərin başına gələn müsibət o qədər böyükdür ki, Günəş də ondan təsirlənmişdir, nişanəsi də onun tutulmasıdır». Peyğəmbər bu batil düşüncənin qarşısını almaq üçün minbərə çıxdı və buyurdu:

«Ay və Günəş Allahın nişanələrindən olub Onun əmri ilə hərəkət edir. Onun fərmanına tabedirlər. Onlar heç bir kəsin təvəllüdü və ya ölümü ilə əlaqədar tutulmazlar. Nə vaxt Günəşdə, yaxud Ayda tutulma baş versə, sizə vacibdir ki, namaz (ayət namazı) qılasınız».

Peyğəmbərin həmin həssas anlardakı tarixi fikrində böyük bir həqiqət gizlənmişdir, belə ki, o həqiqətə diqqət yetirmək tarixi baxımdan lazımlı və ibrətamizdir. Heç vaxt islam Peyğəmbəri camaatın batil əqidələrindən, cəhalətindən öz mənfəəti üçün istifadə etmirdi; hətta əgər günlərin birində onların batil əqidələri Peyğəmbərin xeyrinə tamam olsaydı belə,

---

[144] «İbn Hişamın sirəsi», 2-ci cild, səh. 594-596

O, batil əqidələrdən öz xeyrinə istifadə etmir və həmin əqidələri islah etməyə başlayırdı.

Göründüyü kimi, ərəb cəmiyyəti cahillik dövrünün əqidələrində sərgərdan qaldığı üçün Günəşin tutulmasını Peyğəmbərə baş verən müsibətin böyüklüyünün nişanəsi hesab edir. Beləliklə də Həzrəti tərifləmək istəyirdilər, amma Peyğəmbər heç vaxt camaatın cahilliyindən öz xeyrinə istifadə etməz, şəxsi mənfəəti ümumxalq mənfəətindən üstün tutmazdı. Burada ilahi rəhbərləri qeyri-ilahi rəhbərlərdən seçmək olar: ilahi rəhbərlər silsiləsindən olanların məqsədlərinin müqəddəs olması ilə yanaşı, onların məqsədə çatma vasitələri də qanuni olmalıdır. Halbuki qeyri-ilahi rəhbərlər məqsədə çatmaq üçün lazım olan vasitələrin fərqinə varmadan, onun istənilən formasını qəbul edirlər. Dünya rəhbərlərinin əksəriyyəti öz mənafelərini qorumaq üçün millətlərin xurafatla dolu olan batil əqidələrini düzgün əqidə kimi tanıtdırmış, batil əqidələrində olan rəftarını, əməllərini təsdiq etmişdir. Halbuki öz qəlblərində həmin əqidələrə azacıq da olsun etiqadları yox imiş.

Elə ki, İbrahimin dəfn mərasimi qurtardı, Peyğəmbər onun qəbrinin üstündə kiçik bir çala gördü, yerə oturub qəbrin üstünü hamarladı və yanındakılara buyurdu ki, sizlərdən biri hər hansı bir işi görmək istəsə, yaxşı olar ki, onu daha mükəmməl şəkildə yerinə yetirsin.[145]

Peyğəmbərin öz dostlarını işlərini mükəmməl şəkildə görməyə dəvət etməsi təkcə bu dəfə deyildi, həm də Səd ibn Məazın cənazəsini torpağa tapşıranda Həzrətin gözü qəbrin üstündəki çuxura sataşdı, dərhal yerə oturdu və əlləri ilə qəbrin üstünü hamarladı. Sonra buyurdu ki, bu qəbir çox keçmədən itib-batacaq, lakin yaxşı olar ki, hər bir mömin şəxs bir iş görəndə onu layiqincə yerinə yetirsin.[146]

---

[145] «Bihar», 22-ci cild, səh. 157.

[146] «Möcəmül-bildan», 5-ci cild, səh.2

## NƏCRAN NÜMAYƏNDƏLƏRİ MƏDİNƏDƏ

Peyğəmbər Nəcran yepiskopuna bir məktub yazaraq oranın əhalisini islam dininə dəvət etdi. Məktubun məzmunu belə idi: «İbrahim, İshaq və Yəqubun Allahına həmd və səna edir, sizi bəndələrə sitayiş və pərəstiş etməkdən çəkindirir və Allaha pərəstiş etməyə dəvət edirəm. Mən sizi Allah bəndələrinin təsir dairəsindən (tabeçiliyindən) xilas olub Allahın tabeçiliyində olmağa çağırıraın. Əgər mənim dəvətimə müsbət cavab verməsəniz, gərək islam hökumətinə cizyə verəsiniz. Əks halda müharibəyə hazırlaşın».

Nəcranın yepiskopu məktubu oxuyandan sonra yüksək rütbəli dostlarından biri ilə məşvərət etdi, dedi: Siz Allahın İbrahimə verdiyi vədədən agahsınız və bilirsiniz ki, İsmailin nəslindən bir nəfər peyğəmbərliyə seçiləcək. Ola bilsin ki, bu elə qeyd olunan Peyğəmbərdir.

O, başqa bir şəxslə də məsləhətləşdi, nəhayət, qərara alındı ki, Nəcran nümayəndələrindən təşkil olunan heyət Mədinəyə getsin və Məhəmmədlə görüşsün. Nümayəndə heyəti barmaqlarında qızıl üzük əyinlərində bəzəkli paltar və boyunlarında xaç Mədinəyə daxil olub, birbaşa Peyğəmbərin məscidinə getdilər. Peyğəmbər göndərilən bütün heyətləri gülərüzlə qarşılamışdı. Lakin bu dəfə narahat olması onun üzündən sezilirdi, səbəbi də heç kəsə məlum deyildi. Bu heyət Əli (ə) ilə görüşəndə o Həzrət bunun səbəbini belə izah etdi: «Siz sadə paltar geyinib Peyğəmbərin hüzuruna gəlməli idiniz.[147] Bu halda Peyğəmbər sizi gülərüzlə qarşılayar».

İkinci dəfə nümayəndə heyəti öz geyimlərini dəyişib sadə paltar geyindilər və əllərindəki qızıl üzükləri də çıxarıb Peyğəmbərin hüzuruna gəldilər. Bu dəfə Peyğəmbər onları gülərüzlə, hüsn-rəğbətlə qarşıladı.

[147] Bu məktubun yazılma tarixi dəqiq məlum deyildir, lakin cizyə barəsində nazil olan ayənin Təbuk müharibəsindən sonra nazil olduğunu nəzərə alsaq, məlum olar ki, bu məktubun göndərilmə tarixi 9–cu hicri ilidir.

Müzakirəyə başlamazdan əvvəl icazə aldılar ki, Peyğəmbər məscidində müsəlmanların gözü önündə üzü günçıxana doğru oturub namaz qılsınlar. Peyğəmbər də onların öz ibadət mərasimlərini həmin tərzdə yerinə yetirmələri ilə razılaşdı və hamısı duaya başladılar. Sonra Həzrət İsanın mənsubiyyəti barədə bəhs başlandı. (Yəni dedilər ki, görəsən o, bəşəri varlıqdır, yoxsa ilahi bir varlıq). Peyğəmbər Həzrət İsanı belə vəsf etdi: «O, Allahın bəndəsi, məxluqudur. Allah onu Məryəmin bətnində vücuda gətirmişdir». Bu vaxt nümayəndələrdən biri dedi: «Yox, o, Allahın oğludur. Çünki Məryəm heç kəslə yaxınlıq etmədən onu dünyaya gətirmişdi». Bu anda vəhy nazil oldu və onların gətirdikləri dəlillərə cavab olaraq bu ayəni bəyan etdi: «İsanın yaradılması keyfiyyəti Adəmin yaradılması kimi idi: Onu torpaqdan yaratdı, sonra ona «ol» dedi, o da dərhal vücuda gəldi» («Ali İmran» surəsi, 58). Yəni Məryəmin bakirə qız olması İsanın Allahın oğlu olmasına dəlildirsə, bu sözü Adəm barəsində də demək olar, çünki atası olmadan xəlq edilmişdi.

## MÜBAHİLƏ

Nümayəndələr Peyğəmbərin məntiqli dəlilləri qarşısında aciz qaldılar, lakin bu dinin haqq olduğunu etiraf etmək istəmirdilər. Peyğəmbər İlahi vəhyin hökmüylə onları mübahiləyə dəvət etdi. Mübahilə dedikdə hamının müəyyən olunmuş vaxtda səhrada duaya və raz-niyaza başlayıb, müxalif tərəflərdən birinin digərinə qarğış etməsi, lənətləməsi, Allahdan əzab göndərməsini istəmələri başa düşülür. Onlar Peyğəmbərin bu təklifi ilə razılaşdılar. Qərara alındı ki, müəyyən olunmuş gün üçün hazırlaşsınlar. O gün gəlib çatanda Peyğəmbər Mədinədən kənara çıxdı və özü ilə Həzrət Əli, qızı Fatimə və iki nəvəsi Həsən və Hüseyndən başqa heç kimi götürmədi. O müsəlmanlar arasında bu dörd nəfərdən daha imanlı şəxs, nəfslərindən daha pak nəfs tapmadı. Peyğəmbər Həsənin əlindən tutmuş, Hüseyni isə qucağına almışdı. Əli və Fatimə isə onun ardınca gedirdilər. Vədə olunmuş yerə çatanda buyurdu: «Hər vaxt mən

dua etsəm, siz də «amin» deməklə mənim duamı (Allahın dərgahına) yola salın».

Nəcran məsihilərinin nümayəndə heyəti mübahilə olunacaq yerə getməzdən əvvəl öz aralarında dedilər: «Hər vaxt görsəniz ki, Peyğəmbər maddi cah-cəlalı, zahiri qüdrəti ilə mübahiləyə girişdi, bilin ki, o, adi bir şəxsdir. Əgər maddi cah-cəlaldan uzaq, mənəvi dəyərlər baxımından bizimlə üzləşsə, bilin ki, o doğru danışan bir şəxs olmaqla bərabər, öz dediklərinə o qədər imanı var ki, özünü və əzizlərini belə qurban verməyə hazırdır».

Nümayəndə heyəti Peyğəmbərin pərişan halını müşahidə edəndə yepiskop dedi: Elə şəxslər var ki, əgər onlar dua üçün əllərini göyə qaldırıb Allahdan ən böyük dağı yerindən qoparmasını istəsələr, dağ dərhal yerindən qopar. Belə nurani, fəzilətli insanlarla mübahiləyə başlamaq ağıllı iş deyil, əks halda hamımız məhv ola bilərik və əzab yer üzündəki məsihilərin hamısını tuta bilər.

Nəhayət, nümayəndə heyəti cizyə verməklə öz dinlərində qalmağa və islam hökumətinin himayəsində yaşamağa razı oldu və bu barədə bir müqavilə də yazdılar. (Məşhur tarixçi Bilazəri «Fütuhül-bildan» kitabında həmin müqavilə barədə yazmışdır.

Bu müqavilə qırmızı dəri üzərində yazıldı və Peyğəmbərin tərəf-darlarından iki nəfər şahid onu imzaladı. Sülh müqaviləsi Peyğəmbərin ədalətinin nə qədər böyük olduğunu göstərir. Çünki Peyğəmbər qarşı tərəfin gücsüz olmasından heç vaxt sui-istifadə etməmiş, onlara ağır vergi təyin etməmişdi.

Burada bir məsələni də qeyd etmək istəyirik: bütün hədis yazanlar və tarixçilər mübahilə məsələsini öz kitablarında müxtəlif formalarda yazmışlar və ona münasibət də müxtəlif olmuşdur. Təfsirçilər «Ali İmran» surəsinin 59-61-ci ayələrinə çatanda bu hadisəni təfsilatı ilə bəyan edirlər. Mərhum İbn Tavuz «İqbal» kitabında onu geniş şəkildə qeyd etmişdir. Biz bu barədə mövcud olan bəzi sənədlərə müraciət edirik.

Mübahilə ayəsinin təfsiri, onun elmi və tarixi incəliklərinin açıqlanması bu kitaba sığışmaz. Odur ki, maraqlananlar müxtəlif təfsirlərdən istifadə edə bilərlər. Burada yalnız bunu qeyd edirik ki, mübahilə islamın əbədi möcüzələrindən biridir. Müxalif tərəfə dəlil gətirmək üçün hər vaxt mübahilədən istifadə olunmuşdur və bu, təkcə Peyğəmbər dövrünə məxsus deyildir.[148]

Bir hədisdə Həzrət Sadiq (ə) bu məsələni açıqlayaraq dostlarının birinə buyurur: «Öz müxaliflərini mübahiləyə dəvət et; əvvəlcə oruc tut, qüsl et (sonra bir dua öyrədir ki, onu qarşı tərəf oxusun) sonra buyurur: çox çəkməyəcək, əzab müxalif tərəfi tutacaq»[149]

Böyük ustad Əllamə Təbatəbayi «Əl-Mizan» təfsirinin birinci cildində möcüzə barəsində olan bəhslərdə belə yazır: «Mübahilə islamın əbədi möcüzələrindən biridir və hər bir mömin şəxs islam rəhbərinə tabe olaraq islami həqiqətlərin isbatı yolunda müxaliflərlə mübahiləyə başlaya və Allahdan müxalif tərəfi cəzalandırıb, məhkum etməsini istəyə bilər».[150]

## VİDA HƏCCİ

Həcc mərasimi müsəlmanların yerinə yetirdiyi ən böyük və ən təntənəli ibadətlərdən biridir. Hər il müsəlmanlar həccdə öz birliklərini dünya xalqlarına göstərirlər. Həccin müsbət təsiri heç kimə gizli deyildir. Həcc əməllərinin düzgün anlaşılması geniş bir bəhs tələb edir.

Bu mərasim Həzrət İbrahimin (ə) yadigarıdır. Yəni Həzrət İbrahim (ə) Allahın əmri ilə Kəbə evini təmir etdiyi və bir Allaha ibadət edən millətlərə həcc mərasimini yerinə yetirməyə dəvət etdiyi vaxtdan yadigar qalmışdır. Zamanın keçməsi ilə bu mərasim zaman və məkan, icra

---

[148] «Tarixe Yəqubi», 2-ci cild, səh.j; «Hələbinin sirəsi», 3-cü cild. səh.239; Razi, «Məfatihül-qeyb», 2-ci cild, səh.471-472; Seyid ibn Tavuz, «İqbal», səh.714-743.
[149] «Kafi», 2-ci cild, səh.514.
[150] «Həcc» surəsi, 27-ci ayə.

olunma və şərait baxımından təhrif olunmuşdur. Hicrətin 10-cu ilində Allah tərəfindən Peyğəmbərə əmr olundu ki, həcc mərasimində şəxsən iştirak etsin və camaatı öz dini vəzifələrilə agah etsin. Bu səfər ictimai-siyasi bir hərəkat olmaqla yanaşı, həm də təlim səfəri idi. Peyğəmbər əmr etdi ki, zilqədə ayında Mədinədə və ətraf qəbilələr arasında elan etsinlər ki, O, Allah evinin ziyarətinə səfərə çıxacaq. Hər kəs istəsə, bu mərasimdə iştirak edə bilər.

Peyğəmbər zilqədənin 26-da Əbu Dücanəni öz yerində canişin qoyub, özü ilə 60 qurbanlıq götürdü və Məkkəyə gedib həcc mərasimini yerinə yetirdi. Bu tarixi səfər «Vida həcci» adı ilə məşhurdur. Peyğəmbər bu həcc mərasimini yerinə yetirən vaxt ətraflı çıxış etmişdir. Bu çıxış mənəvi və siyasi baxımdan müstəsna əhəmiyyətə malikdir.

Vida həccində Peyğəmbərin buyurduqlarından bir hissəsi: «Ey camaat, sizin canınız və qanınız bir-birinizə Allah ilə görüşdüyünüz bir günə qədər bu gün və bu ay (Zilqədə ayı və Ərəfə günü) qədər möhtərəmdir, onlara hər hansı bir təcavüz haramdır».

Peyğəmbər müsəlmanların mal və canlarının ehtiramlılığı barədə buyurduğu sözün nüfuzlu və təsirliliyindən arxayın olmaq üçün Rəbbiət ibn Üməyyəni çağırdı ki, camaatdan bir neçə söz soruşsun. Ondan soruşdu: – Bu ay nə aydı?

Hamılıqla dedilər ki, haram (hörmətli) aydır və bu ayda müharibə etmək, qan tökmək qadağan olunmuşdur.

Peyğəmbər Rəbbiətə buyurdu: Onlara de ki, Allah sizin mal-dövlətinizi, canınızı bu dünyadan gedəcəyiniz bir günə kimi bir-birinizə bu ay və bu gün qədər möhtərəm sayır. (Və sonra buyurdu) Onlardan soruş ki, bu yer haradır?

Hamılıqla dedilər: Bura möhtərəm bir yerdir; burada qan tökmək, kiminsə haqqını tapdalamaq qadağan olunmuşdur.

Buyurdu: Onlara çatdır ki, sizin canınız və qanınız bu məkan kimi müqəddəsdir. Onlara edilən hər hansı təcavüz qadağandır.

Sonra buyurdu: Onlardan soruş ki, bu gün nə günüdür?

Hamı dedi: – Böyük həcc günüdür.

Buyurdu: Onlara çatdır ki, sizin canınız və qanınız bu gün kimi möhtərəmdir.

## CANİŞİN TƏYİN OLUNMASI, YAXUD QƏDİRİ-XUM HADİSƏSİ

Şəkk yoxdur ki, islam dini ilahi dinlərin sonuncusudur. Nə qədər ki, Peyğəmbər sağ idi, cəmiyyətə rəhbərlik etmək də onun öhdəsində idi. Onun vəfatından sonra isə cəmiyyətə rəhbərlik etmək ən ləyaqətli şəxsə tapşırılmalı idi. Peyğəmbərdən sonra rəhbərin Allah tərəfindən təyin edilməsi, yaxud seçki yolu ilə olması barədə iki nəzəriyyə mövcuddur. Şiələrin etiqadına görə, rəhbərlik məqamı, yəni Peyğəmbərin canişini Allah tərəfindən təyin olunmalıdır. Amma sünnilərin etiqadına görə, bu məqam seçki yolu ilə olan bir məqamdır və xalq Peyğəmbərin vəfatından sonra bir nəfəri ölkəni idarə etmək üçün seçməlidir. Bu iki tərəfdən hər biri öz nəzəriyyələrini isbat etmək üçün müəyyən dəlillər gətirmişlər və bu dəlillər kəlam elmindən bəhs edən kitablarda təfsilatı ilə qeyd olunmuşdur. Amma Peyğəmbərlik dövrünə hakim olan ictimai şəraiti dəqiq şəkildə təhlil etdikdən sonra bu nəzəriyyələrdən hansının düzgün olduğunu görmək olar.

Peyğəmbər dövründə islamın daxili və xarici siyasətinin araşdırılması göstərir ki, Həzrətin canişini Allah tərəfindən təyin edilməli və Peyğəmbər tərəfindən camaata təqdim edilməlidir. Çünki islam cəmiyyəti o vaxt ardıcıl olaraq Roma, İran imperatorluqları və daxildəki müxaliflər tərəfindən müharibə və cəmiyyətdə ixtilaf salınması ilə hədələnirdi. Ümmətin məsləhəti və mənafeyi tələb edirdi ki, Peyğəmbər siyasi bir rəhbər təyin etməklə ümməti xarici və daxili düşmənlərin qarşısında vahid bir cəbhədə birləşdirsin, duşmənin içərilərə nüfuz edib, onlara hakim olması təhlükəsini aradan qaldırsın.

Bu təhlükəli üçlüyün bir tərəfini Roma imperatorluğu təşkil edirdi. Bu böyük və qüdrətli dövlət Ərəbistan yarımadasının şimal tərəfində yerləşirdi və həmişə Peyğəmbəri məhv etmək haqqında fikirləşirdi. Roma

məsələsi də Həzrətin həyatının son anlarına qədər onun diqqət mərkəzində idi. Müsəlmanların Roma ordusu ilə ilk dəfə qarşılaşdığı vaxt Cəfəri Təyyar, Zeyd ibn Harisə, Əbdüllah ibn Rəvahə kimi böyük sərkərdələr şəhid olmuş və islam ordusu gözlənilmədən məğlubiyyətə düçar olmuşdu.

İslam ordusunun kafirlər qarşısında geri çəkilməsi Qeysər ordusunun cürətlənməsinə səbəb olmuş və hər an islam mərkəzinin Qeysər tərəfindən hücumlara məruz qalması gözlənilirdi. Bu cəhətdən Peyğəmbər 9-cu hicri ilində hər hansı toqquşmada qoşuna rəhbərlik etsin deyə böyük bir ordu ilə Şam sərhədlərinə doğru hərəkət etdi. Başdan-ayağa əzab-əziyyətlə, məşəqqətlə dolu olan bu səfərdə islam ordusu öz keçmiş şöhrətini geri qaytara, öz siyasi həyatını təzələyə bildi. Bu nisbi qələbə Peyğəmbəri qane edə bilmədi. O, xəstələnməmişdən bir neçə gün əvvəl İslam ordusunu Üsamənin rəhbərliyi ilə Şam sərhədlərinə göndərdi.

İkinci düşmən İran imperatorluğu idi. Belə ki, İran şahı Xosrov Peyğəmbərin göndərdiyi məktubdan qəzəblənmiş, onu cırmış, Həzrətin elçisini təhqirlə çölə salmış və üstəlik Yəmən hakiminə yazmışdı ki, Peyğəmbəri tutsun, imtina etdiyi surətdə isə öldürsün. Xosrov Pərvizin Peyğəmbər zamanında dünyadan getməsinə baxmayaraq, Yəmənin istiqlaliyyət məsələsi (uzun müddət İran dövlətinin müstəmləkəsi olmuşdur) İran şahlarının nəzərindən yayınmırdı və lovğalıq İran siyasətçilərinə heç vaxt imkan verməzdi ki, belə bir qüdrətin (islamın) varlığına dözsünlər.

Üçüncü təhlükə müxaliflər idi. Onlar müsəlmanların arasında casusluqla, təxribatçılıqla məşğul idilər. Hətta bəzi vaxtlar (Təbukdan Mədinəyə qayıdanda) Peyğəmbərə sui-qəsd hazırlamışdılar. Onların bəziləri zümzümə edib deyirdilər ki, Peyğəmbərin ölümü ilə islam inqilabı sona yetəcək, beləliklə də hamılıqla rahat olacaqlar. («Tur surəsi, 30-cu ayə)

Peyğəmbərin vəfatından sonra Əbu Süfyan cəmiyyətə qarışıqlıq salmaq üçün hiyləyə əl atdı: Həzrət Əli ilə beyət etmək və nəticədə müsəlmanları iki cinaha ayırıb bir-birinin canına salmaq istədi. Əli(ə) xüsusi bir ayıqlıqla onun murdar niyyətindən agah oldu və sözlərini rədd edib dedi: Allaha and olsun, sənin fitnə-fəsad salmaqdan başqa bir məqsədin yoxdur. Sən təkcə bu gün deyil, dəfələrlə şər, fitnə törətmək istəmisən. Mənim sənə heç bir ehtiyacım yoxdur.[151]

Müxaliflərin təxribatçılıq işləri güclü idi və «Ali-İmran», «Nisa», «Maidə», «Ənfal», «Tövbə», «Ənkəbut», «Əhzab», «Məhəmməd», «Fəth», «Hədid», «Münafiqin» və «Həşr» surələrində bu barədə qeyd olunmuşdur. Görəsən, islamı məhv etmək üçün pusquda durmuş belə qüdrətli düşmənlərin mövcudluğu ilə belə, Peyğəmbərin yenicə qurulmuş islam cəmiyyətində siyasi və dini işlərə rəhbərlik etmək üçün rəhbər təyin etməməsi düzgün iş sayılırdımı? İctimai hesablamalar hökm edir ki, Peyğəmbər özündən sonra rəhbər təyin etməklə vəfatından sonra yaranacaq ixtilafların qarşısını almalı və möhkəm bir müdafiə xətti yaratmaqla islamın vəhdətini təmin etməli idi. Peyğəmbərdən sonra hər hansı xoşagəlməz hadisənin, islam rəhbərinin hansı tayfa və qəbilədən olacağı barədə ixtilafların baş verməsinin qarşısını almaq üçün yalnız o Həzrət tərəfindən bir rəhbər təyin olunması vacib idi.

Bu ictimai hesablamalar Peyğəmbərdən sonra rəhbərlik məqamının Allah tərəfindən olması nəzəriyyəsinin mətinliyini, düzgünlüyünü göstərir. Məhz bu kimi səbəblər üzündən Peyğəmbər həcc ayinini yerinə yetirdikdən sonra Mədinə yolunda, Rabiq məntəqəsindəki Cöhfə adlı bir yerdə ən böyük vəzifəsini yerinə yetirmək üçün tapşırıq aldı. Cəbrail Qədiri-Xum adlı bir yerdə nazil oldu, «Maidə» surəsinin 67-ci ayəsi ilə ona müraciət etdi: «Allah tərəfindən sənə nazil olanı (Həzrət Əlinin canişinlik məsələsini) camaata çatdır! Əgər çatdırmasan öz peyğəm-

---

[151] İbn Həsir, «Kamil», 2-ci cild, səh.220; «İqdül-fərid», 2-ci cild, səh.249

bərliyini yerinə yetirməmisən. Allah səni camaatın yetirə biləcəyi zərərlərdən amanda saxlayacaq».

Ayənin tonu göstərirdi ki, Allah-Təala çox böyük, ağır və məsuliyyətli bir işin görülməsini Peyğəmbərin öhdəsinə qoymuşdu. Peyğəmbər əmr etdi ki, karvan dayansın, arxadakılar da gəlib çatsınlar. Karvanın dayanması barədə fərman o vaxt verildi ki, hava şiddətlə qızmışdı, camaat əbalarının bir hissəsini yerə sərmiş, bir hissəsini başlarına atmışdılar. Peyğəmbər üçün bir kölgəlik düzəltdilər. Günorta namazını onlarla birlikdə qıldı, sonra dəvələrin palanlarından düzəldilmiş hündür bir yerə qalxıb uca səslə aşağıdakı xütbəni oxudu:

Həmd və səna Allaha məxsusdur.

Ondan kömək istəyir, Ona iman gətirir və Ona təvəkkül edirik. Öz pisliklərimizdən, nalayiq əməllərimizdən ona pənah aparırıq. Elə bir Allah ki, ondan başqa yol göstərən, hidayət edən yoxdur. O, hər kəsi hidayət etsə, onu bir daha zəlalətə salan olmaz. Şəhadət verirəm ki, ondan başqa heç bir məbud yoxdur. Məhəmməd Onun bəndəsi və rəsuludur. Ey camaat, Xəbbir və Lətif olan Allah mənə xəbər vermişdir ki, yaxın zamanlarda Onun dəvətinə ləbbeyk deyib, sizin aranızdan gedəcəyəm. Mən də cavabdehəm. Siz də cavabdehsiniz. Mənim barəmdə nə deyirsiniz?

Peyğəmbərin dostları: Şəhadət veririk ki, sən Allah dinini təbliğ və bizim barəmizdə xeyirxahlıq, səy və təlaş etmisən. Allah sənə yaxşı mükafat versin deyə cavab verdilər.

Elə ki, sükut hər yanı bürüdü, Peyğəmbər buyurdu: Şəhadət verirsinizmi ki, Allahdan başqa bir məbud yoxdur. Məhəmməd Onun bəndəsi və Peyğəmbəridir, behişt və cəhənnəm, ölüm haqdı, Qiyamət günü gəlib çatacaq, Allah-Təala yerin altında gizlənənləri dirildəcək?

Peyğəmbərin dostları: Bəli, şəhadət veririk! – deyə cavab verdilər.

Həzrət buyurdu: Mən sizin aranızda iki böyük və ağır şeyi əmanət və yadigar qoyuram, onunla necə rəftar edəcəksiniz?

Bir nəfər soruşdu: Bu böyük əmanət dedikdə, məqsəd nədir?

Peyğəmbər buyurdu: – «Siqni-Əkbər» Allahın kitabıdır; onun bir tərəfi Allaha bağlıdır, digər tərəfi isə sizin əlinizdədir. Allah kitabından yapışın, zəlalətə düşməyəsiniz. «Siqni-Əsğər» mənim Əhli-beytim və itrətimdir. Allahım mənə xəbər vermişdir ki, mənim yadigar qoyduğum bu iki şey Qiyamət gününə kimi heç vaxt bir-birindən ayrılmayacaqdır. Ey camaat, Allahın kitabından və mənim itrətimdən qabağa keçməyin və bu ikisindən geri də qalmayın, əks halda məhv olarsınız.

Bu vaxt Peyğəmbər (s) Həzrət Əlinin(ə) əlindən tutub yuxarı qaldırdı, hamı Əlini Peyğəmbərin yanında gördü və başa düşdülər ki, onların bura yığılmasında əsas məqsəd Əliyə aid ola bilən bir məsələdir. Peyğəmbər buyurdu: Ey camaat, möminlərə (ixtiyar sahibi olmaqda) onların özlərindən daha layiqli olan kimdir?

Peyğəmbərin ətrafındakılar: «Allah və onun Peyğəmbəri daha yaxşı bilərlər» – deyə cavab verdilər. Peyğəmbər buyurdu: Allah mənim mövlam (ixtiyar sahibim), mən də möminlərin mövlasıyam və (onların özləri barədə) onların özlərindən də artıq ixtiyar sahibiyəm. Ey camaat, mən hər kəsin mövlası (ixtiyar sahibi) və rəhbəriyəmsə Əli də onun mövlası və rəhbəridir.

Sonra bu sözləri üç dəfə təkrar etdi.

(Əhməd Hənbəldən nəql olunan rəvayətə görə, Peyğəmbər bu cümləni dörd dəfə təkrar etdi)

Sonra dedi: İlahi, Əlini sevən hər kəsi sən də sev, Əli ilə düşmənçilik edənlə düşmən ol! İlahi, Əlinin dostlarına kömək et, düşmənlərini xar və zəlil et! İlahi, Əlini haqqın mehvəri qərar ver.

Peyğəmbər bu sözləri buyurub, əlavə etdi ki, burada olanlar (bu xəbəri) burada olmayanlara xəbər versinlər. Onları da bu hadisədən agah etsinlər.

Hələ Qədiri-Xumdakı təntənəli yığıncaq dağılmamışdı ki, vəhy mələyi nazil olub Peyğəmbərə müjdə verdi ki: «Allah bu gün sənin dinini kamil etdi. Öz nemətini imanlılara bol etdi» («Maidə» surəsi, 3-cü ayə).

Bu vaxt Peyğəmbərin təkbir səsi ucaldı və buyurdu: Allaha şükr edirəm ki, Öz dinini kamil etdi, Öz nemətini tamamladı və mənim peyğəmbərliyimdən, Əlinin rəhbərliyindən xoşhal oldu.

Bunları deyib dayandığı yerdən aşağı endi. Peyğəmbərin dostları dəstə-dəstə Əliyə yaxınlaşıb onu təbrik edərək hər bir imanlı insanın rəhbəri hesab edirdilər.

Həssan ibn Sabit Peyğəmbər dövrünün şairlərindən biri idi. O, bu tarixi hadisəni nəzmə çəkərək əbədiyyət rəngi ilə boyadı. Şerin məzmunu belə idi: «Peyğəmbər Əliyə buyurdu ki, qalx mən səni özümdən sonra camaata rəhbər, yolgöstərən seçdim. Mən hər kəsin rəhbəriyəmsə, Əli də onun rəhbəridir. Camaat, sizə vacibdir ki, Əlinin həqiqi dostlarından, həqiqi ardıcıllarından olasınız».

Bunlar hamısı islam alimləri tərəfindən mötəbər sayılan hədislərdə qeyd olunan bir hadisədir. Qədiri-Xum hadisəsi əbədi və həmişəyaşar hadisədir. Təfsirçilər bu hadisəylə əlaqədar iki ayəni («Maidə» surəsinin 3-cü və 67-ci ayələrini) təfsir edərkən, hədisçilər bu hadisə barədə Peyğəmbərin sözünü nəql edərkən, kəlam alimləri bu hadisənin rəhbərlik məsələsi ilə əlaqədar olduğuna görə bu barədə müəyyən sözlər demişdilər. Tarix kitablarının çoxunda bu tarixi hadisə müxtəlif adlar altında araşdırılmışdır. Tarixdən məlum olur ki, bu hadisə (Zilhiccənin 17-si) müsəlmanlar arasında «Qədiri-Xum» bayramı kimi tanınmışdır. İbn Xəlkam «Əl-müstəla billah» barəsində yazır. «... 487-ci ildə Qədiri-Xum bayramı günündə (17-si zilhiccə) camaat onunla beyət etdi.[152]

Həmçinin «Əl-müstənsirü billah» barəsində yazır: «... O, 487-ci ildə (Zilhiccənin axırına 12 gün qalmış) vəfat etdi və bu gecə, yəni zilhiccənin 17-si Qədiri-Xum bayramıdır».[153]

---

[152] «Vəfayətül-Əyan», 1-ci cild, səh.60.
[153] «Əl Əsarül-Baqiyə» (tərcümə), səh.395.

Əbureyhan Biruni Qədiri-Xum bayramını bütün müsəlmanlar tərəfindən qeyd olunan bayramlar sırasına daxil etmişdir.[154] Qədiri-Xum hədisi bütün əsrlərdə çox məşhur hədislərdən sayılırdı. Heç bir tədqiqatçı onun sənədlərinin doğruluğundan şəkk edə bilməz.

## YALANÇI PEYĞƏMBƏRLƏR

Tarix ilahi peyğəmbərlərlə yanaşı, yalançı (iddiaçı) «peyğəmbər»lərin də şahidi olmuşdur. Onlar insanların pak fitrətlərindən sui-istifadə edərək, layiq olmadıqları bir məqamı peyğəmbərlik məqamını iddia edirdilər, amma çox keçmirdi ki, onların hiylələri ifşa olunur, özləri də rüsvay olurdular. Peyğəmbərin Ərəbistan yarımadasında artmaqda olan nüfuzu bəzi şəxslərin əllərində heç bir əsas olmadan peyğəmbərlik iddiasına düşməsinə səbəb oldu. Bu kimi şəxslər hicrətin 9-10-cu illərində peyğəmbərlik iddiası edirdilər. Tarixdə onların hamısının adı qeyd olunmuşdur.[155]

Əllərində heç bir əsas olmayan bu iddiaçıların nə möcüzələri vardı ki, camaatı onun vasitəsilə ələ alsınlar, nə də keçmiş peyğəmbərlər onların peyğəmbər olacaqlarından xəbər vermişdilər. Həm də mövcud dəlillərin heç biri onların peyğəmbərliyini sübut etmirdi. Əksinə onlar arasındakı qəbilə və tayfabazlıqlar səbəb olmuşdu ki, bəziləri o yalançı peyğəmbərlərin ətrafına yığışıb aldansınlar. Peyğəmbər vəfat etdikdən sonra onların hamısı islam ordusunun əsgərləri tərəfindən məhv edildi.

---

[154] «İslam nəzərindən rəhbərlik» adlı kitab, səh.274-317.

[155] Birinci yalançı peyğəmbər Müsəlləmə Kəzzabdır. O, Yəmamədə peyğəmbərlik iddiası edirdi. Peyğəmbərə bir məktub yazdı, peyğəmbər də onun məktubuna cavab verdi. Əsvəd Ənəsi Yəmənin Səna şəhərində peyğəmbərlik iddiası edirdi və bir qrup camaatı da aldatmışdı. Tüləyhə ibn Xüvəylid (Bəni Əsəd qəbiləsindən) peyğəmbərlik iddiası edirdi. O, hicrətin 9-cu ilində peyğəmbərin yanına gəldi və geri qayıtdıqdan sonra peyğəmbərlik iddiasına düşdü. Səccah Bəni Təmim qəbiləsindən olub, peyğəmbərlik iddiası edən bir qadın idi. O, Müsəlləmə ilə «döyüşə» getdi, lakin bu «döyüş» onun Müsəlləməyə ərə getməsi ilə nəticələndi.

## 11-40-CI İLLƏRİN HADİSƏLƏRİ, PEYĞƏMBƏRİN XƏSTƏLƏNMƏSİ VƏ VƏFATI

Keçən fəsillərdə Peyğəmbərin həyatı müəyyən qədər araşdırıldı. Bu fəsildə onun ömrünün son anları barədə söhbət edəcəyik.

Peyğəmbər vida həccindən qayıtdıqdan sonra özündə bir növ ağırlıq hiss edirdi. Bu hisslər get-gedə artıb şiddətli xəstəliyə çevrildi və nəhayət, onun vəfatı ilə nəticələndi.

Peyğəmbərin 11-ci hicri ilində yaşadığı iki aydan artıq olmayan həyatını üç hissəyə bölmək olar:

- Romalılar barədə düşüncələr;
- Ümmətin qüdrətli və möhkəm olması barədə düşüncələr;
- Peyğəmbərin xəstələnib vəfat etməsi.

Bunların hər birini ayrı-ayrılıqda qeyd edirik.

## ROMALILAR BARƏDƏ DÜŞÜNCƏLƏR

İslam Peyğəmbərinin ömrünün axırıncı ilində meydana çıxmış yalançı peyğəmbərlər Həzrət üçün çoxlu narahatçılıq törətmişdi. Çünki Yəmənin və Yəmamənin bacarıqlı sərkərdələri onların qarşısını almaqda aciz idilər. Bu iddiaçılardan biri olan Əsvəd Ənəsi Peyğəmbərin vəfatından bir gün qabaq Yəmən sərkərdəsi tərəfindən öldürüldü. Peyğəmbərin əsas narahatçılığı Roma tərəfindən idi. Onlar Şamı işğal etmiş və islam sərhədlərinə təcavüz etməyə başlamışdılar. Bu, yalançı peyğəmbərlərin yaratdıqları təhlükədən qat-qat artıq olmaqla yanaşı, Peyğəmbəri həddindən artıq narahat edirdi. Buna görə Həzrət Mədinəyə qayıtdıqdan sonra Əbubəkr, Ömər, Əbu Übeydə, Səd Vəqqas kimi tanınmış adamların

iştirak etdiyi böyük bir ordu təşkil etdi ki, Şam sərhədlərinə gedib təcavüzkarları məğlub etsinlər.[156]

Peyğəmbər islam mücahidlərini döyüşə təşviq etmək üçün öz əli ilə bayraq düzəltdi və onu Üsaməyə verib əmr etdi: «Allahın adı ilə və Allah yolunda döyüş, Allah düşmənləri ilə müharibə et, sübh çağı Ümbə məntəqəsinə (Suriyada) hücum et. Sənin hərəkət xəbərin onlara çatmamış sürətlə hərəkət edib özünü ora çatdır».

İslam Peyğəmbəri Üsamət ibn Zeydi (onun 20 yaşı vardı) sərkərdə təyin etdi. Amma belə cavan bir şəxsin böyük qoşuna sərkərdə seçilməsi bəzilərinin etirazlarına səbəb oldu və dedilər ki, Peyğəmbər azyaşlı cavanı böyük şəxsiyyətlər və səhabələrə sərkərdə təyin etmişdir.[157]

Bu təyinatda məqsəd işin və məqamın bölüşdürülməsində «şəxsiyyət və ləyaqət» prinsipini dirçəltmək və ictimai mövqeyin, məqamın yaşdan asılı olmamasını başa salmaq idi. Peyğəmbər dostlarının hərəkətə başlamalarını çox israr edirdi, amma bəziləri ordunun hərəkətini təxirə salıb, onun əmrlərini icra etməkdə kifayət qədər ciddiyyət göstərmədilər. Peyğəmbər bayrağı Üsaməyə verdiyi günün sabahısı yatağa düşdü. Bu xəstəlik bir neçə gün davam etdi və nəhayət, Həzrətin vəfatı ilə nəticələndi. Xəstəlik zamanı ordunun hərəkətinin təxirə salınmasından xəbər tutanda buyururdu ki, Üsamənin ordusunu hərəkət etdirin. Peyğəmbərin sifarişlərinə əsasən mühacir və ənsar vidalaşmaq üçün onun hüzuruna gəldilər və sonra Mədinədən çıxıb ordugaha yola düşdülər. Ordugaha Peyğəmbərin can üstdə olması barədə acı xəbərlər gəlirdi. Buna görə mühacir və ənsardan olanların çoxu Peyğəmbərin halının ağırlığını nəzərə alaraq Mədinəyə qayıtdılar. Nəhayət, 16 gün

---

[156] «İbn Hişamın sirəsi», 2-ci cild, səh.642.
[157] İbn Səd «Təbəqat», 2-ci cild, səh.120.

israr etdikdən sonra Peyğəmbərin ən böyük arzularından biri həyata keçmədi – ordunun hərəkəti təxirə salındı.[158]

## BƏQİ QƏBRİSTANLIĞINDA DƏFN OLUNANLAR ÜÇÜN DUA

Peyğəmbər xəstəlik yatağında olanda Həzrət Əlinin köməyi ilə Bəqi qəbristanlığına gəldi və buyurdu: «Mənə əmr olunmuşdu ki, Bəqi əhli üçün Allahdan bağışlanma istəyim». O, Bəqi qəbristanlığına girəndə buyurdu: (Mənim salamım sizə olsun, ey torpaqlar altında aram-aram yatanlar! Xoş sizin halınıza! Fitnələr qaranlıq gecənin bir hissəsi kimi bir-birinin üstünə gəlmiş, bir-birinə qovuşmuşdur». Sonra orada dəfn olunanlar üçün Allahdan bağışlanmaq dilədi. Daha sonra üzünü dostlarına tutub buyurdu: «Dünya xəzinələrinin açarlarını və onda rahat yaşayışı mənə təqdim etdilər və məni onları götürmək, yaxud pərvərdigarımla görüşmək (ölüm) arasında ixtiyar sahibi etdilər. Mən Allahımla görüşməyi seçdim. Vəhy mələyi hər il Quranı mənə bir dəfə təqdim edirdi, lakin bu il iki dəfə təqdim etmişdir. Səbəbi də budur ki, mənim əcəlim gəlib çatmışdır».

Peyğəmbər çox çətinliklə bir əlini Həzrət Əlinin, o biri əlini isə başqa bir adamın çiyninə qoyub məscidə getdi minbərə çıxıb buyurdu: «Sizin aranızda iki böyük əmanət, yadigar qoyuram: biri Quran, digəri isə mənim Əhli-beytimdir».[159]

## SON VİDA

Peyğəmbər xəstəlik yatağında olarkən əziz qızı Fatimə onun yatağının kənarında əyləşib nurlu üzünə baxır və tər damcılarının mirvari dənələri kimi onun alnından və surətindən necə axdığını görürdü. O, özünə təsəlli vermək üçün Əbutalibin Peyğəmbər barəsində qoşduğu şeri zümzümə

---

[158] Yenə orada, səh.190
[159] Bu elə Səqəleyn hədisidir

edirdi. Şerin məzmunu belə idi: «Elə bir insan ki, onun hörmətinə buluddan yağış istənilir; o yetimlərin sığınacaq yeri, dul qadınların qoruqçusu idi». Bu zaman Peyğəmbər gözlərini açıb buyurdu: Qızım, bu şerin yerinə aşağıdakı ayəni oxu: «Məhəmməd Allahın Peyğəmbəridir və ondan da qabaq Peyğəmbərlər gəlib getmişlər. O ölsə, yaxud öldürülsə, ata-babalarınızın dininə qayıdacaqsınızmı? Hər kəs geri qayıtsa, Allaha heç bir zərər yetirməz».

Peyğəmbər ömrünün son anlarında gözlərini açıb deyirdi: «Qardaşımı çağırın, yatağımın yanında otursun». Hamı başa düşdü ki, Əlini çağırmaqda bir məqsəd vardır. Həzrət Əli onun yatağının yanında oturanda, hiss etdi ki, Peyğəmbər yerindən qalxmaq istəyir. Buna görə də onu yerindən qaldırdı və öz sinəsinə dayadı. Çox keçmədən can-vermənin əlamətləri onun üzündə görünməyə başladı. Peyğəmbər Həzrət Əlinin sinəsində can verdi, ruhu mələklər aləminə qovuşdu. Həzrət Əli (ə) buyurur: «Peyğəmbərin mübarək başı mənim sinəmdə olan halda can verdi. Mələklər mənə kömək edən halda, ona qüsl verdim»[160]

[160] «Nəhcül-bəlağə», l92-ci xütbə

## İYİRMİ İKİNCİ FƏSİL

### XƏLİFƏLƏRİN TARİXİNƏ QISA BİR BAXIŞ

Peyğəmbərin ömür günəşi qürub etdi və müsəlmanları qəm-qüssəyə batırdı. Onun vəfatından sonra müsəlmanların qarşılaşdıqları ən böyük məsələ ümmətə rəhbərlik məsələsi idi. Belə bir məsələ ilə qarşılaşmanın səbəbi bu idi ki, islam ümməti heç bir zaman rəhbərsiz qalmamış, onların hidayəti üçün hər hansı rəhbərə, imama ehtiyac duyulmuşdu. Şiələrin nəzərincə, həmçinin mötəbər sənədlərə görə, ümmətə rəhbərlik məsələsi Peyğəmbərin zamanında həll edilmiş, onun canişini Qədiri-Xumda, təntənəli yığıncaqda təyin olunmuşdu. Lakin sünnilərin nəzərinə görə bu məsələ başqa cürdür: müsəlmanların çətinlikləri onların öz əlləri ilə həll edilməlidir.

Hələ Peyğəmbərin pak cəsədi dəfn olunmamışdı ki, Mədinədə müsəlmanlardan bir qrupu Həzrətin vəfatından agah olub onun evinin və məscidin ətrafına yığışmışdılar. Onlar Peyğəmbərin ölməsini yəqin etdilər və qüsl verib dəfn etmədən başqa heç bir fikirləri yox idi. Bu zaman Ömər ibn Xəttab məclisdə oturanların içində ayağa durub dedi: And olsun Allaha, Allahın Peyğəmbəri ölməmişdir; O, Həzrət Musa kimi bizim gözlərimizdən qeyb olmuşdur. Tezliklə qayıdacaqdır.[161]

Sonra Ömər və Müğeyrə Peyğəmbərin hücrəsinə girib bu barədə axtarış aparmaq üçün icazə aldılar. Onlar Peyğəmbərin üzündə olan dəsmalı kənara çəkdilər. Ömər dedi: O ölməyib, yalnız huşdan gedibdir. Amma Müğeyrə dedi ki, şəksiz ölmüşdür.[162]

Ömər hələ də Peyğəmbərin diri olmasını israr edirdi. Nəhayət, Əbubəkr gəlib çatdı, üzünü camaata tutub dedi: Hər kəs Məhəmmədə pərəstiş edirsə o ölmüşdür; hər kəs Məhəmmədin Allahına pərəstiş edirsə, o,

---

161 «İbn Hişamın sirəsi». 2-ci cild, səh.565; «Tarixe Təbəri», 3-cü cild, səh.200
162 «Təbəqate ibn Səd», 2-ci cild, səh.267

həmişə diridir. (Sonra bu iki ayəni oxudu:) «Sən öləcəksən və onlar da öləcəkdir».[163] «Məhəmməd bir Peyğəmbərdir, ondan da qabaq peyğəmbərlər gəlib-getmişlər, əgər o ölsə, yaxud öldürülsə, əvvəlki dövrlərin etiqadlarına qayıdacaqsınızmı? Hər kəs qayıtsa, Allaha heç bir zərər yetirməz və Allah ona şükr edənlərə mükafat verəcəkdir».[164] Bu zaman Peyğəmbərin vəfat etməsi barədə olan ixtilaflar aradan qaldırıldı, hamı onun dəfn mərasimini gözləyirdi. Gözlənilmədən ənsardan iki nəfər gəlib Əbubəkrə dedilər ki, fitnənin rüşeymi yaranmaqdadır. Ənsar Bəni Saidə səqifəsində yığışaraq Səd ibn Übadə ilə beyət etmək istəyirlər. Əbubəkr, Ömər və Əbu Übeydə təcili olaraq oradan çıxıb özlərini səqifəyə çatdırdılar. Onlar oraya çatanda Səd ibn Übadə yığıncaqda çıxış edirdi. O, ənsarın xidmətlərini şərh edib deyirdi: Ey Ənsar, siz islam dininə başqalarından qabaq iman gətirmisiniz. Bu cəhətdən sizin başqalarına nisbətən artıq fəzilətiniz vardır. İslam Peyğəmbəri 10 ildən artıq bir müddətdə öz tayfasını bütpərəstliklə mübarizəyə dəvət etdi. Bir neçə nəfərdən başqa heç kəs ona iman gətirmədi. Lakin elə ki, sizinlə danışdı, siz ona iman gətirdiniz və onu müdafiə etməyi öhdənizə aldınız. İslamı yaymaq, islam düşmənləri ilə cihad etmək üçün çalışdınız. İşin ağırlığı hər vaxt sizin çiyninizə düşürdü. Sizin qılınclarınız torpağı al qana boyadı. İnadkar ərəblər sizin qüdrətiniz qarşısında baş əydilər. Peyğəmbər sizin hamınızdan narazı halda getdi. Nə qədər ki, gec deyil, işləri öz öhdənizə götürün, sizdən başqa heç kəsin bu işə ləyaqəti yoxdur.[165]

Bu vaxt Əbubəkr ayağa qalxıb dedi: Allah Məhəmmədi seçib camaata tərəf göndərdi ki, ona pərəstiş edib heç bir şərik qoşmasınlar. Ərəblər üçün bütpərəstliyi tərk etmək çox baha başa gəldi. Mühacirlərdən bir

---

[163] «Zümər» surəsi, 30-cu ayə
[164] «Ali İmran» surəsi, 144-cü ayə
[165] «İbn Hişamın sirəsi», 2-ci cild; «İqdül-fərid», 4-cü cild, səh.l94-257

qrupu onu təsdiq edib iman gətirdilər, çətin anlarda başqalarından qabağa keçdilər. Onlar Peyğəmbərə iman gətirib Allaha pərəstiş edən ilk adamlar idilər. Deməli, Peyğəmbərin qohumları olmaqla yanaşı, onun canişini olmaq və ümmətə rəhbərlik etmək üçün daha ləyaqətlidirlər. (Sonra ənsarın islamdakı keçmiş xidmətlərinə, mövqeyinə və fəzilətlərinə işarə edərək dedi:) Hicrətdə qabaqcıl mühacirlərdən keçəndə heç kəs sizin mövqeyinizə, dərəcənizə çatmaz. Buna görə də yaxşı olar ki, rəhbərliyi və xilafəti mühacirlər öz öhdələrinə götürsünlər və vəzirliyi, müşavirə işlərini sizə tapşırsınlar, sizin icazəniz olmadan heç bir iş görməsinlər.

Xilafəti və rəhbərliyi Xəzrəc qəbiləsi öhdəsinə alsa, Ovs qəbiləsi heç də onlardan geri qalmır; və əgər Ovs qəbiləsinə tapşırılsa, xəzrəclilər onlardan geri qalmır. Bundan əlavə, bu qəbilələrin arasında çoxlu qanlar axıdılmış, çoxlu adam öldürülmüşdür. Beləliklə, bu iki qəbilə arasında sağalmaz yaralar meydana gəlmişdir və heç vaxt yaddaşlardan silinməz. Hər vaxt sizlərdən biri özünü xilafət üçün hazırlasa, sanki özünü şirin ağzına atmışdır və belə olan surətdə ənsarla mühacirin arasında əziləcəkdir.

Bu zaman Hüqab ibn Münzər ənsar tərəfindən, Ömər və Əbu Übeydə isə mühacir tərəfindən danışmağa başladılar. Hər biri canişin və rəhbərin onlar tərəfindən təyin olunması barədə müəyyən dəlillər gətirdilər. Mühacirlərin üstünlük qazanmasının səbəbi bu oldu ki, ənsardan olan Bəşir ibn Səd (Səd ibn Übadənin əmisi) Ovs və Xəzrəcin onu seçməyə meylli olmasından çox narahat oldu və gözlənilmədən məclisin sükutunu pozub dedi: Peyğəmbər Qüreyşdəndir, onun qohumları rəhbərlik üçün bizdən artıq ləyaqətlidirlər. Yaxşı olar ki, xilafət işini onların özlərinə tapşıraq və bu işdə müxalifətçilik etməyək.

Bəşirin çıxışı ilə ənsar cəbhəsinə ixtilaf düşdü. Bu zaman Əbubəkr üzünü camaata tutub dedi: camaat, mənim nəzərimcə, Ömər və Əbu Übeydənin xilafət üçün ləyaqəti vardır. Hər hansı ilə istəyirsinizsə beyət edin.

Lakin onların hər ikisi ayağa qalxıb Əbubəkrə dedilər: Sən bizdən də ləyaqətlisən. Peyğəmbərlə Sur mağarasında həmsəfər olduğun halda kim səndən qabağa keçə bilər?

Sonra hər ikisi irəli gəlib Əbubəkrin əlini beyət məqsədi ilə sıxdılar. Ənsardan isə Bəşir ibn Səd onun əlini sıxıb beyət etdi. Xəzrəclilərdən olan və ilk andan Səd ibn Übadənin rəhbər olması ilə razılaşmayan bir nəfərin Ovs qəbiləsi ilə müxalifətçilik etməsi onlara da müxalifətçilik etmək cürəti verdi. Onların rəisi üzünü öz adamlarına tutub dedi: Əgər xilafət xəzrəclilərə nəsib olsa və rəhbərlik işini əllərinə alsalar, bir növ fəzilət və üstünlük qazanmışlar, tez olun Əbubəkrə beyət edin!

Sonra özü də ayağa qalxıb Əbubəkrə beyət etdi. Beləliklə, Əbubəkr iki nəfər mühacirin və Ovs qəbiləsinin rəisinin beyət etməsi ilə kifayətlənib, Səqifədən birbaşa məscidə gəldi. Lakin xəzrəclilərin rəisi və onun tərəfdarları xatırlatdılar ki, biz Əlidən savayı heç kəsə beyət etmərik.[166] Əbubəkr xilafəti ələ keçirdikdən sonra bəzi tayfalar mürtəd oldular, bəzi tayfalar isə dindən çıxmaq üçün hazırlaşırdılar bəziləri də zəkat verməkdən boyun qaçırdılar. Müsəlləmə Yəmamədə peyğəmbərlik iddiası edir, Üsamənin ordusu Peyğəmbərin fərmanını icra etmək üçün hərəkətdə idi. Əbubəkr öz hakimiyyəti dövründə mürtəd olmuş tayfalarla mübarizə apardı və zəkat verməkdən boyun qaçıranları ram etdi. Müsəlləməni məhv etmək üçün qoşun göndərdi və Üsamənin qoşununu romalılarla döyüşməyə təşviq etdi. O, hicrətin l3-cü ilində cəmadiül-axir ayının 22-də, çərşənbə axşamı günü 63 yaşında vəfat etdi.[167]

## ÖMƏRİN XİLAFƏTİ

Ömər birinci xəlifənin əksinə olaraq «seçki» yolu ilə yox, Əbubəkrin təyin etməsi əsasında xilafət məqamına seçildi. Əbubəkr xəstəlik

---

[166] «Tarixe Təbəri», 3-cü cild, səh.22; «Tarixe Kamil», 2-ci cild.
[167] «Kamili ibn Əsir». 2-ci cild, səh,287; «Tarixi xülafə», səh.91.

yatağında ikən tezliklə bu dünyadan gedəcəyini hiss edib Osmanı katib seçdi və ona əmr etdi ki, belə yazsın: «Mən Öməri sizin aranızda öz canişinim seçirəm». Sonra Öməri çağırıb onu bu qərardan agah etdi»[168]

Ömərin xilafəti dövründə müsəlmanlara çoxlu fəthlər nəsib oldu: l4-cü ildə Dəməşq, Hams, Bəəlbək, Bəsrə (bunlardan bəziləri müharibə, bəziləri isə sülh yolu ilə) fəth edildi.

Hicrətin 15-ci ilində İordaniya, 16-cı ilində isə Əhvaz və Mədain islam hökumətinin ixtiyarına keçdi. Səd Vəqqas 16-cı ilin səfər ayında cümə namazını Kəsranın eyvanında qıldı və həmin il Yezdəgird Cəlulə müharibəsində məğlub edildi və Reyə qədər geri çəkildi. Həmin il Təkrid, Hələb, İntəkiyə islam dövlətinin ixtiyarına keçdi. 17-ci ildə Cəndi Şapur və onun ətrafının bir hissəsi fəth olundu. Bu fəthlər 23-cü ilə kimi davam etdi. Nəhayət, Ömər onunla Müğeyrət ibn Şöbənin qulamı Əbu Lölönün arasında baş verən hadisədən sonra, zilhiccənin 26-da yaralandı və 24-cü il məhərrəmin 1-də vəfat etdi.[169]

## OSMANIN XİLAFƏTİ

Ömər xəstəlik yatağında yatarkən Məhəmmədin (s) səhabələrindən altı nəfər seçdi və onlara dedi ki, xüsusi bir üsulla ondan sonrakı xəlifəni seçsinlər. Bu altı nəfər Təlhə, Zübeyr, Səd Vəqqas, Əbdürrəhman ibn Ovf, Osman və Həzrət Əlidən ibarət idi. Həzrət Əlinin bibisi oğlu Zübeyr onunla qohum olduğuna görə onun xeyrinə kənara çəkildi. Səd Vəqqas da Əbdürrəhman ibn Vala qohum olduğuna görə öz yerini ona verdi. Təlhə də Osmanın xeyrinə olaraq iclasdan çıxdı. Beləliklə, şurada üç nəfər qaldı, hər birinin də iki rəyi vardı. Bu vaxt Əbdürrəhman üzünü Əliyə (ə) tutub dedi: Mən sənə bu şərtlə beyət edirəm ki, Allahın kitabına,

[168] «Kumili ibn Əsir», 2-ci cild. səh.292; «Tarixi xülafə», səh.145
[169] «Tarixe Kamil», 3-cü cild, səh.28

Peyğəmbərin sünnəsinə əməl edib, şeyxeynin (Əbubəkr və Ömər) getdiyi yolla gedəsən.

Əli (ə) dedi: Mən Allahın kitabına, Peyğəmbərin sünnətinə öz rəyim əsasında əməl edəcəyəm. Bu vaxt Əbdürrəhman üzünü Osmana tutub həmin sözləri ona da dedi. Osman onun qoyduğu şərtlərlə razılaşdı və nəticədə Ömərin vəfatından üç gün sonra xilafətə seçildi.[170]

O, 24-cü ilin əvvəlindən 35-ci ilin axırına qədər xilafəti öhdəsinə aldı. Zilhiccənin 17-də misirli və iraqlılar tərəfindən öldürüldü. Onun xilafəti dövründə Kipr fəth olundu, islam ordusu Afrikanın şimalına doğru irəlilədi, Xorasan əyalətinin bir hissəsi fəth olundu.

## ƏLİ İBN ƏBUTALİB (ə)

Həzrət Əlinin(ə) həyatını beş hissəyə bölmək olar:

- Anadan olduğu vaxtdan besətə qədər;
- Besətdən hicrətə qədər;
- Hicrətdən Peyğəmbərin vəfatına qədər;
- Peyğəmbərin vəfatından xilafətə qədər;
- Xilafətdən şəhadətə qədər.

İndi bu dövrləri qısa şəkildə araşdıraq.

## ANADAN OLANDAN BESƏTƏ QƏDƏR

İmam Əli (ə) Ammül-fil ilində, besətdən 10 il əvvəl Kəbə evində dünyaya gəlmişdir. Beş yaşında ikən Peyğəmbər onu öz evinə aparıb təlim-tərbiyəsini öz öhdəsinə götürdü?[171]

Əli (ə) elə uşaqlıq çağlarından Peyğəmbərlə birlikdə idi, besətdən əvvəl də onunla birlikdə ibadət edərdi[172]

---

[170] «Tarixe Xülafə», səh.170

[171] «İbn Hişamın sirəsi», 1-ci cild, səh.246

[172] «Nəhcül-bəlağə», (Əbdüh) Qasiyə xütbəsi

## BESƏTDƏN HİCRƏTƏ QƏDƏR

O, Peyğəmbərə iman gətirən ilk şəxs idi.[173] 13 il Məkkədə, Peyğəmbərin yanında ilahi vəhyi yazırdı. Peyğəmbərin Mədinəyə hicrət etdiyi gecə onun yerində yatdı, beləliklə, ilahi hədəf və məqsədlər yolunda öz iman və sədaqətini sübut etdi.

## HİCRƏTDƏN PEYĞƏMBƏRİN (S) VƏFATINA QƏDƏR

O, 10 ildən artıq olmayan bu müddət ərzində Təbuk müharibəsindən başqa, bütün müharibələrdə iştirak etmişdi. Müxaliflərin ordusu əksər hallarda onun fədakarlığı sayəsində məğlub edilirdi.

## PEYĞƏMBƏRİN (S) VƏFATINDAN XİLAFƏTƏ QƏDƏR

25 il çəkən bu dövr mərdliklə sükut etmə dövrüdür. O, dövrün hökumətinə etiraz və xilafəti özünün danılmaz haqqı hesab etməklə yanaşı, onlarla həmkar olmaq, xalqa yol göstərmək və islam hökmlərini öyrətməkdə heç nəyi əsirgəmirdi. O, bu dövrdə islam dünyasına dəyərli xidmətlər etmişdi.

## XİLAFƏTDƏN ŞƏHADƏTƏ QƏDƏR

Osman öldürüldükdən sonra Həzrət Əli (ə) mühacir və ənsarın əksəriyyətinin israrı ilə xilafətə seçildi. O, əvvəlcə bu vəzifəni qəbul etmək istəmədi, lakin mühacir və ənsarın çoxlu israrından sonra rəhbərliyi əlinə aldı.

Onun başdan-başa Peyğəmbərin sünnəsinin, ədalətin dirçəldilməsi əsasında olan xilafəti bəzilərinə çox ağır oturdu. Nəticədə o Həzrətə müxalif cəbhə də yaratdılar. Bu müxalifət nəticə etibarilə «Nakisin», «Qasitin» və «Mariqin» döyüşlərinə gətirib çıxardı.

---

[173] «Tarixe Təbəri», 2-ci cild, səh.212; «Kamili ibn Əsir», 2-ci cild, səh.22

## NAKİSİNLİLƏRLƏ (ƏHD-PEYMAN SINDIRANLARLA) MÜHARİBƏ (CƏMƏL MÜHARİBƏSİ)

Bu müharibənin baş vermə səbəbi Təlhə və Zübeyrin Əliyə (ə) beyət etdikdən sonra Bəsrə və Kufəyə hakim olmaq istəkləri idi. Amma İmam (ə) onların istəkləri ilə razılaşmadı. Onlar gizli şəkildə Mədinədən çıxıb Məkkəyə gəldilər, orada əməvilərin sərmayəsindən istifadə edərək qoşun yığdılar (qoşuna Ayişə başçılıq edirdi) və Bəsrəni ələ keçirdilər. Əli (ə) onların qarşısını almaq üçün yola düşdü. Bəsrənin yaxınlığında döyüş başladı, nəticədə Əli (ə) onları məğlub etdi. Bu, tarixdə Cəməl müharibəsi adı ilə məşhurdur.

## QASİTİNLİLƏRLƏ MÜHARİBƏ

Müaviyə Əlinin (ə) xilafətindən çox-çox qabaq xilafətin müqəddiməsini hazırlamışdı. İmam (ə) xilafətə seçiləndə dərhal onun işdən kənarlaşdırılmasına dair hökm verdi, onun Şama hakim olması ilə əsla razılaşmadı. Bu ixtilafın nəticəsində İraq və Şam orduları Siffeyn adlı yerdə qarşılaşdılar. Əli (ə)-ın ordusunun qələbə çalmasına az qalırdı, amma Müaviyə hiyləgərliyə əl atıb Əli (ə)-ın tərəfdarları arasında təfriqə saldı. Nəhayət, İmamın (ə) qoşunundakı adamların çoxlu israrından sonra o Həzrət məcbur qalıb Əbu Musa Əşəri və Əmr Asın hakim olmasına razılıq verdi. O iki nəfər islam və müsəlmanların məsləhəti və mənafeyi barədə tədqiqat aparmalı, sonradan öz nəzərlərini bildirməli idilər. İş o yerə çatmışdı ki, əgər Əli (ə) onların hakimliyini qəbul etməsəydi, onu öldürə bilərdilər. Nəticədə müsəlmanlar şiddətli böhrana düçar olacaqdılar. Hakimlərin öz nəzərlərini elan edəcəkləri vaxt, Əmr As Əbu Musanı aldatdı, Müaviyənin hiyləgərlikləri ifşa olundu. Bu hadisədən sonra Əli (ə)-ın tərəfdarlarından bir qrupu o Həzrətin əleyhinə qiyam edib iğtişaş yaratdılar. Onlar sonradan özlərinin qəbul etdikləri «həkəmiyyət» məsələsinə görə o Həzrəti tənqid etdilər.

## MARİQİNLİLƏRLƏ MÜHARİBƏ

Mariqinlilər (dindən çıxanlar-xəvaric) Həzrət Əlini həkəmiyyət məsələsini qəbul etməyə məcbur edənlər idi. Lakin bir neçə gündən sonra peşman olaraq o Həzrəti bağladığı müqaviləni pozmağa vadar etmək istədilər. Amma Həzrət Əli (ə) heç vaxt əhd-peymanını sındırmazdı. Nəhayət, Əli (ə) ilə müharibəyə başladılar və məğlub oldular, lakin kin-küdurət ürəklərdə qaldı. Əli (ə) 5 il hökumət etdikdən sonra 40-cı ilin ramazan ayının 19-da mariqinlilərdən olan Əbdürrəhman ibn Mülcəm tərəfindən şəhadətə yetirildi.

# MÜNDƏRİCAT


ÖN SÖZ ........................................................................................................ 3

**BİRİNCİ FƏSİL** ............................................................................................ 5

PEYĞƏMBƏRLİK DÖVRÜNDƏ ƏRƏBİSTAN YARIMADASININ MƏDƏNİ, İQTİSADİ, SİYASİ VƏ DİNİ VƏZİYYƏTİ ........................................................................... 5

**İKİNCİ FƏSİL** ............................................................................................ 17

PEYĞƏMBƏRİN (S) ATA VƏ BABALARI ............................................................ 17

**ÜÇÜNCÜ FƏSİL** .......................................................................................... 25

HƏZRƏTİN DOĞUM TARİXİ VƏ GƏNCLİK İLLƏRİ ............................................. 25

**DÖRDÜNCÜ FƏSİL** ...................................................................................... 30

GƏNCLİK DÖVRÜNÜN HADİSƏLƏRİ .................................................................. 30

**BEŞİNCİ FƏSİL** .......................................................................................... 37

BESƏTDƏN GİZLİ DƏVƏTLƏRƏDƏK ................................................................ 37

**ALTINCI FƏSİL** ........................................................................................... 44

QOHUMLARIN İSLAMA DƏVƏT OLUNMASI VƏ QÜREYŞİN MÜNASİBƏTİ .......... 44

**YEDDİNCİ FƏSİL** ......................................................................................... 50

İSLAM PEYĞƏMBƏRİNƏ (S) MAL-DÖVLƏT TƏKLİF EDİLMƏSİ, HƏDƏLƏNMƏSİ VƏ HƏBƏŞİSTANA MÜHACİRƏT ................................................................................ 50

**SƏKKİZİNCİ FƏSİL** ...................................................................................... 59

QÜREYŞİN DİGƏR TƏDBİRLƏRİ ....................................................................... 59

**DOQQUZUNCU FƏSİL** .................................................................................. 69

ƏBUTALİBİN ÖLÜMÜNDƏN MERACA QƏDƏR ................................................... 69

**ONUNCU FƏSİL** .......................................................................................... 76

TAİF SƏFƏRİNDƏN HİCRƏTİN BAŞLANMASINADƏK ......................................... 76

**ON BİRİNCİ FƏSİL** ...................................................................................... 85

QÜREYŞ BAŞÇILARININ SON HİYLƏSİ ............................................................. 85

**ON İKİNCİ FƏSİL** ........................................................................................ 97

HİCRƏTİN İKİNCİ İLİNİN HADİSƏLƏRİ ............................................................ 97

**ON ÜÇÜNCÜ FƏSİL**.....120
HİCRƏTİN ÜÇÜNCÜ İLİNİN HADİSƏLƏRİ.....120
ÜHÜD DÖYÜŞÜ.....120
**ON DÖRDÜNCÜ FƏSİL**.....139
HİCRƏTİN DÖRDÜNCÜ İLİNİN HADİSƏLƏRİ.....139
ON BEŞİNCİ FƏSİL.....146
HİCRƏTİN BEŞİNCİ İLİNİN HADİSƏLƏRİ.....146
**ON ALTINCI FƏSİL**.....162
ALTINCI İLİN HADİSƏLƏRİ.....162
**ON YEDDİNCİ FƏSİL**.....176
YEDDİNCİ İLİN HADİSƏLƏRİ.....176
PEYĞƏMBƏRİN (S) DÜNYANIN MÜXTƏLİF YERLƏRİNƏ GÖNDƏRDİYİ ŞƏXSLƏR XEYBƏRİN, YAXUD TƏHLÜKƏ MƏRKƏZİNİN FƏTHİ. ÖMRƏTÜL-QƏZA.....176
**ON SƏKKİZİNCİ FƏSİL**.....190
HİCRƏTİN SƏKKİZİNCİ İLİNİN HADİSƏLƏRİ.....190
MÖTƏ DÖYÜŞÜ, MƏKKƏNİN FƏTH OLUNMASI,HÜNEYN VƏ TAİF DÖYÜŞLƏRİ 190
**ON DOQQUZUNCU FƏSİL**.....208
DOQQUZUNCU HİCRİ İLİNİN HADİSƏLƏRİ.....208
**İYİRMİNCİ FƏSİL**.....223
ONUNCU HİCRİ İLİNİN HADİSƏLƏRİ.....223
**İYİRMİ BİRİNCİ FƏSİL**.....238
11-40-CI İLLƏRİN HADİSƏLƏRİ, PEYĞƏMBƏRİN.....238
XƏSTƏLƏNMƏSİ VƏ VƏFATI.....238
**İYİRMİ İKİNCİ FƏSİL**.....242
XƏLİFƏLƏRİN TARİXİNƏ QISA BİR BAXIŞ.....242